# AZƏRBAYCAN TARİXİ 5




## METODİK VƏSAİT

OFELİYA MUSAYEVA, LEYLA HÜSEYNOVA,
HAFİZ CABBAROV

*Ümumtəhsil məktəblərinin* **5** *-ci sinfi üçün*

# AZƏRBAYCAN TARİXİ

*fənni üzrə dərsliyin* **METODİK VƏSAİTİ**

Bu nəşrlə bağlı irad və təkliflərinizi
tahsil_az@yahoo.com və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!

Təhsil

# Kitabın içindəkilər

Giriş ........................................................................4
İnteraktiv təlim haqqında ................................................10
"Azərbaycan tarixi" fənninin tədrisi: təlim strategiyaları,
istifadə olunan forma və üsullar........................................19
Standartların reallaşması və inteqrasiya cədvəli......................26
1. "Azərbaycan tarixi" fənni necə öyrənilir?..........................30

**AZƏRBAYCAN QƏDİM DÖVRDƏ**

2. Azərbaycanın ən qədim insan məskəni — Qarabağ..................32
3. Qayalar üzərində tarix ....................................................34
4. Əmək alətləri necə meydana gəldi? ....................................36
5. Azərbaycanın ən qədim dövləti ..........................................38
6. Hökmdar qadın — Tomiris.................................................40
7. "Azərbaycan" adı necə yarandı?..........................................42
8. Qədim Azərbaycan dövləti — Albaniya ................................44
9. Azərbaycanda dini inanclar...............................................46

**AZƏRBAYCAN ORTA ƏSRLƏRDƏ**

10. Cavanşir........................................................................48
11."Qırx il kölə kimi yaşamaqdansa..."..................................50
12. "Kitabi-Dədə Qorqud" — yurdumuzun tarix salnaməsi .........52
13. Azərbaycanın "Dəmir qapı"sı — Dərbənd..........................54
14. Şirvanşahlar dövləti .......................................................56
15. "Arranın anası" — Bərdə .................................................58
16. Təbriz və Ərdəbil ...........................................................60
17. Şəmsəddin Eldəniz necə Azərbaycan hökmdarı oldu? ............62
18. Azərbaycan mədəniyyətinin oyanışı ...................................64
19. Elm dünyasının şahı.........................................................66
20. "Rəşidiyyə" — məşhur Azərbaycan universiteti....................68
21. Həsən padşah .................................................................70
22. "...Gülüstan qalası, yoxsa Azərbaycan?"...............................72
23. Şairlər sultanı ...............................................................74

**AZƏRBAYCAN YENİ DÖVRDƏ**

24. Şərqin son fatehi ............................................................76
25. İlk müstəqil Azərbaycan xanlığı..........................................78
26. "Azərbaycanın qapısı" — Qarabağ xanlığı.............................80
27. İrəvan xanlığı ................................................................82

28. Gəncə niyə Yelizavetpol adlandı? ....................................84
29. Azərbaycanın parçalanması ............................................86
30. Tarixi yazanlar...........................................................88
31. Mirzə Fətəli Axundzadə..................................................90
32. Milli mətbuatımızın banisi .............................................92
33. Böyük Azərbaycan xeyriyyəçisi .......................................94
34. Cəlil Məmmədquluzadə — "Molla Nəsrəddin"......................96
35. Mirzə Ələkbər Sabir .......................................................98
36. Səttar xan...................................................................100
37. Sultan bəy Sultanov .....................................................102
38. Mart soyqırımı ............................................................104

## AZƏRBAYCAN MÜASİR DÖVRDƏ

39. "Bir kərə yüksələn bayraq..."..........................................106
40. Azərbaycan ordusunu yaradanlar....................................108
41. İnqilab, yoxsa işğal?.....................................................110
42. Qardaş köməyi............................................................112
43. 1937-ci il qurbanları.....................................................114
44. Müsəlman Şərqində ilk operanı kim yazdı?.......................116
45. İkinci Dünya müharibəsi və Azərbaycan ..........................118
46. Ustad Şəhriyar ............................................................120
47. Lütfi Zadə ..................................................................122
48. Dirçəliş .....................................................................124
49. Qanlı Yanvar...............................................................126
50. İstiqlalımızın bərpası....................................................128
51. Xocalı soyqırımı ..........................................................130
52. Qarabağ müharibəsi qəhrəmanları (I dərs).........................132
52. Qarabağ müharibəsi qəhrəmanları (II dərs)........................134
53. Müstəqil Azərbaycanın qurucusu (I dərs) ..........................136
53. Müstəqil Azərbaycanın qurucusu (II dərs)..........................138
54. Ulu Öndərin yolu ilə (I dərs)..........................................140
54. Ulu Öndərin yolu ilə (II dərs).........................................142
55. Aprel döyüşləri — böyük zəfərin başlanğıcı ......................144
Nümunəvi dərs planı ........................................................146
"Azərbaycan tarixi" fənni üzrə tapşırıqların hazırlanmasına dair tövsiyələr ....156
Diaqnostik qiymətləndirmə üçün test nümunələri ......................161
Kiçik Summativ Qiymətləndirmələr (KSQ) üçün qiymətləndirmə vasitələrinə dair nümunələr ......................................................164
Metodik materiallar, sənədlər, xəritələr...................................173
İstifadə olunmuş ədəbiyyat .................................................206

# Giriş

Ümumtəhsil məktəblərində tarixin tədrisinin böyük praktik əhəmiyyəti vardır, çünki həm milli maraqlar və dövlətçilik baxımından, həm də milli təfəkkürün formalaşması və vətəndaş tərbiyəsində onun rolu əvəzsizdir. Azərbaycan tarixinin öyrədilməsi öz soykökünü, adət-ənənələrini, milli-mənəvi dəyərlərini, şərəfli tarixi keçmişini əhatə edən biliklərə yiyələnən şəxsiyyət yetişdirməyə, ailəsini, xalqını və millətini sevən, onun varlığı ilə qürur duyan vətəndaş tərbiyə etməyə xidmət edir. Elə bir vətəndaş ki, onun mənəviyyatı Ümummilli Lider, Azərbaycan xalqının qürur mənbəyi, tariximizdə çox mühüm rol oynamış Heydər Əliyevin ifadəsi ilə desək: "Mən fəxr edirəm ki, mən azərbaycanlıyam" düşüncəsi ilə yoğurulmuş olsun. Belə vətəndaşların yetişdirilməsi üçün indiyə qədər mövcud olan təlim prosesində olduğu kimi, şagirdlərin mənimsəmiş olduqları biliklər prioritet kimi qəbul edilə bilməz, onların yiyələnməli olduqları bacarıq və vərdişlərin formalaşmasına da diqqət yetirilməlidir.

Azərbaycan tarixinin tədrisi şagirdlərin mənəvi tərbiyəsində, vətəndaşlıq mövqeyinin müəyyənləşməsində olduqca mühüm rola malikdir. Bu fənnin tədrisi şagirdlərdə cəmiyyətdə öz mövqeyini qorumaq, ünsiyyət qurmaq, əməkdaşlıq etmək, mühakimə yürütmək, cəmiyyətdə baş verən hadisələrə öz münasibətini əsaslandırmaq, hüquqlarını bilmək, onları tətbiq etmək, başqalarının hüquqlarına hörmətlə yanaşmaq bacarığı aşılamağa imkan yaradır. Bunun əsasında şagirdlər gündəlik həyatda vacib olan zəruri bacarıqlara yiyələnir.

"Azərbaycan tarixi" fənn kurikulumu bütün bu keyfiyyətləri şagirdlərə aşılamağa imkan verən sənəddir. Bu fənnin tədrisi Azərbaycanın sosial, iqtisadi, mədəni və siyasi inkişaf tarixini ardıcıllıqla izləməklə, bu inkişafın xüsusiyyətlərini müəyyənləşdirməyə, müqayisə etməyə, hadisə və proseslərdən nəticə çıxarmağa, beləliklə, şagirdlərin cəmiyyətə inteqrasiya olmaq vərdişlərinə yiyələnməsinə kömək edir.

"Azərbaycan tarixi" fənn kurikulumunun xarakterik cəhətləri hansılardır? İlk növbədə, onu qeyd etmək lazımdır ki, bu fənn üzrə məzmun standartlarında tarixi biliklər, əsas fakt və hadisələr xronoloji qaydada düzülmüşdür. Bu standartlar tarixi məkan, zaman, dövlət, şəxsiyyət və mədəniyyət kimi məzmun xətlərinə əsasən qruplaşdırılmışdır. Məzmun standartlarında şagirdlərin öyrənəcəkləri əhatəli tarixi biliklər və bacarıqlar ifadə olunmuşdur.

Məzmun standartlarında şagirdlərə Azərbaycan tarixinə aid deklorativ biliklərlə yanaşı, prosedural və kontekstual biliklərin verilməsi nəzərdə tutulmuşdur. Bu məsələlərin şərhinə metodik vəsaitdə geniş yer verilmişdir, çünki bütün bunlar şagirdləri praktik fəaliyyətə, tədqiqatçılığa yönəldir, onlarda xəritə üzrə iş, tədqiqatçılıq, sxemlər və cədvəllər hazırlamaq bacarıqları formalaşdırmağa imkan verir.

“Azərbaycan tarixi” fənn kurikulumunda nəzərdə tutulmuş məzmun standartları, təlim strategiyaları və qiymətləndirmə mexanizmləri şagirdlərin meyil, maraq, əqli və fiziki imkanları nəzərə alınmaqla onların bir şəxsiyyət kimi inkişaf etdirilmələrinə yönəldilmişdir.

“Azərbaycan tarixi” fənn kurikulumunun əsas cəhətlərindən biri nəticəyönümlülükdür. Bu, şagird fəaliyyətinin ardıcıl izlənməsini, onun inkişafını və nailiyyətlərindəki irəliləyişləri müntəzəm qiymətləndirməyi təmin edir.

“Azərbaycan tarixi” fənni üzrə məzmun xətləri və onların əsaslandırılması aşağıdakıları nəzərdə tutur:

1. Hər bir sinif üzrə ümumi təlim nəticələri (əsas məzmun standartları);
2. Ümumi təlim nəticələri əsasında zəruri minimum və daha yüksək səviyyəli alt-standartların müəyyənləşdirilməsi və əsaslandırılması;
3. Fəndaxili və fənlərarası inteqrasiya;
4. Ümumi təlim nəticələrinə əsasən şagird nailiyyətlərinə verilən minimum tələblərin təsviri.

Təlim strategiyalarına isə aşağıdakı məsələlər daxildir:

1. Fənn üzrə təlimin təşkilinə verilən əsas tələblərin təsviri;
2. Forma və üsulların təkmilləşdirilməsi barədə tövsiyələr;
3. Müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına dair nümunələr.

Şagird nailiyyətlərinin səviyyəsi qiymətləndirmə nümunələri əsasında ölçülür.

Qiymətləndirmə nümunələri dedikdə kurikulum üzrə qiymətləndirmə vasitələrinin və təhsil pillələri üzrə yekun qiymətləndirmə vasitələrinin hazırlanması nəzərdə tutulur.

### *Məzmun xətləri üzrə əsas və altstandartlar*
### *V sinif*

“Azərbaycan tarixi” fənn kurikulumuna əsasən V sinifdə Vətən tarixinin qədim zamanlardan bu günümüzədək ən mühüm tarixi hadisə, proses və təzahürləri barədə ilkin təsəvvür yaradılması istiqamətində təlim fəaliyyətinin qurulması nəzərdə tutulur.

1. Tarixi zaman

Şagird:

1.1. Xronologiya ilə bağlı əsas anlayışları fərqləndirir.

1.1.1. Tarixi zaman anlayışları arasındakı əlaqələri müəyyənləşdirir.

1.1.2. Sadə xronoloji məsələləri həll edir.

1.2. Tarixi mənbələri tanıdığını nümayiş etdirir.

1.2.1. Maddi və yazılı mənbələri fərqləndirir.

1.2.2. İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparır.

1.3. İnsanların həyat tərzindəki dəyişiklikləri sivilizasiyalarla əlaqələndirir.

1.3.1. İnsanların həyat tərzindəki dəyişiklikləri öz ailəsi nümunəsində təsvir edir.

2. Tarixi məkan

Şagird:

2.1. Azərbaycan ərazisinin təbii-coğrafi şəraitini tarixi hadisə, proses və təzahürlərlə əlaqələndirir.

2.1.1. İnsan və cəmiyyətin həyatı üçün əlverişli təbii amilləri təsvir edir.

2.1.2. Xəritələrdə Azərbaycan ərazisini və mühüm tarixi abidələri müəyyənləşdirir.

3. Dövlət

Şagird:

3.1. Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.

3.1.1. Azərbaycan dövlətləri haqqında sadə biliklər nümayiş etdirir.

3.1.2. Xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir.

3.1.3. Kiçikhəcmli tarixi hekayə qurur.

4. Şəxsiyyət

Şagird:

4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.

4.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri (İranzu, Cavanşir, Şəmsəddin Eldəniz, Həsən padşah, Sara Xatun, Şah I İsmayıl, Cavad xan, Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.) müəyyən edir.

4.1.2. Mənbələrə əsasən şəxsiyyətlər haqqında təqdimatlar hazırlayır.

5. Mədəniyyət

Şagird:

5.1. Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.

5.1.1. Mədəniyyət abidələrinin əhəmiyyətini izah edir.

5.1.2. Milli-mənəvi dəyərləri fərqləndirir.

5.1.3. Azərbaycan mədəniyyəti ilə bağlı sadə təqdimatlar hazırlayır.

### *Dərslik komplektinin xüsusiyyətləri*

V sinif üçün "Azərbaycan tarixi" dərslik komplekti Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi "Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan tarixi kurikulumu" (V–XI siniflər) əsasında hazırlanmışdır. Dərslik komplekti 2 kitabdan – dərslik və müəllim üçün metodik vəsaitdən ibarətdir.

Dərslikdə hadisələrin xronoloji ardıcıllığı nəzərə alınmış, hekayələr zamana görə bir-birinə uyğun qruplaşdırılmışdır. Mövzuların mətninin və illüstrasiyalarının tərtibində şagirdlərin yaş xüsusiyyəti nəzərə alınmışdır. Dərsliyin xüsusiyyətlərin-

dən danışarkən bəzi məsələləri də qeyd etməyi vacib sayırıq. Dərslikdə verilmiş mövzular məzmun xətləri üzrə əsas standartların bütün alt-standartlarını əhatə edir. Dərslik mətni içərisindəki fonda yazılmış suallar şagirdlərin yalnız onları cavablandırması məqsədilə deyil, həmçinin onların diqqətini həmin abzasda nədən bəhs edildiyinə yönəltmək məqsədilə verilmişdir. Sual formasında yazılsa da, əslində, bunlar istiqamət xarakterli tezislərdir. Yəni şagirdlər tədqiqata başlamamışdan əvvəl dərslik mətnini hissə-hissə oxuyarkən, həmin suallar vasitəsilə oxunmuş məzmuna bir daha diqqət yetirməyə və onu möhkəmləndirməyə imkan yaradır. Beləliklə, mənimsənilən məzmun tədqiqat fəaliyyəti zamanı asanlıqla tətbiq edilir. Başqa bir qeydimiz mövzuların sonunda verilən suallarla bağlıdır. Sualların bəzi mövzularda çox olması narahatlıq doğurmamalıdır. Həmin suallar çətinlik dərəcəsinə görə ayrı-ayrı şagirdlərə tapşırıq kimi verilə bilər. Bu, əsasən, iş dəftərinin funksiyalarının da qismən dərsliyin üzərinə qoyulması ilə bağlıdır. Müəllimin bu tapşırıqlardan səmərəli faydalanması məzmunun yaxşı mənimsənilməsinə kömək edir. Tapşırıq və suallar dərsin müəyyən mərhələsində bütün siniflə birgə təhlil edilə, cavablandırıla bilər.

Dərslikdə Azərbaycan tarixinin ayrı-ayrı dövrlərində baş verən ən mühüm hadisələr qədim dövrdən müasir zamanadək ardıcıllıq əsasında verilmişdir. Müəllim üçün metodik vəsaitdə fənn kurikulumunun tələbləri və onun reallaşma mexanizmlərinin şərhi verilmiş və əsaslandırılmışdır.

Müəllim üçün vəsaitdə təlim materiallarının tədrisi ilə bağlı ümumi metodik göstərişlər də nəzərdə tutulmuşdur. Müəllim təlim məqsədlərini müəyyən edərkən onun standartlara uyğunluğuna diqqət yetirməlidir. Ayrı-ayrı mövzuların tədrisində istifadə olunan metod və üsullar məzmun standartlarının reallaşmasına xidmət etməlidir və edir. Müasir zamanın tələblərinə görə elə tədris üsullarından istifadə edilməlidir ki, onun vasitəsilə daim dəyişən həyat və fəaliyyət şəraitinə uyğunlaşmağı bacaran, cəmiyyətə inteqrasiya oluna bilən şəxsiyyət yetişdirmək mümkün olsun. Ona görə də hazırda təlim-tərbiyə prosesi şagirdin mənafeyinə yönəldilmişdir. Yəni bu prosesin bütün mərhələlərində şagird maraqlarının önə çəkilməsi onun istedad və bacarıqlarının üzə çıxarılmasına və inkişafına xidmət edir.

Bu baxımdan innovativ metodlar tətbiq edilərkən şagirdlərin yaş xüsusiyyətləri də nəzərə alınmışdır. Eyni zamanda verilmiş dərs icmalı nümunələrində əlaqəlilik və mərhələlilik gözlənilmişdir. Lakin hər bir müəllim ayrı-ayrı mövzuları tədris edərkən yeni təlimlə keçirilən dərsin strukturunu gözləməklə, ona daha yaradıcı yanaşa, innovativ metodları və texnologiyaları tətbiq edə bilər.

Metodik vəsait müəllim üçün istiqamətverici rol oynadığı üçün burada qabaqlayıcı materiallar, mövzuların tədrisi texnologiyası, əlavə resurslar verilmişdir. Qabaqlayıcı materiallara fənn üzrə məzmun strategiyalarının reallaşma cədvəli, illik və gündəlik planlaşdırma nümunələri, inteqrasiyaya aid məsələlər aiddir.

Məzmun standartlarının mövzularda reallaşdırılmasını daha qabarıq çatdırmaq məqsədilə metodik vəsaitdə inteqrasiya cədvəli verilmişdir. Ona görə də ayrı-ayrı dərs nümunələrində inteqrasiyanı nəzərdə tutan standart yazılmamışdır. Lakin müəllim dərsi planlaşdırarkən mütləq bu məsələni diqqətdə saxlamalı, məqsədəuyğun olaraq inteqrasiya imkanlarından istifadə etməlidir. Həmin cədvələ əsasən müəllim hər bir məzmun standartının harada, hansı mövzuda reallaşdığını görür, pedaqoji fəaliyyətini həmin səviyyələrə uyğun nailiyyətlərin əldə edilməsinə yönəldir. İnteqrasiya cədvəli müəllimə şagirdlərdə məzmun standartlarının tələblərinə uyğun bilik, bacarıq və dəyərlər formalaşdırmaq üçün müxtəlif tapşırıq növlərindən istifadə etmək imkanı verir. Çünki bu cədvəl fəndaxili və fənlərarası əlaqə imkanlarını ifadə edir. Orada hər bir mövzu, dərs, səhifə göstərilir, uyğun fənn, ona aid standartlar, fənlərarası inteqrasiya imkanları verilir.

Müəllimlər üçün metodik vəsaitin əsas hissələrindən biri də mövzuların tədrisi texnologiyasıdır. Bu hissədə hər bir standartın reallaşmasını əks etdirən bir mövzunun öyrədilməsi texnologiyası verilmişdir. “Azərbaycan tarixi” fənninə aid dərs nümunələrinin icmalı yalnız model xarakteri daşıyır. Fəal dərsin tədrisi zamanı müəllim öz yaradıcılıq imkanlarından və təcrübəsindən istifadə edərək uyğun bildiyi təlim üsullarını və metodlarını tətbiq edə bilər. Fəal (interaktiv) təlim üsullarının və metodlarının tətbiqinin səmərəliliyini təmin etmək qaydaları və şərtləri vəsaitin müvafiq hissəsində ayrıca şərh edilmişdir.

Metodik vəsaitdə istifadə olunan təlim texnologiyalarının idrak taksonomiyasının bütün mərhələlərinə (bilmə, anlama, tətbiq etmə, analiz, sintez, qiymətləndirmə) uyğunluğu gözlənilmişdir. Verilmiş dərs nümunələri qeyri-standart məzmunu və strukturu ilə fərqlənir. Mövzuların tədrisi texnologiyası dedikdə dərsin mərhələləri, istifadə olunacaq üsul və vasitələr, dərsin məqsəd və məzmununun mövzuya uyğun olaraq müəyyən edilməsi başa düşülür. Dərs problem xarakter daşıyır, motivasiya və problemin qoyuluşu, problemin həlli, qiymətləndirmə mərhələləri yerinə yetirilir. Lakin bütün bunlar zəruri şərt olsa da, fəaliyyət prosesində müəllim dərsə yaradıcı və müxtəlif şəkildə yanaşa və daha yüksək təlim nəticəsinə nail ola bilər.

Görüləcək işin istiqamətini təsəvvür etmək üçün müəllim, ilk növbədə, dərslikdə təqdim olunan təlim materiallarına, onu tamamlayan tapşırıqlara diqqət yetirməlidir. Bu, təlim prosesinin məzmunudur. Təlim materialları aydın təsəvvür edildikdən sonra onun üzərində praktik iş qurulur, yəni istifadə olunacaq təlim texnologiyası müəyyənləşdirilir. Bu isə **fəaliyyətdir**, hazırlanacaq iş sistemidir.

Metodik vəsaitdə təlim məqsədinə nail olmaq üçün verilmiş məzmuna uyğun texnologiya seçilmişdir. Müəllim digər uyğun texnologiyadan da istifadə edə bilər. Uyğun texnologiya dedikdə yalnız dərsliyin müvafiq mövzusuna uyğunluq deyil, həmçinin təlim şəraiti və imkanları başa düşülməlidir. Yaxşı olar ki, bu prosesdə o, uyğun texnologiyalardan ən səmərəlisini seçsin. Bunu aydın təsəvvür etmək üçün

vəsaitdə seçilmiş texnologiyanın şərhi dərsliyin uyğun mövzusunu əhatə edən səhifəsi ilə yanaşı təqdim olunmuşdur.

Müəllim təlim məqsədlərini reallaşdırmaq üçün daha çox dərsin və onun mərhələlərinin düzgün planlaşdırılmasına, qrup işinin düzgün təşkilinə, tədris edilən mövzuya uyğun forma və metodların seçilməsinə və onlardan düzgün istifadə olunmasına diqqət yetirməlidir. Bütün bu məsələlər metodik vəsaitin uyğun bölmələrində əhatəli şərh olunmuşdur. Vəsaitdə kiçik və böyük qruplarla işin xüsusiyyətləri geniş izah olunmuşdur. Mövzudan asılı olaraq müəllim kiçik və böyük qruplarda iş formasından istifadə edə bilər. Şagirdlərin sayının daha çox olduğu siniflərdə qruplara bölünərkən hər bir qrupun 5 nəfərdən çox olmamasına fikir vermək lazımdır. Qalan şagirdlər müxtəlif rolları yerinə yetirə bilər. Məsələn, həmin şagirdlərdən ekspert qrupu təşkil etmək mümkündür. Onların üzərinə dərsi fəal şəkildə dinləməklə şagird yoldaşlarının, qrupların cavablarını, təqdimatlarını qiymətləndirmək vəzifəsi düşür. Beləliklə, onlar təlim prosesindən nəinki kənarda qalmır, əksinə, onun daha fəal iştirakçısına çevrilirlər.

Dərsin ən mühüm mərhələlərindən biri də qiymətləndirmədir. Metodik vəsaitdə qiymətləndirmə zamanı istifadə olunan müxtəlif vasitələrin, ayrı-ayrı şagirdləri və qrup işinin qiymətləndirilməsini təmin edən meyarlar cədvəlinin, tapşırıqların nümunələri verilmişdir. Müəllim dərs prosesində şəraitə və imkana uyğun olaraq, standartlara uyğun olaraq meyarları dəyişə bilər. Vəsaitdə qiymətləndirmə məsələlərinin şərhi müvafiq mövzuda daha əhatəli şərh edilmişdir.

Metodik vəsaitə müəllim və şagirdlər üçün əlavə oxu mənbələrinin siyahısı da əlavə olunmuşdur. Müəllimlər üçün metodik vəsaitlərin, məqsədəmüvafiq məqalələrin, uyğun multimedia materiallarının adı və ünvanı göstərilmişdir.

Metodik vəsaitdə əks olunmuş materiallar müasir təlim texnologiyalarına uyğun hazırlanmışdır. Dərsliyə daxil edilmiş illüstrasiyaların, şəkillərin, sənədli materialların, sxemlərin, cədvəllərin, tapşırıqların mənbə və müəllifləri göstərilmişdir. Əlavə materiallar didaktik əhəmiyyətinə görə seçilmişdir. Bu materiallar müəllimləri tədqiqatçılığa istiqamətləndirir.

"Azərbaycan tarixi" fənni üzrə metodik vəsait yenidən işlənmiş, daha da təkmilləşdirilmiş və müəllimlərin istifadəsi üçün daha praktik və uyğun hazırlanmışdır.

Tarixən Azərbaycan zəngin keçmişə, eləcə də təhsil ənənələrinə malik olmuşdur. Bu gün də respublikamızda ardıcıl və sistemli təhsil islahatları davam etdirilir. Böyük əhəmiyyətə malik şəxsiyyətyönümlü təhsil islahatları milli və bəşəri dəyərlərə söykəndiyi üçün Azərbaycan təhsilinin inkişafına, onun dünya təhsilinin qabaqcıl təcrübəsinə inteqrasiya olunmasına kömək edəcəkdir.

# İnteraktiv təlim haqqında

Bu gün təhsilə məqsəd kimi yox, inkişafın davamlılığını təmin edəcək biliklərin, dəyərlərin, davranışın və həyat tərzinin dəyişdirilməsinin əsas mexanizmi kimi baxılır. Həyata keçirilən Milli Kurikulum islahatları da məhz bu məqsədin reallaşmasına xidmət edir.

2012-ci ildən V siniflərdə fənn kurikulumlarının həyata keçirilməsi başlanmışdır. V sinifdə dərs deyəcək müəllimlər üçün fənn kurikulumlarında nəzərdə tutulan məzmun standartlarının həyata keçirilməsini təmin edən fəal təlim üsulları haqqında metodik vəsaitdə bir qədər ətraflı məlumat verilməsi nəzərdə tutulur.

Fəal təlim üsullarının əhəmiyyəti nədir? Məlumdur ki, təlim prosesinin səmərəliliyini təmin edən ən güclü amillərdən biri də təlim üsullarıdır. Şagirdlərin təhsilə olan marağının artması, təhsilin keyfiyyət səviyyəsinin yüksəlməsi baxımından fəal (interaktiv) təlim metodunun rolu danılmazdır.

Fəal (interaktiv) təlimin əsasında şagirdlərə müstəqil nəticələr çıxarmaq bacarığının aşılanması ideyası durur. Bu təlim prosesində şagird marağı, tələbatı, arzu və istəyi, bacarıq və qabiliyyətlərinin təmin olunması ön plana keçir, şagird həyati bacarıqlara sərbəst yiyələnməyin yollarını öyrənir. Beləliklə, təlim prosesində şagird mühüm bacarıq və vərdişlərə yiyələnməklə həm də həyatda qarşılaşdığı problemləri özü həll etmək keyfiyyətinə malik olur. Bu keyfiyyətin əldə olunmasında müəllim sadəcə yardımçı olmalıdır.

Fəal, yaradıcı, əsl şəxsiyyət və vətəndaş yetişdirilməsində "Azərbaycan tarixi" fənninin rolu əvəzsizdir. Bu baxımdan tarixin tədrisi zamanı istifadə olunan fəal təlim metodları, onların düzgün seçilməsi və istifadə olunması müasir cəmiyyət üçün tələb olunan bacarıq və vərdişlərə malik, layiqli vətəndaş yetişdirilməsini təmin edir. Yeni müəllim-şagird münasibətləri, qarşılıqlı etibar, özünəinam formalaşdırılması seçilmiş təlim üsullarından – xüsusilə də fəal təlim metodikasının düzgün tətbiqindən çox asılıdır. Fəal (interaktiv) təlim müəllim üçün şagirdlərin qəlbinə yol tapmağa ən yaxın məsafədir.

Yüksək keyfiyyətlərə malik şəxsiyyət yetişdirmək üçün müəllim özü də müasir tələblərə cavab verməlidir. O, təlim prosesində hər şeyə özü rəhbərlik etmədən, sadəcə bələdçilik və istiqamət vermək yolu ilə qərarların qəbulunda şagirdləri iştirakçıya çevirə bilər. Belə qazanılan bilik şagirdin uzun müddət yaddaşından çıxmayacaq təcrübədir. Çünki şagird cəlb olunduğu fəaliyyət prosesində daha yaxşı qavrayır və uzun müddət unutmur.

Fəal (interaktiv) təlim metodu müəllimə real şəraitdən asılı olaraq şagirdləri fəallaşdırmağın məqsədəuyğun metodik üsullarını və dərs modellərini özü seçməyə imkan yaradır. Lakin bu metodik üsullar və dərs formaları təlim məqsədlərinin həyata keçirilməsini təmin etməlidir.

Fəal təlim sisteminin tətbiq edilməsi müəllimlərə şagirdə yönəlmiş, müasir tələblərə cavab verən təlimin məzmununu yaratmağa, diferensial və obyektiv, çevik qiymətləndirmə sistemi tətbiq etməyə, əlverişli sosial-psixoloji mühit yaratmağa köməkdir. Bir sözlə, interaktiv metodların təhsildə tətbiqi şagirdlərin real şəraitə asanlıqla uyğunlaşmaq bacarığının, yaradıcı təfəkkürünün yüksəlməsini təmin edir.

### *Fəal (interaktiv) təlim nədir?*

Fəal təlim şagirdlərin sərbəst işləmək bacarığının və vərdişlərinin əsas qiymətləndirmə meyarı kimi qəbul edildiyi müasir təlim metodudur. “İnteraktiv – qarşılıqlı fəaliyyətə əsaslanan deməkdir. Bu proses, həmçinin şagirdlərin tədqiqat xarakteri daşıyan yaradıcı, idrak fəaliyyətidir.

“Azərbaycan tarixi” fənninin tədrisi prosesində şagirdlər dərslik materialı – müvafiq mövzu, mənbələr, şəkillər, illüstrasiyalar, xəritələr, sənədlərlə, həm də onların yaşadığı cəmiyyətdə mövcud olan reallıqları və təzahürləri anlamağa kömək edən sərbəst iş prosesinə cəlb olunurlar, müxtəlif rollu oyunlar keçirir, problemli və münaqişəli vəziyyətləri müzakirə edir, layihələr tərtib edir, qərarlar hazırlayır, müzakirələr aparırlar.

İnteraktiv təlim metodları – müəllimin iştirakı ilə şagirdlərin müxtəlif informasiya mənbələri və ya bir-biri ilə qarşılıqlı fəaliyyət prosesində yeni biliklər əldə etməyə imkan verən təlim üsullarının və dərs formalarının məcmusudur. Bu üsul idrak fəaliyyətinin təşkili və idarə olunması üsulu kimi müəllim tərəfindən problemsituasiyanın yaradılması, onun həlli zamanı şagirdlərin fəal tədqiqatçı mövqeyinin həvəsləndirilməsi, şagird üçün maraqlı və yeni biliklərin müstəqil kəşf edilməsi və mənimsənilməsi ilə xarakterizə edilir.

| Fəal təlimin prinsipləri | Məzmunu |
|---|---|
| Şagirdə yönəlmiş təlim | Dərsdə şagird əsas hədəf kimi qəbul edilir, onun idrak maraqları və tələbatları, imkan və qabiliyyətləri önə çəkilir. |
| İnkişafetdirici təlim | Təlim inkişafdan irəlidə olub uşağın bilik və bacarıqlara yiyələnməsinin potensial imkanlarına yönəlməlidir ki, bu da müstəqil iş prosesi zamanı ya da yaşlıların köməyi ilə üzə çıxarılır. |
| Qabaqlayıcı təlim | Cəmiyyətin inkişaf meyillərini əks etdirməli və yaxın gələcəkdə fəaliyyət göstərəcək yeni nəsil hazırlamalıdır. |
| Əməkdaşlıq | Təlim prosesi zamanı “müəllim-şagird-valideyn” bərabərhüquqlu tərəf-müqabil kimi çıxış edirlər. |
| Qrup təlimi | Hər bir şagirdi kiçik qrup işinə cəlb etmək, qrup halında qarşılıqlı fəaliyyət və əməkdaşlıq etmək. |

Fəal təlim sadəcə interaktiv üsul deyil, interaktiv üsullardan ibarət bir sistemdir. Bu sistemdə yeni tədris planları və proqramlarının hazırlanması və tətbiqi, təlim-tərbiyə prosesinin təşkili, öyrədici mühitin yaradılması, şagirdlərin nailiyyətlərinin və təlim prosesinin qiymətləndirilməsi, şagirdlərin şəxsiyyət kimi formalaşmasına və inkişafına dair proqramların həyata keçirilməsi kimi vacib komponentlərə yenidən baxılması məsələləri də daxildir.

### *Fəal təlimin həyata keçirilməsinin əsas cəhətləri*

Fəal təlimin həyata keçirilməsinin bir neçə əsas cəhəti vardır.

#### *1. Problemli vəziyyətin yaradılması*

Bu mərhələdə müəllim tədris etdiyi mövzudakı ziddiyyətli məsələləri qabartmaqla problemli vəziyyət yaradır və şagirdləri düşünməyə, idrak fəallığına təhrik edir. Buna nail olmaq üçün problemin qoyuluşu elə olmalıdır ki, onun həlli tədqiqat üçün mümkün olsun, şagirdin bacarıq və qabiliyyətini reallaşdırmağa imkan versin. Deməli, idrak fəallığına nail olmaq üçün şagirdin qarşısına problem qoymaq və onun fikrini problemin həll edilməsinə yönəltmək zəruridir. Problemin qoyulması ona görə vacibdir ki, məhz onun sayəsində ziddiyyəti həll etmək tələbatı yaranır, şagirdlərin təfəkkürünü oyadır, onu problemi həll etməyə vadar edir və nəticədə idrak fəallığı artır.

Problem yaratmaq üçün ziddiyyət olmalıdır. Ziddiyyətin həll edilməsi üçün məlumat qıtlığının olması da vacibdir. Çünki bunun sayəsində şagirdlər sərbəst iş prosesinə cəlb olunur, əlavə resurslardan istifadə etməklə tədqiqat apararaq problemin həllində yeni bilik və bacarıqlara yiyələnirlər. Problem cəlbedici, maraqlı və düşündürücü, tətbiq edilməsi mümkün olmalıdır. Problem elə olmalıdır ki, şagirdlərdə müxtəlif fərziyyələr, fikirlər yaranmasına imkan versin, onların bacarıq və vərdişlərinə, qabiliyyətlərinə, yaş səviyyələrinə uyğun olsun. Problem şagirdlərin səviyyəsindən yuxarı – çox mürəkkəb və aşağı – çox asan və ya bəsit olmamalıdır.

#### *2. Dialoq və əməkdaşlıq şəraiti*

Müxtəlif fərziyyələrin, fikirlərin, nöqteyi-nəzərlərin müqayisəli təhlili dialoq və əməkdaşlıq şəraitində aparılarsa, problemin daha səmərəli həllinə nail olmaq mümkündür. Məlumdur ki, təlimin bütün iştirakçılarının bilik səviyyələri, bacarıqları, qabiliyyətləri və imkanları eyni deyil. Məhz dialoq zamanı hər bir şagirdin bilik və təcrübəsi nəzərə alınmaqla problemin daha səmərəli həlli yollarını müəyyənləşdirmək və tapmaq olar. Dialoq ona görə vacibdir ki, o təlim imkanlarını ge-

nişləndirir və şagirdlərdə yeni bacarıqlar formalaşdırmağa kömək edir. Şagird öz qabiliyyətlərini nümayiş etdirmək imkanı əldə edir, onda öz fikirlərini bölüşmək, fəal dinləmək, müxtəlif fikir və baxışlara münasibət bildirmək, əməkdaşlıq etmək, qarşılıqlı hörmət etmək hissi formalaşır.

Dialoq və əməkdaşlığın müxtəlif həlli yolları vardır. Yönəldici suallar verməklə şagirdlərin biliklərini canlandırmaq və problemin həllinə istiqamət vermək mümkündür. Dərslikdəki mətndən əlavə lazımi məlumat mənbələrinin – fənnin xüsusiyyətinə uyğun olaraq, xəritələrin, illüstrasiya və şəkillərin, sənədlərin, cədvəllərin, sxemlərin, zaman oxunun (əgər dərslikdə yoxdursa, müəllimin köməyi ilə şagirdlər özü zaman oxu tərtib edə bilər) təqdim edilməsi, tədqiqat işinin düzgün təşkil edilməsi, vaxt bölgüsünün düzgün planlaşdırılması, problemin həll edilməsinə həvəsləndirmə, yaradıcı mühitin yaradılması problemin həllini stimullaşdırır.

### *3. Şagird-tədqiqatçı, müəllim-bələdçi (fasilitator)*

Bir çox hallarda təlim prosesi zamanı şagirdlərin hamısının eyni səviyyədə fəallığına və biliyi yaxşı mənimsəmələrinə nail olmaq mümkün olmur. Bu, müəllimin müasir təlim metodlarına bələd olmaması, yaxud zəif bələd olması, şagirdin qarşısına qoyulan problemi özü həll etməyə çalışması, şagirdlərin təfəkkürünü canlandıra bilməməsi, idrak fəallığına nail olmaması, yaxud onu bütün dərs boyu saxlaya bilməməsindən irəli gəlir, şagirdin təlim prosesinin subyektinə çevrilməsinə və təlim nəticəsinə nail olmağa mane olur. Şagirdin təlim prosesinin subyektinə çevrilməsinin təmin edilməsi müəllim və şagirdlərin mövqeyindən və qarşılıqlı əlaqəsindən çox asılıdır. Yəni təlim prosesində şagirdlərin maraqları, bilik səviyyələri, həvəsi, idrak proseslərinin – hafizənin, diqqətin, təfəkkürün xüsusiyyətləri ilə əlaqədardır. Bu prosesdə müəllimin təcrübəsi, biliyi, metodik ustalığı, tədris etdiyi fənnə və şagirdlərə münasibəti də mühüm rol oynayır.

Müəllim səmərəli təlim nəticəsinə nail olmaq üçün bütün dərs boyu bələdçi (fasilitator) mövqeyi tutmalı, şagirdlərin idrak fəallığını sönməyə qoymamalıdır. Şagird bu prosesdə biliyi özü kəşf etməlidir. Bu məqsədə nail olmaq üçün müəllim bütün dərs boyu biliklərin əldə edilməsində bələdçi (fasilitator) mövqeyini saxlamalı, şagirdə tədqiqatçı bilikləri kəşf edən subyekt kimi baxmalıdır.

### *4. Psixoloji dəstək – hörmət və etibar*

Yuxarıda deyildiyi kimi, təlim prosesində bütün şagirdlər nə bilik və bacarıqlarına, qabiliyyətlərinə, nə də psixoloji göstəricilərinə görə bərabər deyillər. Zəif şagirdlər, adətən, özünə daha inamsız olur, çox vaxt digər şagirdlərlə bərabər yaradıcı mühitə qoşula bilmir. Lakin təlim prosesində bu çatışmazlığı aradan qaldırmaq mümkündür. Bunu təmin etmək üçün ilk növbədə, təlim prosesini qarşılıqlı hörmət və

etibar əsasında qurmaq lazımdır. Belə mühitdə şagirdlərin özünə inamsızlığı aradan qalxır, ən zəif şagird belə yaradıcı prosesə qoşula bilir. Belə şagirdlərin ən sadə biliyini, adi bacarığını, vərdiş və qabiliyyətlərini rəğbətləndirməklə, ondan uğursuzluq qorxusunu, inamsızlığı, yanlış fikir söylədiyinə görə tənqid və tənbeh edilmək, aşağı qiymət almaqla şagird yoldaşlarının yanında utandırılmaq təhlükəsini uzaqlaşdırmaq mümkündür. Məhz bu cür təlim şəraitində şagirdlərin idrak fəallığı bütün dərs boyu saxlanılır.

Bu proses zamanı müəllim şagirdlərin cavablarını yaxşı və ya pis qiymətləndirməkdən imtina etməklə onu yaradıcı prosesə qoşur, problemin şagirdlər tərəfindən müstəqil həll edilməsinə şərait yaradır, problemin həlli zamanı şagirdlərin bütün fikirlərini, təşəbbüslərini və hətta səhv cavablarını belə yaradıcı fikir kimi qəbul edir. Onlara hörmət və etibarla yanaşmaqla şagirdlərə psixoloji dəstək verir. Bu cür yanaşma fəal interaktiv təlimin tətbiqi və keyfiyyətli, səmərəli biliyin əldə edilməsi üçün çox vacibdir.

Fəal (interaktiv) təlimin imkanları kurikulum standartlarının həyata keçirilməsində çox mühüm əhəmiyyətə malikdir. Çünki şagirdlərdə idrak fəallığının yaradılması ziddiyyətləri həll etmək tələbatından və problemin qoyulmasından asılıdır. Problem şərait ziddiyyətlərin yaranması, müxtəlif fikirlərin (fərziyyələrin) və problemi həll etmə variantlarının olmasıdır.

Beləliklə, fəal (interaktiv) təlim, eyni zamanda dialoji təlimdir, müəllimin və şagirdlərin qarşılıqlı əlaqəsinə və əməkdaşlığına, hörmət və etibarına əsaslanır.

### *Fəal dərsin quruluşu*

Fəal təlim metodikasının tətbiq edildiyi dərs aşağıdakı mərhələlərdən ibarətdir.

1. Motivasiya. Problemin qoyulması. 2. Tədqiqatın aparılması. 3. Məlumat mübadiləsi. 4. Məlumatın müzakirəsi və təhlili. 5. Ümumiləşdirmə və nəticə. 6. Yaradıcı (produktiv) tətbiqetmə. 7. Refleksiya və ya qiymətləndirmə. Gəlin fəal dərsin quruluşunu ayrı-ayrılıqda nəzərdən keçirək.

Fəal dərs sinfin canlandırılması ilə başlayır. Mövzuya uyğun oyunlardan istifadə etməklə sinfi fəallaşdırmaq və şagirdləri tədqiqat aparmağa hazırlamaq olar. Bir mərhələdən digərinə keçəndə də sinfi fəallaşdırmaq üçün oyunlardan istifadə etmək mümkündür. "Azərbaycan tarixi" fənninin tədrisi zamanı dərsdə sinfin fəallaşdırılması məqsədilə müxtəlif formalı oyunlar tətbiq edilə bilər. Oyunlardan mövzulara uyğun olaraq istifadə edilməlidir və müəllim canlanmanı dərsin sonuna qədər saxlamağa çalışmalıdır.

Fəal dərsin ən mühüm mərhələsi **motivasiya** adlanır. Motivasiya hər hansı fəaliyyətin mexanizmini işə salan qüvvədir. Onun başlıca xüsusiyyəti bir sıra fərziyyələr törədən, müxtəlif nöqteyi-nəzərləri ifadə edən fikirlərin meydana gəlməsinə

səbəb olan problemli vəziyyətin yaradılmasıdır. Motivasiyadan şagirdlərin təfəkkürünü canlandırmaq üçün istifadə edilir.

Bəs motivasiyanı necə yaratmaq olar? "Azərbaycan tarixi" fənninin tədrisi zamanı motivasiya yaratmaq üçün rəmzi materialın şərhinə əsaslanmaq olar. Belə materiallara xəritələr, salnamələrdən parçalar, musiqi alətləri, şəkil və illüstrasiyalar, müxtəlif etnik qruplara, xalqlara və dövlətlərə aid simvollar, müxtəlif sənədlər, özündə tarixi informasiya daşıyan maddi və yazılı mənbələr, tarixi məzmuna malik bədii əsərlərdən parçalar aid ola bilər.

Təfəkkür prosesini canlandıran suallar verməklə də motivasiya yaratmaq mümkündür. Konkret mövzu üzrə "...haqqında biz nəyi bilirik", "...haqqında daha nələri bilmək istəyirik?", "Bu hadisələr arasında hansı əlaqə vardır?" və s. kimi suallarla şagirdlərin təfəkkürünü lazımi istiqamətə yönəltmək olar.

Bundan əlavə, müəllim motivasiya yaratmaq üçün yardımçı suallardan və terminlərdən istifadə edə bilər.

Təfəkkür prosesini fəallaşdıran və bir neçə cavabı olan açıq tipli sualların qoyulması motivasiyanın yaradılmasına kömək edir.

"Azərbaycan tarixi" fənninin məzmununu, əsasən, müxtəlif hadisə və proseslər təşkil edir. Hər hansı hadisənin və prosesin bir neçə səbəbi və qanunauyğunluqlarının olması mümkündür. Bu, məsələnin birmənalı olmayan həlli deməkdir. Problemlərin hamısının həlli zəruri olduğu üçün suallar həmin istiqamətdə qoyulmalıdır.

Motivasiya yaradarkən aşağıdakı amillər nəzərə alınmalıdır:

– təlim materialı qeyri-adiliyi ilə fərqlənməli, cəlbedici və maraqlı olmalı, şagirdləri düşünməyə sövq etməli, onun müstəqil və yaradıcı təfəkkürünü inkişaf etdirməyə yönəlməlidir;
– materialın təqdimetmə üsulları və formaları şagirdlərin səviyyəsinə uyğun olmaqla, onları fəaliyyətə və tədqiqata həvəsləndirməlidir;
– təlim materialı şagirdlərin fərziyyələrini yoxlamağa və tədqiqat aparmağa imkan verməlidir;
– şagirdlərin müstəqil fəaliyyətinə və yaradıcılığına şərait yaradılmalıdır;
– müəllim yönəldici sualları formalaşdırarkən, onların düzgün istiqamətdə qoyulmasına diqqət yetirməli, şagirdlərin cavablarını dəstəkləməli və onları istiqamətləndirməklə bələdçi (fasilitasiya) funksiyasını yerinə yetirməlidir.

Motivasiya prosesində təfəkkür prosesinin hərəkətə gətirilməsi şagirdlərin bilikləri əsasında özləri tərəfindən tədqiqat sualının formalaşdırılmasına xidmət edir. İdrak fəallığının artması şagirdlərin tədqiqat fəaliyyətini gücləndirir.

| Problemin qoyuluşu | Təfəkkürün fəallaşması | Şagirdlərin idrak fəallığı |
|---|---|---|
| | | |

Tədqiq olunacaq problemin qoyulmasından əvvəl məqsədəmüvafiq suallar formalaşdırılır, sonra tədqiqat sualı qoyulur. Şagirdlərin tədqiqat sualına aid fərziyyələri irəli sürülür və lövhədə qeyd olunur. Bundan sonra şagirdlərin özləri tərəfindən yeni biliklərin qazanılmasına imkan verən tədqiqat işi aparılır.

Mövzuların tədrisi üçün müəyyən edilmiş təlim üsullarından və dərs formalarından asılı olaraq tədqiqatı bütün siniflə birlikdə, kiçik və böyük qruplarda, yaxud da fərdi şəkildə aparmaq olar. Problemin həllində açar rolu oynayan çalışmalardan və tapşırıqlardan istifadə etmək vacibdir. Həmin çalışmaların və tapşırıqların özündə də problemin həllinə kömək edən suallar və məlumatlar nəzərdə tutulmalıdır. "Azərbaycan tarixi" fənninin tədrisində işin kollektiv şəkildə, xüsusilə kiçik və böyük qruplarda aparılması daha səmərəlidir. Problemin həlli zamanı ümumi qərarın bütün kollektivlə birgə qəbul edilməsi demokratik cəmiyyət vətəndaşının yetişdi-rilməsində ən səmərəli yoldur.

Tədqiqat prosesində mənbələrin – dərslikdəki müvafiq mövzunun, xəritələrin, illüstrasiyaların, sənədlərin araşdırılması zamanı toplanılmış yeni məlumatlar şagirdlər tərəfindən irəli sürülmüş fərziyyələrlə tutuşdurula bilər. Faktların araşdırılması problemin həllinə kömək edəcək yeni fərziyyələrin yaranmasına imkan verir. Tədqiqat zamanı şagirdlərə təqdim olunmuş iş vərəqində tapşırıqla yanaşı, yönəldici suallar da qoyula bilər.

Tədqiqat başa çatdıqdan sonra qruplar öz işlərini təqdim edirlər. Bu mərhələ informasiya (məlumat) mübadiləsi adlanır. Problemi həll etmək, tədqiqat sualına cavab tapmaq üçün qruplar bir-birlərinin tədqiqat işinin nəticəsini dinləyirlər.

İnformasiyanın müzakirəsi və təhlili prosesində ayrı-ayrı qruplar tərəfindən toplanılmış dəlillər təhlil edilir. Müəllim bu mərhələdə bələdçi (fasilitasiya) funksiyasını yerinə yetirir. O, müəyyən nəticəyə gəlmək üçün tədqiqat prosesində şagirdlər tərəfindən əldə olunmuş faktlar və bilikləri ümumiləşdirərək onları sistemləşdirir. Faktlar arasındakı əlaqələr aşkara çıxarılır.

***5. Ümumiləşdirmə və nəticə***

Şagirdlər tərəfindən tədqiqat prosesində toplanılmış məlumatlar və əldə edilmiş faktlar məqsədyönlü şəkildə müzakirə edildikdən sonra müəllim ümumiləşdirməni aparmaq işinə başlayır. Bunun üçün konkret nəticəyə gəlmək tələb olunur. Müəllimin bələdçiliyi ilə şagirdin gəldiyi nəticə tədqiqat sualı və onlar tərəfindən irəli sürülmüş fərziyyələrlə tutuşdurulur. Əldə edilmiş biliklərin ümumiləşdirilməsi və sistemləşdirilməsi məqsədilə müəllim tərəfindən qoyulmuş suallar bu prosesin yekunlaşdırılmasına xidmət edir. Beləliklə, müəllimin bələdçiliyi ilə şagird konkret nəticəyə gəlir. Ümumiləşdirilmiş biliklər mümkün qədər yığcam, aydın və anlaşıqlı şəkildə ifadə olunur. Tədqiqat sualının cavabı aşkara çıxır. Yəni ümumiləşdirmə, əslində, tədqiqat sualının cavabıdır. Ona görə də müəllim tədqiqat sualını qoymamışdan əvvəl dərsin sonuncu mərhələsi olan ümumiləşdirməni müəyyən etməlidir.

Yaxşı olar ki, tədqiqat sualının sayı birdən çox olmasın. Tədqiqat sualının cavabı – ümumiləşdirilmiş bilik, yeni biliyi əks etdirən təlim nəticəsidir.

***6. Yaradıcı tətbiqetmə***

Əldə edilmiş biliklərin möhkəmləndirilməsi məqsədilə həyata keçirilən bu mərhələdə şagirdlərə müxtəlif tapşırıqlar verilə bilər. Bu tapşırıqlar və onların yerinə yetirilməsi şagirdlərə qazandıqları biliklərin nə üçün lazım olduğunu, onu hansı şəraitdə tətbiq edə biləcəyini göstərməyə xidmət edir. "Azərbaycan tarixi" fənninin tədrisi zamanı belə tapşırıqlardan geniş istifadə etmək mümkündür. Əhatə olunan mövzuların məntiqi və məzmunundan, aid olduğu dövrdən, tədris vahidindən asılı olaraq müxtəlif tapşırıqlar tətbiq etmək mümkündür. Şagirdlərə dərslikdəki mətnə əsasən planlaşdırmanın qurulmasını (tarix dərslərində bu çox mühümdür), qədim dövrdə istifadə olunmuş əmək alətlərinin rəsminin çəkilməsini, yaxud ona oxşar əmək alətlərinin hazırlanmasını, toplanılaraq təsnif edilməsini və qruplaşdırılmasını, qədim Azərbaycan ailəsinin hekayə şəklində təsvirini və ya rollu oyun vasitəsilə təqdim edilməsini tapşırmaq olar. Eləcə də mənbələr və sənədlərlə iş üzrə tapşırıq verməklə şagirdlərdə tarixi məlumatların təhlili vərdişlərini inkişaf etdirmək olar. Xronoloji hesablamaların aparılması, eləcə də xəritə üzrə tapşırıqlar məqsədin reallaşmasında mühüm vasitə ola bilər.

Praktiki (yaradıcı) tətbiqetmə "Azərbaycan tarixi" fənn kurikulumunun təlim məqsədlərinin həyata keçirilməsində mühüm rol oynayan ən mühüm mərhələdir. "Tarixi zaman" və "tarixi məkan" məzmun xəttinə görə təlim məqsədlərinin həyata keçirilməsində illüstrasiya və şəkillərin təhlili mühüm əhəmiyyətə malikdir. Şagirdlərə "illüstrasiyalara (illüstrasiyaya) görə tarixi zamanı müəyyən et", yaxud "illüstrasiyaya görə tarixi məkanı müəyyən et" kimi tapşırıq vermək olar. Tarixi keçmişə aid xəritələrin təhlili yolu ilə tarixi zaman, məkan fərqini müəyyənləşdirməyi, dəyişiklikləri müasir dövrlə əlaqələndirməyi, məkanın təbii şəraitinin siyasi hadisələrlə bağlılığını araşdırmağı tapşırmaqla şagirdlərin yaradıcı, məntiqi və tənqidi təfəkkürünü inkişaf etdirmək mümkündür. "Zaman oxu"nun tərtib olunması tapşırığı şagirdlərin fəallığını gücləndirən amillərdən biridir. Eləcə də layihələrin, sxemlərin, cədvəllərin tərtibi, kontur xəritə ilə iş mövzunun səmərəli mənimsənilməsinə təsir edə biləcək vacib tapşırıqlardandır. Tarixi mövzularla bağlı rollu oyunların təşkili, mühüm hadisələrin səhnələşdirilməsi kimi tapşırıqların həyata keçirilməsi əldə edilmiş biliklərin daha dərindən dərk olunmasına və mənimsənilməsinə, həmişəlik şagirdlərin yaddaşına həkk olunmasına mühüm təsir edə bilər.

**Rollu oyunlar**, xüsusilə "Şəxsiyyət" məzmun xətti üzrə təlim nəticələrinin reallaşdırılmasında böyük əhəmiyyətə malikdir.

Müəllim üçün vəsaitin müvafiq bölməsində bu məsələlər haqqında daha geniş məlumat verilir.

***7. Refleksiya və qiymətləndirmə***

Şagirdlərin yaradıcı tətbiqetmə imkanları yoxlandıqdan sonra qiymətləndirmə aparılır. Əvvəldə qeyd edildiyi kimi qiymətləndirmə dərsin müxtəlif mərhələlərində aparıla bilər. Şagirdlər yaradıcı çalışmaları həll etdikdən sonra onların fəaliyyətinin kəmiyyət və keyfiyyət baxımından qiymətləndirilməsi özünüqiymətləndirmə və qarşılıqlı (qrup) qiymətləndirmə yolu ilə həyata keçirilir. Hər iki qiymətləndirmə meyarlar əsasında aparılır, bu zaman biliklər, bacarıqlar və dəyərlər əsas götürülür.

Müəllim şagirdlərə yönəldici suallar verməklə refleksiyanı – dərsin yekunlaşdırılmasını həyata keçirir. Bu prosesdə dərsin bütün mərhələləri ümumiləşdirilərək təhlil edilir, qazanılmış biliklərin necə əldə edilməsi yolları daha dərindən dərk edilir.

Ev tapşırıqları mürəkkəb olmamalı, şagirdi yormamalı və vaxtını çox almamalıdır.

Fəal təlim üsulu ilə aparılan dərsin mərhələlərini, nəticələrini aşağıdakı cədvəldə aydın görmək olar:

| № | Fəal dərsin mərhələləri | Nəticə |
|---|---|---|
| 1. | Motivasiya (problemin qoyulması və fərziyyələrin irəli sürülməsi) | Tədqiqat sualı və fərziyyələr |
| 2. | Tədqiqatın aparılması (fərziyyələri yoxlamaq üçün faktların axtarılması) | Tədqiqat işləri |
| 3. | Məlumat mübadiləsi (əldə edilmiş məlumatların təqdim olunması) | Məlumat mənbələri – müzakirə materialı |
| 4. | Məlumatın müzakirəsi və təhlili (məlumatın müzakirəsi, təsnif edilməsi və əlaqələndirilməsi) | Təşkil olunmuş məlumat |
| 5. | Ümumiləşdirmə və nəticələrin çıxarılması (nəticələrin fərziyyələrlə müqayisə edilməsi və onların təsdiq olub-olmaması haqda nəticənin çıxarılması) | Əldə edilmiş bilik (ümumiləşdirmə) |
| 6. | Yaradıcı (produktiv) tətbiqetmə | Biliyi tətbiqetmə yolları və təcrübəsi |
| 7. | Refleksiya və ya qiymətləndirmə (dərsin hər bir mərhələsində aparıla bilər) | Özünüqiymətləndirmə vərdişi, öyrənməyin qaydalarının mənimsənilməsi, müstəqil öyrənmək vərdişi |

# “Azərbaycan tarixi” fənninin tədrisi: təlim strategiyaları, istifadə olunan forma və üsullar

“Azərbaycan tarixi” fənn kurikulumunun təlim məqsədlərinə nail olmaq üçün təlim metodları və strategiyaları, fənnin tədrisində istifadə olunan forma və üsullar başlıca vasitədir. Fənnin tədrisində fəal təlim metodunun rolu, xüsusilə böyükdür. Çünki fəal təlim metodu yaradıcı bir prosesdir və bu zaman: a) əməkdaşlıq şəraitində yeni bilik kəşf olunur; b) kəşf olunmuş yeni bilik əsaslandırılır. Beləliklə, şagirdlərin yaradıcı təfəkkürü müntəzəm olaraq inkişaf etdirilir.

Fənnin məzmununun düzgün qurulması təlim strategiyalarının və qiymətləndirmənin düzgün müəyyənləşdirilməsini təmin edir.

Müasir kurikulumları və yeni təlim strategiyalarını aşağıdakı sxem şəklində ifadə etmək olar:




Təlimin təşkilinə verilən əsas tələblər aşağıdakılardır:

1. Pedaqoji prosesin tamlığı;
2. Təlimdə bərabər imkanların yaradılması;
3. Şagirdyönümlülük;
4. Fəaliyyətin stimullaşdırılması;
5. Dəstəkləyici mühitin yaradılması.

Fənn üzrə kurikulum tələblərinin reallaşdırılması müxtəlif iş formalarının tətbiqini tələb edir. Fəal (interaktiv) təlim prosesində kollektiv iş formalarından, xüsusilə kiçik və böyük qruplarda iş formasından geniş istifadə edilir. Ayrı-ayrı dərslərdə cütlük şəklində işdə tətbiq edilir. “Azərbaycan tarixi” fənninin tədrisində səbəb-nəticə əlaqələrinin müəyyən edilməsi, ümumiləşdirmə və sistemləşdirmə bacarığının formalaşdırılması zərurəti qrup işinin geniş tətbiqinə imkan verir. Tarixdə baş vermiş çox mühüm fakt və hadisələrin siyasi cəhətdən dəyərləndirilməsi kollektiv qərarların qəbul edilməsinə şərait yaradır. İşin bu cür formada təşkili şagirdlərə problemləri birgə həll etməyi və kollektivçilik hislərini öyrədir.

Mövzuya aid təlim materialı müxtəlif və daha zəngin olduqda qruplar ayrı-ayrı tapşırıqları həll edir, tədqiqat aparırlar.

Təlim materialı bölüşdürmək üçün əlverişli olmadıqda bütün qruplar eyni mövzunu tədqiq edirlər. Yaxud qruplar bir-birini əvəzləməklə (rotasiya üsulu) eyni işi yerinə yetirirlər. Metodik vəsaitdə verilmiş dərs nümunələrində hər üç məsələ öz əksini tapmışdır.

Qrupların formalaşdırılması qaydasını dərsi planlaşdırarkən nəzərdə tutaraq müəyyənləşdirmək lazımdır. Yəni müəllim əvvəlcədən bilməlidir ki, qrupları necə böləcəkdir. Bu zaman o, mövzunun tədrisi metodikasına uyğun maraqlı və cəlbedici variantlardan istifadə edə bilər. Müxtəlif üsullardan istifadə etməklə yaradılan qrupların tərkibi daim dəyişməli, eyni tərkibli olmamalıdır.

Qrup işi zamanı həm istedadlı, həm də zəif şagirdlər öz səviyyələrinə uyğun olaraq, imkanlarını göstərə bilirlər.

Sinif tapşırıqları, yaradıcı (produktiv) tətbiqetmə zamanı cütlük şəklində iş formasından istifadə etmək olar. Bu zaman şagirdlər bir-birinə kömək edərək, fikir mübadiləsi apara bilirlər.

“Azərbaycan tarixi” fənninin tədrisi zamanı geniş yayılmış interaktiv təlim üsulları tətbiq edilir. BİBÖ, beyin həmləsi (əqli hücum), müzakirə, rollu oyun, Venn diaqramı, şaxələndirmə (klaster), söz assosiasiyaları, debat, “ideyalar xalısı”, “qərarlar ağacı”, “akvarium”, sənədlərlə iş sosioloji tədqiqat üsulları “Azərbaycan tarixi” fənninin tədrisində daha səmərəli nəticə əldə etməyə imkan verən ən müvafiq üsullardır.

**“Beyin həmləsi”** üsulundan daha çox şagird fəallığının artırılması məqsədilə motivasiya yaradılması üçün istifadə olunur. Suala cavab tapmaq və yeni mövzuya maraq oyatmaq üçün bu üsuldan dərsin başlanğıcında geniş istifadə olunur. Bu mərhələdə açıq suallar vasitəsilə “Azərbaycan tarixi” fənni üzrə öyrənilmiş biliklərin xatırlanması və yeni mövzuya maraq oyatmaq məqsədilə “beyin həmləsi üsulu tətbiq olunur. Bu mərhələ şagirdlərin nəyi pis və ya nəyi yaxşı bildiyini aşkarlamaq imkanı versə də, qiymətləndirmə tətbiq edilmir. Deduktiv dərslərdə “beyin həmləsi” üsulundan keçmiş dərsdə kəşf olunmuş biliklərin yada salınması üçün istifadə olunur.

**BİBÖ** – əvvəlki bilik və təcrübə ilə yeni biliklər arasında əlaqə yaratmaq, onları müqayisə etmək imkanı verir. Bu üsul “cütlüklərlə iş”, eləcə də böyük və kiçik qruplarla iş formasında təşkil edilən tarix dərslərində daha səmərəli biliklərin əldə edilməsini, fənn kurikulumunun tələblərinin həyata keçirilməsini təmin edir.

| Bilirəm | İstəyirəm biləm | Öyrəndim |
|---|---|---|
| | | |

BİBÖ cədvəli ya kağız üzərində, ya da lövhədə çəkilir.

Bu üsuldan istifadə edərkən müəllim mütləq yeni mövzu ilə əvvəllər keçilmiş hansı uyğun mövzular arasında əlaqə yaratmağın mümkün olduğunu əvvəlcədən müəyyən etməlidir. “Azərbaycan tarixi” fənni üzrə ümumiləşdirilmiş dərslərin təşkilində BİBÖ ən səmərəli üsullardan biridir.

**Müzakirə** – problemin həlli yollarını müəyyən etmək üçün şagirdlər tərəfindən təklif olunan və öz mövqeyini ifadə edən fikirlərdir. Müzakirə, əslində, kollektiv şəkildə aparılan fikir mübadiləsidir. Müzakirə prosesində şagirdlər öz fikir və təkliflərini söyləməklə yanaşı, həm də onu əsaslandırırlar. Disput və debat da özəyində müzakirə dayanan üsullardır. Müzakirənin aparılması qaydası əvvəlcədən planlaşdırılmalı və reqlamentləşdirilməlidir.

Müzakirədən əvvəl şagirdlərin özləri tərəfindən riayət edəcəkləri qaydalar hazırlanmalı və görünən yerdən asılmalıdır.

Müzakirə şagirdlərdə kollektivlə işləmək, fikir yürütmək, qarşı tərəfi dinləmək, söylədiyi fikirləri və təklifləri əsaslandırmaq bacarıqlarının formalaşmasına imkan yaradır ki, bu da fənn kurikulumunun tələblərinin yerinə yetirilməsini təmin edir. Müxtəlif ideyaların ümumiləşdirilməsi, qarşılıqlı razılığa gəlmə imkanının reallaşdırılması kimi bacarıqların formalaşması şagirdlərə gələcəkdə cəmiyyət həyatında "yaşamaq bacarıqları aşılayır. Bu prosesdə qarşılıqlı ünsiyyət imkanları genişlənir. Bu da sinifdə demokratik mühitin yaradılmasını təmin edir.

**Rollu oyun** – şagirdlər tərəfindən hər hansı bir tarixi hadisənin öz mövqelərindən qiymətləndirilməsi üçün tətbiq olunan ən səmərəli üsuldur. Üsulun səmərəliliyi həm də onun şagird fəallığını təmin edə bilməsindədir. V siniflərdə təlim materiallarının əksəriyyətinin tədrisində bu üsuldan istifadə etməklə biliklərin daha asan və yaxşı qavranılmasına nail olmaq mümkündür. "Qayalar üzərində tarix, "Hökmdar qadın – Tomiris", "Cavanşir", "Qırx il kölə kimi yaşamaqdansa...", "Şəmsəddin Eldəniz necə Azərbaycan hökmdarı oldu?", "Həsən padşah", "Gəncə niyə Yelizavetpol adlandı?", "Cəlil Məmmədquluzadə — Molla Nəsrəddin", "Bir kərə yüksələn bayraq...", "Müsəlman Şərqində ilk operanı kim yazdı?", "Qanlı Yanvar", "Xocalı soyqırımı" mövzularının tədrisi prosesində rollu oyunların vasitəsilə biliklərin daha səmərəli mənimsənilməsi, şagirdlərdə müxtəlif dəyərlərin, bacarıqların və vərdişlərin formalaşdırılmasına nail olmaq imkanı yaradır.

Rollu oyun səhnəcik formasında təşkil edilə bilər. Bu zaman konkret hadisə səhnələşdirilir. Başqa bir şəraitdə hər hansı bir tarixi hadisə, tarixi hekayə və ya tarixi ədəbiyyatdan seçilmiş hər hansı bir parça şagird tərəfindən nəql edilir. Həmin prosesdə iştirak edən digər "qəhrəman"ların obrazlarını isə ayrı-ayrı şagirdlər yaradırlar. Daha çox "Şəxsiyyət" məzmun xətti üzrə təlim nəticələrinin reallaşdırılmasında rollu oyun üsulunun tətbiqi səmərəliliyi təmin edir. Şagirdlər öz rolunu ifa etməklə yanaşı, tarixi şəraitə və tarixi şəxsiyyətləri qiymətləndirmək bacarığına yiyələnirlər.

**Venn diaqramı** "Azərbaycan tarixi" fənninin məzmununun şagirdlər tərəfindən mənimsənilməsini təmin edən ən səmərəli üsullardan biridir. Fənn üzrə tədris olunan mövzuları, orada əhatə olunan hadisələri, proses və təzahürləri müqayisə etmək, oxşar və fərqli cəhətləri, səbəb-nəticə əlaqələrini müəyyən etmək kimi bacarıqların formalaşdırılmasında bu üsulun tətbiqinin əhəmiyyəti böyükdür. Venn diaqramı üsulu təkrar – ümumiləşdirici dərslərdə daha geniş tətbiq olunur. Bu üsul həm müqayisələrin aparılması yolu ilə müxtəlif hadisələri, proses və təzahürləri, faktları müqayisə etməyə, əlaqələndirməyə və fərqləndirməyə imkan yaradır.

Venn diaqramı üsulu şagirdlərin qiymətləndirmə və dəyərləndirmə bacarıqlarının inkişafına birbaşa təsir edir. Bu üsul motivasiya, tədqiqat və təqdimat mərhələsində, xüsusilə ümumiləşdirmə və nəticə, yaradıcı tətbiqetmə mərhələsində tətbiq edilə bilər. "Azərbaycan tarixi" fənni üzrə maddi və yazılı mənbələrin,

qədim dövlətlərin yaranma səbəblərinin, onların inkişafının və tənəzzülünün, ayrı-ayrı tarixi şəxsiyyətlərin fəaliyyətinin, tarixi inkişafın müxtəlif mərhələlərində həyata keçirilən islahatların, müharibələrin səbəb və nəticələrinin, üsyanların xarakterik cəhətlərinin, tarixi inkişafa təsir edən təbii şəraitin, tarixi zaman əlaqələrinin müəyyənləşdirilməsi baxımından Venn diaqramının tətbiqi təlim nəticələrinə nail olmağı təmin edir. Bu üsuldan tədqiqatın aparılması mərhələsində geniş istifadə edilir.

**Klaster (şaxələndirmə)** əsas tarixi anlayış və terminləri, hadisələri söz assosiasiyaları vasitəsilə tapmağa imkan verən ən səmərəli üsullardan biridir. Bu üsulun tətbiqi şagirdlərin biliklərinin əhatə dairəsini genişləndirməyə, mövzu ətrafında əvvəllər öyrəndiklərini xatırlamağa və nəzərdən keçirməyə, yeni anlayışları, hadisələri və xüsusiyyətləri tapmağa şərait yaradır. Məsələn, "Səfəvilər dövləti" ifadəsi lövhənin və ya kağızın ortasına yazılır. Mövzuya aid başlıca söz ("mərkəzləşdirilmiş dövlət") lövhədə qeyd olunur. "Mərkəzləşdirilmiş dövlət" anlayışı ilə bağlı şagirdlərə ağıllarına gələn söz və ya ifadəni söyləməyi təklif edin. "Mərkəzləşdirilmiş dövlət" sözündən başlayan hər növbəti söz əsas sözlə xətlərlə birləşərək qrafik əmələ gətirəcək. Bu üsul tətbiq edilərkən əlaqələndirilən sözlərin və fikirlərin sayı müəyyən vaxt daxilində məhdudlaşdırılmır. Bu üsuldan dərsin motivasiya və ümumiləşdirmə mərhələsində istifadə edilə bilər.

**Söz assosiasiyası** üsulu da şaxələndirmə üsulunda olduğu kimi dərsin əvvəlində və sonunda tətbiq edilir. Bu üsullar arasında ümumi cəhətlər çoxdur. Söz assosiasiyalarının əhatəliliyinin və genişliyinin şaxələndirmə üsulunun tətbiqində böyük əhəmiyyəti var. Söz assosiasiyası üsulundan istifadə etməklə şagirdlərin həm mövzu ilə bağlı bildiklərini, həm də yeni öyrəndiklərini müəyyənləşdirmək mümkündür. Məsələn, söz assosiasiyası vasitəsilə şagirdlərin "mərkəzləşdirilmiş dövlət" anlayışı haqqında bildiklərini aşkara çıxarmaqla, dərsin sonunda Səfəvilərin mərkəzləşdirilmiş dövlət kimi, siyasi, iqtisadi və mədəni inkişaf xüsusiyyətlərini müəyyənləşdirmək və ümumiləşdirmək olar.

**Debat** üçüncü tərəfi – iki tərəfi dinləyib nəticə çıxaracaq tərəfi inandırmaq üsuludur. Bu üsul şagirdlərə öz dəlilləri ilə çıxış etmək və onları əsaslandırmaq, onları digər tərəfin mövqeyi ilə tutuşdurmaq imkanı verir. Müasir keyfiyyətlərə malik, yaradıcı, özünü demokratik cəmiyyət vətəndaşı kimi reallaşdıra bilən vətəndaş tərbiyəsində debat üsulunun tətbiqinin əhəmiyyəti böyükdür. Debat üsulu şagirdlərdə tolerantlıq, başqalarının fikrinə və mövqeyinə hörmət, insanların deyil, ideyaların toqquşmasının, qarşıdurmaların, ziddiyyətlərin və münaqişələrin həlli üçün başlıca çıxış yolu olmasını düşünmək və qəbul etmək kimi milli və bəşəri keyfiyyətlərin formalaşdırılmasına zəmin yaradır. Debatın keçirilməsinin səmərəliliyi şagirdlərin tənqidi təfəkkürünün inkişafından çox asılıdır. Bu üsul cütlər və kiçik qruplarla iş formasında geniş tətbiq olunur.

**Tarixi mənbələr və sənədlərlə iş** tarixi məlumatların təhlili vərdişlərini formalaşdırmaq və inkişaf etdirmək məqsədilə həyata keçirilən üsuldur. Tarixi

mənbələrin və sənədlərin müqayisəsi və təhlili şagirdlərə öz dəlillər sistemini qurmaq, onu əsaslandırmaq, başqalarını öz fikrinin doğruluğuna inandırmaq, eləcə də tədqiqat vərdişləri aşılayır.

Sənədlər tarixi keçmişdə və müasir cəmiyyətdə baş verən hadisələri daha aydın, doğru və düzgün təsəvvür etməyə imkan yaradır. Sənədlərlə işləyərək onu öz təxəyyülündən keçirərək təhlil edən şagirdin yaradıcı təfəkkürü də inkişaf edir.

Sənədlərlə işin müxtəlif variantları mövcuddur. Eyni tarixi hadisə, proses və faktlarla bağlı tədqiqat apararkən, şagirdlərə müxtəlif mənbələr və sənədlər təqdim etmək olar. Bu zaman şagirdlərə təklif olunur ki, mövzuya və həlli tələb olunan məsələyə uyğun olan mənbəni (sənədi) seçsin və istifadə etsin. Yaxud müəllim özü tərəfindən seçilmiş hər hansı bir sənədi əlavə resurs kimi şagirdlərə verə və onu dərslikdəki əsas mətnlə tutuşdurmağı təklif edə bilər.

Sənədlərlə işin ən səmərəli üsullarından biri də şagirdlərin özünə sənədlərin tərtib edilməsinin tapşırılmasıdır. “Azərbaycan tarixi” fənninin məzmununa, tədrisinin qanunauyğunluqlarına, fənnin təlim məqsədinə uyğun olan bu iş forması şagirdlərə aldıqları bilikləri həyatda tətbiq etməyə, praktik bilik və bacarıq vərdişləri formalaşdırmağa imkan yaradır. Şagirdlər istənilən tarixi hadisə haqqında müxtəlif sənədlər – məktublar, qanun layihələri, sərəncamlar və fərmanlar, digər qanunvericilik aktları, qaydalar, müxtəlif məzmunlu və xarakterli müqavilələr, anketlər və ərizələr tərtib edə, esselər yaza bilərlər.

Sənədlərlə iş aparmaq üçün şagirdlərə müxtəlif tapşırıqlar vermək olar. Şagirdlərin hazırladıqları sənədlərin tərtibetmə qaydasına uyğunluğu, sənədli materialın başa düşülməsini təsdiq edən ifadə forması, sənədlərdəki materialın mövzuya uyğun seçilməsi qiymətləndirilə bilər.

Sənədlərlə iş zamanı şagirdlərə izahlı lüğətin tərtib edilməsini, mənbələrdən seçilmiş hissənin şərhini, faktların təsdiqini və ya inkarını əsaslandırmağı tapşırmaq olar. Sənədlərdə əks olunan tarixi məlumatların müxtəlif əlamətlərə görə – məzmuna, məntiqə, aid olduğu dövrə (xronoloji), sosial, siyasi, iqtisadi xarakterinə görə qruplaşdırılması, sənədlər əsasında sxem, cədvəl hazırlanması haqqında tapşırıqlar verilməsi şagirdlərin inkişafı üçün geniş imkanlar açır. Tapşırıqların sinifdəki şagirdlərin səviyyəsinə uyğun tərtib edilməsi daha məqsədəuyğundur. Xüsusilə V sinifdə “Azərbaycan tarixi” fənninin tədrisi zamanı istifadə olunan tapşırıqlar şagirdləri yükləməməli, dərsin mövzusunu mənimsəməyə mane olmamalı, sadə, aydın və məqsədyönlü olmalıdır.

Təlim prosesində istifadə olunan digər üsullar – ideyalar xalısı, qərarlar ağacı, sosioloji tədqiqat, biz tarix dərsliyi yazırıq, akvarium, mühazirə və s. tətbiqi zamanı qanunauyğunluğun gözlənilməsi təlim məqsədinin reallaşdırılmasını təmin edir.

**Təlim prosesində təlim məqsədlərinin reallaşdırılması ilə bağlı daha çox hansı məsələlərə diqqət yetirməli?**

**İlk növbədə, konkret mövzu müəyyən olunmalıdır.** Bundan sonra müəllim mövzunun aid olduğu **məzmun xəttini** müəyyənləşdirməlidir. **Altstandarta**

**əsasən təlim məqsədləri** müəyyən edilir. Dərsə hazırlıq zamanı şagirdlərin yaş səviyyəsinə və dərsin məqsədinə uyğun **forma və üsul** seçilməsinə diqqət yetirmək lazımdır. Tədqiqat prosesində və yaradıcı tətbiqetmə mərhələsində şagirdlərə verilən tapşırıqlar onları yaradıcılığa həvəsləndirməli, düşündürücü olmalıdır. Bu tapşırıqlar şagirdlərin yaş səviyyəsindən və imkanlarından çox yuxarı (yəni mürəkkəb) və çox aşağı (çox sadə və ya bəsit) olmamalıdır. Məsələn, V sinifdə şagirdə insanların birgə yaşayış formalarını fərqləndirməyə dair tapşırıq vermək olmaz. Çünki bu bacarıq onda yalnız VI sinifdə formalaşdırılır. V sinifdə şagird insanların həyat tərzindəki dəyişiklikləri öz ailəsi nümunəsində təsvir edə bilər. Tapşırıq məhz həmin nəticəyə əsaslanmalıdır.

Müəllim dərsi hazırlayarkən fəal (interaktiv) təlim üsullarının və formalarının mövzuya və şagirdlərin səviyyələrinə ən uyğununu seçməlidir.

"Azərbaycan tarixi" fənni üzrə ayrı-ayrı mövzuların tədrisində çoxlu sayda anlayış və məlumatların mənimsənilməsi tələb olunur. Belə mövzuların tədrisi zamanı müəllim izahedici illüstrativ və reproduktiv metodlardan istifadə etməklə daha çox səmərə əldə edə bilər. Xüsusilə "Azərbaycan tarixi" fənni üzrə ümumiləşdirici dərslərin tədrisində reproduktiv metoddan istifadə olunması daha məqsədəuyğundur.

Dərsin gedişində müəllimlərin diqqət yetirməli olduğu əsas məsələlərdən birini də **dərsliklərlə iş** prosesi təşkil edir. Başlıca məlumat və bilik mənbəyi dərslik olduğu üçün müəllim dərslikdəki mətnlərin şagirdlər tərəfindən başa düşülməsinə nail olmalıdır. Dərsliyin şagird tərəfindən daha yaxşı başa düşülməsini təmin etmək üçün nədən başlamaq lazımdır? İlk növbədə, dərsliyin tərtibat elementləri şagirdlərə aydın olmalıdır. Müəllim dərslikdəki müvafiq mətnin asan mənimsənilməsini təmin etmək üçün həmin tərtibat elementlərini şagirdlərə başa salmalıdır. Müəllim şagirdlərlə birlikdə dərslikdəki müvafiq mətni ayrı-ayrı hissələrə ayıraraq hər bir hissəyə başlıq verə bilər. Hər bir hissə ayrı-ayrılıqda təhlil olunur, məlumatlar sistemləşdirilir. Şagirdlərdən mövzuların və yarımbaşlıqların dərslikdəki mətndə nə üçün belə adlanmasının səbəbini soruşmaq olar. Onlara mövzunun və yarımbaşlığın başqa cür adlandırılmasını, mətndəki əsas termin və anlayışları, tarixləri müəyyənləşdirməyi təklif etmək mümkündür.

Mənbələrlə və sənədlərlə iş, xüsusilə böyük əhəmiyyət kəsb edir. Dərslərdə tarixi mənbələrdən istifadə olunması Azərbaycan tarixinin tədrisinin keyfiyyətini və səmərəliliyini artırmağa kömək edir. Keçmiş haqqında tarixi biliklərin mənbəyinin göstərilməsi dərslik mətnindəki məlumatların da mötəbərliliyini artırır. Digər tərəfdən şagirdlərdə müstəqil tədqiqatçılıq bacarıqları, tarixi məlumatların təhlili vərdişləri, onların müqayisəsi, ən mühüm və etibarlı məlumatların ümumiləşdirilməsi və sistemləşdirilməsi kimi bacarıqlar formalaşdırılır. Mənbələr üzərində iş zamanı şagirdlərə konkret olaraq tapşırıqlar vermək mümkündür.

– Konkret hadisə, proses və təzahürlə bağlı mənbə müəlliflərinin mövqeyini müəyyənləşdir.

– Mənbə müəlliflərinin mövqeyini müqayisə edərək daha etibarlı və mötəbər mənbəni seç.
– Problemin həlli, ziddiyyətlərin aydınlaşdırılması üçün əhəmiyyətli hesab etdiyin məlumatları mənbədən ayır və müəllif mətni ilə əlaqələndir.
– Ayırdığın mənbələrdəki məlumatlara əsaslanaraq dərslik mətni yaz (yaxud hekayə qur).

Dərslikdəki rəngarəng və məqsədəuyğun şəkillər və illüstrasiyalar dərslik mətnlərinin daha da mənimsənilməsini və yadda saxlanmasını təmin edən vasitələrdən biridir. İllüstrasiyaların və şəkillərin təhlili onların əsasında tarixi zamanın və tarixi məkanın müəyyən edilməsi, sivilizasiyalar və mədəniyyətlərin qiymətləndirilməsi kimi bilik və bacarıqların formalaşdırılmasına şərait yarada bilər. İllüstrasiya və şəkillər şagirdlərin bədii zövq mənbəyi, eləcə də müstəqil məlumat mənbəyi kimi böyük əhəmiyyətə malikdir. İllüstrasiya və ya şəkillə bağlı şagirdlərə aşağıdakı tapşırıqları vermək olar.
– İllüstrasiya və şəkli dərslikdəki konkret mövzu ilə müqayisə et.
– İllüstrasiya və şəklə mətnaltı söz yaz.
– Problemin həllində illüstrasiyadan və şəkildən istifadə et.
– İllüstrasiya və ya şəkil üzrə tarixi hekayə qur.
– Mənbələrdən konkret mövzuya və ya mətnə uyğun illüstrasiya və şəkil seç.

"Azərbaycan tarixi" fənninin tədrisində məlumat mənbəyi kimi xəritələrin rolu misilsizdir. Tarixi zaman və tarixi məkan dəyişikliklərini, siyasi proseslərin inkişafını və xüsusiyyətlərini, konkret ölkənin və ya dövlətin sosial-iqtisadi və təbii-coğrafi amillərini xəritələrin köməyi ilə tədqiq etmək mümkündür. Xəritə həm də əyani vasitədir. İstər mövzu, istərsə də ümumi-siyasi, siyasi-inzibati, fiziki-coğrafi, iqtisadi xəritələr tarixi mənbə hesab edilə bilər. Xəritələr ən uzaq keçmişdə baş verən hadisə, proses və təzahürləri müasir zamanla əlaqələndirməyə, xronoloji faktları müəyyənləşdirməyə imkan verir. Ona görə də Azərbaycan tarixi dərslərində xəritələrdən bir mənbə kimi istifadə etmək çox zəruridir. Xəritə üzərində işi təşkil etmək üçün müəllim şagirdlərə aşağıdakı sual və tapşırıqları verə bilər:
– Xəritədəki təsvirə əsasən dövrü müəyyən et.
– Xəritədə təsvir olunan ərazinin dünyanın hansı hissəsində olduğunu tap.
– Öyrənilən ölkənin, ərazinin təbii şəraitini təsvir et.
– Öyrənilən ölkənin, ərazinin təbii şəraitini orada yaşayan əhalinin məşğuliyyəti və yaşayış tərzi ilə əlaqələndir.
– Konkret ərazinin şimal, cənub, qərb və şərq nöqtələrini müəyyən et.
– Öyrənilən ölkədən, ərazidən keçən, onu başqa ölkələrlə əlaqələndirən beynəlxalq ticarət yollarının, hərbi yürüşlərin, ekspedisiyaların marşrut istiqamətlərini xəritədə müəyyən et.
– Xəritədə təsvir olunan ərazini həmin ərazinin müasir vəziyyəti ilə müqayisə et, həlli tələb olunan məsələni xəritə əsasında izah et.
– Öyrənilən ölkənin, ərazinin yerini kontur xəritədə təsvir et.

# Standartların reallaşması və inteqrasiya cədvəli

| Sıra №-si | Mövzular | Saat | Standartlar | İnteqrasiya |
|---|---|---|---|---|
| | | **I YARIMİL** | | |
| 1. | Diaqnostik qiymətləndirmə | 1 | – | – |
| 2. | Giriş | 1 | Girişin mətnindən istifadə etməklə müəllim Azərbaycan tarixi haqqında söhbət aparır. Tarix fənninin öyrənilməsinin vətəndaş kimi formalaşmaqda böyük əhəmiyyətindən söz açır. | |
| 3. | "Azərbaycan tarixi" fənni necə öyrənilir? | 1 | 1.2.1.; 1.2.2. | Əd.: 1.1.4., 2.2.1., 3.1.2. |
| | | **AZƏRBAYCAN QƏDİM DÖVRDƏ** | | |
| 4. | Azərbaycanın ən qədim insan məskəni – Qarabağ | 1 | 2.1.1.; 2.1.2.; 3.1.3.; 5.1.1. | H.b.: 1.2.1.; A.d.: 1.2.2. |
| 5. | Qayalar üzərində tarix | 1 | 2.1.1.; 5.1.1. | A.d.: 3.1.2.; Əd.: 1.1.4. |
| 6. | Əmək alətləri necə meydana gəldi? | 1 | 1.2.2. | A.d.: 3.1.2.; H.b.: 2.1.1. |
| 7. | Azərbaycanın ən qədim dövləti | 1 | 2.1.2.; 3.1.1.; 4.1.2. | H.b.: 2.1.2.; A.d.: 3.1.4.; Əd.: 3.1.3. |
| 8. | Hökmdar qadın – Tomiris | 1 | 4.1.1.; 4.1.2. | A.d.: 1.2.4.; İnf.: 4.1.1. |
| 9. | "Azərbaycan" adı necə yarandı? | 1 | 2.1.2.; 4.1.1. | H.b.: 2.1.2.; A.d.: 3.1.4.; Əd.: 3.1.3. |
| 10. | Qədim Azərbaycan dövləti – Albaniya | 1 | 2.1.2.; 3.1.1. | H.b.: 2.1.2.; A.d.: 3.1.4.; Əd.: 3.1.3. |
| 11. | Azərbaycanda dini inanclar | 1 | 5.1.2.; 5.1.3. | A.d.: 1.1.2., 2.1.1.; H.b.: 3.3.1. |
| 12. | KSQ – 1 | 1 | – | – |
| | | **AZƏRBAYCAN ORTA ƏSRLƏRDƏ** | | |
| 13. | Cavanşir | 1 | 1.1.2.; 4.1.1. | A.d.: 1.2.4.; İnf.: 4.1.1. |
| 14. | "Qırx il kölə kimi yaşamaqdansa..." | 1 | 2.1.2.; 4.1.1. | A.d.: 1.2.2., 2.2.3.; Ə.d.: 2.2.1. |

| Sıra №-si | Mövzular | Saat | Standartlar | İnteqrasiya |
|---|---|---|---|---|
| 15. | "Kitabi-Dədə Qorqud" – yurdumuzun tarix salnaməsi | 1 | 5.1.2. | A.d.: 2.2.3.; H.b.: 3.2.2. |
| 16. | Azərbaycanın "Dəmir qapı"sı – Dərbənd | 1 | 1.2.2.; 2.1.2. | A.d.: 3.1.2.; Əd.: 3.1.2. |
| 17. | Şirvanşahlar dövləti | 1 | 2.1.2.; 3.1.1. | H.b.: 2.1.2.; Əd.: 3.1.3.; A.d.: 3.1.4. |
| 18. | "Arranın anası" – Bərdə | 1 | 5.1.1. | Əd.: 1.1.4.; A.d.: 3.1.2. |
| 19. | Təbriz və Ərdəbil | 1 | 1.2.2. | Əd.: 1.1.4.; A.d.: 3.1.2. |
| 20. | Şəmsəddin Eldəniz necə Azərbaycan hökmdarı oldu? | 1 | 2.1.2.; 3.1.1.; 4.1.2. | A.d.: 1.2.4.; İn.: 4.1.1. |
| 21. | KSQ – 2 | 1 | – | – |
| 22. | Azərbaycan mədəniyyətinin oyanışı | 1 | 5.1.3. | A.d.: 1.2.2.; H.b.: 3.2.2. |
| 23. | Elm dünyasının şahı | 1 | 5.1.1. | A.d.: 1.2.2., 2.1.1.; H.b.: 3.1.2. |
| 24. | "Rəşidiyyə" – məşhur Azərbaycan universiteti | 1 | 4.1.1.; 5.1.1. | A.d.: 1.2.2.; H.b.: 3.2.2., 3.1.2. |
| 25. | Həsən padşah | 1 | 3.1.1.; 4.1.1. | A.d.: 1.2.4. |
| 26. | "...Gülüstan qalası, yoxsa Azərbaycan?" | 1 | 3.1.1.; 3.1.2.; 4.1.1. | A.d.: 1.2.4. |
| 27. | Şairlər sultanı | 1 | 4.1.2. | Əd.: 1.1.1.; 2.2.1. |
| **AZƏRBAYCAN YENİ DÖVRDƏ** | | | | |
| 28. | Şərqin son fatehi | 1 | 4.1.1. | A.d.: 1.2.4. |
| 29. | İlk müstəqil Azərbaycan xanlığı | 1 | 3.1.1. | H.b.: 2.1.2.; A.d.: 3.1.4. |

## Standartların reallaşması və inteqrasiya cədvəli

| Sıra №-si | Mövzular | Saat | Standartlar | İnteqrasiya |
|---|---|---|---|---|
| 30. | "Azərbaycanın qapısı" – Qarabağ | 1 | 1.2.2.; 2.1.2. | A.d.: 1.2.2. |
| 31. | İrəvan xanlığı | 1 | 3.1.1.; 5.1.3. | H.b.: 2.1.2.; A.d.: 3.1.4. |
| 32. | Gəncə niyə Yelizavetpol adlandı? | 1 | 3.1.1.; 4.1.2. | H.b.: 3.2.2. |
| 33. | Azərbaycanın parçalanması | 1 | 1.2.2. | Əd.: 3.1.3. |
| 34. | KSQ – 3 | 1 | – | – |
| **II YARIMİL** | | | | |
| 35. | Tarixi yazanlar | 1 | 4.1.2. | A.d.: 1.2.4. |
| 36. | Mirzə Fətəli Axundzadə | 1 | 5.1.2. | A.d.: 1.2.4. |
| 37. | Milli mətbuatımızın banisi | 1 | 4.1.2.; 3.1.3. | A.d.: 1.2.4. |
| 38. | Böyük Azərbaycan xeyriyyəçisi | 1 | 4.1.2. | A.d.: 1.2.4. |
| 39. | Cəlil Məmmədquluzadə – "Molla Nəsrəddin" | 1 | 5.1.2. | H.b.: 3.2.2. |
| 40. | Mirzə Ələkbər Sabir | 1 | 5.1.2. | Əd.: 2.1.3. |
| 41. | Səttar xan | 1 | 4.1.1. | Əd.: 3.1.2. |
| 42. | Sultan bəy Sultanov | 1 | 2.1.2.; 4.1.2. | Əd.: 3.1.3., 3.1.2. |
| 43. | Mart soyqırımı | 1 | 1.2.2.; 3.1.3. | Əd.: 1.4.4., 3.1.2. |
| 44. | KSQ – 4 | 1 | – | – |
| **AZƏRBAYCAN MÜASİR DÖVRDƏ** | | | | |
| 45. | "Bir kərə yüksələn bayraq..." | 1 | 3.1.1. | H.b.: 2.1.2.; Əd.: 3.1.3.; A.d.: 3.1.4. |
| 46. | Azərbaycan ordusunu yaradanlar | 1 | 4.1.2. | A.d.: 1.2.4. |
| 47. | İnqilab, yoxsa işğal? | 1 | 1.2.2.; 3.1.3. | H.b.: 2.1.2.; Əd.: 3.1.3.; A.d.: 3.1.4. |

***Qeyd:*** *44, 56, 58-ci mövzuları ilin müvafiq günlərində keçirməkdə müəllim sərbəstdir.*

| Sıra №-si | Mövzular | Saat | Standartlar | İnteqrasiya |
|---|---|---|---|---|
| 48. | Qardaş köməyi | 1 | 4.1.1. | H.b.: 3.1.1. |
| 49. | 1937-ci il qurbanları | 1 | 3.1.3. | A.d.: 1.2.4.;<br>H.b.: 2.1.1. |
| 50. | Müsəlman Şərinqdə ilk operanı kim yazdı? | 1 | 5.1.3. | Mus.: 1.1.1.;<br>A.d.: 3.1.2.;<br>H.b.: 3.2.2. |
| 51. | İkinci Dünya müharibəsi və Azərbaycan | 1 | 4.1.2.; 3.1.3. | H.b.: 2.1.1. |
| 52. | Ustad Şəhriyar | 1 | 5.1.1. | Əd.: 2.1.3. |
| 53. | KSQ – 5 | 1 | – | – |
| 54. | Lütfi Zadə | 1 | 4.1.1. | Əd.: 3.1.2. |
| 55. | Dirçəliş | 1 | 1.1.1. | H.b.: 3.2.2. |
| 56. | Qanlı Yanvar | 1 | 1.2.2. | A.d.: 1.2.4.;<br>H.b.: 2.1.1. |
| 57. | İstiqlalımızın bərpası | 1 | 3.1.2. | Əd.: 3.1.3.;<br>A.d.: 3.1.4. |
| 58. | Xocalı soyqırımı | 1 | 1.2.2. | H.b.: 2.1.1.;<br>T.i.: 1.3.1. |
| 59. | Qarabağ müharibəsi qəhrəmanları | 2 | 4.1.2. | A.d.: 1.2.4.;<br>Əd.: 3.1.2. |
| 60. | KSQ – 6 | 1 | – | – |
| 61. | Müstəqil Azərbaycanın qurucusu | 2 | 1.1.2.; 4.1.1.;<br>4.1.2. | A.d.: 1.2.4. |
| 62. | Ulu Öndərin yolu ilə | 2 | 1.1.2.; 1.2.2.;<br>4.1.1.; 4.1.2. | A.d.: 1.2.4. |
| 63. | Aprel döyüşləri – böyük zəfərin başlanğıcı | 1 | 1.2.2. | |
| 64. | Ümumiləşdirici təkrar | 1 | – | – |
| 65. | KSQ – 7 | 1 | – | – |

# 1. “Azərbaycan tarixi” fənni necə öyrənilir?

| *Standartlar* | *Təlim məqsədləri* |
|---|---|
| 1.2.1.;<br>1.2.2. | 1. Tarixi mənbələri fərqləndirir.<br>2. Yaşadığı ərazidəki maddi mədəniyyət abidələri haqqında tədqiqat aparır. |

Bu mövzunun tədrisi prosesində kiçik və böyük qruplarda iş formasından, “əqli hücum”, Venn diaqramı, mənbələrlə iş üsullarından geniş istifadə etmək mümkündür. Şagirdlərə keçmişə aid müxtəlif nümunələr nümayiş etdirilir və soruşulur:

– Gördüyünüz əşyaların tarixi keçmişimizlə hansı əlaqəsi vardır? Sual ətrafında 3–4 dəqiqəlik müzakirə aparılır. Cavablar ümumiləşdirilir və tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:***

— *Azərbaycanımızın tarixi keçmişini necə öyrənirik?*

Şagirdlər qruplara bölünür və tapşırıqlar verilir.

1. Yurdumuzun tarixini öyrənmək nə üçün vacibdir? Fikrinizi faktlarla əsaslandırın.
2. Hansı mənbələr maddi və yazılı tarixi mənbələr hesab edilir? Bunlardan hansıları tanıyırsınız?
3. Şifahi və görüntülü tarixi mənbələr hansılardır?

Qruplar işlərini təqdim etdikdən sonra əldə edilmiş materiallar təhlil olunur.

Tədqiqat prosesində şagirdlərin əldə etdiyi məlumatlar ümumiləşdirilir və sistemləşdirilir.

Sxemdəki məlumatlara əsasən tarixi mənbələrin adları müvafiq xanalara qeyd edilir.

| TARİXİ MƏNBƏLƏR | |
|---|---|
| ***Maddi*** | ***silahlar, əmək alətləri, tikintilər*** |
| ***Yazılı*** | ***sənədlər, fərmanlar, pullar*** |
| ***Şifahi*** | ***dastanlar, əfsanələr, nağıllar*** |
| ***Görüntülü*** | ***televiziya verilişləri, filmlər, fotolar*** |

Şagirdlər Yer üzünün ən qədim mədəniyyət ocaqlarından biri olan Azərbaycanın tarixi keçmişinin öyrənilməsinin onunla fəxr etmək, gələcəyimizin bünöv-



rəsini qurmaq, ondan ibrət götürmək üçün vacib olduğu qərarına gəlirlər. Vətən tarixini tarixi mənbələr əsasında öyrənirik. Ona görə də bu mənbələri qorumalı, onlardan səmərəli istifadə etməliyik. Çünki bununla biz tariximizi qorumuş oluruq.

***Yaradıcı tapşırıq:***

Tarixi keçmişi öyrənməyə imkan verən tarixi mənbələrdən biri haqqında məlumat yazın.

Bu tapşırığı ev tapşırığı kimi də vermək olar.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *fərqləndirmə, tədqiqataparma*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Tarixi mənbələri fərqləndirir. | Tarixi mənbələr haqqında ziddiyyətli məlumatları vardır. | Tarixi mənbələr haqqında bəzi məlumatları vardır, onları fərqləndirmir. | Tarixi mənbələr haqqında məlumatları vardır, onları çətinliklə fərqləndirir. | Tarixi mənbələri tanıyır və nümunələr əsasında fərqləndirir. |
| Yaşadığı ərazidəki maddi mədəniyyət abidələri haqqında tədqiqat aparır. | Yaşadığı ərazidə maddi mədəniyyət abidələri haqqında cüzi məlumatları vardır. | Yaşadığı ərazidə maddi mədəniyyət abidələri haqqında bəzi məlumatı var, tədqiqat aparmır. | Yaşadığı ərazidə maddi mədəniyyət abidələri haqqında məlumatı var. Köməkdən istifadə edərək tədqiq edir. | Yaşadığı ərazidə yerləşən maddi mədəniyyət abidəsi haqqında sərbəst tədqiqat aparır. |

# 2. Azərbaycanın ən qədim insan məskəni – Qarabağ

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 2.1.1.; 2.1.2.; 3.1.3.; 5.1.1. | 1. Qarabağda insan və cəmiyyətin inkişafı üçün əlverişli təbii amilləri təsvir edir.<br>2. Xəritələrdə Qarabağ ərazisini və Azıx mağarasının yerləşdiyi məkanı müəyyən edir.<br>3. Azıx mağarasının əhəmiyyətini izah edir.<br>4. Kiçikhəcmli tarixi hekayə qurur. |

Siz əvvəlki dərslərinizdə ən qədim insanların həyat və yaşayış tərzi haqqında bəzi biliklərə yiyələnmisiniz. Onların keçmişini öyrənməyə kömək edən tarixi mənbələr haqqında məlumatlarla tanışsınız. Belə mənbələrdən biri də yaşayış yerləridir. “Yaşayış məskəni” sözünü eşitdikdə ağlınıza hansı fikirlər gəlir? sualını verməklə söz assosiasiyası üsulu vasitəsilə şagirdlər müzakirəyə cəlb edilir. Tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:***

— *Azıx mağarasının dünyanın ən qədim insan məskəni olduğunu nə sübut edir?*

Şagirdlər dərslik mətni ilə tanış olurlar. Şəkil və illüstrasiyalar təhlil olunur.

Şagirdlər tədqiqat prosesində əldə etdikləri məlumatlar əsasında cədvəli tamamlayırlar.

| Müəyyənləşdirin | Cavablandırın |
|---|---|
| Mağara nədir? | |
| Azıx mağarası nədən xəbər verir? | |
| Azıx mağarası harada yerləşir? | |
| Azıx mağarasında aşkar edilən ən qiymətli tapıntı haqqında nə bilirsiniz? | |

İllüstrasiyalara əsasən məlumatları təsvir etmək tapşırılır.







Mövzu xəritəsindən istifadə etməklə Qarabağın və Azıx mağarasının yerləşdiyi ərazini müəyyən etmək təklif edilir.

Qrupların fəaliyyəti müzakirə edilir.

– İnsanlar nə üçün mağarada yaşayırdılar?

– Azıx mağarasındakı tapıntılar hansı mənbələrə aiddir?

– Qədim insanın alt çənə sümüyü nə üçün qiymətli eksponat kimi qorunur? kimi suallardan istifadə etməklə şagirdlərin mənimsədikləri biliklər möhkəmləndirilir.

Şagirdlər qədim və müasir insanların həyat tərzinə təsir edən amilləri müəyyənləşdirirlər.

Beləliklə, şagirdlər Azıx mağarasından tapılmış daş alətlər, vəhşi heyvan sümükləri, yaşı min illərlə ölçülən ocaq yerləri, ən qədim insanın alt çənə sümüyünün qalığı əsasında Azərbaycan ərazisinin ən qədim insan məskəni olduğunu sübut edirlər.

***Yaradıcı tapşırıq:***

Azıx adamını çəkdiyiniz rəsm vasitəsilə təsvir edin.

Dərsliyin 13-cü səhifəsindəki 3-cü tapşırıq ev tapşırığı kimi verilə bilər.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *təsviretmə, müəyyənetmə, izahetmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Qarabağda insan və cəmiyyətin inkişafı üçün əlverişli təbii amilləri təsvir edir. | Qarabağın bəzi əlverişli təbii amillərini sadalayır, təsvir etməkdə çətinlik çəkir. | Qarabağda əlverişli təbii amilləri çətinliklə təsvir edir. | Qarabağda insan və cəmiyyətin inkişafı üçün başlıca təbii amilləri təsvir edir. | Qarabağda əlverişli təbii amilləri insan və cəmiyyətin inkişafı ilə əlaqələndirərək təsvir edir. |
| Xəritələrdə Qarabağ ərazisini və Azıx mağarasının yerləşdiyi məkanı müəyyən edir. | Azıx mağarasının Qarabağ ərazisində yerləşdiyini bilir, xəritələrdə müəyyən etməkdə çətinlik çəkir. | Xəritələrdə Qarabağın yerləşdiyi Azərbaycan ərazisini müəyyən edir. | Qarabağ ərazisini və Azıx mağarasının yerləşdiyi məkanı şagirdlərin, yaxud müəllimin köməyi ilə müəyyən edir. | Xəritələrdə Qarabağ ərazisini və Azıx mağarasının yerləşdiyi məkanı sərbəst və əlaqəli şəkildə müəyyən edir. |
| Azıx mağarasının əhəmiyyətini izah edir. | Azıx mağarası haqqında məhdud məlumatı vardır. Əhəmiyyətini izah etməkdə çətinlik çəkir. | Natamam məlumatlar əsasında Azıx mağarasının əhəmiyyətini izah etməyə cəhd göstərir. | Azıx mağarası haqqında məlumatlardan istifadə edərək onun əhəmiyyətini müəllimin köməyi ilə izah edir. | Azıx mağarasının əhəmiyyətini tarixi baxımdan əhatəli şəkildə sərbəst izah edir. |
| Azıx mağarası haqqında hekayə qurur. | Azıx mağarası haqqında hekayə qurmaqda çətinlik çəkir. | Azıx mağarası haqqında hekayə qurarkən köməkdən istifadə edir. | Azıx mağarası haqqında hekayə qura bilir. | Əldə etdiyi geniş məlumatlar əsasında Azıx mağarası haqqında əhatəli hekayə qurur. |

# 3. Qayalar üzərində tarix

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 2.1.1.;<br>5.1.1. | 1. Qobustanda insan və cəmiyyətin həyatı üçün əlverişli təbii amilləri təsvir edir.<br>2. Qobustan qoruq-abidəsinin tarixi əhəmiyyətini qiymətləndirir. |

Şagirdlərin diqqəti Qobustanın nə üçün qoruq-muzey elan edilməsinə yönəldilir. Maddi mənbələr haqqında keçmiş biliklərin yada salınması ilə müzakirə təşkil edilir.

Şagirdlərin fikirlərinin mövzu ilə bağlı başlıca cəhətlərini seçmək və ümumiləşdirməklə dərsin əsas ideyası müəyyənləşdirilir.

***Tədqiqat sualı:***

*– Qobustan qoruq-abidəsinin tarixi əhəmiyyəti nədir?*

Kiçik müzakirə davam etdirilir. Tədqiqat sualının cavabı təqdim olunan müzakirə suallarının köməyi ilə açılır:

1. Qobustanda həyat üçün əlverişli təbii amillər hansılardır?
2. Qobustanın coğrafi mövqeyi necədir?
3. Qobustanın təbii-coğrafi şəraiti qədim əhalinin həyat tərzinə necə təsir edirdi?
4. Qobustan qoruq-abidəsinin tarixi əhəmiyyəti nədir?

Dərslik mətni və 14–15-ci səhifələrdəki illüstrasiyalar təhlil olunur.





Mövzu ilə bağlı olan mühüm məlumatlar müzakirə edilərək bir-biri ilə əlaqələndirilir və sistemləşdirilir. Hər bir qrup tapşırığının cavabını cədvəl vasitəsilə ümumiləşdirmək olar.

Bu dərsi imkan daxilində ekskursiya formasında da reallaşdırmaq olar.

Tədqiqatın gedişində şagirdlərin əldə etdikləri yeni məlumatlar təqdim edilir.

Şagirdlər topladıqları məlumatları "Kim daha çox" oyun-yarış vasitəsilə nümayiş etdirirlər. Şagirdlərin cavabları tədqiqat sualı ilə əlaqələndirilir.

Qrup işlərinin nəticələri ümumiləşdirilir.

Qobustanın qədim insan məskəni olmasının əhəmiyyəti qiymətləndirilir.

Qobustanın zəngin təbii sərvətlərinin, əlverişli mövqeyinin və iqliminin olmasının burada qədim insanların məskən salmasına və yaşamasına səbəb olması müəyyən edilir.

Tədqiqat sualının cavabı ümumiləşdirilir. Şagirdlər açıq səma altında qayalar üzərindəki qədim rəsmlərdə "Qavaldaş" və digər maddi tapıntıların tarixi əhəmiyyətini müəyyən edirlər. Qobustan qoruğunun UNESCO-nun dünya irsi xəritəsinə daxil edilməsi dəyərləndirilir.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *təsviretmə, qiymətləndirmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Qobustanda insan və cəmiyyətin həyatı üçün əlverişli təbii amilləri təsvir edir. | Qobustanda həyat üçün əlverişli olan bəzi təbii amilləri sadalayır. | Qobustanda həyat üçün əlverişli təbii-coğrafi şəraiti çətinliklə təsvir edir. | Qobustanda həyat üçün təbii-coğrafi şəraitin qədim əhalinin həyat tərzinə təsirini müəllimin köməyi ilə təsvir edir. | Qobustanda həyat üçün təbii-coğrafi şəraiti, onun insanların həyat tərzinə təsirini əlaqələndirərək təsvir edir. |
| Qobustan qoruq-abidəsinin tarixi əhəmiyyətini qiymətləndirir. | Qobustan qoruq-abidəsinin tarixi əhəmiyyətini qiymətləndirməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə Qobustan qoruq-abidəsinin əhəmiyyətini qiymətləndirir. | Qobustan qoruq-abidəsinin əhəmiyyətini sadə şəkildə qiymətləndirir. | Qobustan qoruq-abidəsinin tarixi əhəmiyyətini dərslik mətni və illüstrasiyaların təhlili əsasında əlaqələndirərək qiymətləndirir. |

# 4. Əmək alətləri necə meydana gəldi?

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 1.2.2. | 1. Mətndəki illüstrasiya və şəkillərdən, maddi tapıntı nümunələrindən istifadə edərək tarixi tədqiqat aparır. |

Əmək alətlərindən nümunələr nümayiş etdirməklə onların vacibliyi, gərəkliyi, insan və cəmiyyət həyatının inkişafındakı rolu diqqətə çatdırılır. Kiçik müzakirə aparılır.

***Tədqiqat sualı:***

— *Qədim insanların istifadə etdikləri əmək alətləri necə meydana gəldi?*

Şagirdlər tədqiqat sualı ətrafında öz fikirlərini söyləyirlər.

Sinif qruplara bölünür. Dərsliyin mətni, eləcə də 17, 18, 19-cu səhifələrindəki illüstrasiyalar təhlil edilir.






Qruplara tapşırıqlar verilir.

1. Qədim və Orta daş dövründə hansı əmək alətləri hazırlanmışdı və onlardan necə istifadə edilirdi?

2. Yeni daş dövründə hansı əmək alətləri meydana gəldi?
3. İlk metal alətlər necə yarandı?
4. Dəmir dövrünə aid əmək alətlərinin yaranmasının əhəmiyyəti nə idi?

Şagirdlər tədqiqat sualına cavab tapmaq üçün bir-birinin təqdimatını dinləyirlər. Digər qrupların dinlənilən təqdimata aid əlavələrini və düzəlişlərini etməklə daha əhəmiyyətli məlumatlar seçilir. Məqsədyönlü müzakirə aparılır. Eyni zamanda mövzunun sonundakı sual və tapşırıqlar müzakirə edilir və cavablandırılır. Məlumatın təşkili faktlar və yeni biliklər arasında əlaqələri aşkar edir və onları sistemləşdirməyə kömək edir. Tədqiqat sualının cavabı ümumiləşdirilir. Şagirdlər əldə etdikləri bilikləri və yeni faktları tədqiqat sualı ilə əlaqələndirirlər. Beləliklə, tədqiqat sualı cavablandırılır.

***Yaradıcı tapşırıq:*** Əmək alətlərinin təkmilləşdirilməsinin cəmiyyətin inkişafı üçün əhəmiyyətini əsaslandırın.

Meyarlar əsasında qarşılıqlı qiymətləndirmədən istifadə etməklə qrupların nailiyyətləri qiymətləndirilir.

***Ev tapşırığı:*** Şagirdlərə öz ailələrində istifadə edilən əmək və məişət alətlərini inkişaf tarixi və əhəmiyyətlilik baxımından qiymətləndirmək təklif edilir.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *tədqiqataparma*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Dərsliyin müvafiq mətnindəki illüstrasiya və şəkillərdən, maddi tapıntı nümunələrindən istifadə edərək tarixi tədqiqat aparır. | Dərsliyin müvafiq mətnini oxuyur, tarixi tədqiqat aparmaqda çətinlik çəkir. | Dərsliyin müvafiq mətni əsasında bəzi məlumatlar əldə edir, illüstrasiyalarda təsvir olunmuş bəzi əmək alətlərini tanıyır, tədqiqat aparmağa cəhd edir. | Müvafiq mətn və illüstrasiyaları təhlil edir, əldə etdiyi məlumatlar əsasında müəllimin köməyi ilə tarixi tədqiqat aparır. | Müvafiq mətn və illüstrasiyalarda təsvir olunmuş dərslik mətni əsasında əmək alətləri və onların necə meydana gəlməsi haqqında tarixi tədqiqat aparır. |

# 5. Azərbaycanın ən qədim dövləti

| *Standartlar* | *Təlim məqsədləri* |
|---|---|
| 2.1.2.; 3.1.1.; 4.1.2. | 1. Manna haqqında sadə biliklər nümayiş etdirir.<br>2. Xəritələrdə Manna ərazisini müəyyənləşdirir.<br>3. Mənbələrə əsasən İranzu haqqında təqdimat hazırlayır. |

Şagirdlərə lövhədə yazılmış "ailə", "qəbilə", "tayfa", "xalq" haqqında fikirlərinizi söyləyin – deyə müraciət edilir.

Daha sonra şagirdlərdən dövlət haqqında təsəvvürləri soruşulur. Dövlətin əsas əlamətləri yazılmış sxem şagirdlərə göstərilir və onların cavabları ilə tutuşdurulur. Tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:***

– *Azərbaycanın ən qədim dövləti Mannanın tarixi inkişaf yolu nədən ibarətdir?*

Dərsliyin müvafiq mətni oxunur və təhlil edilir.

Əvvəlcə şagirdlərə kollektiv tapşırıq verilir.




Xəritədə Manna dövlətinin yarandığı qədim Azərbaycan ərazisini müəyyən etmək təklif edilir.

Tədqiqat aparmaq üçün şagirdlər qruplara bölünür.

Qruplarda aşağıdakı məsələlər ətrafında müzakirə aparılır:

1. Manna dövləti nə vaxt, harada və hansı zərurətdən yarandı? (Manna dövlətinin nə vaxt (zaman) və harada (məkan) yaranması faktları qarşılaşdırılır).
2. Manna dövlətinin möhkəmlənməsində İranzunun rolu nədən ibarət idi?
3. Mannanın təsərrüfatı necə inkişaf edirdi?
4. Manna mədəniyyətinin yüksək inkişafını hansı faktlar sübut edir?







Yuxarıdakı şəkillər 3-cü və 4-cü tapşırığın yerinə yetirilməsi üçün tarixi mənbə kimi istifadə edilir. İkinci tapşırıq səbəb-nəticə əlaqələrinin müəyyən edilməsinə, üçüncü tapşırıq dövlətin və xalqın taleyində mühüm rol oynamış şəxsiyyətlərin müəyyənləşdirilməsinə xidmət edir. Qruplar tədqiqat işlərini mübadilə edirlər. Qoyulmuş suala cavab tapmaq üçün bütün iştirakçılar bir-birini dinləyir, digər iştirakçıların əldə etdikləri faktlara və məlumatlara münasibət bildirirlər. Qüdrətli Manna dövlətinin yaranması və inkişafı haqqında məlumatlar ümumiləşdirilir.

***Yaradıcı tapşırıq:*** "İranzu ağsaqqallar şurasının iclasında" adlı səhnəcik vasitəsilə şagirdlər əldə etdikləri bilikləri yaradıcı şəkildə təqdim edirlər (4.1.2.). Manna dövlətinin qüvvətlənməsində hökmdar İranzunun rolu şagirdlərin özləri tərəfindən nümayiş etdirilir.

***Ev tapşırığı:*** Şagirdlərin öz fikirlərini yazılı şəkildə ifadə etmək bacarığını müəyyənləşdirmək məqsədilə "İzirtu – paytaxt şəhəri" adlı hekayə qurmaq tapşırılır.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *nümayişetdirmə, müəyyənləşdirmə, təqdimathazırlama*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Manna haqqında sadə biliklər nümayiş etdirir. | Manna haqqında bəzi sadə bilikləri nümayiş etdirir. | Manna haqqında sadə biliklərini nümayiş etdirməyə cəhd edir. | Manna haqqında sadə biliklərini əsasən düzgün nümayiş etdirir. | Manna haqqında sadə bilikləri, onun nə vaxt və hansı ərazidə, hansı zərurətdən yaranmasını izah etməklə nümayiş etdirir. |
| Xəritələrdə Manna ərazisini müəyyənləşdirir. | Xəritədə Manna ərazisini müəyyənləşdirməkdə çətinlik çəkir. | Xəritədə Manna dövlətinin ərazisini əsasən düzgün müəyyənləşdirir. | Xəritədə Manna dövlətinin ərazisini müəyyənləşdirir, sərhədlərini dəqiq göstərə bilmir. | Xəritədə Manna ərazisini və onun sərhədlərini sərbəst müəyyən edir. |
| Mənbələrə əsasən İranzu haqqında təqdimat hazırlayır. | Mənbələrə əsasən İranzu haqqında cüzi məlumat toplayır, təqdimat hazırlamaqda çətinlik çəkir. | Mənbələrə əsasən İranzu haqqında topladığı məlumat əsasında sadə təqdimat hazırlayır. | Mənbələrə əsasən İranzunun dövlətin möhkəmləndirilməsindəki rolunu müəyyən edir və təqdimat hazırlayır. | Mənbələrə əsasən İranzu haqqında geniş və maraqlı təqdimat hazırlayır. |

# 6. Hökmdar qadın — Tomiris

| *Standartlar* | *Təlim məqsədləri* |
|---|---|
| 4.1.1.;<br>4.1.2. | 1. Tomirisin Azərbaycan tarixində mühüm rol oynadığını müəyyən edir.<br>2. Mənbələrə əsasən Tomiris haqqında təqdimat hazırlayır. |

Şagirdlərə insanlar, xalqlar, dövlətlər arasında baş verən münaqişələr, müharibələr, onların səbəbləri və nəticələri haqqında fikirlərini bildirmək təklif edilir.

Qısa müzakirədən sonra tədqiqat sualı müəyyən edilir:

***Tədqiqat sualı:***

– *"Tomiris Kirə nə üçün qalib gəldi?"*

Dərslikdəki müvafiq mətn bütün siniflə birlikdə oxunur və təhlil edilir. Şagirdlər, həmçinin dərsliyin mətnində verilmiş Tomirisin şəklini və massagetlərə aid illüstrasiyaları təhlil edirlər.





Mövzu üzrə reqlamentləşdirilmiş diskussiya aparılır.

Tədqiqat aparmaq üçün şagirdlər qruplara bölünür. Mövzunun ayrı-ayrı hissələrinə aid təhrif olunmuş mətn qruplara verilir. Şagirdlər mətn və illüstrasiyaların təhlili əsasında əldə etdikləri biliklərdən istifadə edərək təhrif olunmuş mətn üzərində işləyir, onun düzgün variantını hazırlayırlar. Mövzu üzrə birinci təlim məqsədi yerinə yetirilir.

Əldə edilmiş bilikləri möhkəmləndirmək üçün şagirdlərə sxemi tamamlamaq tapşırılır.




Mətnin ayrı-ayrı hissələri arasında müzakirə sualları vasitəsilə əlaqə yaradılır.

Qruplar tədqiqat işlərini mübadilə edirlər.

Qrupların fəaliyyəti özünüqiymətləndirmə cədvəli vasitəsilə qiymətləndirilir.

***Yaradıcı tapşırıq:***

“Kirin elçiləri Tomirisin sarayında” – rollu oyun vasitəsilə şagirdlər tarixi hadisənin iştirakçıları – Tomirisin və Kirin elçiləri arasında olmuş danışıqları özləri nümayiş etdirirlər.

Şagirdlərin fikirləri müzakirə edilir və ümumiləşdirilir.

Şagirdlər gəldikləri nəticələri tədqiqat sualı və özlərinin irəli sürdükləri fərziyyələrlə tutuşdururlar. Nəticənin həmin suala cavab verib-vermədiyi müəyyən edilir.

Şagirdlər dərsliyin 25-ci səhifəsindəki illüstrasiyaya əsasən massagetlərin ordusunu təsvir edirlər.

***Ev tapşırığı:*** Atropat haqqında məlumat toplamaq.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *müəyyənetmə, təqdimathazırlama*

| **Təlim məqsədləri** | **I** | **II** | **III** | **IV** |
|---|---|---|---|---|
| Tomirisin Azərbaycan tarixində mühüm rol oynadığını müəyyən edir. | Tomirisin massagetlərin hökmdarı olduğunu bilir. | Tomirisin Azərbaycan tarixində mühüm rol oynadığını müəyyənləşdirərkən faktları əsaslandırmaqda çətinlik çəkir. | Tomirisin Azərbaycan tarixində mühüm rol oynadığını əsasən düzgün müəyyən edir. | Tomirisin Azərbaycan tarixində mühüm rol oynadığını nümunələr əsasında müəyyənləşdirir. |
| Mənbələrə əsasən Tomiris haqqında təqdimat hazırlayır. | Mənbələrdən çətinliklə istifadə edir, təqdimat hazırlamaqda çətinlik çəkir. | Mənbələrə əsasən Tomiris haqqında bəzi məlumat toplayır, çətinliklə təqdimat hazırlayır. | Mənbələrə əsasən Tomiris haqqında başlıca məlumatlar əsasında yalnız sadə təqdimat hazırlayır. | Mənbələr əsasında Tomiris haqqında əhatəli və əsaslandırılmış təqdimat hazırlayır. |

# 7. “Azərbaycan” adı necə yarandı?

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 2.1.2.;<br>4.1.1. | 1. Atropatena dövlətinin yaranmasında Atropatın rolunu izah edir.<br>2. Atropatena dövlətinin meydana gəldiyi ərazini xəritədə müəyyən edir. |

Şagirdlərə qısa şərh verilir.

– Siz Azərbaycan ərazisində yaranmış ilk qədim dövlət olan Manna haqqında öyrənmisiniz. Manna dövlətinin yaranma səbəblərini və inkişaf xüsusiyyətlərinə aid biliklərinizi yada salın. Sizcə, Azərbaycanda yeni dövlətin yaranması hansı zərurətdən irəli gələ bilərdi? Şagirdlər müzakirəyə cəlb edilir. Beləliklə, tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:***

*– Azərbaycan adı necə yarandı?*



Şagirdlərə kollektiv tapşırıq verilir və dərsliyin 29-cu səhifəsindəki xəritəyə əsasən Atropatena dövlətinin yerləşdiyi ərazini müəyyənləşdirmək təklif edilir.

Atropatena dövlətinin meydana gəldiyi ərazi və onun sərhədləri müəyyən edilir.

Dərslikdəki müvafiq mətn hissələrə bölünərək təhlil edilir. Qruplara mövzu ilə bağlı xəritə, “Atropat” hekayəsi və illüstrasiyalar təqdim edilir.

Tədqiqat işinin planını aşağıdakı kimi müəyyənləşdirmək olar.




1. Atropatena dövlətinin təbii şəraiti necə idi?
2. Atropatenada təsərrüfat necə inkişaf edirdi?
3. Atropatenanın yaranmasında və inkişafından Atropatın rolu nədən ibarət idi?
4. Atropatena yadellilərə qarşı necə mübarizə aparırdı?
5. Manna dövləti ilə Atropatena arasında hansı oxşar və fərqli cəhətlər vardı?

| Dövlət | Ərazi | Paytaxt | Təsərrüfat |
|---|---|---|---|
| Manna | | | |
| Atropatena | | | |

Mətnin ayrı-ayrı hissələri arasında müzakirə sualları vasitəsilə əlaqə yaradılır.

Qruplar işlərini müəyyən olunmuş ardıcıllıqla təqdim edirlər. Daha sonra cədvəlin hər bir sütunu üzrə məlumat qruplar tərəfindən cavablandırılaraq tamamlanır.



Cədvəl qruplar tərəfindən tamamlanır. İstiqamətləndirici suallar vasitəsilə əldə edilmiş biliklər möhkəmləndirilir:

– Atropatena Azərbaycanın hansı torpaqlarını əhatə edirdi?
– Atropatenada sənətkarlığın sürətli inkişafına təkan verən amil nədən ibarət idi?
– Atropatenanın qüvvətlənməsində Atropatın rolu nədən ibarətdir?
– Dərsliyin 30-cu səhifəsindəki illüstrasiyaya əsasən Atropatena döyüşçüsünü sözlə necə təsvir etmək olar?

Nəticələr ümumiləşdirilir. Azərbaycanın cənub ərazisində yaranmış Atropatena dövləti güclü dövlət idi. Onun əlverişli və zəngin sərvətləri ölkədə təsərrüfatın müxtəlif sahələrinin inkişafına təkan verirdi. Bu amil zəngin xəzinə yaratmağa, güclü ordu saxlamağa, ölkəni yadellilərdən qorumağa imkan yaradırdı. Dövlətin güclənməsində onun ilk hökmdarı Atropat misilsiz rol oynamışdı. Ölkəni Atropatena, yəni Atropatın ölkəsi adlandırırdılar. Ərəblərin dövründə bu ad “Azərbaycan” kimi səslənməyə başladı.

***Yaradıcı tapşırıq:*** 30-cu səhifədəki illüstrasiyaya əsasən Atropatena hökmdarının andiçmə mərasiminə aid səhnəcik hazırlayın.

***Ev tapşırığı:*** Şagirdlərə “Bu gün Azərbaycan dedikdə hansı əraziləri nəzərdə tutursunuz?” sualı əsasında məlumat yazmaq tapşırılır.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *izahetmə, müəyyənetmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Atropatena dövlətinin yaranmasında Atropatın rolunu izah edir. | Atropatena dövləti haqqında cüzi məlumatı vardır, onun yaranmasında Atropatın rolunu izah etməkdə çətinlik çəkir. | Atropatena dövlətinin yaranmasında Atropatın rolunu müəllimin köməyi ilə izah edir. | Atropatena dövlətinin yaranmasında Atropatın oynadığı rolu əsasən düzgün izah edir. | Atropatena dövlətinin yaranmasında və möhkəmlənməsində Atropatın rolunu nümunələrlə izah edir. |
| Atropatena dövlətinin meydana gəldiyi ərazini xəritədə müəyyən edir. | Atropatena dövlətinin meydana gəldiyi ərazini bilir, xəritədə müəyyən etməkdə çətinlik çəkir. | Atropatena dövlətinin meydana gəldiyi ərazini xəritədə müəllimin köməyi ilə müəyyən edir. | Atropatena dövlətinin meydana gəldiyi ərazini xəritədə, əsasən, düzgün müəyyən edir. | Atropatena dövlətinin yarandığı ərazini və onun sərhədlərini asanlıqla müəyyən edir. |

# 8. Qədim Azərbaycan dövləti — Albaniya

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 2.1.2.;<br>3.1.1. | 1. Albaniya dövləti haqqında sadə biliklər nümayiş etdirir.<br>2. Xəritədə Albaniya ərazisini və onun mühüm tarixi abidələrinin yerini müəyyənləşdirir. |

Şagirdlərin diqqəti dərsliyin 29-cu səhifəsindəki Azərbaycan xəritəsinə yönəldilir. Onların Manna və Atropatena haqqında keçmiş dərsdə əldə etdikləri bilikləri yada salınır. İstiqamətləndirici suallar vasitəsilə müzakirə aparılır. Cavablar ümumiləşdirilir və tədqiqat sualı qoyulur.

***Tədqiqat sualı:***

*– Qədim Albaniya dövləti hansı ərazilərdə yaranıb inkişaf edirdi?*

Əsas məsələnin həlli üçün kiçik müzakirə aparılır. Qoyulan suala cavab tapmaq və şagirdlərin ideyalarının doğruluğunu yoxlamaq üçün faktlar axtarılır. Dərslikdəki müəllif mətni təhlil edilir, xəritə, şəkillər və şagirdlərə təqdim olunmuş digər materiallar araşdırılır. Əldə edilmiş yeni məlumatlar qeyd olunur.

Şagirdlərə BİBÖ cədvəli təqdim edilir. Manna və Atropatena haqqında biliklər birinci sütuna yazılır. Müzakirə əsasında şagirdlərin bilmək istədikləri mövzu müəyyən edilir.

Qrupların hər biri plan üzrə bir təlim materialı üzərində işləyir və cədvəlin müvafiq bəndini tamamlayır.

Qrup tapşırıqları:

1. Arxeoloji qazıntılar Albaniya tarixi haqqında hansı məlumatları verir?
2. Albaniyanın paytaxt şəhəri Qəbələ necə inkişaf edirdi?
3. Albaniyada təsərrüfatın hansı sahələri öz inkişafına görə fərqlənirdi?



*qablar*



*metal pullar*


daş heykəl


dəbilqə


qolbaq

4. Albaniyada mədəniyyətin inkişafını hansı faktlar sübut edir?

*Açar sözlər:* ağac, xış, vəl, cüt, mala, oraq, yaba, xırman, əldəyirmanları, nehrə, toxuculuq, dabbaq, dulusçuluq, dərzi, zərgərlik

Qrupların cavabları ardıcıllıqla dinlənilir.

Qruplar öz məlumatlarını mübadilə edir və cədvəli tamamlayırlar.

BİBÖ cədvəlinin 3-cü sütununa aid məlumatlar müvafiq yerə yazılır.

***Yaradıcı tapşırıq:*** Albaniyanın və Azərbaycan Respublikasının əraziləri müqayisə edilir və fərqləndirilir.

Albaniya dövləti haqqında əldə olunan məlumatlar qoyulan tədqiqat sualı ilə və şagirdlərin fikirləri ilə tutuşdurulur.

Şagirdlərə müasir Qəbələ haqqında fikirlərini söyləmək təklif edilir.

***Ev tapşırığı:*** Venn diaqramında Albaniya və Atropatena dövlətlərini müqayisə edin (səh. 36, 5-ci tapşırıq).

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *nümayişetdirmə, müəyyənləşdirmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Albaniya haqqında sadə biliklər nümayiş etdirilir. | Albaniya haqqında sadə bilik nümayiş etdirməkdə çətinlik çəkir. | Albaniya haqqında sadə bilikləri müəllimin köməyi ilə nümayiş etdirir. | Albaniya haqqında sadə bilikləri əsasən düzgün nümayiş etdirir. | Albaniya haqqında sadə bilikləri əlaqələndirərək nümayiş etdirir. |
| Xəritədə Albaniya ərazisini və onun mühüm tarixi abidələrini müəyyənləşdirir. | Xəritə ilə işləməkdə çətinlik çəkir. | Xəritədə Albaniya ərazisini müəllimin köməyi ilə müəyyən edir. | Xəritədə Albaniya ərazisini müəyyən edir, onun mühüm tarixi abidələrini bəzən səhv salır. | Xəritədə Albaniya ərazisini və onun mühüm tarixi abidələrini sərbəst müəyyən edir. |

# 9. Azərbaycanda dini inanclar

| *Standartlar* | *Təlim məqsədləri* |
|---|---|
| 5.1.2.;<br>5.1.3. | 1. Atəşpərəstlik, xristianlıq və islam dinlərinin mənəvi dəyərini fərqləndirir.<br>2. İslam dini ilə bağlı sadə təqdimat hazırlayır. |

Artıq şagirdlərin dinlər haqqında müəyyən bilikləri vardır. Onları yada salmaqla şagirdlərə atəşpərəstlik, xristianlıq, islam, bütpərəstlik dini inanclarını sxem vasitəsilə əlamətlərinə görə iki sütunda qruplaşdırmaq təklif olunur.

**Dini inanclar**

| **Çoxtanrılı dinlər** | **Təktanrılı dinlər** |
|---|---|
| | |

Müzakirə zamanı şagirdlərin diqqəti və fəaliyyəti ölkəmizdə atəşpərəstlik, xristianlıq və islam dinlərinin yayılmasına və təsirinin müəyyənləşdirilməsinə yönəldilir.

***Tədqiqat sualı:***

*– Atəşpərəstlik, xristianlıq və islam dini Azərbaycan mədəniyyətinə necə təsir etdi?*

Şagirdlər bütün siniflə birlikdə tədqiqat fəaliyyətini davam etdirirlər. Tədqiqat sualına cavab verməyə kömək edə biləcək faktları tapmaq üçün şagirdlərə tapşırıq verilir.

| **1. Atəşpərəstlik dini və "Avesta"** | **2. Xristian dini və onun Azərbaycanda yayılması** | **3. İslam dininin mahiyyəti** |
|---|---|---|
|  |  |  |

Şagirdlər üç qrupa bölünür və dərslik mətni ilə tanış edilir. Sonra atəşpərəstlik, xristianlıq və islam dininə aid şəkillər təhlil edilir. Dərslik mətni oxunur və müza-

kirə olunur. Hər qrup bir din haqqında tədqiqat aparır. Əldə edilmiş məlumat mübadilə edilir. Daha sonra şagirdlərə islami dəyərlərin müəyyənləşdirilməsi tapşırılır.

Tapşırıq yerinə yetirilir və sxem tamamlanır.

İslami dəyərlər:




İslamın qəbul edilməsi ilə Azərbaycan xalqının birliyinə və mədəniyyətin inkişafına mane olan amillərin aradan qalxması, milli dəyərlərimizin daha da zənginləşməsi nəticəsinə gəlinir.

Kollektiv tapşırıq: Xəritə üzərində atəşpərəstlik, xristianlıq və islam abidələrinin yerləşdiyi əraziləri müəyyənləşdirin.

Dərsliyin müvafiq mövzusuna aid sual və tapşırıqlar cavablandırılır.

***Yaradıcı tapşırıq:*** İslam dininin elmə və təhsilə yüksək dəyər verməsi, onun Azərbaycan xalqının birliyinə və mədəniyyətinin inkişafına müsbət təsirinə dair təqdimat hazırlayın.

***Ev tapşırığı:*** Şagirdlərə islam dininin elm və təhsilə dəyər verməsi haqqında esse yazmaq təklif edilir.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *fərqləndirmə, təqdimathazırlama*

| **Təlim məqsədləri** | **I** | **II** | **III** | **IV** |
|---|---|---|---|---|
| Atəşpərəstlik, xristianlıq və islam dinlərinin mənəvi dəyərini fərqləndirir. | Ayrı-ayrı dinlər haqqında məlumatları fərqləndirməkdə çətinlik çəkir. | Atəşpərəstlik, xristianlıq və islam dinlərinin mənəvi dəyərlərini müəllimin köməyi ilə fərqləndirir. | Atəşpərəstlik, xristianlıq və islam dinlərinin mənəvi dəyərlərini, əsasən, düzgün fərqləndirir. | Atəşpərəstlik, bütpərəstlik və islam dinlərinin mənəvi dəyərlərini nümunələrlə əsaslandırır və fərqləndirir. |
| İslam dini ilə bağlı sadə təqdimat hazırlayır. | İslam dini ilə bağlı bəzi məlumatı vardır, təqdimat hazırlamaqda çətinlik çəkir. | İslam dini ilə bağlı başlıca məlumatları vardır, yoldaşlarının köməyi ilə təqdimat hazırlayır. | İslam dini ilə bağlı müəllimin və ya şagird yoldaşlarının köməyi ilə sadə təqdimat hazırlayır. | slam dini ilə bağlı topladığı geniş məlumat əsasında sərbəst təqdimat hazırlayır. |

# AZƏRBAYCAN ORTA ƏSRLƏRDƏ

## 10. Cavanşir

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 1.1.2.; 4.1.1. | 1. Cavanşirin fəaliyyəti, hakimiyyət dövrü ilə bağlı sadə xronoloji məsələləri həll edir.<br>2. Alban hökmdarı Cavanşirin Azərbaycan tarixində mühüm rol oynadığını müəyyən edir. |

Azərbaycanın tarixi şəxsiyyətləri təsvir olunmuş şəkilləri şagirdlərə göstərərək onlara sual verə bilərsiniz: – Sizcə, burada təsvir olunmuş şəxsiyyətlərdən hansı hökmdardır?

Şagirdlərin cavabları dərsin mövzusuna keçmək üçün körpü salır və dərsdə Azərbaycanın orta əsr dövlətlərindən birinin hökmdarından bəhs ediləcəyi qeyd olunur.

Kiçik müzakirədən sonra tədqiqat sualı qoyulur:

***Tədqiqat sualı:***

– *Cavanşirin Azərbaycan tarixində oynadığı mühüm rol nədən ibarətdir?*

Şagirdlərə kollektiv tapşırıq verilir:

1. Manna dövlətinin yaranmasından Cavanşirin xəlifə ilə görüşünədək neçə əsr keçmişdir?
2. Albaniya dövlətinin yaranmasından onun yenidən bərpasınadək neçə əsr keçmişdir?

Xronoloji məsələnin həllindən sonra şagirdlər mətnlə tanış edilir.

Qısa müzakirədən sonra şagirdlər qruplara bölünür və onlara tapşırıqlar verilir:

1. Cavanşir kim idi?
2. Cavanşir necə dövlət başçısı idi?
3. Xəritəyə əsasən Albaniya ərazisini və sərhədlərini təsvir edin.
4. Cavanşirin xarici siyasətinin əsas məqsədlərinə əsasən istiqamətlərini müəyyən edin.



Tapşırıqlar mətn oxunduqdan, şəkil və illüstrasiyalar təhlil olunduqdan sonra ardıcıllıqla yerinə yetirilir.

Tədqiqatın nəticələri müzakirə olunur.

Şagirdlər tədqiqat prosesində əldə etdikləri yeni biliklərdən istifadə edərək öz tapşırıqlarının əsas ideyasına cavab tapır və tədqiqat sualını cavablandırırlar. Öyrənilmiş biliklər möhkəmləndirilir.

| Müəyyənləşdirin | Cavablandırın |
|---|---|
| Albaniya dövlətinin yenidən bərpası və möhkəmlənməsini | |
| Cavanşirin daxili siyasətini | |
| Cavanşirin xarici siyasətini | |
| Cavanşirin xalqın və dövlətin mənafeyinin qorunmasındakı rolunu | |



***Yaradıcı tapşırıq:*** İllüstrasiyaya əsasən "Cavanşir döyüşdə" adlı hekayə yazın.

***Ev tapşırığı:*** Düşünün və məntiqi cavab hazırlayın: Müasir dövrdə Cavanşir adı nə üçün geniş yayılmışdır?

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *sadə xronoloji məsələləri həlletmə, müəyyənetmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Cavanşirin fəaliyyəti, hakimiyyət dövrü ilə bağlı sadə xronoloji məsələləri həll edir. | Cavanşirin fəaliyyəti, hakimiyyət dövrü ilə bağlı sadə xronoloji məsələləri dolaşıq salır. | Cavanşirin fəaliyyəti, hakimiyyət dövrü ilə bağlı bəzi sadə xronoloji məsələləri həll edir. | Cavanşirin fəaliyyəti, hakimiyyət dövrü ilə bağlı bütün sadə xronoloji məsələləri həll edir. | Cavanşirin fəaliyyəti, hakimiyyət dövrü ilə bağlı sadə xronoloji məsələlərin zamanla əlaqəsini müəyyənləşdirərək sərbəst həll edir. |
| Alban hökmdarı Cavanşirin Azərbaycan tarixində mühüm rol oynadığını müəyyən edir. | Cavanşir haqqında bəzi məlumatları vardır. | Cavanşirin Azərbaycan tarixində mühüm rol oynadığını müəyyən etməkdə çətinlik çəkir. | Cavanşirin Azərbaycan tarixində mühüm rol oynadığını, əsasən, düzgün müəyyən edir. | Cavanşirin Azərbaycan tarixində mühüm rol oynadığını düzgün və sərbəst müəyyən edir. |

# 11. “Qırx il kölə kimi yaşamaqdansa...”

| *Standartlar* | *Təlim məqsədləri* |
|---|---|
| 2.1.2.; 4.1.1. | 1. Babəkin başçılıq etdiyi azadlıq hərəkatının baş verdiyi məkanı müəyyən edir.<br>2. Babəkin azadlıq mübarizəsinin tarixi əhəmiyyətini dəyərləndirir. |

“Babək” filmindən məqsədəuyğun seçilmiş fraqment göstərilir. Şagirdlər müzakirəyə cəlb edilir.

Dərsin əsas ideyası müəyyən edilir.

***Tədqiqat sualı:***

— *Babək hansı amallar uğrunda mübarizə aparırdı?*

Dərslikdəki müvafiq mətn hissələrə bölünərək oxunur və təhlil edilir. Şəkil və illüstrasiyalar təhlil edilir.

Təlim məqsədinə uyğun olaraq şagirdlərə Babəkin başçılığı ilə azadlıq mübarizəsinin baş verdiyi ərazilər və Bəzz qalasının yerləşdiyi məkanı xəritəyə əsasən müəyyən etmək tapşırılır. Ərazilərin adları qeyd edilir.

Dərslik mətninin təhlili əsasında Xürrəmilər üsyanının səbəbləri müzakirə sualları vasitəsilə müəyyənləşdirilir.

Qruplar ərəb zülmünə qarşı Babəkin başçılıq etdiyi azadlıq mübarizəsinə aid cədvəli tamamlayırlar.

| Tarixi hadisə | Nəticə |
|---|---|
| Babəkin başçılıq etdiyi üsyanın səbəbləri | |
| Üsyanların baş verdiyi ərazilər | |
| Üsyançıların ərəblərlə həlledici döyüşləri | |
| Babəkin başçılıq etdiyi üsyanın tarixi əhəmiyyəti | |

Qrup nümayəndələri öz işlərini təqdim edirlər: tamamlanmış cədvələ əsasən yekun nəticəyə gəlinir.

Tədqiqat prosesində əldə olunan və mənimsənilən yeni biliklər və toplanılan məlumatlar ümumiləşdirilir.

Ərəb zülmündən çox əziyyət çəkən xalqımız onları ölkəmizdən qovmaq və azad olmaq üçün mübarizə aparırdı. Ona görə də bu mübarizəyə azadlıq mübarizəsi deyilir.

Şagirdlər cədvəl vasitəsilə Babəkin qələbələrinin və məğlubiyyətlərinin səbəblərini və nəticələrini müqayisə edirlər.

| Babəkin qələbələri | Babəkin məğlubiyyətləri | Nəticələr |
|---|---|---|
| | | |

***Yaradıcı tapşırıq:*** Şagirdlər Babəkin qəhrəmanlığını səhnəciyin köməyi ilə nümayiş etdirirlər.

Tarixi hadisələrin əhəmiyyətinin dəyərləndirilməsi şagirdlərdə qiymətləndirmə bacarığı formalaşdırmağa imkan verir.

***Ev tapşırığı:***

“Babək işğalçılara qarşı döyüşdə” adlanan şəkil əsasında hekayə qurun.



***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *müəyyənetmə, dəyərləndirmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Babəkin başçılıq etdiyi azadlıq hərəkatının baş verdiyi məkanı müəyyən edir. | Babəkin azadlıq hərəkatının baş verdiyi məkanı müəyyən etməkdə çətinlik çəkir. | Babəkin azadlıq hərəkatının baş verdiyi məkanı müəllimin köməyi ilə müəyyən edir. | Babəkin azadlıq hərəkatının baş verdiyi ərazini, əsasən, düzgün müəyyən edir. | Babəkin azadlıq hərəkatının baş verdiyi ərazini tam düzgün və sərbəst müəyyən edir. |
| Babəkin azadlıq mübarizəsinin tarixi əhəmiyyətini dəyərləndirir. | Babəkin azadlıq mübarizəsinin tarixi əhəmiyyətini dəyərləndirməkdə çətinlik çəkir. | Babəkin azadlıq mübarizəsinin tarixi əhəmiyyətini müəllimin köməyi ilə dəyərləndirir. | Babəkin azadlıq mübarizəsinin tarixi əhəmiyyətini, əsasən, düzgün müəyyən edir. | Babəkin azadlıq mübarizəsinin tarixi əhəmiyyətini milli-mənəvi dəyərlərlə əlaqələndirərək dəyərləndirir. |

# 12. "Kitabi-Dədə Qorqud" — yurdumuzun tarix salnaməsi

| *Standartlar* | *Təlim məqsədləri* |
|---|---|
| 5.1.2. | 1. "Kitabi-Dədə Qorqud" dastanının milli-mənəvi dəyərini qiymətləndirir. |

Şagirdlərə lövhədə, yaxud vərəqdə çəkilmiş sxem təqdim olunur və anlayışın müəyyənləşdirilməsi tapşırılır.

Verilmiş əlamətlərə görə anlayış çıxarılır:




Müzakirə sualı: Azərbaycan tarixinin öyrənilməsində yazılı tarixi mənbələrin rolu nədir?

***Tədqiqat sualı:***

– *"Kitabi-Dədə Qorqud" dastanının tarixi əhəmiyyəti nədir?*

Şagirdlər öz fikirlərini izah edirlər. Suala cavab tapmaq üçün şagirdlərə kömək edə biləcək tapşırıq verilir. Tədqiqat böyük və kiçik qruplarda aparılır. Qrupların hərəsi bir məsələ üzərində tədqiqat aparır. Dərslik mətni, 49-cu səhifədə verilmiş illüstrasiya üzərində iş aparılır.





Araşdırılan hər bir məsələ üzrə əldə olunan biliklər cədvəldə və sxemdə ümumiləşdirilir. Həmin biliklər tədqiqat sualı ilə qarşılaşdırılır. Tədqiqat sualının cavabı aydın olur:

**“Kitabi-Dədə Qorqud” dastanındakı məlumatlar əsasında cədvəli tamamlayın:**

| Müəyyənləşdirin | Tamamlayın |
|---|---|
| Oğuzların Vətən sevgisi | |
| Oğuzların yadellilərə qarşı mübarizəsini | |
| Oğuz türklərinin həyat tərzini | |
| “Kitabi-Dədə Qorqud” dastanının yazılı tarixi mənbə kimi əhəmiyyətini | |

“Kitabi-Dədə Qorqud” dastanı yurdumuzun tarixi keçmişini, oğuz türklərinin həyatını, təsərrüfatını, dini görüşlərini, yağılara qarşı mübarizə yolunu öyrənməyə imkan verdiyi üçün yurdumuzun tarixi salnaməsi hesab edilir.

***Yaradıcı tapşırıq:***

Şagirdlər həll edilən məsələyə öz baxışlarını dastandan bir parçanı səhnələşdirməklə nümayiş etdirirlər.

Dərsliyin 51-ci səhifəsindəki 3-cü metodik göstəriş şagirdlərə ev tapşırığı olaraq verilir.




***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *qiymətləndirmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| “Kitabi-Dədə Qorqud” dastanının milli-mənəvi dəyərini qiymətləndirir. | “Kitabi-Dədə Qorqud” dastanı haqqında cüzi məlumatı vardır. | “Kitabi-Dədə Qorqud” dastanı haqqında bəzi məlumatı vardır, milli-mənəvi dəyərini qiymətləndirməkdə çətinlik çəkir. | “Kitabi-Dədə Qorqud” dastanının milli-mənəvi dəyərini, əsasən, düzgün qiymətləndirir. | “Kitabi-Dədə Qorqud” dastanının milli-mənəvi dəyərini sərbəst və əsaslandıraraq qiymətləndirir. |

# 13. Azərbaycanın "Dəmir qapı"sı — Dərbənd

| *Standartlar* | *Təlim məqsədləri* |
|---|---|
| 1.2.2.;<br>2.1.2. | 1. Dərsliyin mətni və illüstrasiyadan istifadə edərək Dərbənd şəhəri haqqında tarixi tədqiqat aparır.<br>2. Xəritələrdə Dərbəndin yerləşdiyi məkanı müəyyənləşdirir. |

Şagirdlərə "Azərbaycanın dəniz sahillərində yerləşən hansı liman şəhərlərini tanıyırsınız? sualını verməklə müzakirə təşkil edilir.

LİMAN ŞƏHƏRLƏR

Kiçik müzakirə prosesində şagirdlərin qoyulan suala aid cavabları ümumiləşdirilir və tədqiqat sualı müəyyənləşdirilir.



***Tədqiqat sualı:***

*– Dərbənd Azərbaycan üçün hansı mühüm əhəmiyyətə malik idi?*

Şagirdlər sualı müzakirə edirlər. Dərsliyin müvafiq mətni oxunur və müzakirə edilir.

Dərbənd qalası haqqında illüstrasiya təhlil edilir. Onun əsasında problemi həll etmək üçün vacib olan yeni faktlar və məlumatlar tapılır.

Sinfə tapşırıq verilir:

– "Xəritə əsasında Dərbənd şəhərinin yerləşdiyi məkanı müəyyən edin".

Tapşırıq yerinə yetirilir.

Cədvəlin hər sütunundakı sual qrup tapşırığı kimi verilir.

| **Dərbənd şəhərinin təbii-coğrafi mövqeyi necə idi?** | **Dərbənd liman-şəhərinin "Dəmir qapı" adlandırılmasının səbəbi nə idi?** | **Dərbəndlilərin başlıca məşğuliyyətləri hansılardır?** | **Dərbənd keçidinin və qalasının Azərbaycan üçün müdafiə əhəmiyyəti nədən ibarət idi?** |
|---|---|---|---|
| | | | |
| | | | |

Cədvəlin birinci sütunu üzrə xəritə-tapşırığın nəticəsi qeyd olunur.

İkinci sütunu üzrə şagirdlər hadisə və proseslərə aid səbəb-nəticə əlaqələrini müəyyənləşdirirlər. Nəticə müvafiq sütunda yazılır.

Üçüncü sütunda Dərbəndin yüksəlişi ilə təsərrüfatın inkişafı arasında qarşılıqlı əlaqə aşkar edilir və qeyd olunur.

Dördüncü sütun üzrə tapşırıq Azərbaycanın təhlükəsizliyi və ya müdafiəsi baxımından Dərbəndin əhəmiyyətinin qiymətləndirilməsinə imkan verir.

Tapşırıqlar arasındakı əlaqənin tapılması üçün tədqiqat sualının cavabı aşkara çıxarılır. Şagirdlər “Kitabi-Dədə Qorqud” dastanından “Dəmir qapı” – Dərbənd haqqında məlumatları seçirlər və onun əsasında “Dəmir qapı” – Dərbəndin hekayə xəritəsini qururlar.

Qruplar əldə etdikləri məlumatları mübadilə edirlər. Təqdim olunan faktlara və məlumatlara aid digər qrupların düzəlişləri və əlavələri edilir. Qazanılan yeni biliklər əlaqələndirilir və ümumiləşdirilir.

***Yaradıcı tapşırıq:***

Həmin biliklər Bəzz və Dərbənd qalalarının müqayisəli təhlili əsasında möhkəmləndirilir.

| Bəzz qalası | Dərbənd qalası | Oxşarlıq |
|---|---|---|
| | | |

Dərsliyin 54-cü səhifəsindəki 5-ci metodik göstəriş – “Qədim və müasir Dərbənd” mövzusunda şəkilli təqdimat hazırla” – ev tapşırığı olaraq verilir.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *tədqiqataparma, müəyyənləşdirmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Dərslik mətni və illüstrasiya əsasında Dərbənd haqqında tarixi tədqiqat aparır. | Tarixi tədqiqat aparmaqda çətinlik çəkir. | Dərslik mətni əsasında tarixi tədqiqat aparır, illüstrasiyadan məlumat əldə etməyə çətinlik çəkir. | Mənbələr əsasında tarixi tədqiqatı Dərbənd haqqında müəllimin köməyi ilə aparır. | Mənbələr əsasında Dərbənd haqqında sərbəst tarixi tədqiqat aparır. |
| Xəritələrdə Dərbəndin yerləşdiyi ərazini müəyyənləşdirir. | Dərbəndin Azərbaycan ərazisi olduğunu bilir, xəritədə yerini müəyyənləndirməkdə çətinlik çəkir. | Xəritədə Dərbəndin yerini köməkdən istifadə edərək müəyyən edir. | Xəritədə Dərbəndin yerini, əsasən, düzgün müəyyən edir. | Xəritədə Dərbəndin yerini tam düzgün və sərbəst müəyyənləşdirir. |

# 14. Şirvanşahlar dövləti

| *Standartlar* | *Təlim məqsədləri* |
|---|---|
| 2.1.2.;<br>3.1.1. | 1. Şirvanşahlar dövləti haqqında sadə biliklər nümayiş etdirilir.<br>2. Xəritələrdə Şirvanşahlar dövlətinin ərazisini və mühüm tarixi abidələri müəyyənləşdirir. |




Şagirdlərə “Azərbaycanın şimalında və cənubunda mövcud olmuş hansı dövlətləri tanıyırsınız” sualını verməklə keçmiş biliklər xatırladılır və müzakirə təşkil edilir.

Şagirdlərin öyrəniləcək mövzuya uyğun fərziyyələri içərisindən mühüm fikirlər seçilir və ümumiləşdirilir. Beləliklə, ***tədqiqat sualı*** qoyulur:

— *Sizcə, uzunömürlü Şirvanşahlar dövlətinin qüvvətlənməsi ilə Şamaxının inkişafı arasında hansı əlaqə vardır?*

Şagirdlər tədqiqat sualına aid fikirlərini müzakirə edirlər.

Sinfə xəritə-tapşırıq verilir:

Şagirdlərə xəritədə Şirvanşahlar dövlətinin ərazisini və sərhədlərini, həmçinin paytaxtlarını müəyyən etmək tapşırılır.

Sonra müzakirə davam etdirilir və suallar vasitəsilə Şirvanşahlar saray kompleksinə daxil olan abidələr müəyyənləşdirilir, lövhədə və yaxud kağızda qeyd olunur. Bu dövlətin yarandığı tarixi dövr müəyyənləşdirilir.

Müzakirə vasitəsilə Şamaxının sürətlə böyüməsinin və inkişafının səbəbləri aydınlaşdırılır.

Əldə olunmuş nəticələr cədvəlin müvafiq sütunlarında qeyd edilir.

| **Şirvanşahlar dövlətinə daxil olan ərazilər və paytaxt şəhərlər** | **Şamaxıda sənətkarlıq və ticarətin sürətlə inkişaf etməsinin səbəbləri** | **Şirvanşahların uzaq ölkələrlə əlaqələri** | **Güclü və uzunömürlü Şirvanşahlar dövlətinin yaranmasının əhəmiyyəti** |
|---|---|---|---|
| | | | |



Qrupların tədqiqat prosesində əldə etdikləri yeni biliklər təhlil edilir. Şagirdlər topladıqları məlumatları təsnif edir və qruplaşdırırlar.

Şamaxıda sənətkarlığın və ticarətin inkişafı bu şəhərin beynəlxalq ticarət yolları üzərində olması ilə əlaqələndirilir. Şirvanşahların uzaq ölkələrlə əlaqələrinin ölkənin inkişafına təsiri aydınlaşdırılır. Tədqiqat sualının cavabı müəyyənləşdirilir.

Şamaxının inkişafının Şirvanşahlar dövlətinin qüvvətlənməsinə təsiri dəyərləndirilir. Daha fəal qrupların və şagirdlərin nailiyyətləri qeyd olunur.

***Yaradıcı tapşırıq:***

"Şamaxı bazarı" adlı hekayə qurun.

***Ev tapşırığı:*** Venn diaqramında Şamaxını və Dərbəndi müqayisə edin.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *nümayişetdirmə, müəyyənləşdirmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Şirvanşahlar dövləti haqqında sadə biliklər nümayiş etdirilir. | Şirvanşahlar dövləti haqqında bilik nümayiş etdirməkdə çətinlik çəkir. | Şirvanşahlar dövləti haqqında sadə və pərakəndə faktları nümayiş etdirir. | Şirvanşahlar dövləti haqqında biliklərini, əsasən, düzgün nümayiş etdirir. | Şirvanşahlar dövləti haqqında sadə bilikləri sərbəst nümayiş etdirir. |
| Xəritələrdə Şirvanşahlar dövlətinin ərazisini və mühüm tarixi abidələri müəyyənləşdirir. | Xəritə ilə işləməkdə çətinlik çəkir. | Şagirdlərin köməyi ilə xəritədə Şirvanşahlar dövlətinin ərazisini müəyyən edir. | Xəritədə Şirvanşahlar dövlətinin ərazisini və mühüm tarixi abidələri, əsasən, müəynənləşdirir. | Xəritələrdə Şirvanşahlar dövlətinin ərazisini və mühüm tarixi abidələri sərbəst müəyyənləşdirir. |

# 15. “Arranın anası” — Bərdə

| *Standartlar* | *Təlim məqsədləri* |
| --- | --- |
| 5.1.1. | 1. Bərdənin və burada yerləşən memarlıq abidələrinin əhəmiyyətini izah edir. |

Şagirdlərə əvvəlki dərslərdə əldə etdikləri biliklə bağlı – “Ölkəmizdə hansı məşhur şəhərləri tanıyırsınız?” sualı ilə müraciət edilir. Onlar müzakirəyə cəlb edilir. Şagirdlər qoyulan sualla əlaqədar rəy və təkliflərini bildirirlər. Tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:***

*– Bərdəni niyə “Arranın anası” adlandırırdılar?*

Şagirdlər tədqiqat sualı ilə bağlı fikirlərini bölüşürlər.

Qruplarda və siniflə birgə tədqiqat aparılır. Bu iş prosesi problemin qarşılıqlı həllinə, qiymətləndirilməsinə və yoxlanılmasına şərait yaradır. Təlim materialının maksimum mənimsənilməsi mühüm əhəmiyyət kəsb edir. Ona görə də bəzən müəyyən bir materialın müzakirəsi və nəticənin əldə edilməsi böyük və ya kiçik qruplarla daha effektiv olur. Hansı qruplarda işin aparılması sinfin səviyyəsinə və materialın seçilməsinə əsaslanır. Bu, müəllimin fərdi seçimidir. Burada bütün qruplar eyni vaxtda, eyni təlim materialı üzərində işləyə bilərlər.

Dərsliyin müvafiq mətni oxunur və müzakirə edilir.

Şagirdlərə Bərdə şəhərinin yerləşdiyi məkanı müəyyən etmək tapşırılır. “Bərdə bazarı” illüstrasiyası təhlil edilir. Müzakirə olunan məlumat sxem formasında təşkil edilir.



Bu illüstrasiyanı kiçik qruplarla iş forması tətbiq edildikdə ayrı-ayrı qruplara tapşırıq kimi vermək olar. Digər bir qrupa isə “Slavyanların Bərdəyə hücumu” illüstrasiyasını qrup tapşırığı kimi təqdim etmək məqsədəmüvafiqdir.

Sxem vasitəsilə Bərdənin qala-şəhər və paytaxt şəhər olması, burada sənətkarlıq və ticarətin, eləcə də əkinçilik və maldarlığın inkişafı haqqında əldə olunmuş yeni faktlar və məlumatlar ümumiləşdirilir, onlar arasında əlaqə aşkara çıxarılır. Məlumat tədqiqat sualı və şagirdlərin irəli sürülmüş fikirləri ilə müqayisə edilir. Şagirdlər paytaxt şəhər olması ilə əlaqədar olaraq qala-şəhərə çevrilməsini, zəngin sənətkarlıq və ticarət mərkəzi olmasını onun inkişafı və məşhurlaşması ilə əlaqələndirirlər. Bərdənin mövqeyini sxem vasitəsilə müəyyənləşdirin.




***Yaradıcı tapşırıq:***

Şagirdlər slavyanların Bərdəyə hücumu haqqında topladıqları məlumatı təqdim edirlər.

***Ev tapşırığı:*** 61-ci səhifədəki 2-ci metodik tapşırığı Venn diaqramı vasitəsilə yerinə yetir.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *izahetmə*



| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Bərdənin və burada yerləşən memarlıq abidələrinin əhəmiyyətini izah edir. | Bərdə və burada yerləşən memarlıq abidələri haqqında cüzi məlumata malikdir. | Bərdə və burada yerləşən memarlıq abidələrinin əhəmiyyətini müəyyənləşdirməkdə çətinlik çəkir. | Bərdə və burada yerləşən memarlıq abidələrinin əhəmiyyətini, əsasən, düzgün izah edir. | Bərdənin və burada yerləşən memarlıq abidələrinin əhəmiyyətini düzgün və sərbəst müəyyən edir. |

# 16. Təbriz və Ərdəbil

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 1.2.2. | 1. İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək Təbriz və Ərdəbil haqqında tarixi tədqiqat aparır. |

Şagirdlərin əvvəl öyrəndiklərini yada salmaqla kiçik müzakirə təşkil edilir.

– Tarix boyunca Azərbaycanda hansı paytaxt şəhərləri olmuşdur?

Müzakirə prosesində şagirdlərin fikirlərini ümumiləşdirməklə yanaşı, istiqamətləndirici suallar verilir.

**Tədqiqat sualı:**

*– Azərbaycan tarixində Təbrizin və Ərdəbilin əhəmiyyəti nə idi?*

Şagirdlər problemi həll etmək üçün tədqiqat sualını müzakirə edirlər.

Tədqiqat prosesi kiçik qruplarda davam etdirilir.

Dərslikdəki mətn oxunur və müzakirə edilir.

Mövzu üzrə şəkillər təhlil edilir.





Mətnin müzakirəsi və şəkillərin təhlili nəticəsində əldə olunan məlumatlar əsasında cədvəlin müvafiq bəndləri tamamlanır.

Təbriz və Ərdəbilin yerləşdiyi Azərbaycan ərazisi müəyyənləşdirilir. Məlumat cədvəl formasında təşkil olunur.

| Azərbaycanın şəhərləri | | | | |
|---|---|---|---|---|
| | **Yerləşdiyi ərazi** | **Sənətkarlıq və ticarət mərkəzi kimi** | **Ölkənin siyasi həyatında rolu** | **Ölkənin mədəni həyatında rolu** |
| Təbriz | | | | |
| Ərdəbil | | | | |

Qruplar fəaliyyət prosesində aşkar edilmiş yeni faktları və məlumatları qarşılıqlı dinləmə əsasında mübadilə edirlər.

Xəritələr əsasında Təbrizin dünya ticarət yollarının qovuşduğu ərazidə yerləşdiyi məkanın əhəmiyyəti müəyyən olunur.

Sənətkarlığın, daxili və xarici ticarətin ölkənin həyatında oynadığı rol dəyərləndirilir. Təbrizin və Ərdəbilin siyasi və mədəni mərkəz kimi əhəmiyyəti qiymətləndirilir.

***Yaradıcı tapşırıq:*** Ölkənin inkişafındakı müstəsna əhəmiyyətinə görə Təbrizin Azərbaycanda yaranmış bir neçə dövlətin müxtəlif vaxtlarda paytaxtı olması sxem vasitəsilə əlaqələndirilir. Əldə edilmiş bilikləri xatırlamaq və möhkəmləndirmək məqsədilə şagirdlərə paytaxtı Təbriz olmuş Azərbaycan dövlətlərini müəyyən edərək sxemi tamamlamaq tapşırılır.




Şagirdlər UNESCO-nun dünya irsi siyahısına salınmış Təbriz bazarını şəkil əsasında sözlərlə təsvir edirlər.

***Ev tapşırığı:*** Ərdəbil kitabxanası və Ərdəbil tarixi abidələri haqqında təqdimat hazırlamaq tapşırılır.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *tədqiqataparma*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək Təbriz və Ərdəbil haqqında tarixi tədqiqat aparır. | Tarixi tədqiqat zamanı mühüm məlumatları müəyyən etməkdə çətinlik çəkir. | İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparmağa cəhd edir. | Təbriz və Ərdəbil haqqında köməkdən istifadə edərək tarixi tədqiqat aparır. | İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək Təbriz və Ərdəbil haqqında sərbəst tarixi tədqiqat aparır. |

# 17. Şəmsəddin Eldəniz necə Azərbaycan hökmdarı oldu?

| *Standartlar* | *Təlim məqsədləri* |
|---|---|
| 2.1.2.; 3.1.1.; 4.1.2. | 1. Eldənizlər dövləti haqqında sadə biliklər nümayiş etdirir.<br>2. Xəritələrdə Eldənizlər dövlətinin ərazisini və mühüm tarixi abidələri müəyyənləşdirir.<br>3. Mənbələrə əsasən Şəmsəddin Eldəniz haqqında təqdimat hazırlayır. |

Şagirdlərə müraciətlə soruşulur:

– Necə düşünürsünüz, ulu babalarımızın dövlət yaratmağa qadir olduqlarını nədən görmək olar?

Şagirdlər müzakirəyə qoşulur, daha əvvəl mövcud olmuş Azərbaycan dövlətləri haqqında öyrəndikləri bilikləri xatırlayırlar. Tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:***

– *Şəmsəddin Eldəniz hansı xüsusiyyətlərinə görə Azərbaycan hökmdarı oldu?*

Şagirdlər öz fikirlərini və ideyalarını sərbəst ifadə edirlər.

Problemin həllinə kömək edə biləcək faktları tapmaq məqsədilə şagirdlərə düşündürücü çalışmalar təklif edilir.

Tədqiqat böyük və kiçik qruplarda aparılır. Qrup tapşırıqları olaraq aşağıdakılar verilə bilər.

| | | | |
|---|---|---|---|
| 1. Şəmsəddin Eldənizin şəxsi keyfiyyətlərini təsvir edin. | 2. Azərbaycanın Eldənizlər dövründəki siyasi vəziyyətini təhlil edin. | 3. Ölkənin iqtisadi inkişafını təhlil edin. | 4. Azərbaycanın Eldənizlər dövründəki mədəni yüksəlişini təhlil edin. |

Şagirdlər mövzu ilə tanış edilir. Əsas anlayışlar və tarixi faktlar müəyyənləşdirilir və təhlil edilir.

Dərsliyin müvafiq mətninin təhlili əsasında Eldənizlər dövlətinin yarandığı dövr müəyyənləşdirilir və həll edilir. Dövlətin yarandığı ərazi, paytaxtı, onun ərazisindəki mühüm tarixi abidələr haqqında məlumatlar müzakirə olunur, ən mühüm olanları seçilir və qeyd olunur.

Fəaliyyət prosesində aşkar edilmiş yeni faktların və məlumatların mübadiləsi aparılır. Problemi həll etmək zərurəti şagirdləri bir-birini fəal dinləməyə təhrik edir.

Qeyd olunan bütün fikirlər ümumi ideya halında birləşdirilir və ümumiləşdirilir.

Təqdimat prosesində hadisələrin baş verdiyi zaman və məkan çərçivələri qruplar tərəfindən qeyd olunur.

Sinfə cədvəli tamamlamaq tapşırığı verilir:

| Şəmsəddin Eldənizin malik olduğu keyfiyyətlər | | | | |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |

***Yaradıcı tapşırıq:*** "Mən hökmdar olsaydım" mövzusunda esse yazın.



Ev tapşırığı olaraq şagirdlərə Şəmsəddin Eldənizi və Qızıl Arslanı müqayisə etmək tapşırılır.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *nümayişetdirmə, müəyyənləşdirmə, təqdimathazırlama*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Eldənizlər dövləti haqqında sadə biliklər nümayiş etdirir. | Eldənizlər dövləti haqqında cüzi və dağınıq məlumatı var. | Eldənizlər dövləti haqqında sadə biliklərini nümayiş etdirməkdə çətinlik çəkir. | Eldənizlər dövləti haqqında başlıca sadə biliklərini nümayiş etdirir. | Eldənizlər dövləti haqqında sadə biliklərini sərbəst nümayiş etdirir. |
| Xəritələrdə Eldənizlər dövlətinin ərazisini müəyyən edir. | Xəritə üzərində Eldənizlər dövlətinin ərazisini müəyyən etməkdə çətinlik çəkir. | Xəritədə Eldənizlər dövlətinin ərazisini yoldaşlarının köməyi ilə müəyyən edir. | Xəritədə Eldənizlər dövlətinin ərazisini, əsasən, düzgün müəyyən edir. | Xəritədə Eldənizlər dövlətinin ərazisini və sərhədlərini sərbəst müəyyənləşdirir. |
| Mənbələrə əsasən Şəmsəddin Eldəniz haqqında təqdimat hazırlayır. | Mənbələrlə işləməkdə çətinlik çəkir. | Mənbələrə əsasən Şəmsəddin Eldəniz haqqında yoldaşlarının köməyi ilə təqdimat hazırlayır. | Şəmsəddin Eldəniz haqqında köməkdən istifadə edərək təqdimat hazırlayır. | Mənbələrə əsasən Şəmsəddin Eldəniz haqqında əhatəli təqdimat hazırlayır. |

# 18. Azərbaycan mədəniyyətinin oyanışı

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 5.1.3. | 1. Azərbaycan intibah mədəniyyəti ilə bağlı sadə təqdimat hazırlayır. |

Şagirdlərin təfəkkürünü canlandırmaq üçün onlar aşağıdakı sual vasitəsilə müzakirəyə cəlb edilir.

– Sizcə, iqtisadi inkişaf mədəniyyətin inkişafına necə təsir edə bilər?

Onlar sual ətrafında öz fikirlərini söyləyirlər.

***Tədqiqat sualı:***

*– Azərbaycan intibahının əhəmiyyəti nədir?*

Şagirdlərə məqsədəmüvafiq çalışmalar təqdim olunur. Cütlük şəklində və bütün siniflə birlikdə tədqiqat aparılır. Cütlük sinif və ev tapşırıqlarının yoxlanılması zamanı nəticələr haqqında fikir mübadiləsi aparmaq üçün çox səmərəli bir formadır. Cütlüklərə mövzu üzrə sxem-tapşırıq verilir və onun tamamlanması təklif edilir.

Mövzunun mətni oxunur və müzakirə edilir. Kollektivə tapşırıq verilir. Mövzu üzrə xronoloji məsələ həll edilir, intibah dövrünün neçə əsr bundan əvvəl meydana gəldiyi vaxt hesablanır.





Şəkildəki tarixi memarlıq abidələri müzakirə və təhlil edilir.

Şagirdlərə intibah dövrünə aid cədvəli tamamlamaq üçün tapşırıq verilir.

| Elm | Azərbaycan dili və ədəbiyyatı | İncəsənət, memarlıq | Sənətkarlıq |
|---|---|---|---|
| | | | |



Birgəfəaliyyət prosesində tapılan faktlar və yeni məlumatlar mübadilə edilir.

Xəritə üzərində iş yerinə yetirilir. Bu isə problemin həlli üçün lazım olan faktların tapılmasına kömək edir. İntibah dövrünə aid mühüm tarixi abidələr və onların yerləşdiyi ərazilər müəyyən edilir. Dərsliyin 71, 72-ci səhifələrində verilmiş intibah dövrü mədəniyyət abidələrinin yerləşdiyi məkan müəyyənləşdirilir. Abidələrin təhlili əsasında bu dövrün iqtisadi və mədəni inkişafının ən yüksək mərhələyə çatması nəticəsinə gəlinir.

Şagirdlər N.Gəncəvinin onlara təqdim olunmuş əsərlərindəki tarixi faktlara aid münasibətlərini şifahi şəkildə bildirirlər.

***Yaradıcı tapşırıq:*** Şagirdlərə "N.Gəncəvi və tariximiz" adlı esse yazmaq təklif edilir.

***Ev tapşırığı:*** Dərslik mətnində verilmiş sual və tapşırıqların cavablarını ümumiləşdirin.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *təqdimathazırlama*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Azərbaycan intibah mədəniyyəti ilə bağlı sadə təqdimat hazırlayır. | Azərbaycan intibah mədəniyyəti ilə bağlı təqdimat hazırlamaqda çətinlik çəkir. | Azərbaycan intibah mədəniyyəti ilə bağlı müəl- limin köməyi ilə sadə təqdimat hazırlayır. | Azərbaycan intibah mədəniyyəti ilə bağlı sadə təqdimat hazırlayır. | Azərbaycan intibah mədəniyyəti ilə bağlı müxtəlif sadə təqdimatları sərbəst hazırlayır. |

# 19. Elm dünyasının şahı

| *Standartlar* | *Təlim məqsədləri* |
|---|---|
| 5.1.1. | 1. Marağa rəsədxanasının və kitabxanasının əhəmiyyətini izah edir. |

Bu dərsin tədrisində BİBÖ cədvəlindən istifadə edə bilərsiniz. Şagirdlərin diqqəti sinif otağında divardan asılmış Marağa rəsədxanasının şəklinə yönəldilir. Onlardan rəsədxananın nə olması soruşulur. Bu yolla problem ortaya gətirilir. Tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:***

*– Marağa rəsədxanasının Azərbaycan mədəniyyətinin və elminin inkişafındakı rolu nədən ibarətdir?*

Şagirdlərin tədqiqat sualı haqqında fərziyyələri dinlənildikdən sonra cədvəlin birinci və ikinci sütunu tamamlanır.

| Bilirəm | İstəyirəm biləm | Öyrəndim |
|---|---|---|
| | | |



Onlara "Marağa rəsədxanası", "N.Tusi kitabxanası", "astronomiya elmi", "ilk ulduz qlobusu", "ictimai xadim", "Elxanilər sarayı", "elmi əsərlər" kimi söz və söz birləşmələri təklif edilir. Şagirdlər bu sözlərdən istifadə etməklə esse yazırlar. Hekayədə istifadə edilən yeni sözlərin mövzu ilə bağlı olub-olmaması əhəmiyyət daşımır. Tapşırıq yerinə yetirilir.

Qruplar öz hekayələrini oxuyurlar. Daha sonra şagirdlərə həmin mövzu üzrə dərslik mətnini hissə-hissə oxumaq təklif olunur. Qruplar oxuduqları mətni təhlil edir, müəyyən etdikləri məlumatları öz esselərі ilə müqayisə edirlər.

Şagirdlərə BİBÖ cədvəlinin 3-cü sütununu doldurmaq tapşırılır.

Cədvəllər lövhədən asılır və qruplar tərəfindən müzakirə olunur, aydın olmayan məsələlər dəqiqləşdirilir. Bu məqsədlə müəllim şagirdlərə istiqamətverici suallarla müraciət edir:

– N.Tusi "Elm və müdriklik evi" adlanan zəngin kitabxananı nə üçün yaratmışdı?

– Marağa rəsədxanası nə üçün Şərqin ilk çoxsahəli elm ocağı hesab edilir?

– N.Tusinin adı necə əbədiləşdirilmişdir?

***Yaradıcı tapşırıq:*** "Soruşma Vətən sənin üçün nə edib, soruş ki, sən Vətən üçün nə etmisən" fikrini N.Tusinin fəaliyyəti ilə yazılı şəkildə əlaqələndirin.

Dərsin sonunda N.Tusinin yaratdığı rəsədxananın və kitabxananın elmin inkişafında oynadığı rol ümumiləşdirilir.

Rəsədxanada istifadə olunan çoxlu cihazlardan bəzisinin rəsədxananın özündə ixtira olunması, ondan dünyanın bir çox ölkələrində istifadə olunması, yaradılmış zəngin kitabxana Azərbaycan elminin və mədəniyyətinin inkişafında bu rəsədxananın misilsiz rolu olduğunu təsdiq edir.

***Ev tapşırığı:*** Mənbələrə əsasən N.Tusi haqqında təqdimat hazırlayın.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *izahetmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Marağa rəsədxanasının və kitabxanasının əhəmiyyətini izah edir. | Marağa rəsədxanası və kitabxanası haqqında az məlumatı vardır. | Marağa rəsədxanası və kitabxanası haqqında bəzi məlumatı vardır, əhəmiyyətini müəllimin köməyi ilə izah edir. | Marağa rəsədxanası və kitabxanasının əhəmiyyətini izah edərkən bəzi səhvlər edir. | Marağa rəsədxanasını və kitabxanasının əhəmiyyətini sərbəst və nümunələrlə izah edir. |

# 20. "Rəşidiyyə" — məşhur Azərbaycan universiteti

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 4.1.1.;<br>5.1.1. | 1. Azərbaycan mədəniyyətinin inkişafında Fəzlullah Rəşidəddinin rolunu müəyyənləşdirir.<br>2. "Rəşidiyyə" universitetinin və kitabxanasının yaradılmasının əhəmiyyətini izah edir. |

Şagirdlərdən universitet və kitabxana haqqında nə bildikləri soruşulur. Müzakirə zamanı şagirdlərin diqqəti universitet və kitabxana arasındakı əlaqənin müəyyənləşdirilməsinə yönəldilir. Tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:***

*– "Rəşidiyyə" universitetinin və kitabxanasının yaradılmasının əhəmiyyəti nə idi?*

Şagirdlərin sadə fikirləri və fərziyyələri lövhədə qeyd olunur.

Şagirdlər qoyulan suala cavab tapmaq üçün yeni faktlar və məlumatları dərslikdəki müvafiq mətn, təqdim edilmiş mövzu xəritəsi, şəkillər üzərində iş vasitəsilə əldə edirlər.

Xəritə üzərində iş yerinə yetirilir. "Rəşidiyyə" universitetinin yerləşdiyi məkan müəyyənləşdirilir.

Qruplar öz işlərini mübadilə edirlər. Müzakirə zamanı digər şagirdlərin əhəmiyyətli təklifləri nəzərə alınır və qeyd edilir.

| Müəyyənləşdirin | Tamamlayın |
|---|---|
| Rəşidəddini məşhurlaşdıran və xalqa sevdirən keyfiyyətlərini | |
| Universitet şəhərciyinin təsvirini | |
| "Rəşidiyyə" kitabxanasının Azərbaycanda ikinci böyük elm mərkəzi olduğunu | |
| "Rəşidiyyə"nin zəngin kitabxanasının N.Tusinin Marağa kitabxanası ilə müqayisəsini | |

Müzakirə zamanı şagirdlərin tədqiqat prosesində əldə etdikləri yeni faktlar və məlumatlar ümumiləşdirilir. Bu məlumatlar əsasında şagirdlər "Rəşidiyyə" universitetini təsvir edirlər. Bu universitetin yaradılmasında və səmərəli fəaliyyət göstərməsində F.Rəşidəddinin oynadığı rol müəyyən edilir. "Rəşidiyyə" kitabxanası və universiteti ilə bağlı əldə edilmiş yeni biliklər və məlumatlar təşkil edilir, əlaqələndirilir və sistemləşdirilir. Tədqiqat sualının cavabı cədvəl, yaxud sxem və başqa formada təşkil oluna bilər.

***Yaradıcı tapşırıq:***

Şagirdlər oxuduqları məktəbin kitabxanası haqqında məruzə hazırlayırlar.

Tədqiqat prosesində Şərqdə ilk çoxsahəli elm ocağı olan “Rəşidiyyə” universiteti və kitabxanasının Azərbaycanda və dünyada elmin və mədəniyyətin inkişafına böyük təsir göstərməsi nəticəsinə gəlinir.

Ev tapşırığı olaraq şagirdlərə Venn diaqramında “Rəşidiyyə” və N.Tusinin Marağa kitabxanasını müqayisə etmək tapşırılır.

***“Rəşidiyyə” kitabxanası*** ***Marağa kitabxanası***




***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *müəyyənləşdirmə, izahetmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Azərbaycan mədəniyyətinin inkişafında Fəzlullah Rəşidəddinin rolunu müəyyən edir. | Fəzlullah Rəşidəddin haqqında bəzi məlumatı var. | Fəzlullah Rəşidəddinin Azərbaycan mədəniyyətinin inkişafında rolunu müəyyən etməkdə çətinlik çəkir. | Azərbaycan mədəniyyətinin inkişafında Fəzlullah Rəşidəddinin rolunu, əsasən, düzgün müəyyən edir. | Azərbaycan mədəniyyətinin inkişafında Fəzlullah Rəşidəddinin rolunu sərbəst müəyyən edir. |
| “Rəşidiyyə” universitetinin və kitabxanasının yaradılmasının əhəmiyyətini izah edir. | “Rəşidiyyə” universiteti və kitabxanası haqqında bəzi məlumatı var. | “Rəşidiyyə” universitetinin və kitabxanasının əhəmiyyətini çətinliklə izah edir. | “Rəşidiyyə” universitetinin və kitabxanasının əhəmiyyətini, əsasən, düzgün müəyyən edir. | “Rəşidiyyə” universitetinin və kitabxanasının əhəmiyyətini sərbəst və düzgün müəyyən edir. |

# 21. Həsən padşah

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 3.1.1.;<br>4.1.1. | 1. Ağqoyunlu dövləti haqqında sadə biliklər nümayiş etdirir.<br>2. Azərbaycan tarixində Həsən padşahın mühüm rol oynadığını müəyyənləşdirir. |

Şagirdlərin diqqəti əvvəlki dərslərdə öyrəndikləri biliklərə əsasən Azərbaycan ərazisində yaranmış dövlətlərə, onların inkişafının, tənəzzülünün və süqutunun əsas səbəblərinə yönəldilir.

Müzakirə aparılır.

Şagirdlər öz fikirlərini irəli sürməklə həlli tələb olunan problemə dair əsas ideyanı formalaşdırırlar.

***Tədqiqat sualı:***

*– Həsən padşah güclü Ağqoyunlu dövlətini necə yaratdı?*

Şagirdlər qruplarda işi davam etdirirlər. Qruplara aşağıdakı tapşırıqlar verilə bilər.

| Ağqoyunlu dövlətinin yarandığı dövr və ərazi | Ağqoyunlu dövlətinin diplomatik əlaqələri | Həsən padşahın quruculuq işləri | Ağqoyunlu dövlətinin zəifləməsinin səbəbləri |
|---|---|---|---|
| | | | |



Dərsliyin müvafiq mövzusu oxunur və müzakirə edilir. Dərslikdəki illüstrasiyalar və əlavə tarixi mənbələrdən əsas ideya ilə bağlı olan hissələr seçilir. Qrupların fəallığını təmin etmək məqsədilə yönəldici suallar və tapşırıqlar təklif edilir:

– Dərslikdəki illüstrasiyadan hansı məlumatı əldə etmək olar?

– Sənədlərin verdiyi məlumatı təhlil edin.

Şagirdlərə tədqiqat sualı ilə əlaqədar faktlar, yeni məlumatlar tapmaq və cədvəlin müvafiq bəndlərini tamamlamaq təklif olunur.

Hər bir qrup cədvəlin müvafiq bəndinin biri üzərində tədqiqat fəaliyyətini davam etdirir.



Şagirdlər zaman və məkan əlaqələrinə, dövlətin daxili və xarici siyasətinə aid məlumatlar toplayırlar.

Şagirdlərin əldə etdikləri yeni biliklər müzakirə olunur.

Tədqiqat sualı üzrə qruplaşdırılmış məlumat lövhədə qeyd olunur. Həsən padşahın xarici təhlükələri dəf etmək, əhalinin vəziyyətini yaxşılaşdırmaq, vergiləri nizama salmaq, güclü nizami ordu formalaşdırmaqla yaratdığı Ağqoyunlu dövlətinin və bu dövlətin güclənməsində Həsən padşahın fəaliyyətinin əhəmiyyəti dəyərləndirilir.

***Yaradıcı tapşırıq:***

Şagirdlər Sara Xatunun diplomatik fəaliyyəti haqqında təqdimat hazırlayırlar.

Dərsliyin 80-ci səhifəsindəki 2 №-li metodik göstəriş ev tapşırığı olaraq verilir.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *nümayişetdirmə, müəyyənləşdirmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Ağqoyunlu dövləti haqqında sadə biliklər nümayiş etdirir. | Ağqoyunlu dövləti haqqında bəsit məlumatı vardır. | Ağqoyunlu dövləti haqqında sadə bilikləri nümayiş etdirməkdə çətinlik çəkir. | Ağqoyunlu dövləti haqqında əsasən düzgün sadə biliklər nümayiş etdirir. | Ağqoyunlu dövləti haqqında sərbəst şəkildə sadə biliklər nümayiş etdirir. |
| Azərbaycan tarixində Həsən padhaşın mühüm rol oynadığını müəyyən edir. | Həsən padşahın Ağqoyunlu dövlətinin hökmdarı olduğunu bilir. | Həsən padşahın Azərbaycan tarixində mühüm rol oynadığını köməkdən istifadə edərək müəyyən edir. | Həsən padşahın Azərbaycan tarixində mühüm rol oynadığını, əsasən, düzgün müəyyən edir. | Həsən padşahın Azərbaycan tarixində mühüm rol oynadığını sərbəst və düzgün müəyyən edir. |

# 22. "...Gülüstan qalası, yoxsa Azərbaycan?"

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 3.1.1.; 3.1.2.; 4.1.1. | 1. Səfəvi dövləti ilə bağlı sadə biliklər nümayiş etdirir.<br>2. Vahid Azərbaycan Səfəvilər dövlətinin xalqın mənafeyinin qorunmasındakı rolunu dəyərləndirir.<br>3. Şah I İsmayılın Azərbaycan tarixində mühüm rol oynadığını müəyyən edir. |

15 və 16-cı əsrə aid xəritələrin şagirdlər tərəfindən müqayisə edilməsi təklif edilir. Onların arasındakı fərqlər müəyyən edilir. Şagirdlərin dövlətlərin zəifləməsinin və parçalanmasının ölkə üçün mənfi nəticələrinə aid sadə fikirləri qeyd edilir.

***Tədqiqat sualı:***

*– Azərbaycan ərazisində Səfəvilər dövlətinin yaranmasının əhəmiyyəti nə idi?*

Şagirdlərin qoyulan sualla bağlı yeni fikirləri ilə müzakirə davam etdirilir.

Müzakirə sualları vasitəsilə şagirdlərin diqqəti tədqiqat sualının cavablandırılmasına yönəldilir. Suallar aşağıdakı kimi qoyula bilər:






1. Azərbaycanda vahid qüdrətli dövlətin yaranmasını kimlər istəyirdi?
2. Azərbaycan Səfəvilər dövləti necə yarandı?
3. Səfəvilər dövlətinin yaranmasının xalqımız və ölkəmiz üçün hansı əhəmiyyəti oldu?
4. Səfəvilər dövlətinin yaranmasında Şah I İsmayılın rolu nədən ibarətdir?

Dərsliyin müvafiq mətni oxunur və təhlil edilir. Şagirdlər xəritə üzərində işləyərək mövzu ilə bağlı mümkün məlumatları və faktları qeyd edirlər. Dərsliyin 82-ci səhifəsindəki illüstrasiya və 83-cü səhifəsindəki xəritə müzakirə edilir. Beləliklə, problemin həllinə kömək edə biləcək mühüm məlumatlar toplanır.

Qruplarla iş prosesində şagirdlərin əldə etdikləri məlumatların müzakirəsi təşkil edilir. Məlumatların təhlili qüdrətli dövlətin yaranmasının əhəmiyyəti ilə




bağlı əldə edilmiş bütün faktlar arasında əlaqələri müəyyən edir.

Şagirdlər tarix dəftərinə cədvəl çəkir və vahid dövlətin siyasi, mədəni və iqtisadi sahələrdə üstünlüklərini yazır və cütlər qarşılıqlı fikir mübadiləsi edirlər.

***Yaradıcı tapşırıq:*** Həsən padşahın və Şah I İsmayılın dövlətçilik fəaliyyətini cədvəl vasitəsilə müqayisə edin.



***Ev tapşırığı:*** "Şah I İsmayılın vəsiyyəti" adlı tarixi hekayə qurun.

Şagirdlərə ev tapşırığı kimi dərsliyin 84-cü səhifəsindəki 3-cü tapşırığı həll etmək təklif edilir.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *nümayişetdirmə, dəyərləndirmə, müəyyənetmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Səfəvi dövləti ilə bağlı sadə biliklər nümayiş etdirir. | Səfəvi dövləti ilə bağlı sadə biliklər nümayiş etdirməkdə çətinlik çəkir. | Səfəvi dövləti ilə bağlı səhvlərə yol verərək sadə biliklər nümayiş etdirir. | Səfəvi dövləti ilə bağlı köməkçi sual vasitəsilə sadə biliklər nümayiş etdirir. | Səfəvi dövləti ilə bağlı sadə biliklər nümayiş etdirir. |
| Vahid Azərbaycan Səfəvilər dövlətinin xalqın mənafeyinin qorunmasındakı rolunu dəyərləndirir. | Vahid Azərbaycan Səfəvilər dövlətinin xalqın mənafeyinin qorunmasındakı rolunu dəyərləndirməkdə çətinlik çəkir. | Vahid Azərbaycan Səfəvilər dövlətinin xalqın mənafeyinin qorunmasındakı rolunu müəllimin köməyi ilə dəyərləndirir. | Vahid Azərbaycan Səfəvilər dövlətinin xalqın mənafeyinin qorunmasındakı rolunu dəyərləndirir. | Vahid Azərbaycan Səfəvilər dövlətinin xalqın mənafeyinin qorunmasındakı rolunu ətraflı dəyərləndirir. |
| Şah I İsmayılın Azərbaycan tarixində mühüm rol oynadığını müəyyən edir. | Şah I İsmayılın Azərbaycan tarixində mühüm rol oynadığını müəyyən etməkdə çətinlik çəkir. | Şah I İsmayılın Azərbaycan tarixində mühüm rol oynadığını səhvlərə yol verərək müəyyən edir. | Şah I İsmayılın Azərbaycan tarixində mühüm rol oynadığını cüzi səhvlərə yol verərək müəyyən edir. | Şah I İsmayılın Azərbaycan tarixində mühüm rol oynadığını müəyyən edir. |

# 23. Şairlər sultanı

| *Standartlar* | *Təlim məqsədləri* |
|---|---|
| 4.1.2. | 1. Mənbələrə əsasən Məhəmməd Füzuli haqqında təqdimat hazırlayır. |



Müəllim slayd vasitəsilə və yaxud əyani şəkildə N.Gəncəvinin, M.Füzulinin, Şah I İsmayılın, Nəsirəddin Tusinin, B.Vahabzadənin, Həsən padşahın şəkillərini nümayiş etdirərək şagirdlərdən soruşur:

– Bu şəxsiyyətləri hansı keyfiyyətlərinə görə qruplaşdırmaq olar?

Şagirdlər müxtəlif cavablar bildirirlər.

***Tədqiqat sualı:***

*– M.Füzuli nə üçün "şairlər sultanı" adlandırılır?*

Tədqiqat sualı ətrafında kiçik müzakirə aparılır.

Şagirdlər qruplara bölünür.

Qruplar ardıcıl surətdə bir-birini əvəzləməklə rotasiya metodu əsasında eyni bir material üzərində işləyirlər.

Şagirdlər bu prosesdə həm problemi həll edir, həm də tədqiqat sualına cavab tapırlar. Həmçinin yaradıcı təfəkkürlərini inkişaf etdirən ümumi məsələnin həllində onların fəal iştirakı təmin edilir.

| **Məhəmməd Füzuli** | | |
|---|---|---|
| **Yaşadığı dövr** | **Əsərləri** | **Əsərlərinin başlıca məzmunu və keyfiyyətləri** |
| | | |



Şagirdlərə sxemi tamamlamaq təklif olunur:

Qrup nümayəndələri (hər bir qrupdan bir nəfər təmsil oluna bilər) tədqiqat işini təqdim edirlər.

Bütün sinfə tapşırıq verilir: Dərsliyin mətnində Füzulinin Sultan Süleymanla görüşünü və onun "Divanı"nı əks etdirən illüstrasiyaları təhlil edin və məlumatları qeyd edin.




İstiqamətləndirici suallar vasitəsilə müzakirə davam etdirilir:

– M.Füzuli Sultan Süleymanla nə barədə danışırdı?

– M.Füzuli əsərlərini hansı dillərdə yazırdı?

Şagirdlər bir-birinin müxtəlif fikirlərinə öz münasibətlərini, rəy və təkliflərini bildirirlər. M.Füzulinin ayrı-ayrı əsərlərindən parçalar oxunur və təhlil edilir.

M.Füzulinin şagirdlərə təqdim olunmuş əsərlərindən parçaların təhlili əsasında bu əsərlərdə qabardılmış milli-mənəvi keyfiyyətlər fərqləndirilir. Dərsin sonunda M.Füzulini xalqımıza sevdirən keyfiyyətlər ümumiləşdirilir. Şagirdlər M.Füzulinin əsərlərində təsvir etdiyi keyfiyyətləri uydurduqları kiçik hekayədə əks etdirirlər.

Belə tapşırıq şagirdlərin müxtəlif zaman çərçivəsində baş verən tarixi hadisələrə münasibətini formalaşdırmağa, onların tənqidi təfəkkürünü inkişaf etdirməyə istiqamətləndirilir.

Bütün məlumatları "Məhəmməd Füzuli şairlər sultanıdır" adlı kollektiv təqdimatda ümumiləşdirmək məqsədəuyğundur.

***Yaradıcı tapşırıq:***

"Məhəmməd Füzuli bütün dövrlərin şairidir" fikrinə öz münasibətinizi yazılı təsvir edin.

***Ev tapşırığı:*** Şagirdlərə dərsliyin müvafiq mövzusuna uyğun olaraq, 88-ci səhifədəki 2-ci metodik göstərişi həll etmək tapşırılır.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *təqdimathazırlama*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Mənbələrə əsasən Məhəmməd Füzuli haqqında təqdimat hazırlayır. | Mənbələrə əsasən Məhəmməd Füzuli haqqında təqdimat hazırlamaqda çətinlik çəkir. | Mənbələrə əsasən Məhəmməd Füzuli haqqında sistemsiz təqdimat hazırlayır. | Mənbələrə əsasən Məhəmməd Füzuli haqqında təqdimat hazırlayır. | Mənbələrə əsasən Məhəmməd Füzuli haqqında ətraflı təqdimat hazırlayır. |

# AZƏRBAYCAN YENİ DÖVRDƏ

## 24. Şərqin son fatehi

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 4.1.1. | 1. Azərbaycan tarixində Nadir şahın mühüm rol oynadığını müəyyən edir. |



Şagirdlərin diqqəti qüdrətli dövlətlərin yaranması, çiçəklənməsi və zəifləməsində onu idarə edən hökmdarların roluna yönəldilir. Beləliklə, onların fəaliyyəti əsas məsələnin həllinə istiqamətləndirilir.

***Tədqiqat sualı:***

*– Nadir şah nə üçün Şərqin son fatehi adlandırılır?*

Şagirdlər tədqiqat sualına aid öz rəylərini və sadə fikirlərini müzakirə edirlər.

Müvafiq mövzuya uyğun olaraq dərslik mətni, 89-cu və 92-ci səhifələrdəki şəkil və illüstrasiya müzakirə olunur və mövzu ilə bağlı məlumatlar seçilir. Bu fəaliyyət qruplarla iş formasında davam etdirilir. Qruplar aşağıdakı plan əsasında tarixi hekayə qururlar.

1. Muğan qurultayı nə üçün çağırılmışdı və onun hansı nəticələri oldu?
2. Nadir şah hansı sərkərdəlik və diplomatik bacarıqlara malik idi?
3. Nadir şahın qonşu ölkələrə hərbi yürüşlərinin nəticələri hansılardır?
4. Nadir şahın dövlətçilik fəaliyyətinin əhəmiyyəti nədir?

Şagirdlər dərslik mətni ilə tanış edilir. İllüstrasiyalar təhlil və müzakirə edilir.

Qruplar işlərini mübadilə edirlər. Şagirdlər təqdim olunmuş cədvəldəki yarımçıq fikri tamamlayır və daha dolğun cavabları müəyyən edirlər. Torpaqlarımızın





azad edilməsi ilə xalqın Nadir şahın ətrafında birləşməsi arasında əlaqə aydınlaşdırılır.

Nadir şahın xalqı öz ətrafında birləşdirə bilməsi və torpaqlarımızı bir-birinin ardınca azad etməsi uğrunda apardığı mübarizə, göstərdiyi fəaliyyət araşdırılır. Şagirdlərə Nadir şah Əfşar haqqında olan yarımçıq cümlələri tamamlamaq təklif olunur.

| | |
|---|---|
| 1736-cı ildə Muğanda çağırılan qurultayda... | |
| Nadir şah Əfşar böyük hərbi sərkərdə, cəsur döyüşçü olmaqla yanaşı... | |
| Nadir şah öz hakimiyyətini hərbi qələbələrlə möhkəmləndirmək istiəyirdi. Ona görə də... | |
| O, əldə edilən hərbi qənimətlər hesabına... | |
| Nadir şah qüdrətli dövlət yaratmışdı... | |
| Məmurların fəaliyyətinə nəzarət etmək və özbaşınalığın qarşısını almaq üçün... | |
| Nadirin şah elan edilməsinə qarşı çıxan Qarabağ bəylərbəyini cəzalandırmaq üçün... | |

Şərqin son böyük fatehi sayılan Nadir şahın həyatı və fəaliyyəti haqqında əldə edilmiş yeni məlumatlar ümumiləşdirilir. Nadir şahın güclü sərkərdəlik və diplomatik bacarığı, xalqı öz ətrafında birləşdirə bilməsi sayəsində torpaqlarımızın bir-birinin ardınca azad edilməsi nəticəsinə gəlinir.

***Yaradıcı tapşırıq:***

Rollu oyun vasitəsilə Nadirin Muğan qurultayında şah seçilməsi səhnəsi canlandırılır.

Ev tapşırığı kimi şagirdlərə dərsliyin 92-ci səhifəsindəki 3-cü tapşırığı həll etmək təklif olunur.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *müəyyənetmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Azərbaycan tarixində Nadir şahın mühüm rol oynadığını müəyyən edir. | Azərbaycan tarixində Nadir şahın mühüm rol oynadığını müəyyən etməkdə çətinlik çəkir. | Azərbaycan tarixində Nadir şahın mühüm rol oynadığını müəllimin köməyi ilə müəyyən edir. | Azərbaycan tarixində Nadir şahın mühüm rol oynadığını cüzi səhvlə müəyyən edir. | Azərbaycan tarixində Nadir şahın mühüm rol oynadığını müəyyən edir. |

# 25. İlk müstəqil Azərbaycan xanlığı

| *Standartlar* | *Təlim məqsədləri* |
|---|---|
| 3.1.1. | 1. Şəki xanlığı haqqında sadə biliklər nümayiş etdirir. |

Şagirdlərin diqqəti 18-ci əsrdə Azərbaycanda baş verən dəyişikliklərə, xanlıqların yaranmasını zəruri edən amillərə yönəldilir.




***Tədqiqat sualı:***

*– Müstəqil Şəki xanlığı necə yarandı?*

Şagirdlərin tədqiqat sualı ətrafında ilkin fərziyyələri və fikirləri qeyd edilir. Qruplar dərsliyin müvafiq mətni, mövzu üzrə Şəki xanlığının bayrağı, Hacı Çələbi xanın, "Gələsən-görəsən" qalasının və Şəki xan sarayının şəkillərinin təhlili, xəritə üzrə məlumatların müzakirəsi və iş prosesində əldə etdikləri yeni faktlar və biliklər əsasında cədvəli tamamlayırlar.

| Müəyyənləşdirin | Tamamlayın |
|---|---|
| Nadir şahın hakimiyyəti dövründə Azərbaycandakı narazılıqların səbəbləri | |
| Nadir şahın Şəkiyə yürüşünün nəticələri | |
| Hacı Çələbiyə qarşı düşmən ittifaqının yaranması və onun nəticəsi | |
| Hacı Çələbinin Azərbaycan torpaqlarını birləşdirməkdə məqsədi | |







Qruplar əldə edilən faktları və bilikləri mübadilə edirlər. Şagirdlərin Şəki xanlığının yaranmasını zəruri edən amillərlə bağlı fikirləri müzakirə edilir. Bu proses mövzunun məntiqi və xronoloji ardıcıllığı əsasında davam etdirilir. Bununla da səbəb-nəticə əlaqələri müəyyən edilir.

İlk müstəqil Azərbaycan xanlığı olan Şəki xanlığının yaranması, inkişafı və mövcudluğunun əhəmiyyəti haqqında yeni faktlar, məlumatlar ümumiləşdirilir. Şəkil əsasında Hacı Çələbi xan yazılı şəkildə təsvir edilir.



Cədvəlin qruplar tərəfindən tamamlanmış hər bir sütunu yoxlanılır və qiymətləndirilir.

Qruplar digər qrupların fəaliyyəti ilə bağlı rəy və təkliflərini bildirirlər. Qruplar qarşılıqlı qiymətləndirmə əsasında meyarlar üzrə qiymətləndirilir.

***Yaradıcı tapşırıq:*** "Hacı Çələbi xan Nadir şahın hüzurunda" mövzusunda kiçik hekayə qurun.

***Ev tapşırığı:***

Şəkillər əsasında şagirdlərə dərslik mətni və məlumat vərəqi hazırlamaq tapşırılır.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *nümayişetdirmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Şəki xanlığı haqqında sadə biliklər nümayiş etdirir. | Şəki xanlığı haqqında sadə biliklər nümayiş etdirməkdə çətinlik çəkir. | Şəki xanlığı haqqında sadə bilikləri səhvlərə yol verərək nümayiş etdirir. | Şəki xanlığı haqqında elementar səhvlə sadə biliklər nümayiş etdirir. | Şəki xanlığı haqqında sadə biliklər nümayiş etdirir. |

# 26. “Azərbaycanın qapısı” — Qarabağ xanlığı

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 1.2.2.;<br>2.1.2. | 1. Şəkil və digər sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparır.<br>2. Xəritələrdə Qarabağın yerləşdiyi ərazini və qalaları müəyyənləşdirir. |

Şagirdlərin diqqəti müəllimin şərhinə yönəldilir: İnsanların, ölkələrin, dövlətlərin kənar hücumlardan müdafiə olunmasının zəruriliyi onları müxtəlif yollarla bu hücumların qarşısını almağa sövq edirdi: Gəlin, bu məsələni aydınlaşdıraq. Kiçik müzakirə aparılır:



***Tədqiqat sualı:***

*– Qarabağ xanlığının yaranmasının əhəmiyyəti nə idi?*

Şagirdlər sual ətrafında müzakirə aparırlar.

Müəllimin şərhi onları yeni fakt və məlumatları müəyyənləşdirməyə yönəldir.

Azərbaycan çox tez-tez yadelli hücumlarına məruz qalırdı. Bunun əsas səbəbi yurdumuzun sərvətləri idi. Vətənimizin bir parçası olan Qarabağ, onun başlıca şəhəri olan Şuşa öz tapıntıları ilə sübut edir ki, bu yerlər ən qədim insan məskənidir. Bu ərazilərdə soyu, igidliyi ilə tanınan məşhur tayfalar yaşayırdı. Onlardan biri də igid Cavanşirlər nəsli idi. Qarabağın müdafiəsini təşkil etmək üçün Pənahəli xan Cavanşir bir neçə qala tikdirmişdi. Onlardan biri “Pənahabad” adlandırılan Şuşa qalası idi.




Təqdim olunan mənbələr üzrə iş davam etdirilir. Şuşa qalasının şəkli təhlil edilir. Tədqiqat sualına aid faktlar və məlumatlar tapılır.

Şagirdlərə təqdim olunacaq məlumatlar cədvəlin sütun başlıqlarında ardıcıllıqla verilmişdir.

Xəritə əsasında Azərbaycan ərazisində Qarabağın yerləşdiyi məkanı və onun sərhədlərini müəyyən edin.

Qarabağ xanlığına aid olan cədvəli tamamlayın.

| Xanlığın yarandığı dövr və ərazi | Xanlığın banisi | Şuşanın təbiəti | Şuşa qalasının bərpası | Qarabağın Azərbaycan torpağı olduğunu təsdiq edən sənəd |
|---|---|---|---|---|
| | | | | |



Qarabağ xanlığı, Şuşa qalası haqqında əldə olunan bilgilər ümumiləşdirilir. Şifahi şəkildə “Şuşaya gedən yol” adlı yol xəritəsi müəyyənləşdirilir. Dünyanın müxtəlif yerlərindən Şuşaya tez və operativ şəkildə çatmağın yolları müzakirə edilir. Qəbul olunan ən yaxşı təklif auksion vasitəsilə “balla” qiymətləndirilir.

Tədqiqat işi kiçik qruplarda və cütlük şəklində aparılır.

Şagirdlərin cüt-cüt işləməsi:

– problemin həllində onların bir-birinə kömək etməsinə;
– tapşırıqların nəticələri barədə fikir mübadiləsi aparmağa;
– qarşılıqlı qiymətləndirmə və qarşılıqlı yoxlama keçirməyə imkan yaradır.

***Yaradıcı tapşırıq:***

Şagirdlərə öz mülahizələri əsasında “Qarabağa qayıdacağıq” adlı kiçik esse yazmaq tapşırılır.

***Ev tapşırığı:*** “Qarabağ xalçaları” adlı slayd-təqdimat hazırlayın.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *tədqiqataparma, müəyyənləşdirmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Şəkil və digər sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparır. | Şəkil və digər sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparmaqda çətinlik çəkir. | Şəkil və digər sənədli materiallardan istifadə edərək tarixi tədqiqat apararkən cüzi səhvlərə yol verir. | Şəkil və digər sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparır. | Şəkil və digər sənədli materiallardan istifadə edərək ətraflı tarixi tədqiqat aparır. |
| Xəritələrdə Qarabağın yerləşdiyi ərazini və qalaları müəyyənləşdirir. | Xəritələrdə Qarabağın yerləşdiyi ərazini və qalaları səhvlərə yol verərək müəyyənləşdirir. | Xəritələrdə Qarabağın yerləşdiyi ərazini və qalaları müəllimin köməyi ilə müəyyənləşdirir. | Xəritələrdə Qarabağın yerləşdiyi ərazini və qalaları köməkçi suallarla müəyyənləşdirir. | Xəritələrdə Qarabağın yerləşdiyi ərazini və qalaları müəyyənləşdirir. |

# 27. İrəvan xanlığı

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 3.1.1.;<br>5.1.3 | 1. İrəvan xanlığı haqqında sadə biliklər nümayiş etdirir.<br>2. İrəvanda Azərbaycan mədəniyyəti ilə bağlı təqdimat hazırlayır. |

Şagirdlərin diqqəti 18-ci əsrdə Azərbaycan torpaqlarında yaranan vəziyyətin təhlilinə yönəldilir. Keçmiş dərslərdə bu dövrə aid öyrənilən biliklər yada salınır. Şagirdlər həmin dövrdə Azərbaycan torpaqlarında xanlıqların yaranması haqqında sadə fikirlərini müzakirə edirlər. Problemin yaranması tədqiqat sualının ortaya çıxmasına səbəb olur:

***Tədqiqat sualı:***

*– İrəvan xanlığı öz müstəqilliyini necə itirdi?*

Şagirdlər rəy və təkliflərini bildirirlər. BİBÖ üsulundan istifadə etməklə mövzu barəsindəki əvvəlki təcrübəni nəzərdən keçirmək, onunla yeni biliklər arasında əlaqə yaratmaq mümkündür.

| Bilirəm | İstəyirəm biləm | Öyrəndim |
|---|---|---|
| | | |





Şagirdlər cüt-cüt bölünür və əvvəlki biliklərinə dair siyahı tərtib edirlər. Cütlər yazdığı məlumatı təqdim edir və sol sütunda qeyd edir. Bu məlumat əvvəlcədən qrupda razılaşdırılmalıdır. Şagirdlər mövzu ilə bağlı yarana biləcək suallar siyahısını müəyyənləşdirir. Bu suallar ikinci sütunda qeyd olunur.

Mətn oxunur, sualların cavabı orada öz əksini tapıbsa, onlar üçüncü sütunda qeyd olunur. Əgər suallar mövzuya aid məlumat, xəritə və ya sənədlə bağlıdırsa, bu mənbələr üzərində təhlil aparılır və cavablar yenə də üçüncü sütunda qeyd olunur.

Şagirdlər birinci sütundakı bilikləri yeni öyrəndikləri biliklərlə qarşılaşdırırlar.

Xəritələrin və müvafiq mətnin təhlili əsasında İrəvan xanlığının yarandığı ərazi və dövr müəyyənləşdirilir. Mövzuda əks olunmuş şəkillərin müzakirəsi nəticəsində İrəvanda mühüm tarixi abidələrimizin əhəmiyyəti müəyyənləşdirilir. Cədvəli dərsliyin 101–103-cü səhifələrindəki mətnin və şəkillərin təhlili yolu ilə tamamlayın.

***İrəvan xanlığı***

| Paytaxtı | Əhalisinin məşğuliyyəti | Xanlığa erməni və gürcülərin hücumlarının nəticələri | Xanlığın işğalı və onun nəticələri |
|---|---|---|---|
| | | | |

***Yaradıcı tapşırıq:***

Çar hökumətinin Azərbaycan ərazisində yerləşən İrəvan xanlığının yerində "erməni vilayəti" yaratmasının əsas məqsədlərini yazılı şəkildə təsvir edin.

***Ev tapşırığı:*** Şagirdlərə sorğu vasitəsilə indiki Ermənistan ərazisində Azərbaycanla bağlı yer adları və mühüm tarixi abidələr haqqında məlumat toplamaq tapşırılır.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *nümayişetdirmə, təqdimathazırlama*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| İrəvan xanlığı haqqında sadə biliklər nümayiş etdirir. | İrəvan xanlığı haqqında sadə biliklər nümayiş etdirməkdə çətinlik çəkir. | İrəvan xanlığı haqqında sadə bilikləri səhvlərə yol verərək nümayiş etdirir. | İrəvan xanlığı haqqında sadə bilikləri cüzi səhvlə nümayiş etdirir. | İrəvan xanlığı haqqında sadə biliklər nümayiş etdirir. |
| İrəvanda Azərbaycan mədəniyyəti ilə bağlı təqdimat hazırlayır. | İrəvanda Azərbaycan mədəniyyəti ilə bağlı təqdimat hazırlamaqda çətinlik çəkir. | İrəvanda Azərbaycan mədəniyyəti ilə bağlı sistemsiz təqdimat hazırlayır. | İrəvanda Azərbaycan mədəniyyəti ilə bağlı təqdimat hazırlayır. | İrəvanda Azərbaycan mədəniyyəti ilə bağlı ətraflı, maraqlı təqdimat hazırlayır. |

# 28. Gəncə niyə Yelizavetpol adlandı?

| *Standartlar* | *Təlim məqsədləri* |
|---|---|
| 3.1.1.;<br>4.1.2. | 1. Gəncə xanlığı haqqında sadə biliklər nümayiş etdirir.<br>2. Mənbələrə əsasən Cavad xan haqqında təqdimat hazırlayır. |



Şagirdlər Azərbaycan torpaqlarının yadelli hücumlarından müdafiəsini çətinləşdirən amillərlə bağlı əvvəlki biliklərini yada salmaqla, sadə fikirlərini izah edirlər. Müəllimin kiçik şərhi təqdim edilir:

Azərbaycan torpaqlarının kiçik dövlətlərə parçalanmasından istifadə edən çar Rusiyası torpaqlarımızı işğal etməyə çalışırdı.

Azərbaycan xanlıqları bir-birinin ardınca işğal edilirdi. Gəncə xanlığı da onların sırasında idi. İşğalın baş verməsi Gəncədə bir çox dəyişikliklərə səbəb oldu.

***Tədqiqat sualı:***

*– Gəncənin Rusiya tərəfindən işğalının hansı nəticələri oldu?*

Şagirdlərin tədqiqat sualına aid ilkin fərziyyələri ətrafında müzakirə aparılır. Müvafiq mətn və 105-ci səhifədəki illüstrasiya təhlil edilir. Şagirdlərə illüstrasiya əsasında döyüşün gedişini təsvir etmək tapşırılır. Bu tapşırıq şifahi şəkildə yerinə yetirilir və ona təxminən 4–5 dəqiqə vaxt ayrılır. Onların fəaliyyətini irəli sürülmüş problemin həllinə istiqamətləndirmək üçün cədvəl-çalışma verilir:

| **Azərbaycanın Rusiya işğalına qarşı dura bilməməsinin başlıca səbəbi** | **Gəncənin işğalçılara qarşı mübarizəsinin təsviri** | **Rus generalı Cavad xana nə üçün haqq qazandırırdı?** | **Gəncənin adı işğalçıları nə üçün qorxudurdu?** |
|---|---|---|---|
| | | | |

Tədqiqat işi bütün siniflə birgə və kiçik qruplarda aparılır.

Müvafiq mövzu, xəritələr, dərsliyin mətnində verilmiş şəkil və illüstrasiyalar şagirdlər tərəfindən müzakirə və təhlil edilir.

Məlumatın məqsədyönlü müzakirəsini təşkil etmək məqsədilə, ilk növbədə, 19-cu əsrin əvvəllərində Azərbaycandakı vəziyyət təhlil olunur və cədvəlin birinci sütunundakı suala cavab axtarılır.

İkinci sütunda işğalçılarla müharibədə tək qalan Gəncənin qəhrəmanlıq mübarizəsinin təsvir olunması zərurəti yaranır. Gəncə təklənsə də, düşmənə inadla müqavimət göstərirdi. Rus generalının Cavad xana haqq qazandırması tarixi əhəmiyyətli bir etirafdır. 3-cü sütunda bu etirafın səbəbinin aydınlaşdırılması həyata keçirilir. Digər üç bənd üzrə toplanılmış məlumatlar, 4-cü sütuna aid əldə edilmiş faktlar tədqiqat sualına cavabın müəyyən olunmasında həlledici mərhələni təşkil edir.

***Yaradıcı tapşırıq:*** Şagirdlər dərsliyin 106-cı səhifəsindəki tapşırığa uyğun olaraq, "Cavad xanın qəhrəmanlığı" mövzusunda kiçik hekayə qurur.

***Ev tapşırığı***: Şagirdlərə Gəncənin keçmişi və bu gününə aid şəkillər toplamaq tapşırılır.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *nümayişetdirmə, təqdimathazırlama*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Gəncə xanlığı haqqında sadə biliklər nümayiş etdirilir. | Gəncə xanlığı haqqında bəzi məlumatları vardır. | Gəncə xanlığı haqqında sadə biliklər nümayiş etdirməkdə çətinlik çəkir. | Gəncə xanlığı haqqında, əsasən, düzgün sadə biliklər nümayiş etdirir. | Gəncə xanlığı haqqında sərbəst və düzgün sadə biliklər nümayiş etdirir. |
| Mənbələrə əsasən Cavad xan haqqında təqdimat hazırlayır. | Mənbələrə əsasən Cavad xan haqqında təqdimat hazırlamaqda çətinlik çəkir. | Mənbələrə əsasən Cavad xan haqqında sistemsiz təqdimat hazırlayır. | Mənbələrə əsasən Cavad xan haqqında təqdimat hazırlayır. | Mənbələrə əsasən Cavad xan haqqında ətraflı təqdimat hazırlayır. |

# 29. Azərbaycanın parçalanması

| *Standartlar* | *Təlim məqsədləri* |
|---|---|
| 1.2.2. | 1. İllüstrasiya və əlavə sənədli materiallar əsasında Azərbaycanın parçalanması haqqında tarixi tədqiqat aparır. |

Şagirdlərin diqqəti müəllimin qısa şərhinə yönəldilir. İnsanlar qonşu olduğu kimi, dövlətlər də bir-biri ilə qonşuluqda yaşayırlar.

Onlar arasında münasibətlər gah dinc, gah da münaqişəli vəziyyətdə davam edir.

Bəzən onlar öz aralarında müqavilələr bağlayırlar.

– Sizcə, dövlətlər bir-biri ilə nə üçün müqavilələr bağlayırlar?

Şagirdlər müzakirəyə qoşulurlar. Sonra tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:***

*– Gülüstan və Türkmənçay müqavilələri nə üçün tarixdə ən ədalətsiz müqavilələr hesab olunur?*

Şagirdlərin fərziyyələri dinlənilir. Şagirdlər sual ətrafında öz mülahizə və təkliflərini bildirirlər.

Şagirdlərin fəaliyyəti qruplarda davam etdirilir.

Dərslikdəki müvafiq mətn oxunur və təhlil edilir. Qruplar müvafiq xəritə, müqavilələrin mətni, şəkil və illüstrasiyalar əsasında tədqiqat aparırlar.



Şagirdlər qruplara bölünürlər. Qruplara aşağıdakı sualları cavablandırmaq tapşırılır:

1. Azərbaycanda xarici işğallara şərait yaradan amillər hansılardır?
2. Gülüstan müqaviləsinin məzmunu nədən ibarətdir?
3. Türkmənçay müqaviləsi özündə hansı məsələləri əks etdirirdi?
4. Azərbaycanın parçalanmasının ağır nəticələri hansılardır?

Hər bir qrup ona tapşırılan məsələni həll edir, digər qrupların fikirlərinə aid rəy və təkliflərini bildirir.

Bu prosesdə şagirdlərdə səbəb-nəticə əlaqələrini müəyyən etmək, ümumiləşdirmək və sistemləşdirmə bacarıqları formalaşdırılır.

Gülüstan və Türkmənçay müqavilələrinin ağır nəticələri dəyərləndirilir. Şagirdlərə bu müqavilələr nəticəsində bölüşdürülmüş ərazilərin xəritə əsasında müəyyən edilməsi və qeyd olunması tapşırılır.

***Yaradıcı tapşırıq:***

Qrupların tərtib etdiyi müqavilə layihəsinin yoxlanılması və qiymətləndirilməsi təşkil edilir.

***Ev tapşırığı:*** 110-cu səhifədəki illüstrasiyaya əsasən Türkmənçay müqaviləsinin bağlanması mərasimini yazılı şəkildə təsvir edin.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *tədqiqataparma*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| İllüstrasiya və əlavə sənədli materiallar əsasında Azərbaycanın parçalanması haqqında tarixi tədqiqat aparır. | İllüstrasiya və əlavə sənədli materiallar əsasında tarixi tədqiqat aparmaqda çətinlik çəkir. | İllüstrasiya və əlavə sənədli materiallar əsasında sistemsiz tarixi tədqiqat aparır. | İllüstrasiya və əlavə sənədli materiallar əsasında tarixi tədqiqat aparır. | İllüstrasiya və əlavə sənədli materiallar əsasında ətraflı tarixi tədqiqat aparır. |

# 30. Tarixi yazanlar

| *Standartlar* | *Təlim məqsədləri* |
|---|---|
| 4.1.2. | 1. Mənbələrə əsasən A.Bakıxanov və Mirzə Kazım bəy haqqında təqdimatlar hazırlayır. |

Şagirdlərin alim, elm sahələri haqqında təsəvvürlərini yoxlamaq üçün suallar verilir. Onlar bu anlayışlar haqqında təsəvvürlərini izah edirlər. Kiçik müzakirədən sonra tədqiqat sualı qoyulur. Şagirdlərin təfəkkürü canlanır.

***Tədqiqat sualı:***

*– A.Bakıxanov və Mirzə Kazım bəy dünya şöhrətli alim kimi necə məşhurlaşdılar?*

Şagirdlərlə birlikdə müzakirə davam etdirilir.

Mövzunun əhatəli olması hər bir şagirdin bütün məsələlərin həllində fəal iştirakını təmin etməyi tələb  edir. Ona görə də bu mövzunun tədrisi zamanı “Ziqzaq” metodundan istifadə etmək daha məqsədəuyğun hesab edilir.

Mövzunun mətni 4 hissəyə bölünür və təhlil edilir.

Sinifdəki şagirdlər 2-dən 4-dək saymaqla nömrə alır. Hər bir qrup üzvünə dərslikdəki müvafiq mətnin məzmunun bir hissəsi verilir.





| A.Bakıxanovun | | M.Kazım bəyin | |
|---|---|---|---|
| həyatı | elmi fəaliyyəti | həyatı və elmi fəaliyyəti | Azərbaycanla əlaqələri |
| | | | |

Şagirdlərin əldə etdikləri yeni məlumatlar mübadilə olunur. Müəllim mövzunun adını və məzmununu qısaca izah edir. Dərs zamanı şagirdlər mövzunu necə başa düşdüklərini göstərməlidirlər.

Şagirdlər nömrəyə uyğun ardıcıllıqla mətnin hissələrini alırlar. Məzmunu daha yaxşı başa düşmək üçün ekspert adlanan şagirdlər eyni nömrələri və tapşırığı şagirdlərlə oxumalıdırlar. Sonra onlar əvvəlki qruplarına qayıdaraq qrup üzvlərinə öyrətdikləri yeni məzmunu öyrətməlidirlər.

Məzmunun istənilən hissəsinə aid yarana biləcək suala ekspertlər cavab verməlidirlər. Ekspertlərin təqdimatından sonra şagirdlər mətni ardıcıllıqla danışırlar.

Mövzunun plana uyğun məntiqi birliyi yoxlanılır.

Şagirdlərə A.Bakıxanovu və Mirzə Kazım bəyin fəaliyyətini müqayisə etmək tapşırılır. A.Bakıxanovun və M.Kazım bəyin Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlər olması nəticəsinə gəlinir.

***Ev tapşırığı***: M.F.Axundzadə haqqında məlumat toplayın.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *təqdimathazırlama*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Mənbələrə əsasən A.Bakıxanov və Mirzə Kazım bəy haqqında təqdimatlar hazırlayır. | Mənbələrə əsasən A.Bakıxanov və Mirzə Kazım bəy haqqında təqdimatlar hazırlamaqda çətinlik çəkir. | Mənbələrə əsasən A.Bakıxanov və Mirzə Kazım bəy haqqında sistemsiz təqdimatlar hazırlayır. | Mənbələrə əsasən A.Bakıxanov və Mirzə Kazım bəy haqqında təqdimatlar hazırlayır. | Mənbələrə əsasən A.Bakıxanov və Mirzə Kazım bəy haqqında ətraflı təqdimatlar hazırlayır. |

# 31. Mirzə Fətəli Axundzadə

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 5.1.2. | 1. M.F.Axundzadənin milli-mənəvi irsini fərqləndirir. |

Kiçik müzakirə təşkil edilir. Şagirdlərə mədəni gerilik və mədəni tərəqqi anlayışları haqqında fikirlərini bildirmək təklif edilir.

Onların fəaliyyəti bu amillərin nəticələrinin müəyyənləşdirilməsinə yönəldilir.

Müzakirənin köməyi ilə tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:***

*– M.F.Axundzadənin fəaliyyəti hansı məqsədə xidmət edirdi?*



Əsas ideyanın cavabını müəyyənləşdirmək üçün şagirdlər yeni fakt və məlumatlar tapmağı zəruri edən tədqiqat prosesinə cəlb olunurlar.

Qoyulan məsələnin həllində bütün şagirdlərin iştirakına nail olmaq üçün karusel üsulundan istifadə etmək daha məqsədəuyğundur.

Sinif şagirdlərin sayından asılı olaraq qruplara bölünür. Hər qrup "M.F.Axundzadə" mövzusuna dair bir tapşırığı həll edir:

| 1. M.F.Axundzadənin komediyalarında tənqid hədəfləri | 2. Fətəlinin "Mirzə" adlandırılmasının səbəbləri | 3. M.F.Axundzadənin nail olmaq istədiyi məqsədlər | 4. M.F.Axundzadənin xalqın qarşısına qoyduğu vəzifələr |
|---|---|---|---|
| | | | |

Qrupların işləri mübadilə olunur. Onlar iş vərəqini saat əqrəbi istiqamətində bir-birinə ötürür və öz əlavələrini edirlər.

Beləliklə, iş vərəqi ilkin qrupa qaytarılana qədər proses davam etdirilir: bu prosesdə tapşırıqlar vacib məsələlərə toxunmalıdır; vaxt məhdudlaşdırılmalıdır; bütün qruplar ötürməni eyni vaxtda həyata keçirməlidirlər; hər qrup öz əlavələrini fərqli



rəngdə markerlə yazmalıdır.

Hər bir tapşırıq üzrə əldə edilən faktlar və yeni məlumatlar müzakirə və təhlil edilir.

Hər bir tapşırığın cavabı cədvəlin uyğun xanasına qeyd olunur.

M.F.Axundzadəni öz dövrünün digər mütəfəkkirlərindən fərqləndirən cəhətlər ümumiləşdirilir.

Şagirdlərin fəaliyyəti kiçik qruplarda başa çatdıqdan sonra cütlük şəklində iş formasında təşkil edilir. Cütlüklərə dərsliyin 117-ci səhifəsindəki şəkil üzrə öz təsəvvürlərini yazılı şəkildə ifadə etmək tapşırılır.

***Yaradıcı tapşırıq:***

M.F.Axundzadənin komediyalarının birindən bir parça seçilir və səhnələşdirilir.

***Ev tapşırığı:*** “M.F.Axundzadə xalqımızın azadlığa qovuşmasını nədə görürdü?” sxemini tamamlayın.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *fərqləndirmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| M.F.Axundzadənin milli-mənəvi irsini fərqləndirir. | M.F.Axundzadənin milli-mənəvi irsini fərqləndirməkdə çətinlik çəkir. | M.F.Axundzadənin milli-mənəvi irsini səhvlərə yol verərək fərqləndirir. | M.F.Axundzadənin milli-mənəvi irsini köməkçi sualla fərqləndirir. | M.F.Axundzadənin milli-mənəvi irsini fərqləndirir. |

# 32. Milli mətbuatımızın banisi

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 4.1.2.<br>3.1.3. | 1. Mənbələrə əsasən Həsən bəy Zərdabi haqqında təqdimat hazırlayır.<br>2. Kiçikhəcmli tarixi hekayə qurur. |

Stolun üstündə bir neçə dildə çap olunmuş qəzet qoyulur. Şagirdlərə: – "Gördüyünüz bu qəzetlər arasında hansı fərqlər vardır?" sualı ilə müraciət edilir.

Kiçik müzakirə aparılır.

***Tədqiqat sualı:***

*– Həsən bəy Zərdabinin Azərbaycan milli mətbuatının inkişafındakı rolu nədən ibarətdir?*

Şagirdlər əsas ideya ilə bağlı mümkün fərziyyələrini söyləyirlər. Bu proses cütlük şəklində iş formasında davam etdirilir. Güclü və zəif şagird cütlüyü daha səmərəlidir. Bu üsulun əhəmiyyəti ondadır ki, şagirdlərin bir-biri ilə əməkdaşlıq etməsi, öz ideyalarını müqayisə etməyə və əlaqələndirməyə kömək edir. Əvvəlcə dərsliyin mətni oxunur və müzakirə edilir. Mənbələrin araşdırılması 120-ci və 121-ci səhifədəki şəkillərin təhlili ilə davam etdirilir. Cütlüklər məlumatları cədvəl şəklində təşkil edirlər:


اكينچى



| Müəyyənləşdirin | | Cavablandırın | |
|---|---|---|---|
| H.Zərdabinin təhsili, tərcüməçilik və müəllimlik fəaliyyətini | Ana dilində qəzet çıxarmağın çətinliklərini | "Əkinçi" qəzetində əhatə olunan məsələləri | Milli mətbuatımızın inkişafında H.Zərdabinin gördüyü işlərin əhəmiyyətini |
| | | | |



***Məlumatın mübadiləsi:*** Qrup nümayəndələri işlərini təqdim edir. Çalışmaq lazımdır ki, təqdimatı tədqiqatın gedişində ən az fəallıq göstərən şagirdlər etsinlər. Bu amil daha güclü və fəal şagirdləri zəif şagirdləri məlumatlandırmağa təhrik edir. Beləliklə, əməkdaşlıq şəraitində iş prosesinə qrupun bütün üzvləri qoşulur və sinfin fəallığı təmin edilir. Dərsin sonunda şagirdlərin Həsən bəy Zərdabinin Azərbaycan milli mətbuatının inkişafındakı rolu haqqında irəli sürdükləri fikir və rəyləri ümumiləşdirilir və sistemləşdirilir.

H.Zərdabinin bütün çətinliklərə baxmayaraq, ana dilində qəzet çıxarması, "Əkinçi" qəzetinin milli mətbuatımızın sonrakı inkişafına müstəsna təsir etməsi nəticəsinə gəlinir.

***Yaradıcı tapşırıq:***

Böyük qrupla iş: Şagirdlər "Əkinçi" qəzeti nümunəsində sinif qəzeti hazırlayırlar. Şagirdlər əldə etdikləri məlumatları lövhədən asılmış qəzet maketinin uyğun hissələrində yerləşdirir və qəzetə simvol (rəmz) seçirlər.

***Ev tapşırığı:*** Dərsliyin 121-ci səhifəsindəki 4-cü metodik tapşırığın yerinə yetirilməsi tapşırılır.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *təqdimathazırlama*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Mənbələrə əsasən Həsən bəy Zərdabi haqqında təqdimat hazırlayır. | Mənbələrə əsasən Həsən bəy Zərdabi haqqında təqdimat hazırlamaqda çətinlik çəkir. | Mənbələrə əsasən Həsən bəy Zərdabi haqqında sistemsiz təqdimat hazırlayır. | Mənbələrə əsasən Həsən bəy Zərdabi haqqında təqdimat hazırlayır. | Mənbələrə əsasən Həsən bəy Zərdabi haqqında ətraflı təqdimat hazırlayır. |
| Həsən bəy Zərdabi haqqında hekayə qurur. | Həsən bəy Zərdabi haqqında hekayə qurmaqda çətinlik çəkir. | Həsən bəy Zərdabi haqqında hekayə qurarkən köməkdən istifadə edir. | Həsən bəy Zərdabi haqqında hekayə qura bilir. | Əldə etdiyi məlumatlar əsasında Həsən bəy Zərdabi haqqında əhatəli hekayə qurur. |

# 33. Böyük Azərbaycan xeyriyyəçisi

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 4.1.2. | 1. Mənbələrə əsasən Hacı Zeynalabdin Tağıyevin xeyriyyəçilik fəaliyyəti haqqında təqdimatlar hazırlayır. |

– Sizcə, insanların birgəyaşayışı üçün onlarda hansı keyfiyyətlərin olması vacibdir?

Müzakirə vasitəsilə insanlara xas yüksək əxlaqi dəyərlər haqqında şagirdlərin fikirləri və fərziyyələri irəli sürülür.

***Tədqiqat sualı:***

– *H.Z.Tağıyevin xeyriyyəçilik fəaliyyətinin əhəmiyyəti nədir?*



Problemin həlli ilə bağlı müzakirə davam etdirilir.

Dərsliyin müvafiq mətni oxunur və müzakirə edilir.

Şagirdlər qruplarda H.Z.Tağıyev haqqında ədəbiyyat, sənədlər, şəkilləri təhlil edirlər. Tədqiqat aparmaq üçün şagirdlər qruplara bölünür. H.Z.Tağıyevin xeyriyyəçilik fəaliyyəti çox geniş olduğundan şagirdlər bu fəaliyyətin başlıca cəhətlərini tədqiq etməklə tədqiqat sualını cavablandırmağa və problemi həll etməyə yönəldilirlər.

Qrupların hər biri tapşırığın birini həll etməklə H.Z.Tağıyevin gördüyü xeyriyyəçilik tədbirlərini ümumiləşdirmək və sistemləşdirməklə cədvəli tamamlayırlar.

| **Bakının su probleminin həlli** | **Xalqın təhsilinə qayğı** | **Teatr binasının tikilməsi** | **Azərbaycanlıların iş probleminin həlli** |
|---|---|---|---|
| | | | |

Tədqiqat sualına cavab aydınlaşır. Nəticələr əsas ideya və şagirdlərin sadə ideyaları ilə tutuşdurulur. Əldə olunan biliklər ümumiləşdirilir.





H.Z.Tağıyevin Azərbaycan tarixində çox mühüm şəxsiyyətlərdən biri və xeyriyyəçilik kimi yüksək insani dəyərlərə malik olması nəticəsinə gəlinir.

***Yaradıcı tapşırıq:***

Şagirdlər "H.Z.Tağıyevin Qızlar məktəbi" adlı təqdimat hazırlayırlar.

***Ev tapşırığı:*** "H.Z.Tağıyev və Bakı memarlığı" adlı slayd hazırlayın.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *təqdimathazırlama*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Mənbələrə əsasən Hacı Zeynalabdin Tağıyevin xeyriyyəçilik fəaliyyəti haqqında təqdimatlar hazırlayır. | Mənbələrə əsasən H.Z.Tağıyev haqqında təqdimatlar hazırlamaqda çətinlik çəkir. | Mənbələrə əsasən H.Z.Tağıyev haqqında sistemsiz təqdimatlar hazırlayır. | Mənbələrə əsasən H.Z.Tağıyev haqqında təqdimatlar hazırlayır. | Mənbələrə əsasən H.Z.Tağıyev haqqında ətraflı təqdimatlar hazırlayır. |

# 34. Cəlil Məmmədquluzadə — “Molla Nəsrəddin”

| Standartlar | Təlim məqsədləri |
| --- | --- |
| 5.1.2. | 1. “Molla Nəsrəddin” jurnalının milli-mənəvi dəyərini qiymətləndirir. |

Müəllim stolun üstündə bir neçə jurnalı şagirdlərə göstərərək soruşur:

– Sizcə, bu nəşrlər nə üçün lazımdır?

Müzakirə təşkil edilir və şagirdlər öz rəy və təkliflərini söyləyirlər. Tədqiqat sualı formalaşdırılır.




***Tədqiqat sualı:***

*– “Molla Nəsrəddin” jurnalının milli-mənəvi dəyəri nədədir?*

Şagirdlər problemin həllinə dair fərziyyələrini irəli sürürlər. Qoyulmuş tədqiqat sualına cavab verməyə kömək edə biləcək faktları tapmaq üçün dərslik üzərində iş aparılır.

Dərslikdəki “Molla Nəsrəddin” mövzusu oxunur, təhlil edilir. Yeni məlumatlar aşkara çıxarmaq zərurəti meydana gəlir. Qruplara dərsliyin 127 və 128-ci səhifələrində verilmiş “Molla Nəsrəddin” jurnalı ilə bağlı şəkil və illüstrasiyaları təhlil etmək təklif edilir. Tədqiqat sualına uyğun olan cavablar seçilir və qeyd edilir.





Təqdimat jurnal formasında təklif edilə bilər. Kiçik qrupların hər birinə plan üzrə jurnalın bir səhifəsini hazırlamaq təklif edilir. Plan mövzuya uyğun olaraq, aşağıdakı kimi qurula bilər.

| Oxucu “Molla Nəsrəddin” jurnalının ilk nömrəsi ilə necə tanış oldu? | Oxuculara “Molla Nəsrəddin” jurnalının baş redaktoru haqqında məlumat verin | Jurnalın adının nə üçün “Molla Nəsrəddin” qoyulmasını oxucu-lara aydınlaşdırın | “Molla Nəsrəddin” jurnalında əksini tapan başlıca problemləri şərh edin |
|---|---|---|---|
| | | | |

Şagirdlərin pərakəndə faktlar yığımından ibarət olan nəticələrinin müzakirəsi təşkil olunur. Toplanan məlumat müqayisə edilir və qruplaşdırılır. Qrup tapşırıqlarının əsas ideyasına uyğun olan cavablar ümumiləşdirilir. Daha sonra dərsin əsas ideyası cavablandırılır. Şagirdlərin diqqəti məlumatlar arasında oxşarlıqları və fərqləri tapmağa yönəldilir.

Beləliklə, şagirdlərin qeyd edilmiş fikirləri bir ideya halında birləşdirilir.



Artıq formalaşdırılmış ideya tədqiqat sualı ilə tutuşdurulur, ilkin fərziyyələrlə müqayisə edilir, onlar arasında uyğunluğun olub-olmaması aydınlaşdırılır. “Molla Nəsrəddin” jurnalının Azərbaycan mədəniyyətinin inkişafında müstəsna rol oynaması nəticəsinə gəlinir.

***Yaradıcı tapşırıq:***

Mənbələr əsasında Cəlil Məmmədquluzadə haqqında təqdimat hazırlayın.

***Ev tapşırığı:*** “Əkinçi” qəzetinin və “Molla Nəsrəddin” jurnalının fəaliyyətini Venn diaqramında müqayisə edin.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *qiymətləndirmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| “Molla Nəsrəddin” jurnalının milli-mənəvi dəyərini qiymətləndirir. | “Molla Nəsrəddin” jurnalı haqqında cüzi məlumatı vardır, onun milli-mənəvi dəyərini qiymətləndirməkdə çətinlik çəkir. | “Molla Nəsrəddin” jurnalının milli-mənəvi dəyərini müəllimin köməyi ilə qiymətləndirir. | “Molla Nəsrəddin” jurnalının milli-mənəvi dəyərini qiymətləndirir. | “Molla Nəsrəddin” jurnalının milli-mənəvi dəyərini düzgün və sərbəst qiymətləndirir. |

# 35. Mirzə Ələkbər Sabir

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 5.1.2. | 1. Mirzə Ələkbər Sabirin şeirlərinin milli-mənəvi dəyərini qiymətləndirir. |



Müəllim şagirdlərə C.Məmmədquluzadənin, M.F.Axundzadənin, Şah İsmayılın, N.Nərimanovun şəkillərini qruplaşdırmağı təklif edir. Şəkilləri qruplaşdırarkən şagirdlər öz işlərini fərqli şəkildə əsaslandıra bilərlər. Müəllimin köməyi ilə onların müzakirə zamanı söylədikləri fikirlər ümumiləşdirilir.

***Tədqiqat sualı:***

*– M.Ə.Sabir şeirlərində hansı problemlərə toxunurdu?*

Şagirdlər tədqiqat sualına cavab tapmaq üçün müzakirəyə cəlb olunurlar.

Dərs böyük qrupla iş və cütlərlə iş forması üzrə keçirilir. Dərslikdə "Mirzə Ələkbər Sabir" mövzusu oxunur və təhlil edilir. Problemin həlli üçün zəruri olan informasiya mənbələri (şəkillər, M.Ə.Sabirin şeirlərinə çəkilmiş illüstrasiyalar, şairin şeirləri, "Molla Nəsrəddin" jurnalının müxtəlif nömrələri və s.) şagirdlərə təqdim olunur. Mövzu ilə tanışlıqdan sonra məzmun aşağıdakı cədvəl üzrə qruplaşdırılır.

**M.Ə.Sabirin fəaliyyəti**

| Tənqid etdiyi məsələlər | Maarifçilik fəaliyyəti |
|---|---|
| | |

Şagirdlər əldə etdikləri məlumatları mübadilə edir, nəticələri təqdim edirlər. Qruplar işə başlayır və hər bir qrup M.Ə.Sabirin fəaliyyətinin bir hissəsi ilə əlaqədar təqdimat hazırlayır. M.Ə.Sabirin öz şeirlərində tənqid etdiyi problemlər və bu problemlərin aradan qaldırılması üçün onun göstərdiyi fəaliyyətə aid yeni faktlara əsaslanan biliklər ümumiləşdirilir. Onlar arasında əlaqələr müəyyən edilir. M.Ə.Sabirin "Oxutmuram, əl çəkin" şeiri oxunur, 130-cu və 131-ci səhifələrdəki illüstra-





siyalar təhlil edilir. Sabirin şeirlərinin milli-mənəvi dəyərləri müəyyənləşdirilir.

Əlaqələndirmə üçün "M.Ə.Sabir şeirlərində tənqid etdiyi problemləri özü necə həll etməyə can atırdı?" sualından istifadə etmək olar.

Şagirdlərin dərsin sonunda çıxardıqları nəticələr və etdikləri ümumiləşdirmələrlə əsas ideya və fərziyyələr arasında əlaqə yaradılır.

M.Ə.Sabirin Azərbaycanın görkəmli ziyalısı kimi xalqının savadlanmasında, təhsilin, elmin səmərəsinin təbliğində mühüm rol oynadığı nəticəsinə gəlinir.

***Yaradıcı tapşırıq:***

Şairin şeirlərindən birinə aid illüstrasiya çəkin.

***Ev tapşırığı:*** Şagirdlərə əldə etdikləri yeni məlumatlar əsasında Mirzə Ələkbər Sabirin və Cəlil Məmmədquluzadənin fəaliyyətini müqayisə etmək təklif edilir.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *qiymətləndirmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Mirzə Ələkbər Sabirin şeirlərinin milli-mənəvi dəyərini qiymətləndirir. | M.Ə.Sabirin şeirlərinin milli-mənəvi dəyərini qiymətləndirməkdə çətinlik çəkir. | M.Ə.Sabirin şeirlərinin milli-mənəvi dəyərini müəllimin köməyi ilə qiymətləndirir. | M.Ə.Sabirin şeirlərinin milli-mənəvi dəyərini, əsasən, düzgün qiymətləndirir. | M.Ə.Sabirin şeirlərinin milli-mənəvi dəyərini tam düzgün və sərbəst qiymətləndirir. |

# 36. Səttar xan

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 4.1.1. | 1. Azərbaycan tarixində Səttar xanın mühüm rol oynadığını müəyyən edir. |



Kiçik müzakirəni təşkil etmək üçün şagirdlərə “Babək nə uğrunda mübarizə aparırdı?” sualı ilə müraciət edilir.

Şagirdlər keçmiş biliklərini yada salır və Babəkin ərəb əsarətinə qarşı apardığı milli-azadlıq mübarizəsi haqqında fikirlərini müzakirə edirlər.

Müzakirə davam etdirilir.

Keçmiş mövzu ilə yeni mövzu arasında əlaqə yaradılır.

***Tədqiqat sualı:***

*– Səttarxan hansı amallar uğrunda mübarizə aparırdı?*

Şagirdlər əvvəlki dərslərdə qazandıqları biliklər əsasında Səttar xanın apardığı mübarizə haqqında fərziyyələrini söyləyirlər.

Tədqiqat kiçik və böyük qruplarla iş formasında aparılır.

Yeni faktların və məlumatların tapılması məqsədilə dərsliyin müvafiq mövzusu, şəkillər, Səttar xan üsyanı ilə bağlı əlavə tarixi sənədlər müzakirə və təhlil edilir. Bütün şagirdləri yeni faktlar və məlumatlarla tanış etmək üçün qruplar öz fəaliyyətlərinin nəticələrini mübadilə edirlər. Bu mövzunun tədrisi prosesində qruplar eyni material üzərində işləyir və digər qruplara birinci qrupun təqdimatına yalnız əlavələr etmək tapşırılır.

Yeni faktlar və məlumatlar cədvəlin müvafiq sütunlarında ümumiləşdirilir.

| Səttar xanın milli-azadlıq mübarizəsinin qəhrəmanı olduğunu əsaslandırın | Mənbələrə əsasən Səttar xanın apardığı mübarizənin səbəblərini müəyyənləşdirin | Səttar xanın xalqın xatirəsində qoyduğu izi müəyyən edin |
|---|---|---|
| | | |

Bu prosesdə daha çox şagirdin fəal iştirakını təmin etmək üçün onlara təqdimat keçirənlərə sual verməyi təklif etmək olar.

Əldə edilmiş fakt və məlumatlar arasında əlaqə yaratmaq, birləşdirici ideyanı tapmaq üçün yeni məlumatlar müqayisə və təhlil edilir.

"Tarix" fənninin tədrisində təlim nəticəsinə nail olmaq üçün məlumatın müqayisəsi, təşkili və yenidənqurulmasını cədvəl, qrafik, sxem, siyahı və s. formasında təqdim etmək daha məqsədəmüvafiqdir.

***Yaradıcı tətbiqetmə:***

Şagirdlər "Təbriz – inqilabın beşiyidir" adlı təqdimat hazırlayırlar. Şagirdlərə dərsliyin 133-cü səhifəsindəki 2-ci tapşırığı yerinə yetirmək tapşırılır.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *müəyyənetmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Azərbaycan tarixində Səttar xanın mühüm rol oynadığını müəyyən edir. | Azərbaycan tarixində Səttar xanın mühüm rol oynadığını müəyyən etməkdə çətinlik çəkir. | Səttar xanın mühüm tarixi rolunu müəllimin köməyi ilə müəyyən edir. | Azərbaycan tarixində Səttar xanın mühüm rol oynadığını müəyyən edir. | Azərbaycan tarixində Səttar xanın mühüm rol oynadığını düzgün və sərbəst müəyyən edir. |

# 37. Sultan bəy Sultanov

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 2.1.2.;<br>4.1.2. | 1. Xəritələrdə Azərbaycanın erməni vəhşiliklərinə məruz qalmış İrəvan, Naxçıvan, Zəngəzur və Qarabağ ərazilərini müəyyənləşdirir.<br>2. Mənbələrə əsasən Sultan bəy Sultanov haqqında təqdimat hazırlayır. |



Şagirdlərin diqqəti xəritəyə yönəldilir. Onlara İrəvan, Naxçıvan, Qarabağ və Ermənistan Respublikası ərazilərini xəritədə müəyyənləşdirmək təklif olunur və soruşulur:

– Xəritədə gördüyünüz bu ərazilər arasında hansı əlaqə vardır?

– Respublikamızı onun ərazisinin bir parçası olan Naxçıvandan ayrı salan ərazilər Azərbaycanımızdan necə qoparılmışdır?

Şagirdlər suallar ətrafında aparılan müzakirə prosesində öz fikirlərini izah edirlər. Tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:***

*– Ermənilərin məkrli niyyətlərinə qarşı Sultan bəy necə mübarizə aparırdı?*

Şagirdlərin cavabları dinlənilir.

Kiçik müzakirədən sonra şagirdlər qruplara bölünür. Dərsliyin müvafiq mətni oxunur və müzakirə olunur.

Qruplar aşağıdakı plan əsasında tədqiqat aparırlar.

| 20-ci əsrdə ermənilərin xalqımıza qarşı məkrli planları və vəhşilikləri | Sultan bəyin erməni quldurlarına qarşı layiqli cavab tədbirləri | Zabıx qələbəsi və onun xalqımız üçün əhəmiyyəti | Şimali Azərbaycanda erməni dövləti yaratmaq planının baş tutmamasının səbəbləri |
|---|---|---|---|
| | | | |

Dərsin əvvəlində xəritə üzərində işin gedişində erməni vəhşiliklərinə məruz qalan ərazilər müəyyənləşdirilir və qeyd olunur. Ermənilərin məkrli planlarına qarşı mübarizədə misilsiz igidliklər göstərən Sultan bəyin şəxsiyyəti müəyyənləşdirilir.

Şagirdlərə: – "Sultan bəy"in hərbi məharətini və igidliyini hansı faktlar sübut edir?" – sualı ilə müraciət edilir. Sual mətnin təhlili əsasında cavablandırılır. Nəticə ümumiləşdirilir. Yeni əldə edilmiş məlumatlar mübadilə edilir.

Şagirdlərə həmin məlumatları cədvəldə sistemləşdirmək təklif edilir.

Sultan bəyin hərbi məharətli tədbirləri nəticəsində Şimali Azərbaycanın erməni talanlarından və işğallarından xilas edilməsi, Şimali Azərbaycanda erməni dövləti yaratmaq planlarının məhv edilməsi nəticəsinə gəlinir.

***Yaradıcı tapşırıq:***

Şagirdlər Sultan bəy haqqında öz bacarıqlarına və maraqlarına uyğun təqdimat hazırlayırlar. Təqdimat Sultan bəyin iştirak etdiyi döyüş səhnəsinin sözlə, yaxud rəsm şəklində təsviri, ona həsr edilmiş şeir, qəzet nümunəsi və yaxud sxem şəklində hazırlana bilər.

***Ev tapşırığı:*** Şagirdlərə erməni quldurlarına qarşı mübarizə aparan Azərbaycan qəhrəmanlarından biri haqqında təqdimat hazırlamaq tapşırılır.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *müəyyənetmə, təqdimathazırlama*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Xəritələrdə Azərbaycanın erməni vəhşiliklərinə məruz qalmış İrəvan, Naxçıvan, Zəngəzur və Qarabağ ərazilərini müəyyənləşdirir. | Xəritə üzərində müstəqil işləməkdə çətinlik çəkir. | Xəritədə Azərbaycanın erməni vəhşiliklərinə məruz qalmış əraziləri bilir, xəritədə yerini müəllimin köməyi ilə müəyyənləşdirir. | Xəritədə erməni vəhşiliklərinə məruz qalmış Azərbaycan ərazilərini, əsasən, düzgün müəyyənləşdirir, bəzən səhvlərə yol verir. | Xəritələrdə İrəvan, Naxçıvan, Zəngəzur və Qarabağ ərazilərini dəqiq müəyyənləşdirir. |
| Mənbələrə əsasən Sultan bəy Sultanov haqqında təqdimat hazırlayır. | Mənbələrə əsasən Sultan bəy Sultanov haqqında təqdimat hazırlamaqda çətinlik çəkir. | Mənbələrə əsasən əldə etdiyi bəzi məlumatlar əsasında müəllimin köməyi ilə Sultan bəy Sultanov haqqında təqdimat hazırlayır. | Mənbələrə əsasən Sultan bəy Sultanov haqqında təqdimat hazırlayır. | Mənbələrə əsasən Sultan bəy Sultanov haqqında sərbəst və düzgün təqdimat hazırlayır. |

# 38. Mart soyqırımı

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 1.2.2.;<br>3.1.3. | 1. İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək Mart soyqırımı haqqında tarixi tədqiqat aparır.<br>2. Kiçikhəcmli tarixi hekayə qurur. |

Müəllimin təklifi əsasında şagirdlər yanğından məhv olmuş, dağıdılmış binaların, kütləvi məzarlıqların, əsir götürülmüş insanların təsvir olunduğu şəkillərə baxır və yaxud slaydda gördükləri haqqında öz fikirlərini söyləyirlər.

3–5 dəqiqəlik müzakirədən sonra şagirdlərin diqqəti tədqiqat sualının formalaşdırılmasına yönəldilir. Tədqiqat bütün siniflə birgə iş formasında anlayışın çıxarılması üsulu ilə aparılır.

***Tədqiqat sualı:***

*– Mart soyqırımının səbəbləri və acı nəticələri nədən ibarətdir?*

Şagirdlər sual ətrafında mülahizələr yürüdürlər. Hər bir şagird soyqırımla əlaqədar öz fikrini əsaslandırmağa çalışır. Lövhədə iki müxtəlif rəngli dairəvi kartoçka asılır. Gizlənilmiş anlayışın altında onlara aid 2–3 xüsusiyyət yazılır. Öyrənilən anlayış bir olduğu üçün “bəli”, ona əks olan anlayış “xeyr” sözləri ilə adlandırılır.






Şagirdlərdə anlayışa görə ilk fərziyyə yaradılır.

Şagirdlərdən gizlədilən əsas soruşulur. Əgər anlayışa aid hər hansı fərziyyə yaranmayıbsa, ona aid yeni xüsusiyyətlər təqdim olunur.  Şagirdlər həmin məlumatları təsnif edirlər və anlayışa aid olanları seçirlər.





Sözlərin düzgün aid edilib-edilməməsi qiymətləndirilir. Şagirdlər yeni sözləri lazımi dairələrə aid edirlər. Şagirdlərə anlayışlara və fərziyyələrə aid olan daha çox yeni xüsusiyyətləri söyləmək təklif edilir.

Bu prosesdən sonra müəllim anlayışın cavabını açır. Mövzunun məzmununa uyğun olan bu söz "soyqırımı"dır.

Şagirdlərə Mart soyqırımından indiyədək keçən vaxtı hesablamaq və xəritələrdə hadisənin baş verdiyi əraziləri müəyyən etmək tapşırılır.

Şagirdlərə 139–140-cı səhifələrdəki şəkilləri təhlil etmək və nəticələri qeyd etmək tapşırılır. Hər bir tapşırıq ayrı-ayrılıqda müzakirə olunur və qiymətləndirilir.

***Yaradıcı tətbiqetmə:***

"Azərbaycan müstəqil olsaydı, soyqırımı baş verərdimi?" sualı ətrafında şagirdlər fikirlərini ümumiləşdirirlər.

***Ev tapşırığı:*** 141-ci səhifədəki 3-cü metodik göstərişi yerinə yetirmək.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *tədqiqataparma*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək Mart soyqırımı haqqında tarixi tədqiqat aparır. | Mənbələrlə işləməkdə Mart soyqırımı haqqında tədqiqat aparmaqda çətinlik çəkir. | Mart soyqırımına aid tarixi tədqiqat aparmaqda çətinlik çəkir, köməkdən istifadə edir. | İllüstrasiya, şəkil və sənədlərdən istifadə edərək Mart soyqırımı haqqında, əsasən, müstəqil tədqiqat aparır, bəzən köməkdən istifadə edir. | Müxtəlif mənbələrdən istifadə edərək Mart soyqırımı haqqında tarixi tədqiqat aparır. |
| Mart soyqırımı haqqında hekayə qurur. | Mart soyqırımı haqqında hekayə qurmaqda çətinlik çəkir. | Mart soyqırımı haqqında hekayə qurarkən köməkdən istifadə edir. | Mart soyqırımı haqqında hekayə qura bilir. | Əldə etdiyi geniş məlumatlar əsasında Mart soyqırımı haqqında əhatəli hekayə qurur. |

# 39. "Bir kərə yüksələn bayraq..."

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 3.1.1. | 1. Azərbaycan Xalq Cümhuriyyəti haqqında sadə biliklər nümayiş etdirir. |

Sinfə müraciətlə sual verə bilərsiniz:

– Respublika sözünü başqa hansı sözlə əvəz etmək olar?

Cavablar arasında "cümhuriyyət" sözünün üzərində dayanaraq bu sözün hansı tarixi hadisə ilə bağlı olmasına dair ilkin diaqnostik sorğu da aparmaq olar.

Şagirdlər öyrəndikləri bilikləri yada salaraq öz fikir və mülahizələrini söyləyirlər.

Milli müstəqilliyin ölkədə dəyişikliklər yaratdığı faktlarla qeyd olunur. Tədqiqat sualı bu dəyişikliklərin xalqımıza nə verdiyini açıqlamalıdır.

***Tədqiqat sualı:***

– *Milli müstəqillik niyə xalqımız üçün ən mühüm dəyər hesab edilir?*

Dərslikdəki müvafiq mövzu oxunur və müzakirə edilir. Müvafiq şəkil və xəritələr, sənədlər təhlil olunur, əsasən, problemin həlli üçün vacib olan yeni faktlar tapılır.

Böyük qruplarda aşağıdakı plan əsasında diskussiya aparılır:

| "İstiqlal bəyannaməsi"nin məzmunu | Bolşeviklərin planları və onun puça çıxması. Göyçay vuruşmasının tarixi nəticəsi | AXC hökumətinin və parlamentinin mühüm problemləri | AXC-nin xalqımıza bəxş etdiyi xoşbəxtlik |
|---|---|---|---|
| | | | |



Plana uyğun olaraq cədvəldəki hər bir sütun başlığındakı məsələlər qrup tapşırığı kimi də verilə bilər.

Şagirdlərin qrup işinin nəticələri mübadilə edilir. Kiçik qrup üzvlərinin hamısı təqdimatda iştirak edə bilər.

Cədvəlin təqdimat mərhələsində lövhədən asılması və tapılmış faktların orada qeyd olunması məqsədəuyğundur.



Hər bir təqdimatdan sonra şagirdlər arasında fikir mübadiləsinə imkan verilməlidir.

Tapılmış yeni faktlar əsasında yeni biliklər arasında əlaqələr müəyyənləşdirilib, sistemləşdirilir. Nəticədə tədqiqat sualına cavab alınır.

“Azərbaycan xalqının bütün uğurları onun müstəqilliyindən qaynaqlanır”.

***Yaradıcı tətbiqetmə:***

146-cı səhifədəki 6-cı tapşırığı sinifdə yerinə yetirmək olar.

***Ev tapşırığı:*** Şagirdlərə AXC-nin və Azərbaycan Respublikasının Türkiyə ilə münasibətlərinə yazılı qiymət verilməsi təklif edilir.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *nümayişetdirmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Azərbaycan Xalq Cümhuriyyəti haqqında sadə biliklər nümayiş etdirir. | AXC haqqında ayrı-ayrı əlaqəsiz məlumatları var, nümayiş etdirməkdə çətinlik çəkir. | AXC haqqında sadə biliklərini müəllimin köməyi ilə nümayiş etdirir. | AXC haqqında sadə biliklərini, əsasən, özü müstəqil nümayiş etdirir, bəzən köməkdən istifadə edir. | AXC haqqında sadə bilikləri çətinlik çəkmədən sərbəst nümayiş etdirir. |

# 40. Azərbaycan ordusunu yaradanlar

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 4.1.2. | 1. Mənbələrə əsasən S.Mehmandarov və Ə.Şıxlinski haqqında təqdimat hazırlayır. |

Müəllim dövləti xarakterizə edən cəhətlərdən birinin də ordu olmasını şagirdlərin diqqətinə çatdırır və bu məsələ ətrafında müzakirə təşkil edilir.

Sizcə, xalqı qorumaq, dövlət müstəqilliyini möhkəmləndirmək üçün nə etmək lazımdır?

Bu sual ətrafında kiçik müzakirə başa çatdıqdan sonra tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:***





*– Azərbaycan Milli Ordusunun yaradılmasında S.Mehmandarovun və Ə.Şıxlinskinin rolu nədən ibarətdir?*

Bu mövzunu bütün sinflə birgə müzakirə etmək və tədqiqat sualına cavab tapmaq daha məqsədəuyğundur.

Dərsliyin müvafiq mətni hissələrə bölünür, oxunur və müzakirə edilir. Şagirdlər əlavə fakt və məlumatlar əldə etmək üçün



dərsliyin müvafiq səhifəsindəki şəkli təhlil edə, onlara təqdim edilmiş əlavə materiallardan, həmçinin öz müşahidələrindən istifadə edə bilərlər. Şagirdlər tədqiqat işinin nəticələrini mübadilə edirlər. Onlar bir-birinin təqdimatlarına münasibətlərini bildirirlər.

Şagirdlər bir-birinin təqdimatına aid suallar verməyə istiqamətləndirilir. Bu proses həm də şagirdlərin dərsdə daha fəal iştirakını təmin edir.

Qruplar əldə etdikləri yeni faktları və məlumatları cədvəlin müvafiq sütununa qeyd edirlər.

| Azərbaycan Milli Ordusunun rəhbərləri | |
|---|---|
| **S.Mehmandarovun fəaliyyəti** | **Ə.Şıxlinskinin fəaliyyəti** |
| | |
| | |
| | |

Əsas faktların qeyd edildiyi cədvəl lövhədən asılır, məlumat müzakirə olunur və əlaqələndirilir. Bu, yeni biliyin daha yaxşı qavranılmasına şərait yaradır. Müzakirənin gedişində şagirdlərin məlumatları, pərakəndə ideyaları onların öz köməyi ilə yığcam şəkildə ifadə edilir və ümumi ideya halında birləşdirilir.

***Yaradıcı tətbiqetmə:***

Əldə edilmiş məlumatlar və şəkillər əsasında "Sən Vətənin gücü, Vətən səninlə güclü, Azərbaycan əsgəri" adlı xüsusi bülleten hazırlayın.

***Ev tapşırığı:*** Şagirdlərə müasir Azərbaycan Respublikasında ordu quruculuğu haqqında məlumat toplamaq təklif edilir.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *təqdimathazırlama*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Mənbələrə əsasən S.Mehmandarov və Ə.Şıxlinski haqqında təqdimat hazırlayır. | Mənbələrə əsasən S.Mehmandarovun və Ə.Şıxlinski haqqında təqdimat hazırlamaqda çətinlik çəkir. | S.Mehmandarov və Ə.Şıxlinski haqqında köməkdən istifadə edərək təqdimat hazırlayır. | S.Mehmandarov və Ə.Şıxlinski haqqında təqdimat hazırlayarkən bəzi səhvlər edir. | S.Mehmandarov və Ə.Şıxlinski haqqında müstəqil və sərbəst şəkildə təqdimat hazırlayır. |

# 41. İnqilab, yoxsa işğal?

| *Standartlar* | *Təlim məqsədləri* |
|---|---|
| 1.2.2.; 3.1.3. | 1. Şəkillər, sənədlər və əlavə tarixi materiallar əsasında AXC-nin süqutu haqqında tarixi tədqiqat aparır.<br>2. AXC-nin süqutu ilə bağlı kiçikhəcmli tarixi hekayə qurur. |

Müzakirə təşkil edilir. Şagirdlərə dövlətin güclənməsinə və zəifləməsinə təsir edən amillər haqqında mülahizələrini söyləmək təklif edilir.

Söylənilən mülahizələr müzakirə edilir.

***Tədqiqat sualı:***

*– Azərbaycan Xalq Cümhuriyyəti niyə süqut etdi?*

Şagirdlər bütün siniflə birgə tədqiqata cəlb olunur. “Konkret hadisənin araşdırılması (summativ praktikum) metodu vasitəsilə konkret hadisə araşdırılır. Bu metod tənqidi və məntiqi təfəkkürü inkişaf etdirir. İşğal hadisəsi ilə bağlı konkret vəziyyətlər müəyyən edilir. Şagirdlərə həmin vəziyyətlərə uyğun plan əsasında tədqiqat aparmaq təklif olunur.




Tədqiqatçılıq məlumatı sistemləşdirmək, nəticə çıxarmaq və əsaslandırmaq bacarıqları aşılayır. Kollektiv tapşırıq verilir. Şagirdlərə 1918–1920-ci illərə aid olan hadisələrin xronoloji ardıcıllığını zaman oxunda göstərmək tapşırılır. Xəritə-tapşırıq yerinə yetirilir. Mövzu xəritəsində Sovet ordusunun hərəkət istiqamətlərini müəyyən etmək tapşırığı yerinə yetirilir. Sonra şagirdlərin sayından asılı olaraq 4–5 nəfər üzvü olan qruplardan hər biri təklif edilən vəziyyətlərdən birini müzakirə etməlidir.

Şagirdlər hadisələrə öz münasibətlərini bildirirlər. Onlara hər bir konkret vəziyyətə aid yönəldici suallar verilir.

Şagirdlərin ilkin fikirləri bir-birinə zidd və müxtəlif ola bilər.

Konkret vəziyyətə aid bütün məlumatlar nəzərdən keçirilir, ümumiləşdirilir və sistemləşdirilir.

Şagirdlərin son qərarı məsələnin rəsmi həlli ilə üst-üstə düşməyə bilər.

Sinifdə ümumi müzakirə aşağıdakı istiqamətə yönəldilməlidir:

– 1920-ci ildə Rusiya işğalı ərəfəsində Azərbaycandakı vəziyyətlə bağlı onun baş verdiyi dövrə "baxmaq";

– 1828-ci ildə Rusiya işğalı ərəfəsində Azərbaycandakı vəziyyətlə bağlı dövrə "baxmaq";

– Müasir dövrdə Azərbaycanda və qonşu ölkələrdə, eləcə də dünyada baş verənlərlə bağlı ətrafa baxmaq.

Məsələnin səmərəli həlli üçün öz şəxsi mənafeyini düşünmədən şagirdlər müəyyən fikirlərə gəlirlər. Bu metoddan dərsin tədqiqat və nəticənin çıxarılması mərhələsində istifadə etməklə, təlim materialının mənimsənilməsinə nail olmaq olar.

***Yaradıcı tapşırıq:*** "11-ci Ordu – işğalçı ordudur" adlı kiçik hekayə qurun.

***Ev tapşırığı:*** Şagirdlərin hər birinə "Biz müstəqillik şəraitində yaşayırıq" adlı hekayə qurmaq tapşırılır.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *tədqiqataparma, hekayəqurma*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Şəkillər, sənədlər və əlavə tarixi materiallar əsasında AXC-nin süqutu haqqında tarixi tədqiqat aparır. | Şəkillər, sənədlər və əlavə tarixi materiallar əsasında AXC-nin süqutu haqqında tarixi tədqiqat apararkən çətinlik çəkir. | Şəkillər, sənədlər və əlavə tarixi materiallar əsasında AXC-nin süqutu haqqında tarixi tədqiqatı köməkdən istifadə edərək aparır. | AXC-nin süqutu haqqında tarixi tədqiqat aparır. | AXC-nin süqutu haqqında sərbəst tarixi tədqiqat aparır. |
| AXC-nin süqutu haqqında hekayə qurur. | AXC-nin süqutu haqqında hekayə qurmaqda çətinlik çəkir. | AXC-nin süqutu haqqında hekayə qurarkən köməkdən istifadə edir. | AXC-nin süqutu haqqında hekayə qura bilir. | Əldə etdiyi geniş məlumatlar əsasında AXC-nin süqutu haqqında əhatəli hekayə qurur. |

# 42. Qardaş köməyi

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 4.1.1. | 1. Azərbaycan tarixində N.Nərimanovun mühüm rol oynadığını müəyyən edir. |

**Müəllimin qısa şərhi:** Öz xalqının, yaşadığı cəmiyyətin, ölkəsinin, bəşəriyyətin inkişafı üçün xeyirli işlər görmək insanın ən başlıca məqsədi olmalıdır. Belə ömür sürən insanlar həyatı yalnız özü üçün yaşamır. Şagirdlər insan ömrünü şərəflə yaşamaq barədə öz fikirlərini söyləyirlər.



Beləliklə, onlar kiçik müzakirəyə cəlb edilir. Tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:***

*– N.Nərimanov öz ömrünü hansı tarixi vəzifələrin həllinə sərf etmişdi?*

Şagirdlərin tədqiqat sualına aid fikirləri onları problemin həllinə istiqamətləndirir.

Müəllif mətni üzrə müəllim qısa izahat verir. Şagirdlərə mövzuya müvafiq əlavə materiallar təqdim olunur. Şagirdlər iki plan əsasında tapşırıq üzərində işləyirlər. Hər bir plan özü də daha kiçik suallara və tapşırıqlara ayrıla bilər.

| N.Nərimanov və onun maarifçilik fəaliyyəti | N.Nərimanovun Azərbaycanın mənafeyi uğrunda mübarizəsi |
|---|---|
| | |

Qruplar işlərinin nəticələrini təqdim edirlər.

Şagirdlər yönəldici suallar vasitəsilə müzakirəyə cəlb edilir. Şagirdlərin başlıca fikirləri arasında tapşırığa uyğun olanlar qruplaşdırılır. N.Nərimanovun fəaliyyətinə aid ən mühüm anlayışlar və məlumatlar xüsusi nəzərə çatdırılır, ya lövhədə qeyd olunur, ya da ucadan oxunur.

Dərsliyin 156-cı səhifəsindəki 1–5-ci tapşırıqlar və suallar müzakirə edilir. Cavablar əlaqələndirilir və sistemləşdirilir.

Şagirdlər tərəfindən sxem tamamlanır.






N.Nərimanov öz siyasi fəaliyyətini Naxçıvanın, Qarabağın, Zaqatalanın Azərbaycanın tərkibində saxlanmasına, Bakının Azərbaycanın paytaxtı kimi tanınmasına, dövlətçilik ənənələrinin müdafiəsinə həsr etmişdi.

***Yaradıcı tapşırıq:*** N.Nərimanova şeir həsr edin və ya esse yazın.

***Ev tapşırığı:*** N.Nərimanovun fəaliyyətinin tarixi qiymətini müəyyən edərək yazın.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *müəyyənetmə*

| **Təlim məqsədləri** | **I** | **II** | **III** | **IV** |
|---|---|---|---|---|
| Azərbaycan tarixində N.Nərimanovun mühüm rol oynadığını müəyyən edir. | Azərbaycan tarixində N.Nərimanovun mühüm rol oynadığını müəyyən etməkdə çətinlik çəkir. | Azərbaycan tarixində N.Nərimanovun mühüm rol oynadığını köməkdən istifadə edərək müəyyən edir. | N.Nərimanovun Azərbaycan tarixində oynadığı tarixi rolu düzgün müəyyən edir. | N.Nərimanovun Azərbaycan tarixində mühüm tarixi rolunu sərbəst və düzgün müəyyən edir. |

# 43. 1937-ci il qurbanları

| *Standartlar* | *Təlim məqsədləri* |
|---|---|
| 3.1.3. | 1. Repressiya dövrü haqqında kiçik tarixi hekayə qurur. |

Müəllim şagirdlərə Vətən üçün, xalq üçün vacib olan milli-mənəvi dəyərləri fərqləndirməyi təklif edir.

– Müstəqilliyin itirilməsinin hansı nəticələri ola bilər?

Kiçik müzakirə zamanı şagirdlər müstəqilliyin itirilməsinin mümkün nəticələri haqqında öz fərziyyələrini söyləyirlər:

– ərazi bütövlüyündən məhrum olmaq;
– asılılıq, milli dəyərlərdən məhrum edilmə;
– təqiblər;
– təzyiqlər;
– ana dilinin qadağan edilməsi.

Tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:***

*– 1937-ci ildə Azərbaycanda hansı hadisələr baş verdi?*

Dərsliyin müvafiq mətni oxunur və müzakirə olunur. Qruplara iş vərəqləri və zəruri mənbələr təqdim olunur. Şagirdlər fərqli material üzərində tədqiqat işi aparırlar.

| **Repressiya nə vaxt həyata keçirildi?** | **Kütləvi qırğınlar sovet hökumətinə nə üçün lazım idi?** | **Kütləvi qətllərdə kimlərin rolu böyük idi?** | **Repressiyalar Azərbaycana necə ziyan vurdu?** |
|---|---|---|---|
| | | | |



Dərsliyin 157–160-cı səhifələrindəki şəkillər təhlil olunur.

158–159-cu səhifələrdəki şəkillər üzrə tapşırıq verilir:

– Şəkildə gördüyünüz şəxsiyyətləri nə birləşdirir?

Qruplar öz fəaliyyətlərinin nəticələrini mübadilə edirlər. Qruplar bir-birinin təqdimatına münasibətlərini və rəylərini bildirirlər.

Mübadilə zamanı ifadələrin yığcam və aydın olmasına səy göstərilir, şagirdlərdə təqdimat mədəniyyəti formalaşdırılır.

Cədvəlin hər bir sütunu üzrə toplanılan faktlar arasında əlaqə yaratmaqla əsas qanunauyğunluq müəyyən edilir.

Şagirdlərin ideyası diqqəti o qədər çəkmirsə, yönəldici suallar verməklə onların fəaliyyətini əsas məsələnin həllinə yönəltmək lazımdır.

Bu dərsdə müzakirə üçün məlumat tamamlanmış cədvəl formasında təşkil edilə bilər. Ümumiləşdirmədən sonra formalaşdırılmış ideya tədqiqat sualı və şagirdlərin fikirləri ilə müqayisə edilir.

***Yaradıcı tətbiqetmə:***

Ümummilli lider Heydər Əliyevin repressiya qurbanlarına verdiyi yüksək qiyməti dəyərləndirin.

Repressiya siyasətinin Azərbaycan xalqı üçün kütləvi faciələrə, zülmə, kədərə, sarsıntılara səbəb olması nəticəsinə gəlinir.

***Ev tapşırığı*** olaraq şagirdlərə repressiya qurbanlarından biri, məsələn, Hüseyn Cavid haqqında kiçik hekayə qurmaq tapşırılır.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *hekayəqurma*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Repressiya dövrü haqqında kiçik tarixi hekayə qurur. | Repressiya dövrü haqqında tarixi hekayə qurmaqda çətinlik çəkir. | Repressiya dövrü haqqında rabitəsiz cümlələrdən ibarət tarixi hekayə qurur. | Repressiya dövrü haqqında başlıca faktları əks etdirən kiçik hekayə qurur. | Repressiya dövrü haqqında faktları və hadisələri özündə əks etdirən əlaqəli tarixi hekayə qurur. |

# 44. Müsəlman Şərqində ilk operanı kim yazdı?

| *Standartlar* | *Təlim məqsədləri* |
|---|---|
| 5.1.3. | 1. Ü.Hacıbəylinin Azərbaycan musiqisinin və mədəniyyətinin inkişafındakı rolu haqqında təqdimat hazırlayır. |

Müəllimin kiçik şərhi vasitəsilə müzakirə təşkil edilir.

– Siz müstəqil Azərbaycan Respublikasında yaşayırsınız və dövlətimizin atributlarını tanıyırsınız.

– Dövlətimizin himninin musiqisinin müəllifi haqqında hansı məlumatlarınız vardır?

– Azərbaycan mədəniyyətinin inkişafında Üzeyir Hacıbəylinin gördüyü işlərin əhəmiyyəti nədən ibarətdir?

Suallar müzakirə edilir və cavablandırılır.

***Tədqiqat sualı:***

*– Üzeyir Hacıbəylinin Azərbaycan musiqisinin və mədəniyyətinin inkişafındakı rolu nədən ibarətdir?*

İstiqamətləndirici sualların köməyi ilə şagirdlər tədqiqat fəaliyyətinə yönəldilir. Əvvəlcə şagirdlər dərsliyin mətnini oxuyur və təhlil edirlər. Mənbələr üzərində iş prosesində mənbə müəllifinin mövqeyi, mənbənin etibarlılığı müəyyənləşdirilir, mənbədən müvafiq məlumat ayrılır, mənbədəki məlumatla müəllif mətni, şəkil və illüstrasiyalar tutuşdurulur.

Şagirdlərə aşağıdakı sxemi tapşırıqlara uyğun olaraq, tamamlamaq təklif olunur:

| **1. Opera əsərləri** | **2. Musiqili komediyaları** | **3. İdarəçilik fəaliyyəti** | **4. Adının əbədiləşdirilməsi** |
|---|---|---|---|
| | | | |

164-cü səhifədəki suallar müzakirə edilir və cavablandırılır. Qruplar müstəqil tədqiqat işlərini mübadilə edirlər.

Dərsliyin 162–163-cü səhifələrindəki mövzuya uyğun olaraq verilmiş şəkillərin və müvafiq mətnin təhlili nəticəsində əldə edilən faktlar və yeni məlumatlar sxemin tamamlanmasına yönəldilir.

İnkişaf etdirilən bacarıqlar və dəyərlər:

– Musiqi zövqü, milli-mənəvi dəyərlərin qiymətləndirilməsi, tədqiqatçılıq vərdişləri, təsnif edə bilmə və sistemləşdirmə bacarıqları.





***Yaradıcı tətbiqetmə:***

"Koroğlu" operasının uvertürasına qulaq asılır. Şagirdlər bu musiqinin onlara necə təsir etdiyini sözlə təsvir edirlər.

Ü.Hacıbəylinin fəaliyyətinə aid faktlar sistemləşdirilir və sxemdəki məlumatlara əsasən onun Azərbaycan musiqisinin inkişafındakı rolu haqqında slayd hazırlanır.

***Ev tapşırığı:*** Şagirdlərə "Musiqinin qüdrəti Ü.Hacıbəylini 1937-ci il təhlükəsindən sovuşdurdu" adlı hekayə yazın tapşırıla bilər.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *təqdimathazırlama*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Ü.Hacıbəylinin Azərbaycan musiqisinin və mədəniyyətinin inkişafındakı rolu haqqında təqdimat hazırlayır. | Ü.Hacıbəyli haqqında yalnız ayrı-ayrı faktları bilir. | Ü.Hacıbəylinin Azərbaycan musiqisinin və mədəniyyətinin inkişafındakı rolu haqqında çətinliklə sadə təqdimat hazırlayır. | Ü.Hacıbəylinin Azərbaycan musiqisinin və mədəniyyətinin inkişafında rolu haqqında, əsasən, düzgün təqdimat hazırlayır. | Ü.Hacıbəylinin Azərbaycan musiqisinin və mədəniyyətinin inkişafındakı rolu haqqında sərbəst və müxtəlif təqdimat hazırlayır. |

# 45. İkinci Dünya müharibəsi və Azərbaycan

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 4.1.2.; 3.1.3. | 1. Mənbələrə əsasən azərbaycanlı Sovet İttifaqı qəhrəmanları haqqında təqdimat hazırlayır.<br>2. Kiçikhəcmli tarixi hekayə qurur. |

Şagirdlərə dağıdılmış şəhər və kəndlərin, həlak olmuş və şikəst edilmiş insanların, müxtəlif silahların, döyüş təyyarələrinin və tankların şəkilləri nümayiş etdirilir. Onlara gördükləri barədə öz fikirlərini bildirmək təklif edilir. Kiçik müzakirə tədqiqat sualının formalaşdırılması ilə başa çatır.

***Tədqiqat sualı:***

*– İkinci Dünya müharibəsi zamanı xalqımızın faşizmə qarşı qəhrəmanlıq mübarizəsini hansı faktlar sübut edir?*

Şagirdlərin sual ətrafında fikirləri irəli sürülür. Şagirdlər qruplara bölünür. Qrupların hər birinə tapşırıq təqdim edilir.

Qruplar təqdim edilmiş məqsədəuyğun mənbələr üzərində fəaliyyətlərini davam etdirirlər.

168-ci səhifədəki sual və tapşırıqlar müzakirə olunur.

Qruplara özləri həll etdiyi məsələlərə aid yeni məlumatları və faktları aşağıdakı cədvəlin müvafiq bölməsində qeyd etmələri tövsiyə olunur.

| 1. Arxa cəbhə faşizmə qarşı mübarizədə | Ön cəbhədə | | 4. Mehdi Hüseynzadə, Əhmədiyyə Cəbrayılov partizan müharibəsində |
|---|---|---|---|
| | 2. Həzi Aslanov | 3. İsrafil Məmmədov | |
| | | | |

Qruplar işlərinin nəticələrini mübadilə edirlər.

Digər qruplar təqdim edilən məsələyə aid təkliflərini və düzəlişlərini qeyd edirlər.

Dərsliyin 166–167-ci səhifələrindəki şəkilləri verilmiş Sovet İttifaqı qəhrəmanları haqqında məlumat toplamaq və yeni faktlar əldə etmək məqsədilə müxtəlif mənbələr, o cümlədən təlim şəraiti imkan verdiyi halda internet vasitəsilə məlumat toplanılır. Müvafiq məlumatlar seçilir.

Cütlərə tapşırıq verilir: Dərsliyin 166–167-ci səhifələrindəki şəxsiyyətlərin şəkilləri cütlərə təqdim edilir. Şəxsiyyətlərin adları şəkillərin altında qeyd olunmur və şagirdlərə onları müəyyənləşdirərək müvafiq şəkillərin altında yazmaq tapşırılır.

Şagirdlər müəllimin "Əldə etdiyimiz yeni faktları və məlumatları necə qruplaşdırmaq olar?" sualına cavab olaraq öz təkliflərini söyləyirlər.



Azərbaycanın arxa və ön cəbhədə faşizmə qarşı mübarizəsinin oxşar və fərqli cəhətləri, bu mübarizədə igidliyi ilə fərqlənən azərbaycanlı döyüşçülərin və partizanların şücaəti müəllimin köməyi ilə ümumiləşdirilir. Tədqiqat sualı şagirdlərin fikirləri ilə tutuşdurulur və sistemləşdirilir.

***Yaradıcı tətbiqetmə***:

Şagirdlərə Qarabağ müharibəsində iştirak etmiş Azərbaycan Milli qəhrəmanları haqqında düşüncələrini ümumiləşdirmək tapşırılır.

***Ev tapşırığı:*** Dərslikdəki 5-ci tapşırığın yerinə yetirilməsi tapşırılır.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *təqdimathazırlama*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Mənbələrə əsasən azərbaycanlı Sovet İttifaqı qəhrəmanları haqqında təqdimat hazırlayır. | Bəzi Sovet İttifaqı qəhrəmanları haqqında məlumatı vardır, təqdimat hazırlamır. | Bəzi Sovet İttifaqı qəhrəmanları haqqında əldə etdiyi məlumatlar əsasında çətinliklə təqdimat hazırlayır. | Azərbaycanlı Sovet İttifaqı qəhrəmanları haqqında bəzən köməkdən istifadə edərək təqdimat hazırlayır. | Mənbələrə əsasən azərbaycanlı Sovet İttifaqı qəhrəmanları haqqında sərbəst təqdimat hazırlayır. |
| Azərbaycanlı Sovet İttifaqı qəhrəmanları haqqında hekayə qurur. | Azərbaycanlı Sovet İttifaqı qəhrəmanları haqqında hekayə qurmaqda çətinlik çəkir. | Azərbaycanlı Sovet İttifaqı qəhrəmanları haqqında hekayə qurarkən köməkdən istifadə edir. | Azərbaycanlı Sovet İttifaqı qəhrəmanları haqqında hekayə qura bilir. | Əldə etdiyi geniş məlumatlar əsasında azərbaycanlı Sovet İttifaqı qəhrəmanları haqqında əhatəli hekayə qurur. |

# 46. Ustad Şəhriyar

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 5.1.1. | 1. M.Şəhriyarın yaradıcılığının əhəmiyyətini izah edir. |



Şagirdlər "insan hansı işləri ilə vətənə xidmət edə bilər?" sualı ətrafında fikir söyləyirlər. Sadalanan işlər içərisində söz sənəti seçilir. Dərsin mövzusuna uyğun olaraq, söz sənətinin görkəmli nümayəndələrindən olan Şəhriyarın yaradıcılığı ilə bağlı tədqiqat sualı qoyulur.

***Tədqiqat sualı:***

*– Şəhriyarın yaradıcılığının Azərbaycan xalqı üçün əhəmiyyəti nədir?*

Tədqiqat bütün siniflə birgə və kiçik qruplarda aparılır.

Şagirdlərə zəruri mənbələr – illüstrasiyalar, Şəhriyarın şeirlər kitabı, şəkillər və s. təqdim edilir. Dərslikdəki mətn hissələrə bölünərək, qruplar tərəfindən təhlil edilir. Tədqiqat sualına cavab tapmaq üçün yeni faktlar və məlumatlar əldə edilir. Şagirdlər aşağıdakı məsələlər üzrə tədqiqat aparırlar:

1. Şəhriyar ilk şeirlərini nə üçün ana dilində yazmırdı?
2. Şəhriyarın yaradıcılığında ən çox nələr əks olunur?
3. "Azərbaycan" şerində hansı ideyalar təbliğ olunur?
4. "Varlıq" jurnalı ilə Şəhriyarın yaradıcılığı arasında hansı əlaqə var?

Şagirdlər tədqiqat işlərinin nəticələrini mübadilə edirlər. Bu proses ardıcıllıqla həyata keçirilir. Təqdimat keçirənlərə suallar verilir. Əsas fakt və hadisələr lövhədən asılmış cədvəldə qeyd olunur.

Şagirdlərin təqdimatı dinlənilir. Təqdimatlara dair onlarla fikir mübadiləsi aparılır.

***Yaradıcı tətbiqetmə:***

Təqdimatdan əlavə rollu oyun vasitəsilə Şəhriyarın anası ilə söhbətini təşkil etmək olar.

***İstiqamətləndirici suallar:***

– Şəhriyar nə üçün təhsilini fars dilində almışdı?
– Anası Şəhriyara nəyi irad tutdu?

– Hansı hadisə Şəhriyarın yaradıcılığında dönüş nöqtəsi oldu?
– Şəhriyar şeirlərində nəyi ifadə edirdi?
Suallar cavablandırılır. 171-ci səhifədəki 1–3-cü suallar müzakirə edilir.

Yeni faktlar əsasında bilikləri sistemləşdirmək üçün müqayisə, təhlil və sintezdən istifadə olunur. Dərsə yekun olaraq, şagirdlər Şəhriyarın Azərbaycan ədəbiyyatında rolunu ümumiləşdirirlər.

Müəllim "Heydərbabaya salam" poeması üzrə ədəbiyyat müəlliminin köməyi ilə ədəbi kompozisiya hazırlayıb, onun əsasında sinifdənxaric tədbir keçirə bilər.

***Ev tapşırığı:*** Şagirdlərə dərsliyin 171-ci səhifəsindəki 4-cü metodik göstərişi yerinə yetirmək tapşırılır.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *izahetmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| M.Şəhriyarın yaradıcılığının əhəmiyyətini izah edir. | M.Şəhriyarın yaradıcılığı haqqında cüzi məlumatı vardır. | M.Şəhriyarın yaradıcılığı haqqında məlumatı vardır, onları dolaşıq şəkildə izah edir. | M.Şəhriyarın yaradıcılığı haqqında başlıca məlumatları vardır, onun yaradıcılığının əhəmiyyətini, əsasən, düzgün izah edir. | M.Şəhriyarın yaradıcılığının əhəmiyyətini nümunələrlə əsaslandıraraq izah edir. |

# 47. Lütfi Zadə

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 4.1.1. | 1. Azərbaycanın elm tarixində Lütfi Ələsgərzadənin mühüm rol oynadığını müəyyənləşdirir. |



Şagirdlər artıq Azərbaycan xalqının yetirdiyi görkəmli şəxsiyyətlər haqqında məlumata malikdirlər. Onlardan bir neçəsinin adı yazılmış tapşırıq lövhədən asılır. Şagirdlərə "onlardan hər biri hansı işi ilə şöhrətlənmişdir?" sualına cavab vermək təklif olunur. Şagirdlər görkəmli şəxsiyyətləri fəaliyyət sahələrinə görə qruplaşdırırlar.

Bu dərsdə şagirdləri paltaryuyan maşınların, fotorobotların, rəngli televizorların və s. şəkillərini, yaxud slayd göstərərək müzakirəyə cəlb etmək, idrak fəallığı yaratmaq mümkündür. "Anlayışın çıxarılması" üsulu ilə də əsas anlayış – "kəşf" vasitəsilə şagird təfəkkürünü hərəkətə təhrik etmək olar.

Müzakirədən sonra tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:***

*– "Lütfi Zadənin elmi kəşflərinin əhəmiyyəti nədir?"*

Dərsliyin 172–174-cü səhifələrindəki mətn oxunur və müzakirə edilir.

Şagirdlərə "Cədvəli tamamla və L.Ələsgərzadənin timsalında Azərbaycan xalqının fitri istedada malik olduğunu sübut et" tapşırığını yerinə yetirmək təklif edilir.

Tədqiqat prosesi iki plan əsasında kollektiv iş formasında davam etdirilir.

| Lütfi Zadənin elmi baxışları və onun fərqli cəhətləri | Lütfi Zadənin elmi kəşfləri və onların əhəmiyyəti |
|---|---|
| | |

Müəllimin bələdçiliyi ilə internet vasitəsilə Lütfi Ələsgərzadənin elmi baxışlarını, fərqli xüsusiyyətlərini, elmi kəşflərini və onların əhəmiyyətini əsaslandırmağa imkan verən faktlar və yeni məlumatlar ümumiləşdirilir.

174-cü səhifədəki sual və tapşırıqlar müzakirə edilir və cavablar qeyd olunur.

Şagirdlər cədvəldəki plana uyğun olaraq onu tamamlayırlar. Bu proses başa çatandan sonra şagirdlər bir-birinin işinin nəticəsinə əlavələr edə bilərlər.

Birinci və ikinci sütunlardakı tapşırıqlar oxşar təsir bağışlayır. Ona görə də müəllim müzakirə prosesində faktların təsnif, müqayisə və sistemləşdirilməsinə diqqət yetirməlidir. Lakin bu zaman o öz ideyasını zorla qəbul etdirməməlidir, yönəldici sualların köməyi ilə şagirdlərin diqqətini əsas məsələnin həllinə istiqamətləndirməlidir.

***Yaradıcı tapşırıq:***

“Mən nə yarada bilərəm” sualını fəaliyyətlə cavablandır.

Bu proses başa çatdıqdan sonra əldə edilmiş məlumatlar tədqiqat sualı və fərziyyələrlə müqayisə edilir.

***Ev tapşırığı:***

Şagirdlərə internet resurslarından istifadə edərək Lütfi Zadənin 2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşünə aid məlumat hazırlamaq tapşırılır.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *müəyyənləşdirmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Azərbaycanın elm tarixində Lütfi Ələsgərzadənin mühüm rol oynadığını müəyyənləşdirir. | Lütfi Ələsgərzadə haqqında bəzi məlumatları vardır. | Azərbaycanın elm tarixində Lütfi Ələsgərzadənin mühüm rol oynadığını müəyyənləşdirməkdə çətinlik çəkir. | Lütfi Ələsgərzadənin elmi baxışlarını və onun fərqli cəhətlərini bilir, müəllimin köməyi ilə onların əhəmiyyətini müəyyənləşdirir. | Lütfi Ələsgərzadənin Azərbaycanın elm tarixində mühüm rol oynadığını sərbəst müəyyənləşdirir. |

# 48. Dirçəliş

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. | 1. Azərbaycan Respublikasının sovet dövrü ilə müstəqillik dövrü arasında keçidi müəyyən edir. |

– Sizcə, Dirçəliş günü nə üçün bayram edilir?

Müzakirə aparılır: Sualla bağlı şagirdlər müxtəlif fikirlər irəli sürürlər. Əsas ideyaya uyğun gələn fikirlər tədqiqat sualının meydana gəlməsinə kömək edir.

***Tədqiqat sualı:***

*– Dirçəliş hərəkatının əhəmiyyəti nə idi?*

Şagirdlər problemi həll etmək üçün tədqiqat fəaliyyətinə istiqamətləndirilirlər.

Mövzu oxunur və müzakirə edilir, şəkil, təqdim edilmiş əlavə sənədlər təhlil edilir.

Şagirdlər böyük qruplarda tədqiqat prosesinə qoşulurlar. Bu proses müzakirə sualları vasitəsilə davam etdirilir. Tədqiqat işi cədvəl formasında təşkil edilir.

| Erməni millətçilərinin məkrli planları və təzyiqləri | Azərbaycan xalqının səbir kasasını daşırdan son damla | 17 Noyabrda üçrəngli bayraq xalqı necə ayağa qaldırdı | 17 Noyabr hadisələrinin nəticəsi |
|---|---|---|---|
| | | | |



Şəkil təhlil edilir. Dərsliyin həmin səhifəsindəki suallar da müzakirə edilir və cavablandırılır.

Şagirdlər tərəfindən verilmiş cavabların mövzu ilə bağlı olanları ümumiləşdirilir. Dirçəliş hərəkatına dair cədvəl tamamlanır. Bu məqsədlə qruplardan hər biri cədvəlin bir bəndi üzərində tədqiqat fəaliyyətini davam etdirir.

Tədqiqat nəticələri mübadilə edilir. Qoyulmuş suala cavab tapmaq üçün qruplar bir-birini fəal dinləməyə istiqamətləndirilir.



Cədvəlin hər bir bəndi üzrə əldə olunan biliklər ümumiləşdirilir, onlar arasında əlaqə yaradılır, nəhayət, şagirdlərin irəli sürdükləri ideya və fərziyyələrlə qarşılaşdırılır.

Dirçəliş günü hadisəsinin 1988-ci ildə baş verdiyi müəyyənləşdirilir.

Azadlıq və müstəqillik kimi mənəvi dəyərlər cədvəlin 4-cü bəndi üzrə tədqiqat prosesinin gedişində dəyərləndirilir.

Mənbələr əsasında tədqiqat aparılır və əldə edilən əlavə məlumatlar əsasında cədvəlin 4-cü bəndi üzrə tədqiqat işinin nəticələri əlaqələndirilir.

***Yaradıcı tapşırıq:*** Müstəqillik və azadlıq anlayışlarına aid öz düşüncələrinizi yazılı şəkildə qeyd edin.

***Ev tapşırığı:***

Şagirdlərə 17 noyabr 1988-ci il hadisələrinin şahidi olmuş yaxınlarından, yaxud tanışlarından müsahibə almaq, hadisələrə öz münasibətlərini bildirmək təklif olunur.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *qiymətləndirmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Azadlıq və müstəqillik kimi mənəvi dəyərləri qiymətləndirir. | Azadlıq və müstəqillik anlayışlarını fərqləndirməkdə çətinlik çəkir. | Azadlıq və müstəqillik anlayışlarının məzmununu anlayır, onları mənəvi dəyər kimi qiymətləndirmir. | Azadlıq və müstəqillik kimi mənəvi dəyərləri, əsasən, düzgün qiymətləndirir. | Azadlıq və müstəqillik kimi mənəvi dəyərləri fərqləndirir, izah edir və sərbəst qiymətləndirir. |

# 49. Qanlı Yanvar

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 1.2.2. | 1. İllüstrasiya, şəkil, sənədli materiallar və öz müşahidələrindən istifadə edərək tarixi tədqiqat aparır. |

– Sizin fikrinizcə, azadlıq tələb edən xalqları qorxutmaq üçün imperiyalar hansı üsullara əl atırlar?

Şagirdlərin rəy və təkliflərini ümumiləşdirməklə tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:***

*– 20 Yanvar günü azadlıq mübarizəsinə qalxan xalq kütlələri niyə heç kimdən və heç nədən qorxmadı?*

Şagirdlərin yeni fikir və ideyaları irəli sürülür. Tədqiqat sualına cavab tapmaq üçün onların bütün siniflə birgə fəaliyyəti davam etdirilir.

Dərslik üzərində iş təşkil olunur. 179–182-ci səhifələrdəki mətn oxunur və müzakirə olunur. Mətnə aid şəkillər və sənədlər təhlil edilir.

Dərslik mətninin, sənədlərin və şəkillərin təhlili əsasında yeni faktlar və məlumatlar ümumiləşdirilir, mövzu ilə bağlı olanlar seçilir və cədvəli tamamlamaq üçün istifadə edilir. Şagirdlərə cədvəldəki fikirləri davam etdirmək tapşırılır:

| | |
|---|---|
| Xalq Vətən uğrunda və onun müstəqilliyi uğrunda mübarizə üçün ayağa qalxmışdı. Azadlıq meydanı.... | |
| 1989-cu ildə Azərbaycan xalqının azadlıq hərəkatında mühüm bir hadisə baş verdi... | |
| Sovet imperiyası SSRİ-nin dağılmasının qarşısını almaqdan ötrü... | |
| Silahsız olsalar da, ürəklərində Vətən sevgisi vardı. Bu sevgi... | |
| 1990-cı il yanvarın 19-u idi... | |
| 20 Yanvar şəhidləri 1918-ci il Mart soyqırımı qurbanlarının uyuduqları yerdə dəfn edildilər. Bu yer hazırda.... | |

Şagirdlər fikrin davamını cədvəlin ikinci sütununda qeyd edirlər. Cədvəl lövhədən asılır və tamamlanmış fikrin hər birinə aid yeni rəylər və təkliflər irəli sürülür.

182-ci səhifədəki suallar və tapşırıqlar müzakirə edilərək cavablandırılır.

Şagirdlərin tədqiqat fəaliyyəti nəticəsində əldə edilmiş yeni faktlar və məlumatlar müzakirə olunur.

Şagirdlər "31 Mart soyqırımı nə üçün törədilmişdir?", "20 Yanvar qırğını nə üçün törədildi?" sualları ətrafında müzakirə aparırlar. Müzakirə zamanı hadisələr arasındakı zaman və məkan əlaqələri müəyyənləşdirilir.

Şagirdlər əldə etdikləri məlumatlar əsasında 20 Yanvarda baş verənləri təsvir edirlər.

***Yaradıcı tapşırıq:*** 31 Mart soyqırımı və 20 Yanvar faciəsini müqayisə edin.






***Ev tapşırığı:*** 182-ci səhifədəki 5-ci metodik tapşırıq ev tapşırığı olaraq verilir.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *tədqiqataparma*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| İllüstrasiya, şəkil, sənədli materiallar və öz müşahidələrindən istifadə edərək 20 Yanvar faciəsi haqqında tarixi tədqiqat aparır. | İllüstrasiya, şəkil və sənədli materiallardan, öz müşahidələrindən istifadə etməkdə çətinlik çəkir. | Mənbələrdən və öz müşahidələrindən qismən istifadə edə bilir. | Mənbələrdən və öz müşahidələrindən istifadə edərək müəllimin köməyi ilə tarixi tədqiqat aparır. | Mənbələr üzərində sərbəst işləyir, öz müşahidələri ilə əldə etdiyi faktları əlaqələndirir və tarixi tədqiqat aparır. |

# 50. İstiqlalımızın bərpası

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 3.1.2. | 1. Müasir Azərbaycan dövlətinin AXC-nin varisi olması haqqında sadə bilikləri nümayiş etdirir. |






**Azərbaycan Respublikasının**
**Dövlət Himni**

Sözləri: Əhməd Cavadın
Musiqisi: Üzeyir Hacıbəylinin

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

Şagirdlərə “İstiqlal nə deməkdir?” sualı verilir və müzakirə aparılır.

Şagirdlərin idrak fəaliyyətini dərsin ilk mərhələsində Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında sxemi tamamlamaqla da canlandırmaq olar:

Şagirdlər cədvəli tamamlayır: dövlət rəmzlərinin adını göstərir və mənasını altdakı sütunda qısa ifadə edirlər. Tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:***

*– Azərbaycan öz istiqlaliyyətini necə bərpa etdi?*

Şagirdlər öz ideyalarını və fərziyyələrini təklif edirlər.

Şagirdlər bütün siniflə birgə fəaliyyətlərini davam etdirirlər. Dərsliyin müvafiq mətni oxunur, müzakirə edilir. Şagirdlər mövzuya müvafiq şəkil, illüstrasiya və sənədlər üzərində işləyir, lazım olan faktları tapırlar. 185-ci səhifədəki sual və tapşırıqları müzakirə edin və cavablandırın. Müstəqil dövlətin əhəmiyyətinə aid sxemi tamamlayın: Tədqiqatın nəticələri cədvəl formasında təşkil edilir.

| Müstəqillik yollarında | | |
|---|---|---|
| **20 Yanvarın Azərbaycanın müstəqillik qazanmasında rolu** | **Dövlət müstəqilliyini bərpa etmək haqqında “Bəyannamə”** | **Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası** |
| | | |

Problemin həlli prosesində əldə edilmiş faktlar və biliklər mübadilə edilir.

Müstəqil milli dövlətin yaradılmasının əhəmiyyəti, dövlət rəmzlərinin mənası və mahiyyəti aydınlaşdırılır.

Şagirdlər "Müstəqilliyi möhkəmləndirmək tədbirləri" adlı layihə hazırlayırlar.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra müstəqillik uğrunda mübarizənin davam etməsi, 20 Yanvar şəhidlərinin qəhrəmanlığının xalqımızın müstəqillik ideyasını gücləndirməsi, dövlətimizin Azərbaycan Respublikası adlanması və üçrəngli ay-ulduzlu bayrağımızın yenidən bərpasında və nəticə etibarilə dövlət müstəqilliyinin bərpa edilməsi ilə əlaqədar "Bəyannamə"nin qəbul edilməsinin xalqımızın tarixində ən şanlı səhifələrdən biri olması nəticəsinə gəlinir.

Şagirdlərə tapşırıq verərkən əsas anlayış saxlanılır, sxemdə müstəqil dövlətlərə aid əlamətlər çıxarılır və həmin əlamətləri müəyyən etmək onların özlərinə tapşırılır:




***Yaradıcı tapşırıq:*** "Mən Vətənim Azərbaycan üçün nə etməliyəm" mövzusunda təqdimat hazırla.

***Ev tapşırığı:*** Dərsliyin 185-ci səhifəsindəki 3-cü metodik göstəriş ev tapşırığı kimi təklif olunur.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *nümayişetdirmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Azərbaycan Respublikasının istiqlalı haqqında sadə biliklər nümayiş etdirir. | Azərbaycan Respublikasının AXC-nin varisi olması haqqında bəzi faktları bilir. | Azərbaycan Respublikasının AXC-nin varisi olması haqqında bildiyi ayrı-ayrı bilikləri çətinliklə nümayiş etdirir. | Müstəqil Azərbaycan Respublikasının AXC-nin varisi olması haqqında sadə bilikləri, əsasən, nümayiş etdirir. | Azərbaycan Respublikasının AXC-nin varisi olması haqqında sadə bilikləri əlaqələndirir, nümunələrlə əsaslandıraraq sərbəst nümayiş etdirir. |

# 51. Xocalı soyqırımı

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 1.2.2. | 1. İllüstrasiya, şəkil, sənədli materiallar və öz müşahidələri vasitəsilə Xocalı faciəsi haqqında tədqiqat aparır. |





Bu mövzunun tədrisində siz BİBÖ üsulundan istifadə edə bilərsiniz.

Motivasiya mərhələsində sinfə belə bir sualla müraciət etmək olar:

– Siz Azərbaycanın tarixində baş vermiş hansı kədərli, faciəli hadisələr haqqında eşitmisiniz?

Şagirdlər fikirlərini söyləyirlər. Cavablar alındıqdan sonra soyqırımı anlayışının açıqlanması yada salınır. Onların ideya və sadə fikirlərinə əsasən tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:***

– *Xocalı hadisəsi nə üçün soyqırımı hesab edilir?*

Problemin həlli məqsədilə şagirdlərin böyük qrupda fəaliyyəti davam etdirilir.

Dərslik şagirdlər tərəfindən oxunur və müzakirə olunur. Xocalı faciəsini əks etdirən şəkillər təhlil edilir.

Tədqiqat sualına cavab tapmaq üçün yeni faktlar və məlumatlar əldə edilir. 189-cu səhifədəki sual və tapşırıqlar müzakirə edilir. Tədqiqat sualına aid olan cavablar sxemdə qeyd olunur. Tədqiqat işi klaster üsuluna uyğun sxem formasında tətbiq edilir.



Şagirdlər 31 Mart soyqırımı, 20 Yanvar faciəsi və Xocalı soyqırımını cədvəl vasitəsilə müqayisə edirlər.

| 31 Mart soyqırımı | 20 Yanvar faciəsi | Xocalı soyqırımı |
|---|---|---|
| | | |

Problemin həlli prosesində əldə edilmiş yeni faktlar və məlumatların mübadiləsi aparılır. Əldə edilmiş biliklər sistemləşdirilir. Tədqiqat sualına cavab tapmaq üçün onlar arasında əlaqələr üzə çıxarılır və təsnif edilir.

Qeyd edilmiş bütün fikirlər ümumi ideya halında birləşdirilir, tədqiqat sualı və fərziyyələrlə tutuşdurulur.

Mövzunun yekun mərhələsində BİBÖ üsulunun tətbiqi ilə əvvəlki və yeni biliklər arasında əlaqə yaradılır.

***Yaradıcı tətbiqetmə:***

“Şəhid şəhər” mövzusunda esse yazmaq.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *tədqiqataparma*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| İllüstrasiya, şəkil və sənədli materiallar və öz müşahidələri vasitəsilə Xocalı faciəsi haqqında tədqiqat aparır. | Xocalı faciəsi haqqında bəzi məlumatları bilir, tədqiqat aparmaqda çətinlik çəkir. | İllüstrasiya və şəkillərdən bəzi məlumatlar əldə edir, sənədli materiallardan mühüm məlumatları müəyyən etməkdə çətinlik çəkir. | İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edir, onu öz müşahidələri ilə əlaqələndirir və Xocalı faciəsi haqqında müəllimin köməyi ilə tarixi tədqiqat aparır. | İllüstrasiya, şəkil və sənədli materiallardan, öz müşahidələrindən istifadə edərək məlumatları əldə edir, əlaqələndirir və Xocalı faciəsi haqqında sərbəst tədqiqat aparır. |

# 52. Qarabağ müharibəsi qəhrəmanları (I dərs)

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 4.1.2. | 1. Mənbələrə əsasən Natiq Qasımov haqqında təqdimat hazırlayır. |



Şagirdlərə müraciətlə soruşa bilərsiniz:

*– Azərbaycan üçün canından keçən milli qəhrəmanlar haqqında nə bilirsiniz?*

Şagirdlər sual ətrafında fikir mübadiləsi edərək müzakirə aparırlar.

Əsas məsələ odur ki, onların diqqəti əsas məsələnin həllinə cəlb edilir. Müzakirə zamanı sualların istiqaməti dərsin əsas ideyasının müəyyənləşdirilməsinə yönəldilər.

– Qarabağ müharibəsi nə vaxt başlanmışdır?

– Sizcə, Qarabağ müharibəsinin iştirakçıları və təşəbbüskarları kimlərdir? Kimlər bu müharibənin baş verməsində maraqlıdır?

– Müharibəyə zorla cəlb edilən Azərbaycan oğulları Qarabağ uğrunda necə mübarizə aparır?

***Tədqiqat sualı:***

*– Natiq Qasımov necə qəhrəman oldu?*

Şagirdlər tanıdıqları Milli qəhrəmanlar haqqında məlumatlarını bölüşürlər. Müəllim məqsədyönlü şəkildə suallar verə bilər.

Şagirdlər dərslik mətni ilə tanış edilir. Şagirdlərə xronoloji məsələ ilə bağlı tapşırıq verilir. Onlara 194-cü səhifədəki 4-cü metodik tapşırığı həll etmək təklif edilir. Xronoloji məsələ həll edilir.

Mətn bütün siniflə birgə təhlil edilir.

1. Nə üçün N.Qasımov geri çəkilməmişdi?

2. Düşmən N.Qasımovun olduğu yüksəkliyi ələ keçirmək üçün hansı vasitədən istifadə etdi?

Suallar cavablandırılır.

Şagirdlərə xəritədə Qarabağ torpaqlarını, o cümlədən Xocalını göstərmək təklif edilir.

Tapşırıq yerinə yetirilir.

Şagirdlər N.Qasımov haqqında məlumatları müəyyənləşdirirlər.

Sonra karusel üsulu ilə ardıcıl olaraq Natiq Qasımov və Milli qəhrəmanlar şagirdlər tərəfindən təsvir edilir.

Dərslik mətnini və şagird yoldaşının fikrini tamamlayan şagirdlər onların Azərbaycanın azadlığı, bütövlüyü, xalqın təhlükəsizliyi uğrunda mübarizə apardıqlarını hekayə vasitəsilə müəyyən edirlər.

Daha sonra başlıca məzmun ümumiləşdirilir və təqdim edilir.

***Yaradıcı tapşırıq:*** Azərbaycanın Milli qəhrəmanlarını müqayisə edin.

| Natiq Qasımov | Mübariz İbrahimov |
|---|---|
| | |

***Ev tapşırığı:*** Tanıdığınız Azərbaycan Milli qəhrəmanları haqqında yazılı təqdimat hazırlayın.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *təqdimathazırlama*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Mənbələrə əsasən Natiq Qasımov haqqında təqdimat hazırlayır. | Natiq Qasımov haqqında suallara cavab verir, təqdimat hazırlamaqda çətinlik çəkir. | Natiq Qasımov haqqında dərslikdən əldə etdiyi bəzi məlumatları sadalamaqla təqdimat edir. | Natiq Qasımov haqqında topladığı başlıca məlumatlar əsasında sadə təqdimat hazırlayır. | Natiq Qasımov haqqında dərslikdən və digər mənbələrdən əldə etdiyi məlumatlar əsasında müxtəlif təqdimatlar hazırlayır. |

# 52. Qarabağ müharibəsi qəhrəmanları (II dərs)

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 4.1.2. | 1. Mənbələrə əsasən Mübariz İbrahimov haqqında təqdimat hazırlayır. |



Müəllim şagirdlərə müraciətlə: – "Qarabağ müharibəsi haqqında nə bilirsiniz?" sualını verir.

Mövzu olduqca aktual və çağdaş olduğundan şagirdlər bu barədə xeyli məlumata malikdirlər. Ona görə də şagirdlərin diqqətini asanlıqla müzakirəyə cəlb etmək mümkündür. Həmçinin Qarabağ müharibəsinin başlanması, günahkarları və ağır nəticələri haqqında onların əvvəlki dərsdə aldıqları məlumatları yenidən şagirdlərin təfəkküründə canlandırın. Bu metodu müzakirə sualları vasitəsilə daha səmərəli tətbiq etmək olar.

Kiçik müzakirə başa çatdıqdan sonra tədqiqat sualı formalaşdırılır:

***Tədqiqat sualı:***

*– Mübariz İbrahimovu qəhrəman olmağa nə sövq etdi?*

Müzakirənin bu mərhələsində şagirdlərin cavabları olduqca müxtəlif və rəngarəng ola bilər. Çünki insanı qəhrəmanlığa sövq edən saysız-hesabsız səbəblər vardır. Hər bir şagird ayrıca bir fərd olduğundan öz düşüncələrinə uyğun olaraq müxtəlif səbəblər irəli sürə bilər.

Dərsliyin 192–194-cü səhifələrində verilmiş müvafiq mətnə və şəklin təhlilinə əsasən Mübariz İbrahimovun malik olduğu yüksək fiziki və mənəvi keyfiyyətləri aydınlaşdırılır. Bu tapşırıq bütün siniflə birgə yerinə yetirilir.

İstiqamətverici suallarla müzakirəni daha da genişləndirmək mümkündür.

Mövzuya aid müvafiq səhifədə verilmiş metodik tapşırıqlar və suallar təhlil edilir.

Şagirdlər Mübariz İbrahimov haqqında əldə etdikləri məlumatları təqdim edirlər. Məlumat mübadiləsindən sonra müəllimin köməyi ilə mövzu daxilində başlıca məsələlər qruplaşdırılır. Səhnəcik vasitəsilə Ağakərim dayının Mübarizin komandiri ilə söhbətini cavablandırmağı da təklif etmək məqsədəuyğundur.

***Yaradıcı tapşırıq:*** Mübariz İbrahimov haqqında şeir yazmaq, rəsm çəkmək, rollu oyun nümayiş etdirmək, ona həsr olunmuş şeiri qiraətlə söyləmək, yaxud oxumaq təklif edilir.

M.İbrahimovun adının əbədiləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı oxunur və müzakirə olunur.

## M.A.İBRAHİMOVA "AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANI" ADININ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında müstəsna xidmətinə və göstərdiyi rəşadətə görə gizir Mübariz Ağakərim oğlu İbrahimova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilsin (ölümündən sonra).

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 22 iyul 2010-cu il*

***Sual:*** *Azərbaycan Respublikası Prezidentinin sərəncamının əhəmiyyəti nədədir?*

***Ev tapşırığı:*** Tanıdığınız Azərbaycan Milli qəhrəmanlarından biri haqqında təqdimat hazırlayın.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *təqdimathazırlama*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Mənbələrə əsasən Mübariz İbrahimov haqqında təqdimat hazırlayır. | Mübariz İbrahimov haqqında təqdimat etməkdə çətinlik çəkir. | Mübariz İbrahimov haqqında təqdimatı yoldaşlarının köməyi ilə hazırlayır. | Mübariz İbrahimov haqqında təqdimat hazırlayarkən bəzi səhvlər edir. | Mübariz İbrahimov haqqında dolğun təqdimat hazırlayır. |

# 53. Müstəqil Azərbaycanın qurucusu (I dərs)

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 4.1.1.; 4.1.2. | 1. Ümummilli lider Heydər Əliyevin Azərbaycan tarixində mühüm rol oynadığını müəyyən edir.<br>2. Mənbələrə əsasən Heydər Əliyev haqqında təqdimat hazırlayır. |

Şagirdlər "Hansı keyfiyyətlərə və bacarıqlara malik olan insanlara lider demək olar?" sualına cavab olaraq öz rəylərini və fikirlərini bildirirlər.

***Tədqiqat sualı:***

*– Ümummilli lider Heydər Əliyevin tarixi rolu nədən ibarətdir?*

Şagirdlərin təfəkkürü lazımi istiqamətə yönəldilir.

Tədqiqat müəllim seçimindən asılı olaraq böyük və kiçik qrup formasında aparıla bilər. Müzakirə və BİBÖ üsulu vasitəsilə şagirdlərin bütünlüklə fəaliyyətə cəlb olunmasına, Heydər Əliyev şəxsiyyəti haqqında keçmiş və əldə ediləcək yeni biliklər arasında əlaqə yaradılmasına, beləliklə, mövzunun daha yaxşı qavranılmasına nail olmaq mümkündür. Yeni faktlar və biliklər əldə etmək üçün şagirdlərə tədqiqat prosesini cədvəldəki tapşırıqlar əsasında davam etdirmək təklif edilir.

Müəllim bu tapşırığı yerinə yetirməzdən qabaq şagirdlərin düşüncələrini dərsin müvafiq hissələrinə yönəldir. Tədqiqat prosesi nəticəsində şagirdlərin əldə etdikləri yeni faktlar və məlumatlar qarşılıqlı dinləmə yolu ilə mübadilə edilir. Mövzunun



aktuallığı və səmərəliliyi qrup işinə imkan verir. Bütün şagirdlərin iştirakını təmin etmək üçün təqdimatı keçirənlərə sual vermək və əlavələr etmək vacibdir.

Cədvəli tamamlayın: **Heydər Əliyev:**

| Görkəmli dövlət xadimidir | Böyük strateqdir | Xalqının və dövlətinin xilaskarıdır | Ümummilli liderdir |
|---|---|---|---|
| | | | |

Məlumatın müzakirəsi və təşkili prosesində hər bir tapşırıq üzrə əldə edilmiş yeni faktlar əsasında biliklər sistemləşdirilir. Heydər Əliyevin görkəmli dövlət xadimi, böyük strateq, Azərbaycan xalqının və dövlətinin xilaskarı kimi müstəsna keyfiyyətləri və xidmətləri ümumiləşdirilir və Ümummilli Lider obrazı yaranır. Nəticə fərziyyələr və tədqiqat sualı ilə tutuşdurulur.

Şagirdlər ümummilli lider Heydər Əliyevə aid olan keyfiyyətləri sxem şəklində nümayiş etdirirlər.

***Yaradıcı tapşırıq:*** "Heydər Əliyev və Azərbaycan təhsili" adlı esse yazın.

***Ev tapşırığı:*** İnternetdən istifadə edərək "Heydər Əliyev və uşaqlar" adlı fotoalbom hazırlayın.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *müəyyənetmə, təqdimathazırlama*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Ümummilli lider Heydər Əliyevin Azərbaycan tarixində mühüm rol oynadığını müəyyən edir. | Heydər Əliyev haqqında suallara cavab verir, onun Azərbaycan tarixində mühüm rol oynadığını müəyyən etməkdə çətinlik çəkir. | Heydər Əliyevin Azərbaycan tarixində mühüm rol oynadığını istiqamətverici sualların köməyi ilə müəyyən edir. | Heydər Əliyevin Azərbaycan tarixində mühüm rol oynadığını, əsasən, düzgün müəyyən edir. | Heydər Əliyevin Azərbaycan tarixində mühüm rol oynadığını nümunələrlə əsaslandırır və sərbəst müəyyən edir. |
| Mənbələrə əsasən Heydər Əliyev haqqında təqdimat hazırlayır. | Mənbələrə əsasən Heydər Əliyev haqqında məlumatı vardır. Lakin bu məlumatlar əsasında təqdimat etməkdə çətinlik çəkir. | Mənbələrə əsasən Heydər Əliyev haqqında əldə etdiyi məlumatlar əsasında müəllimin köməyi ilə təqdimat hazırlayır. | Mənbələrə əsasən Heydər Əliyev haqqında əsasən sadə və düzgün təqdimat hazırlayır. | Mənbələrə əsasən Heydər Əliyevin Azərbaycan tarixində oynadığı rola aid müxtəlif təqdimatlar hazırlayır. |

# 53. Müstəqil Azərbaycanın qurucusu (II dərs)

| Standartlar | Təlim məqsədləri |
|---|---|
| 1.1.2.; 4.1.2. | 1. Ümummilli lider Heydər Əliyevin fəaliyyəti ilə bağlı sadə xronoloji məsələləri həll edir. 2. Mənbələrə əsasən ümummilli lider Heydər Əliyev haqqında təqdimat hazırlayır. |

Şagirdlərə "Ümummilli lider Heydər Əliyevin hansı keyfiyyətləri onun böyük tarixi şəxsiyyət olduğunu sübut edir?" sualı ilə müraciət edilir və müzakirə aparılır. Əvvəlki dərsdə öyrəndikləri şagirdlərə müzakirədə fəal iştirak etməyə imkan verir.

Sonra tədqiqat sualını müəyyən etmək üçün istiqamətləndirici suallar verilir:

– Heydər Əliyev öz həyatını nəyə həsr etmişdi?
– Heydər Əliyevi hansı məsələlər narahat edirdi?
– O nə üçün hərbi kadrların hazırlanmasına xüsusi diqqət yetirirdi?
– Heydər Əliyevin dövlətçilik fəaliyyətinin əhəmiyyəti nədir?
– Heydər Əliyev türk-islam birliyini qorumaq üçün nə etdi?
– O hansı hadisələrlə milli birlik tariximizin təməlini qoydu?
– Heydər Əliyevin Fəxri xiyabandakı məzarı nə üçün müqəddəs ziyarətgaha çevrilmişdir?

Şagirdlərin cavabları ümumiləşdirilir və tədqiqat sualı müəyyən edilir.

***Tədqiqat sualı:***

– *Ümummilli lider Heydər Əliyevin milli siyasətinin başlıca məzmunu və əhəmiyyəti nədir?*

Şagirdlərlə "milli siyasət" anlayışı ətrafında müzakirə davam etdirilir.



Dərslik mətni ilə əvvəlki dərsdən tanış olduqlarından tədqiqatı təşkil etmək üçün əvvəlcə şagirdlər əlavə materiallarla tanış olurlar.

Şagirdlər qruplara bölünür və hər bir qrup bir xronoloji fakt əsasında tədqiqat aparır.

Heydər Əliyevin fəaliyyəti ilə bağlı xronoloji məlumatlar əsasında cədvəli tamamlayın.

Cavablar müzakirə olunur və cədvəlin müvafiq sütunlarında qeyd edilir.

| XX əsrin 70-ci illəri | 1993-cü il | 1994-cü il | 2001-ci il | 2003-cü il |
|---|---|---|---|---|
| | | | | |

Bütün məlumatlar müəllimin istiqamətverici suallarının köməyi ilə ümumiləşdirilir.

Ulu Öndərin siyasətinin əhəmiyyəti, Azərbaycan dilinin, adət-ənənələrinin qorunması, milli və hərbi kadrların hazırlanması Vətənimizin gələcəyini düşünərək yeritdiyi milli siyasətin nəticələri kimi dəyərləndirilir.

***Yaradıcı tapşırıq:***

"Zamanın böyük məsələlərini böyük dövlətlər deyil, böyük siyasi xadimlər həll edir" fikri əsasında düşüncələrinizi yazılı şəkildə ifadə edin.

***Ev tapşırığı:*** "Heydər Əliyev dünya azərbaycanlılarının milli birlik rəmzidir" adlı təqdimat hazırlayın.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *həlletmə, təqdimathazırlama*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Ümummilli lider Heydər Əliyevin fəaliyyəti ilə bağlı sadə xronoloji məsələləri həll edir. | Heydər Əliyevin fəaliyyəti ilə bağlı sadə xronoloji məsələni həll etməkdə çətinlik çəkir. | Heydər Əliyevin fəaliyyəti ilə bağlı bəzi xronoloji hadisələri müəyyən edir, xronoloji məsələləri köməkdən istifadə edərək həll edir. | Heydər Əliyevin fəaliyyəti ilə bağlı hadisələrin xronologiyasını müəyyən edir və xronoloji məsələləri əsasən düzgün həll edir. | Heydər Əliyevin fəaliyyəti ilə bağlı xronoloji məsələləri zaman anlayışları ilə əlaqələndirərək sərbəst həll edir. |
| Məlumatlara əsasən Heydər Əliyev haqqında təqdimat hazırlayır. | Mənbələrlə işləməkdə çətinlik çəkir. | Mənbələrə əsasən Heydər Əliyev haqqında bəzi məlumatları toplayır, təqdim etməkdə çətinlik çəkir. | Mənbələrə əsasən Heydər Əliyev haqqında məlumat əldə edir, sadə təqdimat hazırlayır. | Mənbələr üzərində sərbəst işləyir, mövzu ilə bağlı məlumatları seçir və əlaqələndirir. Yeni məlumatları sərbəst təqdim edir. |

# 54. Ulu Öndərin yolu ilə (I dərs)

| *Standartlar* | *Təlim məqsədləri* |
|---|---|
| 1.2.2.;<br>4.1.1. | 1. İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək İlham Əliyev haqqında tarixi tədqiqat aparır.<br>2. Prezident İlham Əliyevin Azərbaycan tarixində mühüm rol oynadığını müəyyən edir. |



– Siz ümummilli liderimiz Heydər Əliyev haqqında artıq xeyli məlumata maliksiniz. Onun həyat və fəaliyyəti, müstəqil Azərbaycanın qurulmasında və inkişafında rolu barədə təsəvvürləriniz genişdir.

Ümummilli liderin oğlu, Azərbaycan Respublikasının Prezidenti olan İlham Əliyev onun layiqli davamçısıdır. İlham Əliyev öz çoxşaxəli fəaliyyəti ilə Azərbaycan xalqının dərin nüfuzunu qazanmışdır. İlham Əliyevin atasının layiqli davamçısı olduğunu göstərən faktlar çoxdur. Bu dərsimizdə siz bu barədə biliklərinizin əhatəsini daha da genişləndirə biləcəksiniz.

Tədqiqat böyük qruplarda iş formasında davam etdirilir.

Dərsliyin müvafiq hissələri İNSERT (şüurlu oxu) vasitəsilə şagirdlər tərəfindən oxunur. Sonra cədvələ uyğun olaraq şagirdlər birgə fəaliyyət prosesində əldə etdikləri məlumatları yazaraq cədvəli tamamlayırlar.

***Tədqiqat sualı:***

*– Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nə üçün ümummilli lider Heydər Əliyevin layiqli davamçısı hesab edilir?*

Əlavə tarixi mənbələrdən, dövri mətbuat materiallarından, internetdən əldə edilmiş məlumatların zəruri olanlarını müəyyənləşdirməklə cədvələ yeni xüsusiyyətlər əlavə etmək olar:

| **Prezident İlham Əliyevin quruculuq işləri** | | |
|---|---|---|
| **İqtisadiyyat** | **Mədəniyyət** | **Xarici siyasət** |
| | | |
| | | |

Şagirdlər fəaliyyət prosesində öyrəndikləri bilikləri mübadilə edirlər.

Şagirdlərə “Mən prezident olsaydım” mövzusunda ümumi diskussiya aparmaq təklif olunur.

Əsasını Ulu Öndər Heydər Əliyevin qoyduğu müstəqil Azərbaycanın daha da güclənməsində və inkişafında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük rol oynaması nəticəsinə gəlinir.

***Ev tapşırığı:***

203-cü səhifədəki 3 №-li metodik tapşırığı yerinə yetirin.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *tədqiqataparma, müəyyənetmə*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək Prezident İlham Əliyev haqqında tarixi tədqiqat aparır. | İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək Prezident İlham Əliyev haqqında tarixi tədqiqat aparmaqda çətinlik çəkir. | İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək Prezident İlham Əliyev haqqında bəzi məlumatlar əldə edir. | İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək Prezident İlham Əliyev haqqında köməkdən istifadə edərək tarixi tədqiqat aparır. | İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək Prezident İlham Əliyev haqqında müstəqil və tədqiqat sualının cavabını əhatə edən tarixi tədqiqat aparır. |
| Prezident İlham Əliyevin Azərbaycan tarixində mühüm rol oynadığını müəyyən edir. | Prezident İlham Əliyevin Azərbaycan tarixində mühüm rol oynadığına aid ayrı-ayrı suallara cavab verir, onun tarixi rolunu müəyyən etməkdə çətinlik çəkir. | Prezident İlham Əliyevin fəaliyyətinin ayrı-ayrı sahələrinin Azərbaycan tarixindəki rolunu köməkdən istifadə edərək müəyyən edir. | Prezident İlham Əliyevin Azərbaycan tarixində oynadığı rolu əsasən sərbəst və düzgün müəyyən edir. | Prezident İlham Əliyevin Azərbaycan tarixində oynadığı rolu nümunələrlə əsaslandıraraq sərbəst müəyyən edir. |

# 54. Ulu Öndərin yolu ilə (II dərs)

| *Standartlar* | *Təlim məqsədləri* |
|---|---|
| 1.1.2.;<br>4.1.2. | 1. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin fəaliyyəti haqqında sadə xronoloji məsələləri həll edir.<br>2. Mənbələrə əsasən İlham Əliyev haqqında təqdimat hazırlayır. |

Şagirdlərə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev haqqında müəyyən biliklərə malik olduqları xatırladılır. Şagirdlərin diqqəti İlham Əliyevin ümummilli lider Heydər Əliyevin layiqli varisi və davamçısı olması fikrinə yönəldilir. Kiçik müzakirə zamanı bütün siniflə birgə ümumi ideya müəyyənləşdirilir.

***Tədqiqat sualı:***

*– Prezident İlham Əliyevin Azərbaycan tarixində oynadığı rolun əhəmiyyəti nədir?*





Tədqiqat sualı ətrafında müzakirə davam etdirilir. Şagirdlərə dərslik mətni, təqdim edilmiş şəkillər və əlavə sənədli materiallar əsasında Prezidentin fəaliyyəti ilə daha yaxından tanış olmaq təklif edilir.

Materiallar təhlil və müzakirə edilir. Onlardan ən başlıcaları qeyd edildikdən sonra şagirdlərə öz fəaliyyətlərinin nəticələrini cədvəldə ümumiləşdirmək tapşırılır.

Prezident İlham Əliyevin fəaliyyəti əsasında onun Azərbaycan tarixində oynadığı mühüm rolu müəyyən edin:

| Tarixi dövr | İctimai-siyasi fəaliyyəti | Mədəniyyət və idman sahəsində fəaliyyəti | Ordu quruculuğu | Nəticə |
|---|---|---|---|---|
| | | | | |

Cədvəlin hər bir sütununda qeyd edilmiş başlıca məsələlərə cavab axtarılır. Tədqiqat zamanı əlavə materiallardan başqa, dərsliyin müvafiq mətni də təhlil edilir. Bu dərsdə əvvəlkindən fərqli olaraq, şagirdlər əldə etdikləri məlumatları daha da ümumiləşdirməli, nisbətən mürəkkəb plan əsasında qruplaşdırmalıdırlar. Bu zaman əvvəlki dərsdə bünövrəsi qoyulmuş biliklər və bacarıqlar sadədən mürəkkəbə doğru inkişaf etdirilir. İlham Əliyevin xalqın ümidlərini doğrultması nümunələrlə əsaslandırılır.

***Yaradıcı tapşırıq:*** Şagirdlərə “Qərbi fəth edən Şərq qadını” mövzusunda esse yazmaq tapşırılır (203-cü səhifə, 4-cü tapşırıq).

Tapşırıq yerinə yetirildikdən sonra şagirdlərə “Azərbaycan tarixinin və mədəniyyətinin təbliği üçün nə təklif edərdin?” mövzusunda reqlamentləşdirilmiş diskussiya keçirmək və dərsi daha da canlandırmaq olar (203-cü səhifə, 5-ci tapşırıq).

***Ev tapşırığı:*** Prezident İlham Əliyevin çoxşaxəli fəaliyyəti haqqında təqdimat hazırlayın (Bu tapşırığı cütlüklərə və kiçik qruplara da həvalə etmək olar).

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *həlletmə, təqdimathazırlama*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| Azərbaycan Respublikası Prezidenti İlham Əliyev haqqında sadə xronoloji məsələləri həll edir. | Prezident İlham Əliyev haqqında bəzi məlumatı vardır. | Prezident İlham Əliyev haqqında sadə xronoloji məsələləri köməkdən istifadə edərək həll edir. | Prezident İlham Əliyevin fəaliyyəti ilə bağlı hadisələrin xronologiyasını müəy- yən edir, xronoloji məsələləri əsasən düzgün həll edir. | Prezident İlham Əliyevin fəaliyyəti ilə bağlı hadisələri düzgün müəyyən edir və xronoloji məsələləri sərbəst, nümunələrlə əsaslandıraraq həll edir. |
| Mənbələrə əsasən, Prezident İlham Əliyev haqqında təqdimat hazırlayır. | Prezident İlham Əliyevin dövlətçilik fəaliyyətinin bəzi sahələri haqqında məlumat toplaya bilir, təqdimat hazırlamaqda çətinlik çəkir. | Mənbələrə əsasən, Prezident İlham Əliyev haqqında məlumat əldə edir, köməkdən istifadə edərək sadə məlumat hazırlayır. | Mənbələrə əsasən, topladığı yeni məlumatları əlaqələndirir, özü sərbəst şəkildə sadə təqdimat hazırlayır. | Mənbələrə əsasən, topladığı materialları tədqiqat sualı ilə əlaqələndirərək müxtəlif təqdimat hazırlayır. |

# 55. Aprel döyüşləri — böyük zəfərin başlanğıcı

| *Standartlar* | *Təlim məqsədləri* |
|---|---|
| 1.2.2. | 1. İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək Aprel döyüşləri haqqında tədqiqat aparır. |

Şagirdlərdə idrak fəallığı yaratmaq üçün onlara:

– Qarabağ müharibəsi qəhrəmanlarından kimləri tanıyırsınız? – sualı verilir. Şagirdlərin diqqəti kiçik müzakirəyə cəlb edilir. Müzakirə əsasında dərsin başlıca ideyası formalaşdırılır.

***Tədqiqat sualı:***

*– Aprel döyüşlərinin Azərbaycan üçün əhəmiyyəti nədir?*



Şagirdlər fikirlərini söyləyirlər. İstiqamətləndirici suallar vasitəsilə müzakirə tədqiqat sualının cavablanmasına yönəldilir. Problemi həll etmək üçün tədqiqat fəaliyyəti təşkil edilir. Material əhəmiyyətli olsa da, bölüşdürmək üçün kifayət etmədiyinə görə problemin həlli prosesi bütün siniflə birgə davam etdirilir.

Dərslikdəki mətn oxunur və müzakirə olunur, şəkillər təhlil edilir.

Şagirdlərə mövzu xəritəsində Azərbaycan ordusu tərəfindən geri alınmış yüksəkliklərin yerini müəyyənləşdirmək təklif edilir.

Məlumat cədvəl şəklində təşkil edilir.

Cədvəl tamamlanır:

| **Aprel döyüşünün başlandığı və sona çatdığı tarix** | **Aprel döyüşlərinin qəhrəmanları** | **Aprel döyüşlərində azad edilən ərazilər** | **Aprel döyüşlərinin siyasi əhəmiyyəti** |
|---|---|---|---|
| | | | |

Şagirdlər tədqiqat işi prosesində tapılmış yeni faktları və məlumatları mübadilə edirlər. Həmin bilikləri qaydaya salmaq üçün məlumat müzakirə edilir.

Dərslikdəki mətnin, şəkillərin və əlavə məlumatların təhlili əsasında Aprel döyüşləri haqqında məlumatlar ümumiləşdirilir.

Azərbaycan Respublikası Prezidenti, Ali Baş komandanı İlham Əliyevin sözlərinin mənası aydınlaşdırılır.

Aprel döyüşlərinin siyasi əhəmiyyətini qiymətləndirilir.

***Yaradıcı tapşırıq:***

Aprel döyüşlərinin qəhrəmanları haqqında kiçik hekayə yazmaq tapşırılır. Şagirdlərə bildirilir ki, onlar istədikləri qəhrəmanı sərbəst surətdə seçib onun haqqında hekayə yaza bilərlər.

***Ev tapşırığı:*** Dərsliyin 207-ci səhifəsindəki 5-ci tapşırığı yerinə yetirin.

***Refleksiya və qiymətləndirmə***

***Formativ qiymətləndirmə meyarları:*** *tədqiqataparma*

| Təlim məqsədləri | I | II | III | IV |
|---|---|---|---|---|
| İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək Aprel döyüşləri haqqında tarixi tədqiqat aparır. | İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə etməkdə çətinlik çəkir. | Mənbələrdən istifadə edərək Aprel döyüşləri haqqında cüzi tarixi məlumatları müəyyən edir. | İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək Aprel döyüşləri haqqında müəllimin köməyi ilə tədqiqat aparır. | Aprel döyüşləri haqqında müstəqil tarixi tədqiqat aparır. |

# Nümunəvi dərs planı

Müəllimlər üçün vəsaitdə bir neçə fəal dərsin mərhələlərlə modelini verməyi məqsədəuyğun hesab etdik.

**Mövzu: "AZƏRBAYCAN" ADI NECƏ YARANDI?**
**Məzmun xətti:** Dövlət
**Standart:** 3.1.1. Azərbaycan dövlətləri haqqında sadə biliklər nümayiş etdirir;
3.1.3. Kiçikhəcmli tarixi hekayə qurur.
**Məqsəd:** Atropatena dövləti haqqında sadə biliklər nümayiş etdirir;
Atropatena dövlətinin Azərbaycan adlandırılmasına dair kiçik hekayə qurur.
**İnteqrasiya:** Əd.: 3.1.3.; Riy.: 5.2.1.
**Dərsin tipi:** Yeni bilik və bacarıqlar formalaşdıran dərs
**İş forması:** Kollektivlə iş
**İş üsulları:** Beyin həmləsi, müzakirə, karusel
**Resurslar:** Dərslik, şəkil, xəritə, iş vərəqləri, disk, kompüter, marker

**DƏRSİN GEDİŞİ**

**Motivasiya:** Müəllim dərsə Müslüm Maqomayevin ifasında "Azərbaycan" mahnısının səsləndirilməsi ilə başlayır. Mahnının müşayiəti ilə ekranda Azərbaycan haqqında slayd verir. Mahnı başa çatdıqdan sonra müəllim şagirdlərə sual verir:

– Siz Azərbaycan ərazisində yaranmış hansı qədim dövləti tanıyırsınız?

Şagirdlərin cavabı dinlənilir.

**Tədqiqat sualı: –** *Vətənimizin "Azərbaycan" adı necə meydana gəlmişdir?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd edilir.

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri qruplara bölür. Dərslikdəki müvafiq mətn hissələrə bölünərək təhlil edilir. Qruplara mövzu ilə bağlı əlavə resurslar və suallar yazılmış kartlar paylanılır. Hər bir qrup öz iş vərəqində cavabları fərqli markerlə qeyd edir.

Qruplar aşağıdakı tapşırıq əsasında tədqiqat aparırlar.

1. Atropatena ərazisinin təbii-coğrafi şəraitini və əhalisinin məşğuliyyətini izah edin.
2. Atropatenalıların ticarət əlaqələri saxladıqları yolu müəyyənləşdirin və kontur xəritədə qeyd edin.
3. Yadellilərin Atropatena sərhədlərini pozmağa cəsarət etməməsini dəyərləndirin.
4. Vətənimizin "Azərbaycan" adının hansı sözdən meydana gəlməsi haqqında kiçik hekayə yazın.

Qruplar yazdıqları iş vərəqlərini bir-birinə ötürürlər. Hər bir qrup digər qrupun tapşırığına öz əlavəsini edir.

**Məlumatın mübadiləsi:** Qrup nümayəndələri işlərini təqdim edirlər. Qrupların fəaliyyəti meyarlar əsasında qiymətləndirilir.

**Məlumatın müzakirəsi:** Müzakirə zamanı müəllim şagirdlərə belə suallarla müraciət edə bilər:

– Atropatena Azərbaycanın hansı torpaqlarını əhatə edirdi?

– Atropatenada sənətkarlığın inkişafına kömək edən əsas amil nədən ibarət idi?

– Azərbaycanın sizə məlum olan ən qədim adları hansılardır?

**Yaradıcı tətbiqetmə:** Şagirdlərə təqdim edilmiş mənbələrdəki məlumatlara əsasən Atropatena döyüşçüsünü təsvir edin.

Tapşırıq qiymətləndirilir.

**Nəticə və ümumiləşdirmə:** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Müəllimin bələdçiliyi ilə şagirdlər belə nəticəyə gəlirlər ki, Atropatenanın əlverişli təbii şəraiti və zəngin sərvətləri ona güclü ordu saxlamağa imkan verirdi. Ona görə də yadellilər ölkənin sərhədlərini pozmağa cürət etmirdilər. Atropatena dövlətinin güclənməsində onun ilk hökmdarı Atropatın böyük rolu olmuşdu. Ona görə də ölkəni onun adı ilə – Atropatena adlandırırdılar. Çox sonralar ərəblərin dövründə isə bu ad "Azərbaycan" adına çevrildi.

**Ev tapşırığı:** "Atropatenanın ən böyük şəhəri" adlı kiçik hekayə qurun.

**Refleksiya və qiymətləndirmə:** Qrup işlərini aşağıdakı meyarlarla qiymətləndirmək olar.

**Formativ qiymətləndirmə meyarları:** *nümayişetdirmə, kiçik hekayəqurma*

**Mövzu: "QIRX İL KÖLƏ KİMİ YAŞAMAQDANSA..."**

**Məzmun xətti:** Şəxsiyyət

**Standart:** 1.1.2. Sadə xronoloji məsələləri həll edir;
4.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri müəyyən edir;
4.1.2. Mənbələrə əsasən şəxsiyyətlər haqqında təqdimatlar hazırlayır.

**Məqsəd:** Babəkin başçılıq etdiyi azadlıq mübarizəsinin baş verdiyi dövrü müəyyən edir;
Babəkin Azərbaycan tarixində mühüm rol oynadığını müəyyən edir;
Babəkin azadlıq mübarizəsinin tarixi əhəmiyyəti haqqında təqdimat hazırlayır.

**İnteqrasiya:** H.b.: 3.2.2.

**Dərsin tipi:** Yeni bilik və bacarıq forması

**İş forması:** Qruplarla iş

**İş üsulları:** Beyin həmləsi, müzakirə

**Resurslar:** Dərslik, xəritə, şəkil, illüstrasiya, iş vərəqləri, maqnitofon, disk, kompüter

**DƏRSİN GEDİŞİ**

**Motivasiya:** Müəllim dərsə M.Arazın sözlərinə yazılmış "Qalx ayağa, Azərbaycan" mahnısı ilə başlayır. Mahnının səsləndirilməsi başa çatdıqdan sonra müəllim şagirdlərə sual verir:

– Siz azadlıq sözünü necə başa düşürsünüz?

Şagirdlərin fikirləri dinlənilir.

**Tədqiqat sualı:** — *Babəkin başçılıq etdiyi üsyana niyə azadlıq mübarizəsi deyilir?*

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri qruplara bölür. Hər qrupa ərəb zülmünə qarşı Babəkin başçılıq etdiyi azadlıq mübarizəsinə aid tapşırıqlar yazılmış iş vərəqləri verilir:

1. Babəkin başçılıq etdiyi üsyanın səbəblərini tapın.
2. Üsyançıların qələbələri haqqında məlumatları ümumiləşdirin. Üsyançıların ərəblərlə həlledici döyüşünü şərh edin.
3. Babəkin başçılıq etdiyi üsyanın tarixi əhəmiyyətini müəyyən edin.

**Dərslik və xəritə üzərində iş:** Dərslikdəki mətn oxunur, müzakirə olunur. Mövzu xəritəsində Babəkin rəhbərlik etdiyi üsyanların baş verdiyi ərazilər qeyd olunur.

**Məlumatın mübadiləsi:** Qrup nümayəndələri öz işlərini təqdim edirlər. Onlar bir-birlərinin işini, hər bir şagird öz fəaliyyətini qiymətləndirir.

**Məlumatın müzakirəsi:** Müəllim dərsi yekunlaşdıraraq şagirdlərə belə bir sual verə bilər:

– Nə üçün Babək xəlifənin verdiyi amanı qəbul edib canını ölümdən qurtarmadı?

– Babək xalqımız qarşısında öz mənəvi borcunu necə yerinə yetirdi?

**Yaradıcı tətbiqetmə:** Dərslikdəki tapşırıq tarix dəftərində yerinə yetirilir və yoxlanılır.

**Nəticə və ümumiləşdirmə:** Müəllimin bələdçiliyi ilə şagirdlər bu nəticəyə gəlirlər ki, ərəb zülmündən çox əziyyət çəkən xalqımız onları ölkəmizdən qovmaq və azad olmaq üçün mübarizə aparırdı. Ona görə də bu mübarizəyə azadlıq mübarizəsi deyilirdi. Üsyançılar, həmçinin yerli feodallara qarşı da mübarizə aparırdılar.

Babək üsyanı ərəb dövlətini zəiflətdi və onun tezliklə dağılmasına səbəb oldu. Azərbaycan torpaqlarında müstəqil dövlətlər meydana gəldi. Xalqımız yadelli əsarətindən xilas oldu və azadlığa çıxdı.

**Ev tapşırığı:** Babəki şəhid hesab etmək olarmı? Fikirlərinizi qeyd edin.

**Refleksiya və qiymətləndirmə:** Qrup işlərini aşağıdakı meyarlarla qiymətləndirmək olar.

**Formativ qiymətləndirmə meyarları:** *müəyyənetmə, təqdimathazırlama.*

**Mövzu: ELM DÜNYASININ ŞAHI**

**Məzmun xətti:** Şəxsiyyət, mədəniyyət
**Standart:** 4.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri müəyyən edir;
5.1.1. Mədəniyyət abidələrinin əhəmiyyətini izah edir;
2.1.2. Xəritələrdə Azərbaycan ərazisində Marağa şəhərinin və rəsədxanasının yerləşdiyi məkanı müəyyənləşdirir;
5.1.3. Azərbaycan mədəniyyəti ilə bağlı sadə təqdimatlar edir.
**Məqsəd:** N.Tusinin Azərbaycan tarixində mühüm rol oynadığını müəyyən edir;
Marağa rəsədxanasının əhəmiyyətini izah edir;
Marağa rəsədxanasının yerləşdiyi məkanı müəyyən edir;
"Nəsirəddin Tusi böyük elm və dövlət xadimidir" adlı sadə təqdimat hazırlayır.
**İnteqrasiya:** A-d.: 1.2.2.; 2.1.1.; 3.1.2.
**İş forması:** Böyük və kiçik qruplarla iş
**İş üsulları:** Beyin həmləsi, açar sözlər, müzakirə
**Resurslar:** Dərslik, şəkil, xəritə, qlobus

**DƏRSİN GEDİŞİ**

**Motivasiya:** Divardan Azərbaycan xəritəsi, N.Tusinin və onun yaratdığı ilk qlobusun şəkli asılmışdır. Müəllim xəritədə Marağa şəhərini və şəkilləri göstərərək onların arasında hansı əlaqə olduğunu soruşur.

Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqat sualı:** – *Marağa rəsədxanasının və kitabxanasının Azərbaycan elminin və mədəniyyətinin inkişafında rolu nədən ibarətdir?*

Şagirdlərin tədqiqat sualına aid fərziyyələri lövhədə qeyd olunur. Onlar qruplara bölünür.

**Tədqiqatın aparılması:** Müəllim şagirdlərin ilk məlumatlarını aydınlaşdırdıqdan sonra onlara "Marağa rəsədxanası", "N.Tusi kitabxanası", "Astronomiya elmi", "İlk qlobus", "İctimai xadim", "Elxanilər sarayı", "Elmi əsərlər" söz və söz birləşmələrini təklif edir. Şagirdlər bu sözlərlə mövzu üzrə yarım səhifəlik hekayə yazırlar. Hekayədə yeni sözlərdən istifadə olunmalıdır. Həmin sözlərin mövzu ilə nə cür bağlı olduğunu şagirdlərin bilməsi vacib deyil.

Tapşırıq yerinə yetirilir.

**Məlumatın mübadiləsi:** Qruplar öz hekayələrini oxuyurlar. Bu mərhələdə uyğunsuzluqlar, ziddiyyətlər, səhvlər tənqid edilmir.

Şagirdlərə həmin mövzu üzrə dərslik mətnini oxumaq təklif olunur. Qruplar mətni, şəkilləri və digər mənbələri araşdırır, onu öz hekayələri ilə müqayisə edirlər.

Şagirdlərə aşağıdakı cədvəli doldurmaq tapşırılır:

**Məlumatın müzakirəsi:** Cədvəllər lövhədən asılır və qruplar tərəfindən müzakirə olunur, aydın olmayan məsələlər dəqiqləşdirilir.

| Şagirdlərin təsəvvürləri ilə uyğun gələnlər | Şagirdlərin təsəvvürləri ilə uyğun gəlməyənlər | Yeni məzmun (əvvəl bilmədikləri yeni məlumatlar) | Ziddiyyətli və aydın olmayanlar |
|---|---|---|---|
| | | | |

Müzakirə zamanı müəllim şagirdlərə aşağıdakı suallarla müraciət edə bilər:

– N.Tusi “Elm və müdriklik evi” adlanan zəngin kitabxananı nə üçün yaratmışdı?

– Marağa rəsədxanası nə üçün Şərqin ilk çoxsahəli elm mərkəzi hesab edilir?

– N.Tusinin adı necə əbədiləşdirilmişdir?

**Yaradıcı tətbiqetmə:** “Soruşma Vətən sənin üçün nə edib, soruş ki, sən Vətən üçün nə etmisən” fikrini N.Tusinin fəaliyyəti ilə yazılı şəkildə əlaqələndirin.

Cavablar qiymətləndirilir.

**Nəticə və ümumiləşdirmə:** Müəllimin bələdçiliyi ilə şagirdlər belə nəticəyə gəlir ki, rəsədxanada istifadə olunan çoxlu cihazlardan bəzisi rəsədxananın özündə ixtira olunmuşdu və dünyanın bir çox ölkələrində istifadə edilirdi. Rəsədxanada yaradılmış zəngin kitabxanada Avropa və Asiyadan gəlmiş alimlər göy cisimlərini müşahidə etməklə yanaşı, elmin bütün sahələri ilə məşğul olurdular. Azərbaycan elminin və mədəniyyətinin inkişafında rəsədxananın və orada yaradılmış kitabxananın misilsiz rolu vardı.

**Ev tapşırığı:** Məşhur şəxsiyyətlərin N.Tusi haqqında söylədikləri fikirləri tarix dəftərinizdə qeyd edin.

Qruplar təqdim olunmuş cədvəldəki meyarlar əsasında bir-birinin işini qiymətləndirirlər.

**Refleksiya və qiymətləndirmə:** Qrup işlərini aşağıdakı meyarlarla qiymətləndirmək olar.

**Formativ qiymətləndirmə meyarları:** *müəyyənetmə, izahetmə, təqdimathazırlama*

**Mövzu: GÜLÜSTAN QALASI, YOXSA AZƏRBAYCAN?**

**Məzmun xətti:** Dövlət, şəxsiyyət
**Standart:** 3.1.1. Azərbaycan dövlətləri haqqında sadə biliklər nümayiş etdirir;
3.1.2. Xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir;
4.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri müəyyən edir.
**Məqsəd:** Səfəvilər dövləti haqqında sadə biliklər nümayiş etdirir;
Vahid Azərbaycan Səfəvilər dövlətinin xalqın mənafeyinin qorunmasındakı rolunu dəyərləndirir;
Şah I İsmayılın Azərbaycan tarixində mühüm rol oynadığını müəyyən edir.
**İnteqrasiya:** Əd.: 2.1.3.; 2.2.1.
**İş forması:** Kiçik və böyük qruplarla iş
**İş üsulları:** Beyin həmləsi, müzakirə
**Resurslar:** Dərslik, iş vərəqləri, xəritə, şəkil və illüstrasiyalar, kompüter

**DƏRSİN GEDİŞİ**

**Motivasiya:** Müəllim şagirdlərin diqqətini divardan asılmış iki xəritəyə yönəldir. Xəritələrin biri XV əsrə, ikincisi XVI əsrə aiddir.

Müəllim şagirdlərə sualla müraciət edir:

– Bu xəritələrdə hansı fərqləri görürsünüz?

Şagirdlərin fikirləri dinlənilir.

**Tədqiqat sualı:** – *Azərbaycan ərazisində qüdrətli Səfəvilər dövlətinin yaranması nə üçün əlverişli idi?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə yazılır.

**Tədqiqatın aparılması:** Dərslikdəki mətn təhlil edilir. Şagirdlər qruplara bölünür. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır:

1. Azərbaycanda vahid dövlətin yaranmasını kimlər istəyirdi?
2. Azərbaycan Səfəvilər dövləti necə yarandı?
3. Azərbaycanda vahid və güclü Səfəvi dövlətinin yaranmasının xalqımız və ölkəmiz üçün hansı əhəmiyyəti oldu?
4. Qüdrətli Səfəvilər dövlətinin yaranmasında Şah I İsmayılın rolu nədən ibarətdir?

**Məlumatın mübadiləsi:** Hər bir qrup öz işini təqdim edir.

**Məlumatın müzakirəsi:** Müzakirə zamanı şagirdlərə aşağıdakı suallar verilə bilər:

– Dövlətin gücü nədədir?

– Vahid dövlətin olması ölkədə iqtisadi və mədəni sahələrdə inkişafa necə təsir göstərə bilər?

**Yaradıcı tətbiqetmə:** Dəftərinizdə cədvəl çəkib vahid dövlətin əlamətlərini və üstünlüklərini yazın.

Tapşırıq yoxlanılır.

**Nəticə və ümumiləşdirmə:** Müəllimin bələdçiliyi ilə şagirdlər bu nəticəyə gəlirlər ki, Azərbaycanda vahid və qüdrətli dövlətin yaranması torpaqlarımızın yadelli düşmənlərdən daha yaxşı qorunmasına səbəb oldu. Təsərrüfatın müxtəlif sahələri sürətlə inkişaf etməyə başladı. İqtisadi vəziyyət yaxşılaşdı. Xalqın yaşayış şəraiti xeyli yüksəldi. Ölkədə sabitlik yarandı. Ara müharibələrinə bir müddət son qoyuldu.

**Ev tapşırığı:** "Bizim respublikamız" adlı esse yazın.

**Formativ qiymətləndirmə meyarları:** *nümayişetdirmə, dəyərləndirmə, müəyyənetmə*

**Mövzu: MİLLİ MƏTBUATIMIZIN BANİSİ**

**Məzmun xətti:** Şəxsiyyət, mədəniyyət

**Standart:** 4.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri müəyyən edir;
4.1.2. Mənbələrə əsasən şəxsiyyətlər haqqında təqdimatlar hazırlayır;
5.1.2. Milli-mənəvi dəyərləri fərqləndirir.

**Məqsəd:** Həsən bəy Zərdabinin həyatı və fəaliyyəti haqqında sadə biliklər nümayiş etdirir;
"Əkinçi" qəzetinin milli mətbuatımızın inkişafındakı müstəsna rolunu qiymətləndirir;
H.Zərdabinin müəllimlik fəaliyyəti haqqında kiçik qəzet hazırlayır.

**İnteqrasiya:** A-d.: 3.1.3.; İnf.: 3.3.2.

**İş formaları:** Böyük və kiçik qruplarla iş

**İş üsulları:** Beyin həmləsi, müzakirə, açar sözlər

**Resurslar:** Dərslik, iş vərəqləri, marker, qəzetlər, qəzet maketi

**DƏRSİN GEDİŞİ**

**Motivasiya:** Müəllim müxtəlif dillərdə çap olunmuş bir neçə qəzeti şagirdlərə göstərir və sual verir: – Bu qəzetlərin başlıca fərqini nədə görürsünüz?

Şagirdlər müxtəlif cavablar verirlər.

**Tədqiqat sualı:** – *Həsən bəy Zərdabinin Azərbaycan milli mətbuatının inkişafındakı rolu nədən ibarətdir?*

Şagirdlərin fərziyyələri lövhədə yazılır.

**Dərsliklə iş.** Mövzu hissələrə bölünür və təhlil edilir. İlk növbədə, mövzunun nə üçün məhz belə adlandırılmasının səbəbi soruşulur. Şagirdlər tərəfindən yeni sözlər və fikirlər, tarixlər təhlil edilir.

**Tədqiqatın aparılması:** – Müəllim şagirdləri dörd qrupa bölür. Tapşırıqlar yazılmış vərəqlər lövhədən asılır.

1. H.Zərdabinin təhsili, tərcüməçilik və müəllimlik fəaliyyəti.
2. Ana dilində qəzet çıxarmağın çətinlikləri.
3. "Əkinçi" qazetində əhatə olunan məsələlər.
4. Milli mətbuatın inkişafında H.Zərdabinin gördüyü işlərin əhəmiyyəti.

**Məlumatın mübadiləsi:** Qrup nümayəndələri işlərini təqdim edirlər. Qruplar bir-birinin işlərini qiymətləndirirlər.

**Məlumatın müzakirəsi:** Müəllim şagirdlərə belə bir sualla müraciət edir:

– H.Zərdabi nə üçün xalqını, vətənini atıb getmədi?

– H.Zərdabi məhkəmə katibi işləyərkən camaata hansı köməkliyi edirdi?

**Yaradıcı tətbiqetmə:** İnternetdən əldə etdikləriniz məlumatları lövhədən asılmış qəzet maketinin uyğun hissələrində yerləşdirin və qəzetə simvol seçin.

Tapşırıq yoxlanılır.

**Nəticə və ümumiləşdirmə:** Müəllim tədqiqat sualına və fərziyyələrə qayıdır. Müəllimin bələdçiliyi ilə şagirdlər belə nəticəyə gəlirlər ki, H.Zərdabi Azərbaycan xalqının savadlanması, inkişafdan qalmaması üçün ana dilində qəzet nəşr etdirdi. Beləliklə, ilk ümummilli qəzetimiz nəşr olundu. H.Zərdabinin müstəsna fəaliyyəti nəticəsində çıxan "Əkinçi" qəzeti Azərbaycanın və Rusiya müsəlmanlarının tarixində silinməz iz qoydu.

**Ev tapşırığı:** Yaşadığınız dövrdə ana dilində qəzet çıxarmağın asan olmasının səbəblərini əsaslandırın və tarix dəftərinizdə qeyd edin.

**Refleksiya və qiymətləndirmə:** Qrup işlərini aşağıdakı meyarlarla qiymətləndirmək olar.

**Formativ qiymətləndirmə meyarları:** *sadə biliklər nümayişetdirmə, qiymətləndirmə, təqdimathazırlama*

**Mövzu: MÜSƏLMAN ŞƏRQİNDƏ İLK OPERANI KİM YAZDI?**

**Məzmun xətti:** Mədəniyyət
**Standart:** 5.1.2. Milli-mənəvi dəyərləri fərqləndirir;
5.1.3. Azərbaycan mədəniyyəti ilə bağlı sadə təqdimatlar hazırlayır.

**Məqsəd:** Üzeyir Hacıbəylinin Azərbaycan musiqisi və mədəniyyətinin inkişafı üçün gördüyü misilsiz işlərin əhəmiyyətini qiymətləndirir;
"Üzeyir Hacıbəyli musiqisi və Şuşa" adlı kiçik esse yazır.
**İnteqrasiya:** Mus.: 1.1.1., 3.2.1.; A-d.: 2.1.1., 3.1.2., 3.1.3.; İnf.: 3.2.2.
**İş formaları:** Qrup və kollektivlə iş
**İş üsulları:** Beyin həmləsi, müzakirə, rollu oyun
**Resurslar:** Dərslik, tapşırıq vərəqləri, şəkillər, kağız, marker, kompüter

**DƏRSİN GEDİŞİ**

**Motivasiya:** Müəllim dərsə Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlayır. Sonra şagirdlərə müraciət edərək soruşur: – Siz eşitdiyiniz bu musiqi əsəri haqqında nə bilirsiniz? Onun musiqisi və sözləri kimlərə məxsusdur?

Şagirdlərin fikirləri dinlənilir.

**Tədqiqat sualı:** – *Azərbaycan musiqisinin və mədəniyyətinin inkişafında Üzeyir Hacıbəylinin gördüyü misilsiz işlərin əhəmiyyəti nədən ibarətdir?*

Şagirdlərin fərziyyələri lövhədə yazılır.

**Tədqiqatın aparılması:** Şagirdlər qruplara bölünür, onlara iş vərəqləri paylanılır.

Qruplara aşağıdakı tapşırıqlar verilir:

1. Üzeyir Hacıbəyli necə bəstəkar oldu?
2. Üzeyir Hacıbəyli türk və müsəlman Şərqində ilk operanın və musiqili komediyanın yaradıcısıdır.
3. Üzeyir Hacıbəylinin Azərbaycan Xalq Cümhuriyyəti və sovet hakimiyyəti dövründə gördüyü işlər.
4. Üzeyir Hacıbəylinin adının əbədiləşdirilməsi.

"Uzun ömrün akkordları" sənədli filmindən bir fraqment göstərilir.

**Dərslik üzərində iş:** Dərslikdəki mətn hissələrə bölünür, oxunur və müzakirə edilir. İnternet vasitəsilə əldə edilmiş şəkillər tapşırıqlara uyğun olaraq iş vərəqinə yapışdırılır.

**Məlumatın mübadiləsi:** Qrup nümayəndələri işlərini təqdim edirlər. Qrupun fəaliyyəti meyarlar əsasında qiymətləndirilir.

**Məlumatın müzakirəsi:** Müzakirə zamanı müəllim şagirdlərə aşağıdakı sualları verə bilər:

– Nə üçün çoxları Üzeyirin xanəndə olacağını fikirləşirdi?
– Üzeyir bəyin "Leyli və Məcnun" operasının tamaşaya qoyulduğu teatr binası kim tərəfindən tikilmişdir?
– Üzeyir Hacıbəylinin musiqi əsərlərinin müxtəlif dillərdə və şəhərlərdə tamaşaya qoyulması nəyi göstərir?
– Repressiya dövründə dahi bəstəkarın başı üstündən ölüm təhlükəsini sovuşduran nə oldu?

**Yaradıcı tətbiqetmə:** Üzeyir Hacıbəylinin mahnılarından birini ifa edin və musiqinin sizə necə təsir etdiyini qeyd edin.

**Nəticə və ümumiləşdirmə:** Müəllim şagirdlərlə birlikdə yenidən fərziyyələrə və tədqiqat sualına qayıdır. Müəllimin bələdçiliyi ilə belə nəticəyə gəlinir ki, Üzeyir Hacıbəylinin xidmətləri sayəsində Azərbaycan bütün müsəlman Şərqində opera yazılan birinci ölkə oldu. O, musiqili komediya janrının yaradıcısı kimi də bütün xalqın məhəbbətini qazandı. Müstəqil dövlətimizin himnini yazmaqla xalqımıza çox böyük xidmət göstərdi. Üzeyir Hacıbəyli "Koroğlu" operasını yazmaqla sübut etdi ki, əsl sənət ölümə belə qalib gəlməyə qadirdir. İlk musiqi məktəbini yaradan Üzeyir Hacıbəyli, həm də Azərbaycan Dövlət Konservatoriyasının rektoru kimi mədəniyyətimizin inkişafına böyük əmək sərf etdi. Bununla o öz xalqını Şərqdə və dünyada tanıtdırdı, özü də tanındı. Adı əbədiləşdirildi.

**Ev tapşırığı:** Üzeyir Hacıbəylinin mahnılarını, musiqili komediyalarını və operalarını cədvəl şəklində qruplaşdırın.

**Refleksiya və qiymətləndirmə:** Qrup işlərini aşağıdakı meyarlarla qiymətləndirmək olar.

**Formativ qiymətləndirmə meyarları:** *qiymətləndirmə, esseyazma*

# “Azərbaycan tarixi” fənni üzrə tapşırıqların hazırlanmasına dair tövsiyələr

Şagirdlərin bilik və bacarıqlarının formalaşdırılmasında və möhkəmləndirilməsində tapşırıqların düzgün müəyyənləşdirilməsinin çox böyük rolu vardır. Tapşırıqları müəyyən edərkən tarixi zaman, tarixi məkan, dövlət, şəxsiyyət, mədəniyyət məzmun xətləri üzrə bütün əsas və alt standartlar nəzərə alınmalıdır. Hadisələrin baş verdiyi zaman və məkan, davam etdiyi dövr, qüvvələr nisbəti, dövlətlərin yaranması, inkişafı və tənəzzülü, hadisələrin xronoloji və məntiqi ardıcıllığı, sinxronluğu, xəritələr üzərində iş üzrə tərtib edilən tapşırıqlar tarixi biliklərin şagirdlər tərəfindən mənimsənilməsinin ən yaxşı üsuludur.

“Tarixi zaman” məzmun xətti üzrə əsas və alt standartları reallaşdırmaq məqsədilə verilən tapşırıqlarda 5-ci sinif şagirdlərinin qarşısına xronologiya ilə bağlı əsas anlayışları fərqləndirmək vəzifəsi qoyulur. İlləri əsr və minilliklərlə tutuşdurmaq, hadisələrin baş verdiyi vaxtı və müddəti hesablamaq, xronoloji ardıcıllığı müəyyən etmək belə tapşırıqlara aid edilə bilər.

Xronologiya ilə bağlı əsas anlayışları fərqləndirməyə xidmət edən tapşırıqların tərtib edilməsində məqsəd şagirdlərin tarixi zaman kateqoriyasını – il, əsr, minillik, dövr, era – anladığını və onları fərqləndirərək tətbiq edə bilmək bacarığını müəyyən etməkdir. Şagirdlər əsas zaman anlayışlarını və onların məzmununu əzbərləməklə həmin anlayışların məzmununu mənimsəməkdə çətinlik çəkirlər. Ona görə də bu tipli tapşırıqların daha çox təklif edilməsi zəruridir. Bu zaman şagirdlərə xronoloji məsələlərlə bağlı cədvəllər tərtib etmək, yaxud belə cədvəlləri tamamlamaq kimi idrak fəallığını təmin edən tapşırıqlar vermək olar.

### *Xronoloji tapşırıqlar*

5-ci siniflərdə “Azərbaycan tarixi” fənninin tədrisi zamanı şagirdlərin biliyinin keyfiyyətcə möhkəmliyini yoxlamaq məqsədilə tapşırıq nümunələri təqdim edirik:

a) Hadisələrin baş verdiyi illəri əsrlərə çevirin:

1. 816-cı il
2. 1136-cı il
3. 1494-cü il
4. 1556-cı il
5. 1794-cü il
6. 1813-cü il
7. 1904-cü il
8. 2012-ci il

b) Eyni əsrləri müəyyən edin:

1. 816-cı il
2. 1136-cı il
3. 1494-cü il
4. 1804-cü il
5. 1904-cü il
6. 1813-cü il
7. 2012-ci il
8. 1812-ci il

c) Tarixi hadisələr arasındakı müddəti təyin edin:
1. Babəkin xürrəmilər hərəkatına başçılıq etməyə başlamasından indiyə qədər neçə il keçmişdir?
2. Gəncə xanlığının işğalı Eldənizlər dövlətinin yaranmasından neçə il sonra baş vermişdir?
3. Gülüstan sülhünün imzalanmasından hazırkı dövrü neçə il ayırır?

5-ci sinif “Azərbaycan tarixi” dərsliyində verilmiş iki ilin arasında hansı əlaqənin olduğunu müəyyənləşdirməyi tələb edən tapşırıq nümunəsi vermək olar. Məsələn:

1494-cü il və 1556-cı il hadisələri bir-biri ilə necə əlaqəlidir?

Bəzən tarixi faktı verməklə hadisənin harada olduğunu, yaxud əksinə, hadisənin harada olduğunu verməklə onun nə vaxt olduğunu müəyyən etməyi qarşıya məqsəd qoyan tapşırıq vermək olar. Məsələn:

1. Gəncə xanlığına rusların hücumu bu ərazinin işğalı ilə nəticələndi. Həmin hadisə nə vaxt baş vermişdir?

2. “Gəncənin ruslar tərəfindən işğalı nə vaxt baş vermişdir?” – sualını qoymaqla hadisənin baş verdiyi ili müəyyən etməyi təklif etmək olar.

Bir-birinin müasirləri olan hökmdarları müəyyənləşdirməyi tələb edən, yaxud hər hansı bir hökmdarın hakimiyyəti dövründə baş verən hadisənin aydınlaşdırılmasını soruşan tapşırıq xronoloji biliyin qavranılmasını asanlaşdırır.

### *Cədvəl üzrə tapşırıqlar*

Tarixi hadisələri cədvəlin bir sütununda verməklə ikinci sütunda həmin hadisələrin baş verdiyi dövrün müəyyənləşdirilməsini də təklif etmək olar.

Məsələn:

| Tarixi hadisələr | Tarixi dövr |
|---|---|
| Gəncə xanlığının işğalı | |
| Gülüstan müqaviləsinin imzalanması | |
| Türkmənçay müqaviləsinin bağlanması | |

Tədqiqat prosesində şagirdlərin fəaliyyətini canlandırmaq və biliyin daha səmərəli mənimsənilməsini təmin etmək üçün cədvəlin birinci sütununda əsas hadisələri, faktları, prosesləri, onların xüsusiyyətlərini müəyyənləşdirməyi, ikinci sütunda isə onu cavablandırmağı təklif etməklə şagirdlərin məntiqi təfəkkürünü inkişaf etdirmək, idraki bacarığını canlandırmaq mümkündür.

| Müəyyən edin | Tamamlayın |
|---|---|
| Eldənizlər dövlətinə aid sadə xronoloji məsələləri | |

Şagirdlərin xronoloji biliklərini “ardıcıllığın müəyyənləşdirilməsi” üzrə tapşırıqlar vasitəsilə yoxlamaq mümkündür. Bununla hər hansı xronoloji məsələ haqqında şagirdlərin təsəvvürünü bilmək, həm də onların məntiqi təfəkkürlərini canlandırmaq olar. Məsələn: “Cavad xanın, Şah I İsmayılın, Cavanşirin, Ş.Eldənizin hakimiyyətdə olduğu dövrləri xronoloji ardıcıllıqla müəyyən edin”. Bu tapşırıq sadə görünməsə də, əslində, 5-ci sinif şagirdləri üçün o qədər də çətin deyil. “Azərbaycan tarixi” fənni necə öyrənilir?” mövzusunun tədrisi vasitəsilə şagirdlər tarixi mənbələr, tarixi hadisələr və onların baş verdiyi dövr, sadə xronoloji məsələlər və onların həlli ilə tanışdırlar. “Azərbaycan tarixi” fənni üzrə tədris edilən mövzuların özü də dərslikdə həm məntiqi, həm də xronoloji ardıcıllıqla verilmişdir. Hadisələrin baş verdiyi dəqiq tarixi bilmədən belə, 5-ci sinif şagirdləri onların dövrlər üzrə ardıcıllığını məntiqi olaraq müəyyənləşdirə bilərlər.

5-ci sinif şagirdlərinə tədricən tarixi oyunlar tətbiq etməklə tapşırıqlar vermək olar. İbtidai siniflərdə onlar artıq bu oyunlar vasitəsilə bilikləri tətbiq edir və möhkəmləndirirlər. Məsələn, müxtəlif fənlər və mövzular üzrə krossvord həll edirlər. Lakin tarixin tədrisi 5-ci sinifdə başladığından, şagirdlər xronologiya üzrə krossvordlar və başqa bu tipli tarixi oyunları tətbiq etməyə ilk vaxtlar çətinlik çəkə bilərlər. Sinifdən-sinfə keçdikcə bu proses, eləcə də hadisələrin xronoloji çərçivələrinin, zaman oxunun şagirdlərin özləri tərəfindən tərtib edilməsi vərdişləri də formalaşacaqdır.

### *Xəritə üzrə tapşırıqlar*

Şagirdlərdə məkan haqqında təsəvvürləri yaratmaq üçün ilk növbədə, **xəritələrdən** istifadə praktik vərdişə çevrilməlidir. Artıq Azərbaycan Respublikasının orta məktəbləri ölkəmizin tarixinə aid kifayət qədər mövzu xəritələri, siyasi və digər xəritələrlə təmin olunmuşdur. Xəritələrdən hər bir dövrə aid, hər bir mövzunun tədrisində istifadə etmək vacibdir. Tarixi mövzuların öyrədilməsində və möhkəmləndirilməsində, şagirdlərin bilik və bacarıqlarının yoxlanılmasında xəritələrdən istifadə edilməsi təlim nəticəsinə nail olmağa birbaşa təsir göstərir. Xəritələrin tətbiqi vasitəsilə şagirdlərdə tarixi hadisə və proseslər haqqında daha aydın təsəvvür yaranır, onların daha yaxşı başa düşülməsinə kömək edir. Tapşırıqlar ayrı-ayrı mövzular üzrə divar xəritələrində, respublikamızın və dünyanın siyasi xəritələrində yerinə yetirilə bilər. 5-ci sinif "Azərbaycan tarixi" fənni üzrə tədris edilən mövzular bütün dövrləri əhatə etdiyindən ümumi siyasi xəritələr üzərində tapşırıqların yerinə yetirilməsi bir qədər çətinlik törədə bilər. Ona görə də müəllim üçün nəzərdə tutulan metodik vəsaitdə akademik Yaqub Mahmudlunun rəhbərliyi ilə tərtib edilmiş Azərbaycan tarixinin müxtəlif dövrlərini əhatə edən xəritələr müəllimlərə təqdim edilmişdir.

Xəritələrdə tarixi hadisələrin baş verdiyi məkanın müəyyənləşdirilməsi ilə bağlı tapşırıq tərəfləri, zaman və məkan əlaqələrini müəyyənləşdirməyə imkan verə bilər. Məsələn:

1. Xəritədə 1804-cü ildə ruslarla Gəncə xanlığının qoşunları arasında baş vermiş döyüş yerini müəyyən edin. 2. Gəncə xanlığının süqutu ilə başa çatmış döyüş yerini və vuruşan tərəfləri müəyyən edin.

Tarixi xəritələrin təhlili tədqiqat nəticəsində problemin həllinə kömək edə biləcək yeni və çoxsaylı məlumatların əldə olunmasına imkan verir. Belə xəritələrin müqayisəsi yolu ilə də xeyli məlumat almaq mümkündür. Məsələn:

1. XV və XVI əsrə aid xəritələri müqayisə edin və fərqləndirin.
2. XVI əsrdə və XVIII əsrdə Azərbaycanda baş vermiş dəyişiklikləri xəritələrin əsasında müəyyən edin.
3. Xəritə əsasında XIX əsrdə Azərbaycanda baş verən siyasi dəyişiklik haqqında nəticə çıxarın.
4. Xəritədə ən qədim insanların yaşadığı məkanı müəyyən edin. Onların nə üçün məhz bu ərazidə məskən salmasını izah edin.
5. Azərbaycan ərazisindən keçən ticarət yollarının istiqamətlərini xəritədə müəyyən edin. Ticarət əlaqələrinin ölkəmiz üçün əhəmiyyətini izah edin.

### *İnteqrasiya əlaqələrinin müəyyənləşdirilməsinə aid tapşırıqlar*

1. Xəritədə Manna dövlətinin (istənilən Azərbaycan dövlətinin) paytaxtını tapın.
2. Yaşadığınız respublikanın paytaxtını xəritədə göstərin.
3. Dövlətlərin adlarını onların paytaxtları ilə uyğunlaşdırın.

“Coğrafiya” fənni ilə inteqrasiya əlaqəsinin müəyyənləşdirilməsinə imkan verən tapşırıqların tərtibi və tətbiqi də çox səmərəlidir. Lakin həmin fənn nisbətən yuxarı siniflərdə tədris edildiyindən bu tipli tapşırıqları da həmin siniflər üçün müəyyənləşdirmək daha məqsədəuyğundur.

Xəritə üzrə tapşırıqların qruplaşdırılmasını tətbiq etmək olar. Lakin 5-ci sinif “Azərbaycan tarixi” fənni üzrə tədris materialları bu cür tapşırıqların geniş tətbiqinə imkan vermir. Lakin bir çox mövzuların tədrisində belə tapşırıqların tətbiqi mümkündür və səmərəlidir. Məsələn: müxtəlif dövrləri təqdim etməklə, şagirdlərə aşağıdakı tapşırıqları təklif etmək olar:

1. Qədim dövrə aid olan hadisələri müəyyənləşdirin.
2. Azərbaycanın cənub ərazilərində yerləşən şəhərləri seçin.
3. Azərbaycanın şimal torpaqlarında mövcud olmuş dövlətləri müəyyən edin.
4. “Artığın çıxarılması”, “yarımçıq fikrin tamamlanması”, “buraxılmış sözlərin və ya ifadələrin yerinə qoyulması” kimi tapşırıqların tətbiqi şagirdlərin məntiqi yaddaşının inkişafına güclü təsir göstərə bilər. Bu cür tapşırıqlar metodik vəsaitdə verilmiş dərs nümunələrində öz əksini tapdığı üçün bu yazıda onlar təkrarən təqdim olunmamışdır.

Hadisə və proseslərin başlıca əlamətlərini qeyd etməklə əsas anlayışın müəyyən edilməsinə aid tapşırıqlar da şagird təfəkkürünü inkişaf etdirməklə yaradıcı, müstəqil düşüncəyə şərait yaradır və praktik bacarığa malik vətəndaş tərbiyəsinə kömək edir.

Hadisələrdən hansının daha əvvəl, yaxud sonra baş verdiyini müəyyən etməyi məqsəd qoyan tapşırıqların tətbiqi tarix fənninin tədrisində tez-tez tətbiq olunan çalışmalardandır.

“Azərbaycan tarixi” fənninin tədrisində mövzuya, şagirdlərin səviyyəsinə və seçilmiş təlim metodlarına uyğun istənilən qədər tapşırıq hazırlamaq mümkündür. Lakin bu tapşırıqlar məqsədəuyğun və inklüziv olmalıdır.

Ayrı-ayrı faktları, tarixi şəxsiyyətlər haqqında bilikləri, əsas anlayışları, fənnə, tədris edilən mövzuya aid terminləri, proses və təzahürlərin əhəmiyyətini, fərqli və oxşar əlamətlərini, səbəb və nəticələrini, dəyərləndirilməsini, əlaqələndirilməsini, sistemləşdirilməsini və ümumiləşdirilməsini müəyyən etmək məqsədilə tapşırıqlardan geniş istifadə etmək tarixi keçmişimizin öyrədilməsinə və fənnin əhəmiyyətinin daha da artırılmasına xidmət edə bilər.

# Diaqnostik qiymətləndirmə üçün test nümunələri

***1. Azərbaycan dövlətinin adının düzgün yazıldığı cavabı müəyyən edin:***

a) Azərbaycan Demokratik Respublikası
b) Azərbaycan Federativ Respublikası
c) Azərbaycan Respublikası

***2. Ən qədim insanlar harada yaşayırdılar?***

a) evlərdə
b) mağaralarda
c) alaçıqlarda

***3. İlləri nəyə əsasən hesablayırlar?***

a) təqvimə əsasən
b) dünyanın yaranmasına əsasən
c) fəsillərə əsasən

***4. Qədim insanlar nə düzəldirdilər?***

a) maşınlar
b) daş əmək alətləri
c) odlu silahlar

***5. Dövləti kim qoruyur?***

a) sənətkarlar
b) məmurlar
c) ordu

***6. Münbit torpaqlarda daha yaxşı inkişaf edir:***

a) balıqçılıq
b) toxuculuq
c) əkinçilik

***7. Azərbaycan Respublikasının ali qanunu hesab edilir:***

a) Qanunvericilik aktları
b) Prezidentin fərmanları
c) Azərbaycan Respublikasının Konstitusiyası

***8. Təktanrılı din hesab edilir:***

a) atəşpərəstlik
b) islam
c) bütpərəstlik

***9. Azərbaycanın ən qədim və böyük şəhəri hansıdır?***

a) Salyan
b) Qazax
c) Təbriz

***10. Neft yataqları ilə məşhur olan şəhər hansıdır?***

a) Naxçıvan
b) Bakı
c) Şəki

***11. Əcəmi Naxçıvani harada yaşayıb-yaratmışdır?***

a) Təbrizdə
b) Gəncədə
c) Naxçıvanda

***12. "Leyli və Məcnun" poemasını kim yazmışdır?***

a) Məhəmməd Füzuli
b) Şəhriyar
c) Nəsirəddin Tusi

***13. Cavad xan hansı ərazini idarə edirdi?***

a) Gəncə xanlığını
b) Naxçıvan xanlığını
c) Bakı xanlığını

***14. Azərbaycana aid müqavilə hansıdır?***

a) Versal
b) Türkmənçay
c) Pekin

***15. Xeyriyyəçidir:***

a) Mirzə Kazım bəy
b) Nəriman Nərimanov
c) Hacı Zeynalabdin Tağıyev

***16. Uyğun cavabı müəyyən edin:***

a) Babək, Səttar xan
b) Nadir şah, M.Füzuli
c) Cavad xan, M.P.Vaqif

***17. Kütləvi məzarlıq harada tapılmışdır?***

a) Qobustanda
b) Bərdədə
c) Qubada

***18. İçərişəhər harada yerləşir?***

a) Bakıda
b) Naxçıvanda
c) İrəvanda

***19. Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökumət başçısı kimdir?***

a) Fətəli xan Xoyski
b) Nəsib bəy Yusifbəyli
c) Məhəmməd Əmin Rəsulzadə

***20. Azərbaycan Milli Ordusunun rəhbərlərini müəyyən edin:***

a) Üzeyir Hacıbəyli, Hüseyn Cavid
b) Fətəli xan Xoyski, Xosrov Sultanov
c) Səməd bəy Mehmandarov, Əli ağa Şıxlinski

***21. Biri bəstəkar deyil:***

a) Salman Mümtaz
b) Üzeyir Hacıbəyli
c) Niyazi

***22. İki dəfə Sovet İttifaqı Qəhrəmanı olmuş azərbaycanlı:***

a) Həzi Aslanov
b) İsrafil Məmmədov
c) Yusif Sadıqov

***23. Müstəqil Azərbaycanın qurucusudur:***

a) Heydər Əliyev
b) Lütfi Ələsgərzadə
c) Abbasqulu ağa Bakıxanov

# Kiçik summativ qiymətləndirmələr (KSQ) üçün qiymətləndirmə vasitələrinə dair nümunələr

## KSQ–1

**1.** Keçmiş zamanlarda Azərbaycanın xüsusilə cənub ərazilərində yayılmışdı:
a) yəhudilik b) atəşpərəstlik c) xristianlıq

**2.** Azıx mağarasında tapılmış ən qiymətli nümunə:
a) daş alətlər
b) qədim insanın alt çənə sümüyü
c) vəhşi heyvanların sümükləri

**3.** Mətndə buraxılmış ifadələri yerinə qoyun.

"Atropatena dövləti ilə eyni vaxtda yaranmış ______________ dövləti Araz çayından _______________ yerləşirdi. Bu dövlət İberiya sərhədlərindən başlayaraq _________ dənizinə qədər bütün __________ Azərbaycan torpaqlarını əhatə edirdi.

**4.** II Kirin məqsədi nədən ibarət idi?
1. Massagetləri tabe etmək
2. Azərbaycan torpaqlarını müdafiə etmək
3. Massaget döyüşçülərinə kömək etmək
4. Massagetlərin torpaqlarını ələ keçirmək

a) 2,4 b) 2,3 c) 1,4

**5.** Mannanın ən qüdrətli hökmdarı olmuşdur:
a) Atropat b) İranzu c) Cavanşir

**6.** Mannalılarla albanlar arasındakı ümumi cəhəti müəyyən edin.
a) yazı ilə tanış idilər
b) Arazdan şimalda yaşayırdılar
c) Arazdan cənubda yaşayırdılar

**7.** Aşağıdakı cavabların aid olduğu dövləti müəyyən edin:

1. Paytaxtı "padşahlıq şəhəri" adlandırılırdı
2. Urmiya gölü ətrafında yerləşirdi
3. E.ə. IX əsrdə yaranmışdı

a) Atropatena b) Albaniya c) Manna

**8.** Qobustandakı qayaüstü rəsmlər haqqında bildiklərini yaz.

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

## KSQ – 2

**1.** Cavanşirin fəaliyyətinə aiddir:

1. Xilafətin paytaxtına səfəri
2. Albaniyanın müstəqilliyinə son qoyulması
3. Xəzərlərlə sülh bağlaması
4. Ərəb feodallarına torpaq bağışlaması

a) 1,2 b) 2,4 c) 1,3 d) 3,4 e) 1,4

**2.** Azərbaycanın tarixi salnaməsi hesab olunur:

a) bütün xalq dastanları

b) nağıllar

c) bayatılar

d) "Koroğlu" dastanı

e) "Kitabi-Dədə Qorqud" dastanı

**3.** Şimaldan Azərbaycana hücum edən tayfalara qarşı mübarizə aparmaq üçün mühüm əhəmiyyətə malik idi:

a) Şirvan qalası
b) Əlincə qalası
c) Dərbənd qalası
d) Ərk qalası
e) Gülüstan qalası

**4.** Daha əvvəl baş vermişdir:

a) Cavanşirin hakimiyyətə gəlməsi
b) Babəkin yadellilərə qarşı mübarizə aparması
c) Bəzz qalasının süqutu
d) Ərəblərin Dərbəndə hücumu

**5.** "İlin dörd fəsli" xalçasının toxunduğu şəhəri müəyyən edin:

a) Ərdəbil b) Təbriz c) Bakı d) Gəncə

**6.** Slavyanların Bərdə şəhərinə hücum etdiyi il:

a) 816 b) 744 c) 914 d) 944 e) 837

**7.** Qanunauyğunluğu müəyyən edin:

1. İpəyi və xalçaları ilə dünya bazarlarında məşhur idi
2. Kətan parçaları əcnəbi tacirlərin diqqətini cəlb edirdi
3. "Arranın baş şəhəri" adlandırılırdı

a) Dərbənd b) Bərdə c) Şamaxı

**8.** Eldənizə verilən "Şəmsəddin" ləqəbinin mənasını müəyyən edin:

a) dövlətin günəşi
b) dinin günəşi
c) böyük sultan
d) şahzadənin atabəyi

# KSQ – 3

**1.** Nizami Gəncəvi yaradıcılığına aid deyil:

a) Azərbaycan intibah ədəbiyyatı Nizami Gəncəvinin yaradıcılığında öz zirvəsinə çatdı.
b) Əsərləri Azərbaycanın tarixi keçmişi haqqında dəyərli mənbə hesab olunur.
c) Slavyanların Bərdədə törətdikləri qarət və qırğınlar haqqında məlumat verir.
d) Əsərlərində Dərbənd qalasının möhkəmliyindən və əhəmiyyətindən yazır.

**2.** Eldənizlər dövlətinin baş memarı olmuşdur:

a) İbrahim Osmanoğlu
b) Nəsirəddin Tusi
c) Fəzlullah Rəşidəddin
d) Əcəmi Naxçıvani

**3.** Marağa rəsədxanasına aid olan düzgün cavabları qeyd edin:

1. Tikintisinə N.Tusinin təşəbbüsü ilə 1259-cu ildə başlanılmışdı.
2. Rəsədxana 21 ildən sonra hazır olmuşdu.
3. Burada qızıl, gümüş və tuncdan Ulduz qlobusu hazırlanmışdı.
4. Burada 400 min əlyazmasından ibarət olan zəngin kitabxana yaradılmışdı.
5. Rəsədxanada istifadə olunan bütün cihazlar xarici ölkələrdən gətirilirdi.

**4.** Qızıl Arslana və Həsən padşaha aid oxşar cəhəti tapın:

a) Atabəylər dövlətini idarə etmələri
b) Qanunnamə qəbul etmələri
c) Avropa ölkələri ilə diplomatik əlaqə qurmaları
d) Sultan titulu daşımaları

**5.** Məhəmməd Füzuli “Bəngü-Badə” poemasını həsr etmişdi:

a) Həsən padşaha b) Şah I İsmayıla c) Şəmsəddin Eldənizə
d) Qızıl Arslana e) Babəkə

**6.** Şərqin son böyük fatehi adlanır:
1) Nadir şah 2) Şah İsmayıl 3) Uzun Həsən

a) 1 b) 2 c) 3

**7.** Şuşa şəhərinin yerləşdiyi xanlığı müəyyən edin:
a) Quba b) Şəki c) Qarabağ d) İrəvan e) Gəncə

**8.** Uyğun variantı müəyyən edin:
1. Kürəkçay müqaviləsi
2. Gülüstan müqaviləsi
3. Türkmənçay müqaviləsi

a) Naxçıvan və İrəvan xanlıqlarından başqa, Arazdan şimaldakı bütün Azərbaycan torpaqlarının Rusiyaya ilhaq edilməsi
b) Qarabağ xanlığının Rusiyaya ilhaq edilməsi
c) Arazdan şimaldakı bütün Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalının təsdiq edilməsi

a) 1a, 2b, 3c b) 1b, 2c, 3a c) 1c, 2a, 3b
d) 1c, 2b, 3a e) 1b, 2a, 3c

## KSQ – 4

**1.** 19-cu yüzillikdə yaşamış Azərbaycan alimidir:
a) M.Kazım bəy b) N.Tusi c) N.Gəncəvi
d) M.Ə.Sabir e) M.Füzuli

**2**. M.F.Axundzadənin fəaliyyətinə aiddir:
a) Azərbaycanda teatrın yaranması
b) Milli mətbuatın əsasının qoyulması
c) Şərqşünaslıq elminin yaradılması
d) Milli-demokratik hərəkata rəhbərlik etməsi
e) Milli kitabxana-qiraətxananın yaradılması

**3.** "Mal və dövlət hər halda puç olacaq, ixtiyar və iqtidar əldən gedəcəkdir... Etibar ediləcək və arxalanılacaq bir sərvət varsa, o da elm və ədəbdən ibarətdir" sözləri kimə məxsusdur?

a) H.Zərdabi b) M.Kazım bəy
c) M.F.Axundzadə d) H.Z.Tağıyev e) A.Bakıxanov

**4.** XIX yüzilliyin II yarısında Azərbaycanda iqtisadi inkişafın başlıca nəticəsini göstərin:

a) mədəni inkişafın zəifləməsi b) kənd əhalisinin azalması
c) mədəni canlanma d) ali məktəblərin açılması
e) xalq üsyanlarının baş verməsi

**5.** Hacı Zeynalabdin Tağıyevin fəaliyyətinə aiddir:

1. Milli teatrın yaranması
2. Böyük Azərbaycan xeyriyyəçisi olması
3. Bakıya Şollar su kəməri çəkdirməsi
4. Milli mətbuatın yaranması

a) 2,4 b) 3,4 c) 1,4 d) 2,3 e) 1,3

**6.** XX əsrin əvvəllərində Təbrizdə azadlıq mübarizəsinə başçılıq edirdi:

a) Sultan bəy b) Səttar xan c) Babək
d) M.Ə.Sabir e) C.Məmmədquluzadə

**7.** Qarabağ general-qubernatoru olmuşdur:

a) Xosrov bəy Sultanov b) Sultan bəy Sultanov
c) Əli ağa Şıxlinski d) Səməd bəy Mehmandarov e) Səttar xan

**8.** 1918-ci ildə baş vermişdir:

1. Azərbaycanlılara qarşı Mart soyqırımı
2. Bakının mərkəzində mühüm tarixi və memarlıq abidələrinin ermənilər tərəfindən dağıdılması
3. Səttar xanın başçılığı altında Təbriz üsyanı
4. Azərbaycanda sovet hakimiyyətinin qurulması

a) 1,2 b) 1,4 c) 3,4 d) 2,4 e) 1,3

# KSQ – 5

**1.** Bakının azad edilməsində mühüm rol oynadı:
a) bolşevik hərbi hissələri b) Nuru paşanın başçılıq etdiyi türk qoşunları
c) rus qoşun hissələri d) erməni daşnakları
e) gürcü qoşunları

**2.** Uyğunluğu müəyyən edin:

| | | |
|---|---|---|
| Parlament – qanunverici hakimiyyət orqanı | Vəqf – dini idarə | Respublika – ? |

a) vergi idarəsi b) hərbi idarə c) dövlət idarəetmə forması
d) irsi hakimiyyət forması e) ictimai təşkilat

**3.** Azərbaycanın görkəmli ziyalılarının kütləvi həbs və sürgünlərə məruz qaldığı il:
a) 1937 b) 1930 c) 1918 d) 1940 e) 1932

**4.** Azərbaycanda və Müsəlman Şərqində tamaşaya qoyulan ilk opera:
a) “Koroğlu” b) “Arşın mal alan” c) “Məşədi İbad”
d) “Leyli və Məcnun” e) “Aida”

**5.** İki dəfə Sovet İttifaqı Qəhrəmanı olmuş azərbaycanlı:
a) Hüseynbala Əliyev b) İsrafil Məmmədov
c) Mehdi Hüseynzadə d) Əhmədiyyə Cəbrayılov e) Həzi Aslanov

**6.** Berlinə qədər döyüş yolu keçmiş Azərbaycan Milli diviziyası:
a) 416 b) 402 c) 271 d) 223 e) 77

**7.** Məhəmmədhüseyn Şəhriyarı ən çox düşündürən məsələ:
a) Bütün dünyada fars dilinin rəsmi dilə çevrilməsi
b) Azərbaycan dilini bilməməsi
c) İranda Azərbaycan dilində təhsil verən məktəblərin olmaması
d) Ana Vətənin parçalanması
e) Azərbaycan əlifbasının dəyişdirilməsi

**8.** İsrafil Məmmədova aiddir:
a) İki dəfə Sovet İttifaqı Qəhrəmanı olması
b) Fransanın yüksək dövlət mükafatlarına layiq görülməsi
c) İlk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı olması
d) Partizan dəstəsində vuruşması
e) Berlinə qədər döyüş yolu keçməsi

# KSQ – 6

**1.** Lütfi Zadəyə aid deyil:

1. Təbrizdə anadan olması  2. Bakı Dövlət Universitetini bitirməsi
3. Elmdə çevriliş etməsi  4. Bakıda anadan olması

a) 1,3  b) 2,4  c) 3,4  d) 1,2  e) 2,3

**2.** Azərbaycan tarixinə əlamətdar gün kimi daxil olan bu gün nə üçün "Dirçəliş günü" adlanır?

1. Həmin gün Azərbaycan Respublikası yaranmışdır.
2. Həmin gün Azərbaycan öz müstəqilliyini bərpa etmişdir.
3. Həmin gün Azərbaycan Xalq Cəbhəsi yaranmışdır.
4. Həmin gün xalqın Qarabağ uğrunda mübarizəsi bütün Azərbaycanın azadlığı uğrunda mübarizəyə çevrilmişdir.

**3.** 20 Yanvar qırğınının törədildiyi şəhəri xəritədə müəyyən edin:

a) 1  b) 2  c) 3  d) 4  e) 5

**4.** Xalqın tələbi ilə Azərbaycan Respublikasının müstəqilliyinin bərpa olunması barədə "Bəyannamə" qəbul edildi:

a) 1990-cı il 30 avqust  b) 1991-ci il 30 oktyabr
c) 1991-ci il 30 avqust  d) 1988-ci il 17 noyabr

**5.** Xocalı soyqırımının baş verdiyi Xocalı şəhəri haqqında dörd əlamət göstərin.

**6.** Xocalı soyqırımının nəticələri haqqında yazın.

**7.** Natiq Qasımov nə üçün son nəfəsinə qədər döyüşməyib təslim oldu?

a) Artıq döyüşməyi mənasız hesab edirdi.
b) Əsirlərin güllələnməsinə razı olmadığı üçün
c) Düşmənə qarşı planı vardı.
d) Döyüşmək üçün sursatı qalmamışdı.

**8.** "Mübariz İbrahimov haqqında düşüncələrim" adlı esse yazın.



# KSQ–7

**1.** Hansı sözün cavabı düzgün verilmişdir?

| 1. Strateq | 2. Məsləkdaş | 3. Redaktor | 4. Partizan |
|---|---|---|---|
| İctimai, siyasi mübarizəyə rəhbərlik etməkdə böyük məharəti olan şəxs | Şərq ölkələrinin tarixini, mədəniyyətini öyrənən elm | Bir məsləkdə, bir fikirdə olanlar | Düşmən arxasında mübarizə aparan silahlı dəstənin iştirakçısı |

a) 1,2 b) 2,4 c) 1,3 d) 1,4 e) 3,4

**2.** Heydər Əliyevin təşəbbüsü ilə yaranmış hərbi məktəb kimin adını daşıyırdı?

a) Əli ağa Şıxlinskinin
b) Cəmşid Naxçıvanskinin
c) Həbib bəy Səlimovun
d) Səməd bəy Mehmandarovun

**3.** "Əsrin müqaviləsi" hansı sahəyə aid idi?

a) mədəniyyət sahəsinə
b) təhsil sahəsinə
c) neft sahəsinə
d) idman sahəsinə

**4.** İlham Əliyev ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi

a) 2001 b) 2003 c) 2008 d) 2013

**5.** Murad Mirzəyevin başçılığı ilə döyüşçülərimiz hansı strateji əhəmiyyətli yeri ələ keçirdilər?

a) Lələtəpə yüksəkliyi b) Günnüt kəndi
c) Cocuqmərcanlı kəndi d) Talış yüksəkliyi

**6.** Lələtəpə yüksəkliyi yerləşir:

a) Füzuli rayonu ərazisində
b) Tərtər rayonu ərazisində
c) Şərur rayonu ərazisində
d) Samux rayonu ərazisində

**7.** Uyğunluğu müəyyən edin:

**"Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüblər:**

| | | |
|---|---|---|
| Mübariz İbrahimov | **1992** | Samid İmanov |
| Çingiz Mustafayev | **2010** | Murad Mirzəyev |
| Şükür Həmidov | **2016** | Əlif Hacıyev |

**8.** Döyüş bölgəsinə yardım apararkən şəhid olmuş dinc sakin kim idi?

a) Raquf Orucov b) Mühit Orucov c) Fərman Əsədli d) Vüqar Yusifov

# Metodik materiallar, sənədlər, xəritələr

## Tarixin tədrisi məsələləri

Tarix müəllimlərinin qarşısında hər zaman bir didaktik sual durur: şagirdləri necə öyrətmək olar? Fənnin tədrisi zamanı istifadə olunan müxtəlif tədris metodları və təlim üsulları bu problemi həll etməyə imkan verir. Tədris metodları qarşıya qoyulmuş məqsədlərə çatmağa, nəzərdə tutulmuş məzmunu reallaşdırmağa, tədrisi idrak fəaliyyəti ilə zənginləşdirməyə kömək edir. Təlim metodu – təlim prosesi zamanı qarşıya qoyulmuş məqsəd və son nəticə arasında olan bağlayıcı bənddir. Onun “məqsəd – məzmun – metodlar – formalar – tədris vasitələri sistemində olan rolu həlledicidir. Metodlar dedikdə tədris prosesində müəllim və şagird fəaliyyətinin təlim məqsədinin həyata keçirilməsinə yönəldilmiş qarşılıqlı fəaliyyəti nəzərdə tutulur. Qeyd etmək lazımdır ki, pedaqoji ədəbiyyatda bəzən metod anlayışını yalnız müəllim və yaxud yalnız şagird fəalliyyətinə aid edirlər. Lakin birinci halda tədris, ikinci halda isə öyrənmə metodları haqqında danışmaq yerinə düşərdi. Müəllim və şagirdlərin birgə fəaliyyətinə əsaslanan təlim metodları mürəkkəb, çoxməzmunlu, çoxkeyfiyyətli bir prosesdir. Tədris metodlarında tədrisin obyektiv qanunauyğunluqları, məqsədləri, məzmunu, prinsipləri və formaları əks olunur.

Tədris metodları quruluşuna görə obyektiv və subyektiv hissələrə ayrılır. Metodun obyektiv hissəsi, müəllimlərin ondan istifadə etməsindən asılı olmayaraq, istənilən metodda mövcud olan daimi müddəalarla şərtlənir. Söhbət hamı üçün ümumi olan didaktik müddəalardan, prinsiplərdən və qaydalardan gedir. Metodun subyektiv hissəsi isə müəllimin şəxsiyyəti, şagirdlərin xüsusiyyətləri və konkret şəraitlə şərtlənir. Təbiidir ki, tarix müəlliminin fərdi ustalığını və bacarığını daha çox mövzuya uyğun olaraq, düzgün seçilmiş və tətbiq edilmiş metod büruzə verir.

Tədris metodlarının təsnifatı haqqında pedaqoji elmdə müxtəlif fikirlər mövcuddur. Meyar olaraq burada şagirdlər tərəfindən biliklərin qavranılmasının məntiqi yolları, onların əldə olunması üçün zəruri olan mənbələr, qavrama prosesində şagirdlərin fəallıq dərəcəsi, biliklərin reallaşdırılması formaları çıxış edir. Lakin tarix fənninin tədrisində bütün mövzulara tətbiq oluna biləcək universal metod mövcud deyildir. Bu ona əsaslanır ki, hər bir tədris metodu təlim məqsədinə çatmağın bir üsulu kimi müəllimlə şagirdin birgə fəaliyyətidir. Ona görə də hər bir metod vasitəsilə tədrisetmə və dərs fəaliyyəti eyni zamanda müəyyənləşdirilməlidir. Öyrənmə, ilk növbədə, idrak fəaliyyətidir ki, bu da biliklərin mənimsənilməsinə gətirib çıxarır. Metodlar onlar üçün spesifik olan qavrama üsulunu və bu qavramanın (dərk etmənin) təşkil edilməsini xarakterizə etmək üçündür.

Biliklərin formalaşmasının ilk mərhələsində informasiyanın qavranılması üsuluna izahlı-illüstrativ metod uyğun gəlir. Onun əsas mahiyyəti hazır informasiyanın şagirdlər tərəfindən müxtəlif vasitələrlə və üsullarla şüurlu surətdə mənimsənilməsinin təşkil olunmasıdır. Bu da əyani təsvirlərin cəlb olunmasından, informasiyanın

şifahi çatdırılmasından, bədii və sənədli mətnlərin təqdimatından ibarətdir. Bu zaman müəllim şifahi sözdən, yazılı mətndən, videomaterialdan, maddi və mənəvi mədəniyyət abidələrindən, yaxud onların maketlərindən, surət və ya simvollarından istifadə edir.

İkinci metod – **reproduktiv** metoddur. Onun məzmunu – yaradıcı tətbiqetməni inkişaf etdirən tapşırıqların tərtib edilməsi, pedaqoji cəhətdən özünü doğrultmuş sistemdə çalışmaların zəruri sayda seçilməsi və daha sonra reproduktivləşdirmə, yəni şagird tərəfindən tapşırığa uyğun fəaliyyətin həyata keçirilməsidir. Məsələn, müəllimin izahının şagird tərəfindən təkrarı, rəsm əsərinin təhlilindən sonra onun məzmununun təsviri, sadə və mürəkkəb planın tərtib edilməsi, tanış müqayisələrə, sxem üzrə və ya tarixi şəxsiyyətlər haqqında hekayələrə dair çalışmalar, araşdırma tələb etməyən suala cavab, tarixi hadisələrin baş verdiyi ərazilərin (məkanın) kontur xəritədə qeyd edilməsi, xronoloji cədvəlin tərtib edilməsi, eramızdan əvvələ və eramıza aid tarixi hadisələrin xronoloji çərçivəsinin müəyyənləşdirilməsi ola bilər. Burada söz, əyanilik, dərslik (müəllif) mətni və digər mənbələr, praktik fəaliyyət reproduktiv metod vasitələri kimi çıxış edir.

Tarix fənninin tədrisi prosesində geniş tətbiq olunan metodlardan biri də **tədqiqat metodudur**. Şagirdlər məhz tədqiqatın gedişində, müəllimin bələdçiliyi ilə həlli vacib olan məsələyə aid faktlar və məlumatlar əldə edir, problemlərin həlli prosesində yeni biliklər və tədqiqatçılıq bacarığı qazanırlar. Tədqiqat metodunun mahiyyəti problemin, problem məsələlərinin qurulması və ya seçilməsi və şagirdlər tərəfindən müstəqil həll olunması üçün onların müəyyən sistemdə təqdim olunmasıdır.

Tədqiqat metodunun tətbiqi zamanı şagird onun üçün əlçatan üsulla, asanlıqla hazır bilikləri mənimsəmir, elmi idrak tələb edən hər hansı bir məsələni, yaxud problemi həll etmək üçün fəaliyyətə qoşulur. Bu fəaliyyət kiçik mətnli məsələdən, yaxud məktəbin yerləşdiyi, şagirdin yaşadığı küçənin, kəndin, şəhərin, ölkənin tarixinə həsr olunmuş uzunmüddətli tədqiqat işindən ibarət ola bilər. İstənilən halda tədqiqat metodu şagirdlərin yaradıcılıq təcrübəsini zənginləşdirir və bunun nəticəsi olaraq daha keyfiyyətli biliklərin yaradıcı tətbiqinə və mənimsənilməsinə imkan yaradır. Problem və problem məsələləri video və kinofilmlər, şəkil və illüstrasiyalar, tarixi əhəmiyyət daşıyan sənədlər, bədii ədəbiyyat nümunələri, ekskursiya zamanı şagirdlərin gördükləri maddi mədəniyyət abidələri əsasında və şifahi şəkildə qurula bilər. Tədqiqat metodunun tətbiq edilməsi şagirdin zəruri bilik və bacarıqlarının olmasını nəzərdə tutur.

Tarixin tədrisində əsas yerlərdən birini qismən arama, və ya **evristik metod** tutur. Bu metoda görə müəllim şagirdin qarşısına müstəqil, həlli əlçatmaz olan problem qoyaraq, onu bir sıra alt problemlərə bölür və əlaqəli suallarla, analoji asanlaşdırılmış məsələlərlə şagirdi problemin həlli yolunda irəliləmə prosesinə cəlb edir. Tədqiq edilən məsələ mərhələ-mərhələ araşdırılır və həll edilir. Bu metod öz ifadəsini evristik söhbətdə tapır. Bu məsələnin mahiyyəti ondadır ki, şagirdlərin hər hansı bir problemi həll etmələri üçün müəllim onların qarşısında bir sıra əlaqəli, biri digərini elmi, məntiqi və xronoloji cəhətdən tamamlayan suallar qoyur. Hər bir sual kiçik problem şəklində qoyulur və onların həlli əsas problemin, yəni tədqiqat sualının həllinə gətirib çıxarır.

Şagirdlərin problemin həllinə cəlb edilməsi müəllimin fasilitasiya bacarığından asılıdır. O, zəncirvarı fikir ifadələri ilə, materialın izahı ilə problemin həlli yolunu elə çözür ki, bu həllin ziddiyyətini, çətinliyini, onların aradan qaldırılma üsullarını və variantlarını göstərə bilir. Müəllim idrak prosesinin bütün ziddiyyətlərini və mürəkkəbliyini, bu yolun çox zaman nahamar olduğunu şagirdlərə göstərməlidir. Bu metod çətin problemlərin həllində istifadə olunur. Bu halda müəllimin izahı elmi idrakın nümunəsi kimi çıxış edir. Problemli ifadə qismən – arama problemi ilə uyğunlaşdırılır. Göründüyü kimi, hazırkı təsnifatda şagirdlərin fəaliyyətinə əsas yer ayrılır və araşdırma işlərinə önəm verilir. Bununla belə, hesab edilir ki, bu təsnifat metodu məzmundan ayırır, tədris metodlarının formasına çox az diqqət yetirir. Tədris metodları probleminin tədqiqatı kompleks yanaşma əsasında davam etdirilir. Tədrisin məqsədləri və təhsilin məzmununun tədris metodları ilə qarşılıqlı əlaqəsi aktual olaraq qalır. Məktəbin tədris metodları, əsasları tarix dərslərində tədris olunan tarix elminin metodlarından asılıdır. Tədris metodları ilə elmi idrak metodları qarşılıqlı əlaqəlidir.

Bu gün məktəbdə baş verən böyük dəyişikliklərə baxmayaraq, metodlar problemi ikinci plana çəkib. Bununla belə, bilik əldə etmə mənbələrinə aid metodların təsnifatı daha çox yayılmışdır. Bir çoxları belə hesab edir ki, tarix fənninin tədrisinin ən vacib probleminin həllinin əsası tarixi biliklərin formalaşdırılmasıdır. Müəllimin gündəlik praktiki işi yalnız üç idrak yolunu tanıyır: **müəllimin canlı sözü, əyani materialın qavranılması və mütaliə**. Bu mənbələr şagird biliklərinin formalaşması, onun tərbiyələndirilməsi, tarixi materiallarla işləmək bacarığını, eləcə də elmi idrak üsullarına yiyələnmək, həmçinin bilik və bacarıqlarını praktiki dərs fəaliyyətində tətbiq edə bilmək məsələlərinin effektiv həllində istifadə olunur. Tarixi təfəkkürü inkişaf etdirərkən aktiv idrak metodlarından istifadə etmək lazımdır. Dərsdə əsas rolu müəllimin canlı sözü oynayır. Tarix fənninin tədrisinin keyfiyyətli olması məhz bu sözdən asılıdır. Metodikada "şifahi söz anlayışı mövcuddur. Ona yalnız şifahi ifadə, söhbət deyil, həm də müxtəlif tarixi mətnlərin – dərsliklərin, elmi ədəbiyyatın, sənədlərin və s. oxunulması və araşdırılması daxildir.

Bir zamanlar metodiki ədəbiyyatda şifahi metodlar, guya, passiv olduqlarına görə tənqid edilirdi. Düşünürük ki, bu yanlış yanaşmadır. Müəllimin sözü şagirdlərin fikir və düşüncələrini oyada bilər və oyatmalıdır, onları gərgin zehni əməyə sövq etməlidir. Yalnız fikir kasadlığı yaradan, tarixi materialları səthi təqdim edən sözlər passiv ola bilər. Şifahi metodlar aktiv və ya passivdirmi? – sualı olduqca abstraktdır. Hər hansı bir metod özlüyündə nə aktiv, nə də passivdir. Hər şey onun necə, nə üçün və hansı şəraitdə tətbiq edilməsindən asılıdır. Tarixin metodikasına görə belə hesab edilir ki, dərsdə canlı söz monoloq (materialın müəllim və şagird tərəfindən izah edilməsi) və dialoq (söhbət) formasında ola bilər. Tarix dərslərində müəllimin sözü, *birincisi,* informasiya və ya hekayə-təsvir funksiyasını daşıyır – tarixi keçmişi tam şəkildə bərpa etmək üçün; *ikincisi*, o, insan təfəkkürünün sübutedici qüvvəsini şagirdin şüuruna yeridir (məntiqi funksiya). Tarixi materialın izahı şagirdləri düşünməyə sövq etmək üçün çox gözəl vasitədir. Müəllimin şifahi sözü

şagirdləri tarixi keçmişin mənzərə və obrazlarından nəticələrə, qiymətləndirmələrə və qavramalara gətirib çıxarır, tarixi materialın təhlilini və ümumiləşdirilməsini, tənqidi araşdırmanın və elmi arqumentasiyanın nümunələrini göstərir. Məntiqi funksiya şagirdləri tarixi hadisələri elmi cəhətdən dərk etməyə yaxınlaşdırır; *üçüncüsü,* söz tərbiyələndirir. Şifahi sözün bu funksiyasının reallaşmasında müəllimin xarici görünüşü, tədris etdiyi fənni mükəmməl bilməsi, ümumi mədəniyyəti, siniflə təmas yarada bilməsi böyük əhəmiyyət kəsb edir; nəhayət, *dördüncüsü,* canlı sözün şagird şüurunda möhkəm yer tutduğunu da unutmaq olmaz. Şagirdlər müəllimin təsirli hekayəsini unutmur. Çox zaman müəllimin səsi, intonasiyasındakı inandırıcılıq şagirdlərin yaddaşına uzun müddət həkk olunur. Tarix müəllimi üçün dərsi izah etmək bacarığı çox önəmlidir. Şifahi ifadənin monoloji formasının əsas növləri təhkiyə, təsvir, xarakteristika və izahatdır. Tarixin tədrisində təhkiyə, hekayə və ya tarixi hadisələr haqqında qısa xəbərlər formasında olur.

**Hekayə** – tarixi hadisələr və ya inkişafda olan proseslər, konkret hərəkətlər, tarixi şəxsiyyətlər haqqında süjetli təhkiyədir. Qısa məlumatlarda yalnız tarixi hadisələr haqqında informasiya yerləşdirilir. Süjetli hekayənin xüsusiyyətləri hərəkətin dinamikliyi, hadisələrin konkretliyi və iştirakçıların doğru təsvir olunmasıdır. Hadisə yerinin təsvir olunması şagirdlərdə maraq oyadır. Birincisi, böyük tədris əhəmiyyəti olan tarixi hadisələri öyrədərkən müəllim materialı hekayə şəklində çatdırır. Məsələn, Babəkin üsyanı, Azıx mağarasının kəşf olunması, Alban hökmdarı Cavanşirin yadellilərə qarşı qəhrəmanlıq mübarizəsi, Vahid Azərbaycan Səfəvi dövlətinin yaranması, Gəncə xanlığının rus qoşunları tərəfindən işğalı, torpaqlarımızın xanlıqlara parçalanması, Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə dövlət müstəqilliyimizin təmin edilməsi, sonradan bu müstəqilliyin yenidən itirilməsi və yalnız 1991-ci il oktyabrın 18-də bərpa olunması, tariximizin Heydər Əliyev epoxası, ölkə Prezidenti İlham Əliyevin güclü Azərbaycan dövlətini qorumaq və saxlamaq uğrunda mübarizəsi və s.

Müəllim bir neçə qul adından söylənən şəxsləndirilmiş hekayədən istifadə edir və şagirdlər onların necə köləliyə düşdüklərini öyrənirlər. Üçüncüsü, müəllimin hekayəsi şagirdləri tarixi faktlarla silahlandırır və onların təhlili çox önəmli ümumiləşdirmələrə və nəticələrə gətirib çıxarır. Belə ki rus işğalçılarına qarşı Cavad xanın qəhrəmanlıq mübarizəsindən danışarkən, müəllim şagirdləri bu hərbi əməliyyatın yeri, rolu və əhəmiyyətini anlamağa yaxınlaşdırır. Şagirdlər onun xüsusiyyətləri və mürəkkəbliyi haqqında nəticə çıxara bilərlər. Müəllim bu haqda 5-ci sinif şagirdlərinə danışa bilər. Öz ifadəsində o, təsvir, səciyyələndirmə və izah formasını seçə bilər. Yuxarı və orta siniflərdə bu formaların nisbəti müxtəlifdir. Birinci mərhələdə yeni materialın ifadəsində müəllimin sözü əsas yer tutur. İkinci mərhələdə izahın rolu artır.

**Təsvir** – tarixi hadisələrin əhəmiyyətli xüsusiyyətlərinin, əlamətlərinin, növlərinin və xarakterlərinin ifadəsidir. Təsvirin obyekti olur, lakin süjeti olmur. Tarix dərslərində təsvir şifahi ifadənin çox yayılmış bir növüdür: insanların yaşayış şəraiti, məşğuliyyəti, məişəti, əmək alətləri, mədəniyyət abidələri, tarixi hadisələrin məkanı göstərilir. Təsvir rəsmli və analitik ola bilər. *Rəsmli təsvir* keçmişdə baş

vermiş hadisələr haqqında obrazlı təsəvvür yaratmağa kömək edir. Şagirdlərə məişət əşyaları, əmək alətləri, siyasi idarəetmə haqqında məlumat verərkən analitik təsvirdən istifadə edilir.

Tarix dərslərində XII–XIII əsrlər Təbriz, yaxud Dərbənd şəhərinin təsvirinin, xarici görünüşünün: onun yaraşıqlı küçələrinin, daş döşənmiş evlərinin, feodal mülklərinin və sənətkarlara məxsus tacir evlərinin təsvirini vermək olar. Bu təsvir Azərbaycan şəhərlərinin mənzərəsini göstərmək üçündür. Buna rəsmli təsvir deyilir. Lakin müəllim şagirdlərin diqqətini şəhərlərin əsas hissələrinə – Bakının İçərişəhər hissəsinin qeyri-məhdud xarakterinə yönəldə bilər. Bu sayaq təsvir obyektin təhlili yolu ilə gedir və analitik adlandırıla bilər. Çox zaman eyni təsviri material ifadə üsullarından asılı olaraq bir halda analitik, digər halda rəsmli təsvirin əsasını təşkil edə bilər. Bir sıra hallarda təsvir xarakteristikaya keçir. Belə ki XVI əsrin əvvəllərində Səfəvi dövlət idarəçiliyini təsvir edərkən, müəllim həm Şah I İsmayılın dövründə yaradılmış dövlət idarəetmə sisteminə daxil olan vəzifələrin adlarını sadalayır, həm də dövlət aparatının ən önəmli xüsusiyyətlərini: həyatın nizamlanması, idarəetmənin qeyri-məhdud xarakterini və s. qeyd edir və sonda bunlara öz münasibətini bildirir. Xarakteristika təsvirin bir növüdür. *Tarixi hadisənin xarakteristikası* – onun daxili əlaqədə olan ən vacib xüsusiyyətlərinin dəqiq xülasəsinin sadalanmasıdır. Xarakteristika həm qısa, həm də geniş ola bilər. Xarakteristika materialın ifadəsinə informasiyanın konkretləşdirilməsi, ümumiləşdirilməsi məqsədilə salınır və çox zaman qiymətləndirmə xarakteri daşıyır. Müəllim dərs danışdığı zaman tarixi materialın yalnız qavranılmasını deyil, həm də onun dərk olunmasını təmin edir. Səbəb-nəticə əlaqəsinin yaradılmasında, tarixi prosesin yeri və rolunun müəyyən edilməsində, mürəkkəb hadisələrin və məfhumların mahiyyəti və əhəmiyyətinin üzə çıxarılmasında müəllimin izahatına önəmli yer ayrılır.

**İzahat** – tarixi hadisələrdə səbəb-nəticə əlaqələrinin, qanunauyğunluqların göstərilməsi, yeni anlayışların, tarixi terminlərin açılmasıdır. Məsələn: Azərbaycan torpaqlarının feodal dövlətlərinə parçalanması, 20-ci əsrdə Azərbaycanın dövlət müstəqilliyinin iki dəfə qurulması və bərpasının əhəmiyyəti və s. Söylənilmiş və izah olunmuş faktiki materiala istinadən nəzəri nəticələri açıqlayıb əsaslandırmaq məsələsi ortaya çıxırsa, müəllimin sözü (ifadəsi) mülahizə və sübut xarakteri alır. Belə ki Uzun Həsənin islahatlarının zəruriliyi haqqında danışarkən müəllim bu islahatların Azərbaycanın XV əsrdəki inkişafı ilə şərtləndiyini sübuta yetirir.

**Fikir yürütmək** (mülahizələr) – şagirdləri nəticə və qərar çıxarmağa yaxınlaşdıran müddəaların və sübutların ardıcıl inkişafıdır. Tarix dərsində mülahizələr nəzəri nəticələrin çıxarılmasına kömək edir və tarixi təfəkkürün inkişafına təkan verir. Mülahizə ifadənin bir elementi kimi, müəllim sözü, təsvir və izahatla birgə çıxış edir. Metodikada mühazirəli ifadə fərqləndirilir.

*Mühazirəli ifadə* ardıcıl aparılan və konkret tarixi materiala dayanan geniş nəzəri mülahizədən, elmi təhlil və ümumiləşdirmədən ibarətdir. Mühazirəli ifadədə təhkiyə və təsvir materialı təhlil və ümumiləşdirmələrə xidmət edir, nəticə və qərarların əsasını təşkil edir. Bununla belə, təhlil və ümumiləşdirmə monoloq formasında apa-

rılır. Məktəb mühazirəsində müxtəlif əyani vasitələrdən istifadə olunur və bəzən bu mühazirə müəllimin şagirdlərlə söhbəti xarakteri daşıyır. Çox zaman mühazirə bir və ya iki dərsi əhatə edir. Şagirdlər mühazirənin məntiqi sonluqlu hissələrə bölünməsini anlamalıdırlar. Bunun üçün mühazirədən əvvəl onun planı verilir və yaxud şagirdlərə mühazirə boyu bu planı tərtib etmək tapşırığı verilir. Hər bir halda müəllim öz çıxışını elə qurmalıdır ki, qoyulan məsələ, tarixi materialın məntiqi təhlili vurğulansın. Mühazirənin asan qavranılması üçün yaxşı ədəbi dildə, maraqla, emosional oxunması, həm məna, həm də intonasiya vurğularının yerində olması vacibdir.

Hadisələr haqqında biliklərin müəllim tərəfindən çatdırılması və ya digər tarixi mənbələrdən öyrənilməsi nisbəti məsələsi hər zaman gündəmdədir. Məzmunun həcmi, faktların və anlayışların qavranma səviyyəsi müəllimin və şagirdlərin seçdiyi proqram və dərsliklərlə müəyyən edilir. Əvvəllər müəllimin təqdimatı ilə dərsliklərin məzmunu arasındakı nisbət çox müzakirə olunurdu. Hesab edilirdi ki, şagirdin aldığı informasiyanın dolğunluğu, dərsə və dərsliyə marağı, ev tapşırığına ayrılan vaxt dərsliyin mətni və müəllim danışığı arasındakı düzgün nisbətdən asılıdır. Guya, yeni dərsliklərin yüksək informasiya dolğunluğu müəllimi bütün məlumatları səsləndirmək zərurətindən azad edir. Bəzi metodist-alimlərin fikrincə, indi dərsin əsasını dərslikdə verilən mətnin öyrənilməsi (müstəqil və ya müəllimin rəhbərliyi ilə) və müzakirəsi təşkil edə bilər. Belə yanaşma şagirdi mexaniki işdən azad edir və onun idrak fəaliyyətini aktivləşdirir. Bu zaman evdə paraqrafın hazırlıq oxunuşu aparılır. Dərsin əvvəlində mətnin qavranma səviyyəsi yoxlanılır, sonra yeni materialla iş aparılır. Təbii ki, müəllim şagirdləri maraqlandıran sualları cavablandırmalı, zəruri izahatlar və əlavələr etməlidir. Təcrübə göstərir ki, başlanğıcda mürəkkəb mətnlərin izahına dərsdə müəyyən vaxt ayırmaq lazım olur. Alınan nəticələri şagirdlər özləri əldə etməlidirlər.

Zəruri və əlavə materialın həcmini sinfin xüsusiyyətlərinə, tədris məqsədlərinə uyğun olaraq hər konkret halda müəllim müəyyən edir. Obrazlılıq və konkretlik materialın müəllif tərəfindən təqdim olunmasına qoyulan mütləq tələbdir və effektivliyin vacib şərtləridir. Müəllim sözünün canlılığı və əyaniliyi konkretləşdirmənin müəyyən üsulları və vasitələri ilə əldə olunur. Bu üsul və vasitələrə tarixi hadisələrin baş verdiyi yerləri (məsələn, Azıx mağarasını, vadisini, Azərbaycanın təbiicoğrafi şəraitini, qədim Azərbaycan ərazilərini və s.) xarakterizə edən məqamların konkretləşdirilməsini aid etmək olar. İstifadə olunan məişət avadanlıqları konkret tarixi dövrdə insanların yaşayış tərzi haqqında təsəvvür yaradır, onun xüsusiyyətlərini və koloritini hiss etməyə imkan verir. Konkretləşdirmənin bir vasitəsi də müəllim sözündə kəmiyyət göstəricilərindən istifadə olunmasıdır. Onlar tarixi hadisələrin şagirdlər tərəfindən daha rahat qavranmasına kömək edir. İki metodiki şərti hər zaman yadda saxlamaq lazımdır. *Birincisi*, kəmiyyət göstəriciləri çox olmamalıdır, *ikincisi,* kəmiyyət göstəricisi dinləyici üçün əhəmiyyətli və inandırıcı olmalıdır. Tarixi hadisələri konkretləşdirmək və keçmişin parlaq obrazlarını yaratmaq üçün müəllim bədii ədəbiyyatdan, tarixi sənədlərdən və xatirələrdən istifadə etməlidir. Şifahi sözün obrazlı olmasına ictimai hadisələrin şəxsləndirilməsi, onla-

rın dramatikləşdirilməsi ilə nail olmaq olar. Şəxsləndirmə (təcəssümetdirmə) – tipik ictimai hadisələrin gerçək və ya uydurulmuş tarixi şəxsiyyətlərin fəaliyyətlərində ifadə olunmasıdır.

Tarixi materialların şagirdlərə çatdırılması sadə, əyani və konkret olmalıdır. *Problemli izahata* önəmli yer verilir. Bu üsulun yüksək effektivliyinə görə müəllimlik fəaliyyətinə yeni başlayanlar bəzən onu mütləqləşdirirlər. Lakin hər bir materialı bu metodla öyrətmək məqsədəuyğun deyil. Müəllim tərəfindən problemin müəyyən edilməsi və materialın seçilməsi diqqətlə düşünülməlidir. Tapşırıq çox sadə olmalıdır, belə ki şagirdlər onda problemi görə bilsinlər. Belə tapşırıq özündə çoxlu fərziyyələr, suallar yaratmalıdır. Eyni zamanda yerinə yetirilməsi onlar üçün mümkün olmalıdır, yəni yaşlarına, bilik və bacarıqlarına uyğun olmalıdır. Tarix dərsində problem, əsasən, müəllim tərəfindən və ya yeni materialı mənimsəyərkən bilavasitə şagirdlər tərəfindən qoyulur. Atdıqları addımların və gəldikləri nəticələrin düzgünlüyünü yoxlamaq üçün şagirdlərin müstəqil işlərinin nəticələri mütləq dərsdə müzakirə olunmalıdır. Müəllimin nitqinə qoyulan tələblər də çox önəmlidir. O, sadə, eyni zamanda parlaq, obrazlı və aydın olmalıdır. O, həm də elmi cəhətdən dolğun olmalıdır.

Tədrisin dialoqlu şifahi metodlarından biri də söhbətdir. Tarix dərslərində söhbət şagirdlərə yeni tarixi faktların çatdırılması metodu kimi tətbiq oluna bilməz. Lakin onun tədrisdəki rolu böyükdür: o, tarixi materialın müzakirəsi zamanı və onu dərk etmə prosesində şagirdlərin fəal müstəqil iştirakını nəzərdə tutur, tarixi biliklərin genişləndirilməsinə və dərinləşdirilməsinə xidmət edir, tarixi materialın nə dərəcədə mənimsənilməsini yoxlamaq imkanı verən və nəhayət, biliklərin səfərbər etdrilməsi, dərsdə şagirdlərin idrak fəaliyyətinin aktivləşdirilməsi üsulu kimi çıxış edir.

**Giriş söhbəti** şagirdləri yeni materialın (kursun, bölmənin, mövzunun, dərsin, ayrı-ayrı sualların) öyrədilməsinə yaxınlaşdırır və öncədən əldə olunmuş bilikləri aktuallaşdırmağa, onları sistemləşdirməyə və ümumiləşdirməyə yönəlmişdir. O, şagirdlərə dərs problemini dərk etməyə kömək edir, bildikləri ilə bilmədikləri arasındakı məsafəni aşkar edir. Giriş söhbəti, şagirdlərin yeni material öyrənərkən istinad edə biləcəkləri həqiqi biliklərin səviyyəsini göstərir. Analitik və ümumiləşdirici söhbət verilmiş materialı dərk etməyə, şagird biliklərinin genişləndirilməsinə və dərinləşdirilməsinə xidmət edir. Şagirdləri yeni faktların araşdırılmasına cəlb etmək üçün müəllim bu tip söhbətə müraciət edir. 5-ci sinifdə, “Azərbaycanın ən qədim insan məskəni – Qarabağ” mövzusunda dərsdə analitik söhbət zamanı şagirdlərə aşağıdakı sualları cavablandırmaq təklif olunur: 1. Qədim insan məskənlərini müəyyən edin. 2. Onlar nə üçün məhz çayların sahillərində yaranmışdır? 3. Azərbaycanın coğrafi mövqeyinin əlverişliliyi nədədir? 4. Nə üçün məhz bu ölkədə ən qədim insan məskənləri yaranmışdır? Mürəkkəb tədris məsələlərinin həlli zamanı şagirdlərin idrak fəaliyyətini təşkil etmək üçün müəllim söhbətdən istifadə edir. Metodik ədəbiyyatda bu tip söhbət **evristik söhbət** adlanır (yunan dilində “evrika” – tapdım, kəşf etdim deməkdir). Belə söhbət zamanı müəllim şagirdlərin qarşısında sual qaldırır, bundan əvvəl tədris prosesində və ya həyat müşahidələrindən, təcrü-

bəsindən istifadə edərək əldə etdikləri bilikləri göstərməyə, müəyyən tarixi faktları və hadisələri müqayisə etməyə və tutuşdurmağa, qoyulmuş suala məntiqi düşüncə ilə müstəqil cavab tapmağa sövq edir. Evristik söhbət biliklərin mərhələli mənimsənilməsini təşkil edir. Bu sualların hamısı və ya çoxu kiçik alt problemlər təşkil edir və onların həlli əsas problemin həllinə gətirib çıxarır. Yuxarı siniflərdə evristik söhbətin rolu daha da artır, yuxarı sinif şagirdlərinin bilik və məntiqi təfəkkür səviyyəsi, tarixi hadisələri təhlil etmək bacarığı, bu hadisələrin səbəblərini və əhəmiyyətlərini aydınlaşdırmaq üçün şagirdlərin özlərini cəlb etməyə imkan yaradır. Şagirdlər yazılı mənbələrlə və əyani vasitələrlə işlərkən analitik və evristik söhbətlər yolu ilə yeni biliklər əldə edə bilərlər. Son söhbət dərsdə öyrənilmiş və möhkəmləndirilmiş yeni materialı yekunlaşdırmaq məqsədilə aparılır.

**Təkrar-ümumiləşdirmə** söhbəti son söhbətin bir növü kimi qəbul etmək olar. Əvvəllər öyrənilmiş faktları ümumiləşdirmək, hadisələrin inkişafını göstərmək, onları tam əhatə etmək üçün ondan istifadə etmək olar. Əgər mövzunu, bölməni, kursu başa çatdırmaqdan söhbət gedirsə, buna dərsin bir hissəsini, yaxud tam bir dərs ayırmaq olar. Materialın mənimsənilmə səviyyəsini, onun dərk olunmasını, şagirdlərin müstəqil idrak fəaliyyətinin nəticələrini öyrənmək məqsədilə **yoxlama söhbət** aparılır. O, tədris prosesinin müxtəlif mərhələlərində aparıla bilər. Dərsdə təqdimatı zamanı və ondan sonra yeni materialın mənimsənilməsi yoxlama söhbətlə nəzarətdə saxlanılır, əvvəlki mövzu üzrə cari sorğu aparılır və s. Bu sorğu təhlil, sistemləşdirmə və ümumiləşdirmə tələb edən suallardan ibarət olur. Söhbət aparmaq üçün suallar *öncədən* düşünülməlidir. Onlar şagirdlərin təfəkkür fəaliyyətini stimullaşdırmalı, təhlil, müqayisə, tutuşdurma, önəmli məqamların, bir neçə hadisənin ümumi cəhətlərinin və özəlliklərinin üzə çıxarılmasını, tarixi faktların qiymətləndirilməsini, müddəaların sübuta yetirilməsini, nəticə çıxarılmasını, mövqelərin əsaslandırılmasını, səbəb-nəticə əlaqəsinin müəyyən olunmasını tələb edən çalışmalardan ibarət olmalıdır. *Suallar öyrənilən materialdakı əsas və əhəmiyyətli məqamlara aid olmalıdır.* Onlar mövzuya, bölməyə yaxud kursa bələd olmaqda şagirdlərə yardımçı olurlar. Sual aydın, sadə və dəqiq olmalıdır, cavaba doğru yeganə istiqaməti göstərməlidir. Sual alternativ və ya cavabdaşıyıcı olmamalıdır. Söhbətin pedaqoji rəhbərliyi müəllim tərəfindən əsas sualların qoyuluşu ilə məhdudlaşmamalıdır. Əgər şagird əsas suala cavab verməkdə çətinlik çəkirsə, yaxud söhbət əsnasında verilən qeyri-dəqiq, səhv cavablar üzündən müzakirə düzgün istiqamətdən yayınırsa, əlavə suallara zərurət yaranır. Söhbət üzərində rəhbərlik çox ciddi, lakin təmkinli, yönəldici, ardıcıl və çevik olmalıdır.

Mənbə: **N.Y.Nikulina.** TARİXİN ORTA MƏKTƏBDƏ TƏDRİSİ. Kalininqrad, 2000

## Tarix fənninin tədrisi problemləri

Qeyd olunduğu kimi, tarixin tədrisi metodikası mürəkkəb prosesdir. Bu proses qarşılıqlı əlaqədə və hərəkətdə olan komponentlərdən ibarətdir: tədris məqsədləri, tədrisin məzmunu, biliklərin çatdırılması və onların mənimsənilməsi qaydaları, məktəblinin dərs fəaliyyəti, tədrisin nəticələri.

Təlim məqsədləri təhsilin məzmununu müəyyənləşdirir. Məqsədlərə və məzmuna müvafiq olaraq tədrisin və təhsilin optimal təşkili seçilir. Pedaqoji prosesin təşkilinin effektivliyi təhsilin, tərbiyənin və inkişafın son nəticələri ilə ölçülür.

Məktəbdə tarix dərsinin tədrisi prosesinin qanunauyğunluğu:

1. Tədrisin məqsədləri (təhsilin, tərbiyənin və inkişafın qarşıya qoyulmuş nəticələri);
2. Tədrisin məzmunu (biliklər, bacarıqlar, yaradıcılıq fəaliyyəti təcrübəsi, tarixi və sosial hadisələrə emosional-duyğulu münasibət);
3. Şagirdlərin yaş xüsusiyyətləri və qavrama imkanları;
4. Tədrisin təşkili (formalar, metodlar, müəllimin və şagirdlərin metodik iş üsulları və vasitələri);
5. Tədrisin nəticələri (təhsilin, tərbiyənin və inkişafın həqiqi səviyyəsi).

**Məzmun** tədris prosesinin mütləq komponentidir. Məqsədlərin tarixlə şərtlənən yenidən qurulması tədrisin məzmununu dəyişir. Tarixin, pedaqogikanın və psixologiyanın, metodikanın inkişafı da tədrisin məzmununa, onun həcminə və dərinliyinə öz təsirini göstərir. Belə ki müasir şəraitdə tarixin tədrisində mədəni yanaşma formasiyalı yanaşmanı üstələyir, tarixi şəxsiyyətlərə daha çox yer ayrılır. Müəllim şagirdə keçmişi dərketmə prosesi ilə insanların hərəkətlərinə mənəvi qiymət vermək prosesini fərqləndirməyi öyrədir.

Qoyulan məsələlərdən biri də metodiki şərtlərin uğurlu həllinin tarixin tədrisində tərbiyənin, təhsilin və inkişafın əsas məqsədləri ilə vəhdəddə açılmasıdır.

Tarixin tədrisi sistemini işləyib-hazırlayarkən, metodika bir sıra praktik məsələləri həll edir: a) hansı məqsədlər qoyulmalıdır (qarşıya qoyulan məqsədlərə tarixin tədrisi ilə çatmaq olar və çatmaq lazımdır)? b) nə öyrədilməlidir (materialın strukturu və seçilməsi)? c) şagirdlər üçün hansı dərs fəaliyyəti zəruridir? ç) tədrisdə optimal nəticələr əldə etmək üçün hansı dərs vəsaitləri və onların metodiki tərtibatı daha keyfiyyətlidir? d) dərs necə qurulmalıdı? e) tədrisin nəticələri necə nəzərə alınmalıdır və alının məlumatlar onun (tədrisin) təkmilləşdirilməsi üçün necə istifadə olunmalıdı? ə) dərsdə hansı fənlərlə əlaqələr yaradılmalıdır.

**Metodik məqsəd** – şagirdlərin idrak fəaliyyətinin ifadəsi üçün şəraitin yaradılmasıdır. Bu məqsədə aşağıdakı yollarla çatmaq olar: müəllim problemli situasiyalar yaradır; dərs fəaliyyətinin təşkili üçün şagirdlərin subyektiv təcrübəsini üzə

çıxaran müxtəlif forma və metodlardan istifadə edir; dərs planını şagirdlərlə birgə tərtib və müzakirə edir; hər bir şagirdin sinfin ümumi işində maraqlı olmasını təmin edir; şagirdləri fikir yürütməyə, tapşırıqları səhv etməkdən qorxmayaraq müxtəlif üsullarla yerinə yetirməyə stimullaşdırır; son nəticəni, həm də şagirdin fəaliyyət prosesini qiymətləndirir.

Belə ki 5-ci sinifdə keçilən "Həsən padşah" mövzusunda dərsdə müəllim şagirdlərin orta əsrlərdə Azərbaycanda Ağqoyunlu dövlətinin yaranması, inkişafı və mövcudluğunun əhəmiyyətini, Həsən padşahın Qanunnaməsinin verilmə səbəblərini və mahiyyətini açıb göstərir. Şagirdlər "Qanunmanə nədir? sualına müstəqil cavab verməyə çalışırlar. Öz fikirlərini, mülahizələrini yürüdürlər və son nəticəyə gəlirlər. Qanunnamə islahatlarla, dəyişikliklərlə bağlıdır, burada söhbət nəyinsə islah olunmasından gedir. Söhbət əsnasında şagirdlər nəyin və necə dəyişməsini öyrənirlər. Bu suallara cavab tapmaq üçün onlar dərslikdəki mətnlərlə işləyirlər. Məlum olur ki, Həsən padşahın Qanunnamə verməkdə məqsədi xalqın vəziyyətini yaxşılaşdırmaq, vergiləri qaydaya salmaq olmuşdur. Müzakirə zamanı şagirdlər hadisənin tərifini tapır və səbəbini üzə çıxarırlar. Həsən padşahın nə zaman və nə üçün islahat keçirdiyini müəyyənləşdirirlər. Xəritə ilə işləyərək, xəyalən XV əsr Azərbaycanına dönərək müəllimlə birgə islahat layihəsi hazırlayırlar. Bu dərsdə şagirdlər müşahidə və müqayisə edirlər, qruplaşdırırlar, nəticə çıxarırlar, qanunauyğunluq tapırlar. Müəllim müxtəlif tapşırıqlar verir, şagirdləri düşünməyə sövq edir. Şagirdlər tətqiqatçılıq bacarıqlarını, yaradıcılıq imkanlarını ortaya qoyaraq müəllimin bələdçiliyi və həvəsləndirməsi ilə çox fəal, müstəqil, emosional işləyirlər. Müəllimin istiqamətləndirdiyi kollektiv araşdırma öncədən evdə cavablandırmaq üçün verilən və şagirdlərdə müstəqil fikir oyadan suallarla təmin olunur.

Dərsdə ünsiyyət qurmaq üçün yaradılan pedaqoji situasiyalar iş üsulu seçməkdə hər bir şagirdə təşəbbüskarlıq, müstəqillik göstərməyə və seçim etməyə imkan yaradır. Belə tarix dərsləri üçün çevik sistem xarakterikdir. İnkişafetdirici tədrisin texnologiyasında dərs təşkil etmənin göstərilən ümumi məqsədləri və vasitələri dərsin təyinatından, onun mövzu məzmunundan asılı olaraq müəllim tərəfindən konkretləşdirilir.

Beləliklə, şagirdi potensial imkanlarına yönəlmiş tədris fəaliyyətinə cəlb edərək, müəllim bilməlidir: şagird öncəki tədris proseslərində hansı fəaliyyət növlərinə yiyələnmişdir, bunun (yiyələnmənin) psixoloji xüsusiyyətləri nədən ibarətdir və şagirdin öz fəaliyyətini dərk etməsi nə dərəcədə yüksəkdir.

Müasir pedaqoji sistem aşağıdakıları nəzərdə tutur:

1. Tarix elminin, qabaqcıl pedaqoji təcrübənin nailiyyətlərindən istifadə edərək, təlim-tərbiyə prosesinin qanunauyğunluğu əsasında dərs qurmaq;
2. Bütün didaktik prinsipləri və qaydaları optimal nisbətdə dərsdə reallaşdırmaq;

3. Şagirdlərin maraqlarını, tələbatlarını nəzərə alaraq onların səmərəli idrak fəaliyyəti üçün zəruri olan şəraiti yaratmaq;
4. Şagirdlərin dərk etdiyi səviyyədə fənlərarası əlaqələr yaratmaq;
5. Əvvəllər əldə etdikləri bilik və bacarıqları əlaqələndirmək, şagirdlərin inkişaf səviyyəsinə əsaslanmaq;
6. Şəxsiyyətin hərtərəfli inkişafını əsaslandırmaq və onu fəallaşdırmaq;
7. Təlim-tərbiyənin bütün mərhələlərinin məntiqəuyğunluğu və emosionallığını təmin etmək;
8. Pedaqoji tədris vasitələrindən səmərəli istifadə olunmasına nail olmaq;
9. Həyatda baş verənlərlə şagirdlərin təcrübələrini əlaqələndirmək;
10. Praktiki zəruriyyəti olan biliklərin, bacarıqların, təfəkkür və fəaliyyətin səmərəli üsullarının formalarını müəyyənləşdirmək;
11. Bilik əldə etmək bacarığı formalaşdırmaq;
12. Hər dərsin əsaslı diaqnostikası, proqnozlaşdırılması, layihələndirilməsi və planlaşdırılmanı təmin etmək.

Hər bir tarix dərsi vəhdət təşkil edən üç məqsədə yönəlmişdir: **bilik vermək, tərbiyə etmək və inkişaf etdirmək**. Bunu nəzərə alaraq, dərsə qoyulan ümumi tələblər didaktik, tərbiyəvi, inkişafetdirici tələblərdə konkretləşir. Didaktik (öyrədici) tələblər aşağıdakılardan ibarətdir: hər dərs üçün dəqiq öyrədici vəzifələrin müəyyən edilməsi; dərsin informasiya dolğunluğunun səmərələşdirilməsi; məzmunun sosial və şəxsi tələbatlara müvafiq optimallaşdırılması; idrak fəaliyyətində yeni texnologiyaların tətbiq olunması; müxtəlif növlərin, forma və metodların səmərəli birləşdirilməsi; dərs quruluşunun formalaşdırılmasına yaradıcı yanaşma; kollektivlə və qruplarda aparılan iş formalarının şagirdlərin müstəqil işləri ilə birləşdirilməsi; operativ əks-əlaqə, təsirli nəzarət və idarəetmə ilə təmin edilməsi; elmi hesablama, dərsvermə bacarığı.

Dərsə qoyulan **tərbiyəvi tələblər** bunlardır: tədris materialının tərbiyəvi imkanlarının müəyyənləşdirilməsi; tədris işinin məzmun və məqsədlərindən gələn tərbiyəvi vəzifələrin müəyyənləşdirilməsi; şagirdlərin ümumbəşəri dəyərlər üzərində tərbiyə olunması; **həyati zəruriliyi** olan xüsusiyyətlərin – səbirliliyin, səliqənin, məsuliyyətin, müstəqilliyin aşılanması; şagirdlərə qarşı diqqət və qayğıkeşlik; pedaqoji nəzakət qaydalarına riayət olunması; şagirdlərlə əməkdaşlıq və onların uğurlarında maraqlı olmaq.

Dərsdə daima reallaşan **inkişafedici tələblər** bunlardır: şagirdlərdə tədris – idrak fəaliyyətinin, maraqların, yaradıcılıq təşəbbüskarlığının və fəallığın formalaşması; tədris məşğələlərinin "qabaqlayıcı" səviyyədə keçirilməsi, inkişaf səviyyəsində yeni, daha keyfiyyətli dəyişikliklərin stimullaşdırılması.

Tarixin tədris metodikasının başlıca kateqoriyaları tədrisin vəzifələri, təhsilin məzmunu, tarixi biliklərin quruluşu, şagirdlərin bilik əldə etdiyi mənbələr, tədrisin forma-

ları, tədris prosesinin ayrı-ayrı hissələri və təfəkkürün inkişaf etdirilməsi metodikasıdır.

Hər bir dərs tədris prosesinin və kurs məzmunu sisteminin elementi olaraq bu və ya digər müəyyən ayrılmazlıq xüsusiyyəti olan bir dərs tipinə – qrupa aiddir. Dərsin tipi tədrisin keyfiyyətinə və şagirdlərin inkişafına təsir edir.

Müasir şəraitdə müəllimlər dərslərin yeni formalarını işləyib-hazırlamağa, şablon çərçivədən çıxmağa çalışırlar. Bu dərslərə qoyulan tələblər aşağıdakılardır:

1. Yarışma və oyun formasında olan dərslər: müsabiqə, turnir, estafet, ŞHK, işgüzar oyun, rol üzrə qurulmuş oyun, krossvord, viktorina.
2. İctimai təcrübədə yayılmış və iş formalarına, janrlarına və metodlarına əsaslanan dərslər: tədqiqat, ilkin mənbələrin təhlili, şərh, müsahibə, reportaj, resenziya.
3. Açıq ünsiyyət formasını xatırladan dərslər: mətbuat konfransı, hərrac (auksion), benefis, mitinq, nizamlanmış müzakirə, panorama, televeriliş, telekörpü, dialoq, şifahi jurnal.
4. Fantaziya-dərslər: nağıl-dərs, sürpriz-dərs.
5. Müəssisə və təşkilatların işini təqlid edən dərslər: məhkəmə, istintaq, tribunal, elmi şura və s.

Hər bir dərsin öz quruluşu var. Dərsin quruluş elementləri olduqca çevikdir: biliklərin yoxlanılması (sorğu) yeni dərsin izahatından əvvəl, izahat zamanı aparıla bilər və ya bəzi dərslərdə, ümumiyyətlə, aparılmaya bilər. Effektiv dərs onun məzmununun və metodikasının yalnız qarşılıqlı asılılığına, qarşılıqlı təsirinə və qarşılıqlı inteqrasiyasına əsaslana bilər. Faktiki materialın öyrədilməsi üsulları: a) obrazlı təhkiyə, yəni əsas tarixi faktların qrafik əyani vasitələrlə təqdim olunması; b) şagirdlərin tarixi hadisə iştirakçılarının rollarını aldığı rollu oyun və ya müasirlərinin rollarını oynadıqları və oyun prosesində bir-birilərinə opponentlik etdikləri işgüzar oyun.

### *Tarix və ictimai fənn dərslərində şagirdlərin bilik keyfiyyətinin yüksəldilməsi üsulları*

Metodik üsullar tədris üsulları toplusundan, yəni müəllim fəaliyyəti üsullarından və onlara uyğun olan şagird fəaliyyəti üsullarından ibarətdir. Üsul dedikdə biz əşyalarla, eləcə də şifahi və yazılı-qrafik hərəkətləri nəzərdə tuturuq.

### *Nəzəri materialın öyrədilməsi üsulları*

**Hazır anlayışlar, mülahizələr, qərarlar, qiymətləndirmələr və nəticələr şəklində mənimsənilməli olan informasiyanın izahatı.** İzahat tarixi faktların və hadisələrin daxili əlaqələrini, asılılıqlarını, mənasını, mahiyyətini və əhəmiyyətini inandırıcı göstərməyə kömək edir.

Bəzi **anlayışların** əhəmiyyətli xüsusiyyətlərini, səbəb-nəticə əlaqələrini üzə çıxarmaq üçün **mülahizə üsulundan** istifadə olunur. Bu üsul şagirdlərin aktiv idrak fəaliyyətinə cəlb edilməsinə imkan yaradır. Mülahizələrə başlamadan şagirdlərin diqqətini materialın əsas mənasına cəlb etmək üçün qarşılarına sual qoymaq lazımdır. Hər suala müəllim bir neçə alternativ variant verir, faktları və rəyləri tutuşdurur. Sualların ardıcıl qoyuluşu və məntiqi zəncirvari sualların cavablandırılması nəticəsində şagirdlər tədris materialının nəzəri məzmununu asanlıqla qavraya bilirlər.

Müəllim məntiqi sxem, yaddaş dəftərçəsi, rəsmlər, test cədvəlləri, məna planları, diaqramlar kimi tədris vasitələrindən istifadə etdikdə bu üsullar daha da əlçatan olur. İzahat zamanı şagirdlər iş dəftərlərində qeydlər aparır. Onlar yeni materialı yalnız qavrayıb yadda saxlamalıdırlar.

### *Xronologiyanın öyrədilməsi üsulları*

Başlıca faktlarla əlaqəli olan əsas tarixlər, məsələn: Babək üsyanı (816–838); Gülüstan sülhünün (1813) və Türkmənçay müqaviləsinin (1828) imzalanması.

Xronoloji baxımdan dəqiq tarixi olan faktlar onları məntiqi cəhətdən bağlamağa kömək edir. Məsələn: əsas hadisələrin təqvimi bu hadisələrin öyrədilməsini asanlaşdırır. Məsələn: 1804, 1813, 1828 – Rusiya işğalına aid dövrün əsas hadisələri. Sinxron cədvəllər ümumi və Vətən tarixi hadisələrinin əlaqəli öyrədilməsinə kömək edir.

### *Sənədlə iş aparma üsulları*

**Təsvir** xarakterli sənədlər (salnamə, xronika, memuar, məktub, səyahət qeydləri) müəllim izahatına əlavələr edir və təhlil olunmur.

**Rəsmi xarakterli** sənədlər (fərman, qanun, göstəriş, ərizə, müqavilə, statistika və istintaq sənədləri, proqramlar və nitqlər) müəllim izahatına əlavələr edir və təhlil olunmalıdır.

**Bədii söz nümunələri:** şifahi xalq ədəbiyyatı (əfsanələr, təmsillər, nəğmələr, atalar sözü və s.) müəllim nitqini dolğun və təsirli edir, keçmişin parlaq obrazlarını və təsvirlərini yaradır, zamanın əhvali-ruhiyyəsini hiss etdirir.

Əgər müəllim hadisələrin mahiyyətini çatdırmaq, sözünün emosionallığını artırmaq istəyirsə, bu qrup sənədləri öz nitqinə daxil edə bilər. Daxil etdiyi parça kiçik, sadə və anlaşılan olmalıdır, şagirdlər tərəfindən asan qavranılmalıdır. Anlaşılmayan terminlər izah olunmalıdır.

### *Bədii ədəbiyyatdan istifadə üsulları*

Təsvir olunan hadisələrin iştirakçısı və ya şahidi olan müəlliflərin əsərləri ədəbi mənbə ola bilər. Bu mənbələr keçmişi dərk etməyə kömək edir, lakin onların öncədən seçilmiş fraqmentlərindən istifadə etmək məsləhət görülür. Məsələn, H.Əliyev. "Müstəqilliyimiz əbədidir", Orucov N. "İrəvan, Naxçıvan və Zəngəzur soyqırımı", Paşayev A. "Köçürülmə".

Tədris olunan dövr haqqında qədim bədii əsərlər, məsələn, "Kitabi-Dədə Qorqud" dastanı.

Bədii əsərlər dövrün məişətini, ictimai münasibətlərini təsvir edir. Bədii əsərin qısaldılmış variantda söylənilməsi və detalların üzə çıxarılması tapşırığı şagirdləri onu tam oxuyub başa çatdırmağa sövq edir. Bu da öyrədilən materialın möhkəmləndirilməsinə gətirib çıxarır.

Ümumiyyətlə, bədii əsərdən sitatların verilməsi şagirdlərin şüurunda keçmişin parlaq obrazlarını formalaşdırır.

### *Tarix xəritələrindən istifadə üsulları*

Xəritələrlə işləyərkən nəzərə almaq lazımdır ki, şagirdlər üçün ümumi və tematik xəritələri müqayisə etmək çətin olur. Buna görə də mövzunun öyrənilməsindən əvvəl şagirdlərə iki xəritə göstərmək lazımdır: bu və ya digər obyektin (məsələn, dövlətin) öncə ümumi xəritədə (dünya xəritəsində), sonra isə tematik xəritədə yerini müəyyənləşdirmək lazımdır.

### *Dayaq siqnalları üzrə öyrətmə üsulları*

Şagirdlərin bilik və bacarıqlarının yoxlanılması üsulları: planların, cədvəllərin tərtib edilməsi, inşalar, yoxlama yazı işləri (çox zaman test şəklində).

Şifahi: mövzu üzrə söhbət, dərsin lövhə qarşısında söylənilməsi, şifahi test, zəncirvarı cavablar. Termin və anlayışların təkrarı və möhkəmləndirilməsi "Dəniz döyüşü" oyunu formasında keçirilir: sinif üç qrupa bölünür, parta sıralarının sayı qədər. Şagirdlər öz gəmilərinin adlarını deyir, kapitanlarını seçir. Kapitanın əmri ilə dəniz döyüşü başlayır (gəminin ekipajı düşmənə atəş açır, yəni sual verir). Əgər rəqib cavab verə bilməsə, atəş dəqiq hesab olunur. Suala səhv cavab verən şagird oyundan kənar edilir. Ekipajının daha çox üzvü qalan komanda qalib gəlir. Bu oyun şagirdlərin böyük rəğbətini qazanmışdır və 5–8-ci sinif şagirdlərinin arasında daha geniş yayılmışdır.

## HƏSƏN PADŞAHIN QANUNLARI

## *(QANUNNAMƏ)*

*Həsən padşah uzaqgörən dövlət xadimi idi. O yaxşı başa düşürdü ki, uğurlu hərbi qələbələr nəticəsində yaradılmış Ağqoyunlu imperatorluğu ərazicə geniş olsa da, daxilən möhkəm deyil. Hər hansı xarici təhlükəni dəf etmək üçün ilk növbədə, güclü mərkəzləşdirilmiş dövlət yaratmaq lazımdır. Bu məqsədlə Uzun Həsən islahatlar keçirdi. Ölkənin iqtisadi həyatını dirçəltmək, ölkə daxilində nizam-intizamı möhkəmlətmək üçün xüsusi "Qanunnamə" hazırlatdı.*

*"Qanunnamə" ölkə iqtisadiyyatının canlanmasını təmin etməli idi. Bu sənədə əsasən kəndlilərdən alınacaq vergilərin miqdarı dəqiqləşdirildi. Qanunların tətbiqi nəticəsində vergiyığan məmurların özbaşınalığına son qoyuldu, yığılan vergilərin birbaşa xəzinəyə daxil olması təmin olundu. Salnaməçi Xandəmir yazırdı ki, vergi islahatı nəticəsində əkinçilərin vəziyyəti xeyli yaxşılaşdı. "Həsən padşahın günbəgün artmaqda olan ədalətindən Arran, Azərbaycan, Fars, Kirman, Əcəm və Ərəb İraqları abadlaşmağa başladı".*

*Həsən padşahış "Qanunnaməsi" yalnız vergi sisteminin deyil, dövlətin bütün daxili işlərinin qaydaya salınması üçün vacib sənəd idi. Hərbi-köçmə tayfaların, əyan və feodalların mərkəzi hakimiyyətə tabe etdirilməsində "Qanunnamə"nin böyük rolu var idi. Bu sənədin əhəmiyyəti o qədər böyük idi ki, bütün XVI əsr boyu qüvvədə qalmışdı. "Qanunnamə" sonralar "Həsən padşahın qanunları" adı ilə məşhurlaşdı. O dövrün başqa salnaməçiləri də öz yazılarında Həsən padşahın ədalətini qeyd edirdilər.*

*Həsən padşah dövlətin mənafeyini hər şeydən üstün tuturdu. Bu yolda o, ən yaxın adamlarına belə güzəşt etmirdi. Böyük oğlu Uğurlu Məhəmmədin xəyanətini ona bağışlamamış, edam etdirmişdi.*

*Həsən padşah dünya hərb sənətində baş verən yenilikləri diqqətlə izləyirdi. O, nizami ordu yaradır, onu odlu silahlarla təmin edir, topçuluğun inkşafına xüsusi diqqət yetirirdi. Bu məqsədlə Venesiyadan mütəxəssislər də dəvət etmişdi.*

*Həsən padşahın dini siyasəti də dövlətin möhkəmlənməsinə yönəldilmişdi. Ölkənin ərazisində yaşayan qeyri-müsəlman əhali dini mənsubiyyətinə görə təqib olunmurdu. Uzaqgörən hökmdar ölkədə məzhəb ayrılığının baş verəcəyini və bunun dövlətin qüdrətinə, ölkənin etnik-siyasi birliyinə mənfi təsir göstərəcəyini irəlicədən görürdü. Ona görə də bacısı Xədicəbəyimi Səfəvi Şeyx Cüneydə, qızı Ələmşahbəyimi isə onun oğlu Şeyx Heydərə verməklə məzhəb ayrılığının qarşısını almağa çalışırdı. Bu izdivaclarda o, həm də siyasi məqsəd güdürdü: kifayət qədər nüfuza və tərəfdarlara malik Səfəviləri öz tərəfinə çəkmək və onların hərbi gücündən istifadə etmək istəyirdi.*

*Görkəmli dövlət xadimi elmin, maarifin inkşafına xüsusi diqqət yetirirdi. O, dövrünün ən qabaqcıl alimlərini öz sarayına toplamışdı. Hökmdarın şəxsi kitabxa-*

*nasında 60-a qədər alim çalışırdı. Həsən padşah Quranı Azərbaycan dilinə tərcümə etdirmiş, o dövrün görkəmli tarixçi-salnaməçisi Əbu Bəkr əl-Tihraniyə Oğuz türklərinin tarixindən bəhs edən "Kitabi-Diyarbəkriyyə" adlı kitab yazdırmışdı.*

*Azərbaycan dövlətçilik tarixində xüsusi yer tutan Həsən padşah 1478-ci ildə vəfat etdi və Təbrizdə dəfn olundu. Təəssüf ki, onun varisləri qüdrətli Ağqoyunlu dövlətini qoruyub saxlaya bilmədilər.*

## I PYOTRUN VƏSİYYƏTLƏRİ

*(1725-ci ildə yazılmış, 1735-ci ildə elan edilmişdir)*

"Bütün övladlarım bir-birindən sonra Avropa ölkələrinə hökmran olacaqlar. Çünki Avropanın dövlət quruluşu tam köhnəlmiş və qocalmışdır. Lakin rus səltənəti inkişaf edir. Biz bu inkişafı şüurlu şəkildə qurmuşuq. Mən aşağıdakı tövsiyələrimi vəsiyyət kimi yazıram ki, gələcək nəsillərimizin əlində təminat olsun.

1. Rus dövləti həmişə müharibə müvazinəti hazırlamalı və çalışmalıdır ki, bu hazırlıq Rusiyanın tərəqqisinə səbəb olsun.

...8. Rusiya dövlətini o zaman dünya dövləti adlandırmaq olar ki, onun paytaxtı Asiya və Avropa xəzinələrinin açarı olan İstanbul olsun. Vaxtı fövtə vermədən çalışıb İstanbula, Qərb torpaqlarına sahib olmaq lazımdır. Əlbəttə, İstanbula sahib olan çar dünyanın da sahibi olacaqdır. Bu məqsədi həyata keçirmək üçün həmişə Osmanlı imperiyası və Səfəvilər arasında fitnə-fəsad, dava-dalaş salmaq lazımdır. Bu işdə sünni-şiə ixtilafları yaxşı bir vasitədir. Osmanlılarla Səfəvilər arasında müvazinətləri elə pozmaq lazımdır ki, onlar bir-biri ilə dil tapa bilməsinlər. Nə Səfəvilərə, nə də osmanlılara Avropa xalqları ilə təmas tapmağa imkan vermək olar. Əgər bu ölkələrin müsəlmanları göz açıb hüquqlarını qansalar, bu bizə böyük zərbə olar. Həm Osmanlı, həm də Səfəvi xanlarını ələ almaq, onların vasitəsilə sünni-şiə ixtilaflarını qızışdırmaq lazımdır...

9. Rusiya dövlətinin hüdudları Baltik dənizinə, cənubda isə isti dənizlərə qədər olmalıdır. Bunu həyata keçirmək və sərhədləri daha da genişləndirmək övladlarımızın vəzifəsidir".

### *M Ə X F İ   Q A L S I N*

Cürbəcür tədbirlər görülməlidir ki, İran pulsuz, ticarətsiz qalsın. Xülasə, İranı tənəzzülə sövq etmək, asılı vəziyyətdə saxlamaq lazımdır ki, Rusiya istədiyi vaxt onu zəhmətsiz məhv etməyə nail olsun. Amma Osmanlı dövləti məhv olmadan İranı sıradan çıxarmağımız məsləhət deyil.

Maddi ehtiyaclar ölkəsi olan osmanlıların işini bitirdikdən sonra İranı çətinlik çəkmədən məhv etmək və başını kəsmək mümkündür. Ona görə də siz vaxtı fövt etmə-

dən Qafqazı zəbt və işğal edib, İranın daxili hakimlərini xadim və müti edəsiniz. Ondan sonra Hindistana qəsd etməli. O məmləkət çox böyük və geniş ticarət yeridir. Oranı ələ keçirmiş olsanız, İngiltərə vasitəsilə hasil olunan pul və gəlir əvvəlkindən çox Hindistandan Rusiyaya ixrac olunar. Hindistanın açarı Osmanlı imperiyasının paytaxtıdır. Nə qədər bacarırsınız Xivə, Buxara səhraları tərəfdən irəliləyin ki, məqsədiniz sizə yaxınlaşsın. Vaxt itirməyin, eyni zamanda tələsməklə əcələ yetməkdən də imtina edin.

Osmanlı imperiyasını Avropadan ayırmalı. Bir şərtlə ki, Avstriya bu yoldaşlıqda (bizimlə yoldaşlıqda) fayda hasil edə bilməsin. Bu işdə iki yol var: biri – Avstriyanın başqa bir tərəfdə başını qatmaq; biri də – Avstriyaya Osmanlı torpaqlarından elə bir parça vermək ki, sonradan onun geri alınması asan olsun.

10. Yunanlarla sülh və dostluqla rəftar etməli. Müharibə zamanı onlar sizə kömək edərlər. Çünki yunanlar osmanlılardan həmişə zərər görüblər.

## KÜRƏKÇAY MÜQAVİLƏSİ

*Birinci maddə*

Mən, Şuşalı və Qarabağlı İbrahim xan öz adımdan, varislərim və vəliəhdlərim adından İran və ya hər hansı bir dövlətin hər cür vassallığından və ya hər hansı ad altında olsa da, hər cür asılılığından təntənəli surətdə həmişəlik imtina edirəm və bildirirəm ki, mən özüm və varislərim üzərində Bütün Rusiyanın və onun yüksək varislərinin və vəliəhdlərinin ali hakimiyyətindən başqa heç bir dövlətin hakimiyyətini tanımıram, həmin taxt-taca sədaqət vəd edirəm.

*...Dördüncü maddə*

Mən, Şuşalı və Qarabağlı İbrahim xan, mənim və varislərimin Bütün Rusiya imperiyasına sadiq təbəəliyimiz və həmin imperiyanın işıqlı ali və yeganə hakimiyyətini qəbul etməyimiz haqda mənim mövqeyimin təmizliyini göstərmək üçün Gürcüstan Baş hakimi (rus qoşunlarının baş komandanı) ilə qabaqcadan qarşılıqlı razılıq olmadan qonşu hakimlərlə əlaqə saxlamağa, onlardan elçilər gələrsə və ya məktub göndərilərsə, onlardan məzmunca tutarlı olanları Baş hakimə göndərməyə və ondan icazə istəməyə, dəyəri az olanlar haqda isə məlumat verməyə və Gürcüstan Baş hakimi tərəfindən mənim yanıma təyin edilmiş şəxsə məlumat verməyə və onunla məsləhətləşməyə söz verirəm.

*Beşinci maddə*

İ.Ə.-i Şuşalı və Qarabağlı İbrahim xanın ölkəsi üzərində özünün ali və yeganə hakimiyyətinin tanınmasını razılıqla qəbul edərək, özünün və varislərinin adından söz verir: 1) Həmin ölkənin xalqlarını böyük Rusiya imperiyasının sakinlərindən az da olsa ayırmayaraq öz təbəələri sayacaqdır; 2) İbrahim xan zati-alilərinin və onun ocağından olan varislərin və arxasının Qarabağ xanlığı üzərində hakimiyyəti

dəyi-şilməz saxlanılacaqdır; 3) Daxili idarəetmə ilə bağlı hakimiyyət işləri, məhkəmə və divanxana işləri, bununla yanaşı, ölkədən yığılan gəlir zati-alilərin (xanın) səlahiyyətində qalacaqdır; 4) Zati-alilərinin və onun sülaləsinin, eləcə də onun ölkəsinin qorunması üçün Şuşa qalasına 500 nəfərlik Rusiya qoşunu qərargah və baş zabitləri ilə (habelə) toplarla birlikdə yeridiləcək, ciddi müdafiə üçün isə Gürcüstan Baş hakimi şərait və ehtiyaca görə bu dəstəni gücləndirəcək və zati-alilərinin ölkəsini Bütün Rusiya imperiyasına məxsus olan bir ölkə kimi hərbi qüvvə ilə müdafiə edəcəkdir.

*Altıncı maddə*

Mən, Şuşalı və Qarabağlı İbrahim xan, mənim sadiq təbəəlik istəyimin əlaməti olaraq söz verirəm: 1) İstər indi, istərsə də sonralar yuxarıda adıçəkilən qoşuna lazım olan buğda və darı yarmasını (Gürcüstan) Baş hakiminin müəyyən etdiyi qiymətlə tədarük edəcəyəm, çünki onların Yelizavetpoldan gətirilməsi ya çox çətindir, ya da tamamilə qeyri-mümkündür; 2) Qoşunların Şuşa qalasında yerləşməsi üçün qoşun rəisinin bəyəndiyi evləri ayıracaq və lazımi qədər odunla təmin edəcəyəm; 3) Şuşa qalasına Yelizavetpol tərəfdən yoxuşu sahmana salacaq və yolu arabaların gedişi üçün yararlı edəcəyəm; 4) Hökumət Şuşa qalasından Cavada gedən yolu qaydaya salmaq istəsə, onda bu iş üçün lazım olan işçilər hökumətin müəyyən etdiyi məzənnə ilə mənə verilməlidir.

*Yeddinci maddə*

İ.Ə.-nin zati-aliləri Şuşalı və Qarabağlı İbrahim xana və onun varislərinə böyük ehtiram və mərhəmət əlaməti olaraq onu və varislərini üzərində Bütün Rusiya imperiyasının gerbi olan bayraqla təltif edir, bayraq onun yanında saxlanmalı və bu ölkə üzərində əlahəzrət tərəfindən bəxş edilmiş xanlıq və hakimiyyət rəmzi kimi müharibəyə gedəndə özü ilə aparılmalıdır.

*Səkkizinci maddə*

Mən, Şuşalı və Qarabağlı İbrahim xan, İ.Ə.-nin yüksək razılığı ilə özümün gəlirimdən həmişəki kimi istifadə etməyə icazəm olduğundan İ.Ə.-nin Tiflisdə yerləşən xəzinəsinə ildə 8000 çervon bac verməyi öhdəmə alıram, bac iki müddətə, yəni bir hissəsi fevralın 1-də, o biri hissəsi isə sentyabrın 1-də, özü də bu traktatın İ.Ə. tərəfindən təsdiqi zamanı birinci hissənin, yəni 4000 çervonun ödənişi ilə başlanır. Bundan başqa, Asiya qayda-qanunu ilə and içməklə yanaşı, mən böyük oğlum Məmmədhəsən Ağanın ikinci oğlu Şükürallahı həmişəlik Tiflisdə yaşamaq üçün girov verməliyəm.

*Doqquzuncu maddə*

İ.Ə. özünün xüsusi mərhəməti ilə, Tiflisdə sədaqət bildirmək üçün saxlanılmalı olan zati-aliləri (xanın) nəvəsinin dolanışığı üçün Rusiya pul vahidi ilə gündə 10 gümüş manat iltifatla bəxş edir.

## GÜLÜSTAN MÜQAVİLƏSİ

İmperator əlahəzrətləri, bütün Rusiyanın ən şöhrətli və əzəmətli böyük hökmdarı və imperatoru və İran dövlətinin sahibi, hökmdarı əlahəzrətləri padşahın öz təbəələrinə yüksək hökmdar məhəbbətinə görə, onların ürəklərinə zidd olan müharibənin fəlakətlərinə son qoymağı və qədimdən bütün Rusiya imperiyası və İran dövləti arasında mövcud olmuş səbatlı sülh və xeyirxah qonşu dostluğunu möhkəm əsas üzərində bərpa etməyi səmimi-qəlbdən, qarşılıqlı surətdə arzulayaraq bu ədaləti və nicatverici iş üçün aşağıdakıları öz səlahiyyətli müvəkkilləri təyin etməyi faydalı bilmişlər:

Əlahəzrət bütün Rusiya imperatoru – öz general-leytenantı, Gürcüstandakı və Qafqaz xəttindəki qoşunların Baş komandanı, Həştərxan və Qafqaz quberniyalarında, Gürcüstanda mülki hissə, həmçinin bu ölkənin bütün sərhəd işləri üzrə Baş müdiri, Xəzər Hərbi Donanmasının Komandanı, "Müqəddəs Aleksandr Nevski", "Birinci Müqəddəs Anna", "Dördüncü dərəcəli Müqəddəs Əzabkeş" və "Qalibiyyətli Georgi" ordenləri, habelə üzərində igidliyə görə yazısı olan qızıl qılıncla təltif edilmiş zati-aliləri Nikolay Rtişşevi, əlahəzrət İran şahı isə – özünün, Türkiyə və İngiltərə Saraylarında fövqəladə elçisi olmuş, İran rəisləri arasında seçilmiş, öz padşahından brilyantlarla bəzədilmiş xəncər və qılıncdan, şal paltardan və brilyantlarla zinnətləndirilmiş at bəzəkləri dəstindən ibarət fərqləndirici lütf görmüş, öz padşahının ən yaxın məmuru, Ali İran Sarayının Gizli İşlər Müşaviri, Vəzir nəslinə mənsub olan, İran sarayında ikinci dərəcəli xan, yüksəkrütbəli və çoxhörmətli Mirzə Həsən xanı: bu səbəbdən də biz, yuxarıda adları çəkilmiş səlahiyyətli müvəkkillər Qarabağ mülkündə, Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndində toplaşaraq, vəkalətnamələrimizi bir-birimizə təqdim etdikdən sonra, hər birimizə öz tərəfindən bizim böyük hökmdarlarımız adından bərqərar edəcəyimiz sülh və dostluğa aid olan hər bir şeyi nəzərdən keçirib, bizə verilmiş hakimiyyət və ali səlahiyyətlərə görə aşağıdakı maddələri qərara aldıq və əbədiyyət üçün təsdiq etdik.

*Birinci maddə*

İndiyədək Rusiya imperiyası və İran dövləti arasında mövcud olmuş düşmənçilik və narazılığa həmin müqavilə ilə bu gündən etibarən və gələcəkdə son qoyulur və qoy imperator əlahəzrətləri bütün Rusiya hökmdarı ilə əlahəzrət İran şahı, onların vəliəhdləri, taxtlarının varisləri və onların, qarşılıqlı surətdə, Ali Dövlətləri arasında əbədi sülh, dostluq və xeyirxah razılıq olsun.

*İkinci maddə*

Bir halda ki, hər iki Ali Dövlət arasında ilkin əlaqələr vasitəsilə (...........) yəni hər bir tərəfin hazırda tam malik olduğu torpaqlara, xanlıqlara, mülklərə sahib qalması əsasında sülhün bərqərar edilməsi artıq qarşılıqlı surətdə razılaşdırılmışdır, onda indiki zamandan etibarən və gələcəkdə bütün Rusiya imperiyası və İran dövləti arasında sər-

həd aşağıdakı xətt olsun: Adınabazar adlanan yerdən başlayaraq düz xətlə Muğan düzü, Araz çayındakı Yeddibulaq keçidinədək, oradan da üzü yuxarı Kəpənək çayının Arazla qovuşduğu yerə, sonra da Kəpənək çayının sağ tərəfi ilə Mehri dağları silsiləsinə və oradan da xətti Qarabağ və Naxçıvan xanlıqlarının mərzləri ilə davam etdirərək, Alagöz dağları silsiləsi ilə Qarabağ, Naxçıvan, İrəvan xanlıqlarının və Yelizavetpol dairəsinin (keçmiş Gəncə xanlığının) bir hissəsinin mərzləri birləşən Dərələyəz mərzinədək, buradan İrəvan xanlığını Yelizavetpol dairəsindən, həmçinin Qazax və Şəmşəddil torpaqlarından ayıran mərzlə Eşşəkmeydan mərzinə, oradan da dağlar silsiləsi ilə, çayın sağ tərəfi ilə, onun axarı istiqamətində, Həmzəçimən yolu ilə, Pəmbək dağları silsiləsi ilə Şuragöl mərzi ilə, dağlar silsiləsi ilə, Mastaras və Artikin arası ilə Arpaçayadək. Bununla belə, Talış mülkü müharibə vaxtı əldən-ələ keçdiyinə görə, həmin xanlığın Zinzeley və Ərdəbil tərəfdən olan sərhədləri, daha artıq dürüstlük üçün, hər iki tərəfdən qarşılıqlı razılıqla seçilmiş komissarlar (onlar Baş komandanlarının rəhbərliyi ilə indiyədək hər bir tərəfin həqiqi hakimiyyəti altında olmuş torpaqların, kəndlərin, dərələrin, həmçinin çayların, dağların, göllərin, təbii mərzlərin dəqiq və təfsilatlı təsvirini verəcəklər) tərəfindən, bu müqavilə bağlanıb təsdiq olunduqdan sonra müəyyən ediləcək, onda (…… .) əsasında Talış xanlığının sərhəd xətti elə müəyyənləşdiriləcək ki, hər bir tərəf malik olduğu torpaqların sahibi qalsın. Eləcə də yuxarıda xatırlanmış sərhədlərdə, bu və ya başqa tərəfin xəttindən kənara nə isə çıxarsa, hər iki Ali Dövlətin komissarlarının təhlilindən sonra hər bir tərəf ( ……..) əsasında təminat verəcək.

*Üçüncü maddə*

Şah əlahəzrətləri əlahəzrət bütün Rusiya imperatoruna səmimi dostluq hislərinin sübutu üçün təntənəli surətdə həm öz adından, həm də İran taxtının ali vəliəhdləri adından Qarabağ və indi Yelizavetpol adı altında əyalətə çevrilmiş Gəncə xanlıqları, həmçinin Şəki, Şirvan, Dərbənd, Quba, Bakı və Talış (bu xanlığın Rusiya imperiyasının hakimiyyəti altında olan torpaqları) xanlıqlarının, bununla bərabər, Dağıstan, Gürcüstan (Şuragölə əyaləti ilə birlikdə) İmperiya, Quriya, Minqreliya və Abxaziya, eyni dərəcədə, hazırda bərqərar edilmiş sərhəd Qafqaz xətti (bu sonuncuya və Xəzər dənizinə aid olan torpaqlar və xalqlarla birlikdə) arasındakı bütün mülk və torpaqların Rusiya imperiyasının mülkiyyətinə mənsub olduğunu qəbul edir.

*Dördüncü maddə*

Əlahəzrət bütün Rusiya imperatoru əlahəzrət İran şahına öz qarşılıqlı dostluq hislərini ifadə etmək və İranda – ona qonşu olan bu dövlətdə, möhkəm əsas üzərində mütləqiyyət və hökmran hakimiyyət görmək arzusunu səmimi-qəlbdən təsdiq etmək üçün, bununla, öz adından və öz vəliəhdləri adından İran şahı tərəfindən İran dövlətinin varisi təyin ediləcək vəliəhdə, lazım gəldikdə, kömək göstərməyi vəd edir ki, heç bir xarici düşmən İran dövlətinin işinə qarışa bilməsin və Ali Rusiya Sarayının köməyi ilə İran Sarayı möhkəmlənsin. Bununla belə, əgər İran dövləti

işləri üzrə şah oğulları arasında münaqişələr baş verərsə, Rusiya imperiyası hakimiyyətdə olan şah xahiş etməyincə bunlara qarışmayacaq.

*Beşinci maddə*

Rus ticarət gəmilərinə əvvəlki qayda üzrə Xəzər sahilləri yaxınlığında üzmək və onları yan almaq hüququ verilir; həm də gəmi qəzası zamanı iranlılar tərəfindən dostluq köməyi edilməlidir. İran ticarət gəmilərinə də həmin bu hüquq – əvvəlki qayda üzrə Xəzər dənizində üzmək və Rusiya sahillərinə yan almaq ixtiyarı verilir, burada da gəmi qəzası zamanı, qarşılıqlı surətdə, iranlılara hər cür yardım göstərilməlidir. Hərbi gəmilərə gəldikdə isə müharibədən əvvəl, habelə sülh vaxtı və həmişə Rusiya hərbi bayrağı Xəzər dənizində tək mövcud olmuşdur. Həmin ehtiram daxilində, əvvəlki ixtiyar indi də yalnız Rusiya Dövlətinə verilir ki, ondan başqa heç bir dövlətin hərbi bayrağı Xəzər dənizində ola bilməz.

*Altıncı maddə*

Hər iki tərəfdən döyüşdə əsir alınmışları, xristian dininə və s. dinlərə mənsub ələ keçirilmiş sakinləri müqavilə bağlanıb imzalandıqdan sonra, üç ay ərzində, hər bir tərəfdən Qarakilsəyədək (burada sərhəd rəisləri əsirləri qəbul etmək üçün öz aralarında qarşılıqlı əlaqə yaradırlar) azuqə və yol xərcləri ilə təmin edilərək, buraxılsınlar. Özbaşına, yaxud qanunu pozaraq, qaçanlardan hər birinə, milliyyətindən asılı olmayaraq, öz könüllü istəyinə görə öz vətəninə qayıtmaq azadlığı verilir, qayıtmaq istəməyənlər isə məcbur edilməsin. Bununla bərabər, hər iki tərəfdən qaçmışlara amnistiya, yaxud bağışlanma verilir.

*Yeddinci maddə*

Bütün yuxarıda deyilənlərə əlavə olaraq əlahəzrət bütün Rusiya imperatoru və əlahəzrət İran şahı buyururlar ki, lazım olduqda, əlahəzrətlərin iqamətgahlarına göndərilən, onların Ali saraylarının qarşılıqlı nazirlər və ya elçiləri rütbələrinə və onlara tapşırılmış işlərin mühümlüyünə müvafiq qəbul olunsunlar; şəhərlərdə ticarətə himayəçilik üçün təyin olunmuş müvəkkillərin və ya konsulların on nəfərdən artıq məiyyəti olmasın, onlar vəkil edilmiş məmurlar kimi vəzifələrinə layiq hörmət və şərəfə malik olmalıdırlar, həmçinin əmrnaməyə əsasən bundan sonra onları nəinki incitmək olmaz, hətta inciklik olarsa, təqdim edildikdən sonra, hər iki tərəfin təbəələrini ədalətlə mühakimə etmək, incidilmişləri mürbətlə razı salmaq gərəkdir.

*Səkkizinci maddə*

Əlahəzrətlərin, öz hökumətlərindən, yaxud hökumətləri tərəfindən təyin edilmiş sərhəd rəislərindən alınmış, onların həqiqətən tacirlər, Rusiya və ya İran təbəələri olduğunu təsdiq edən yazılı sənədlərə malik təbəələri arasındakı ticarət əlaqələrinə gəldikdə, saziş bağlayan hər iki Ali Dövlətə quru yolla və dənizlə sərbəst gəlməyə, orada kim nə qədər istəyirsə yaşamağa, tacirlər göndərməyə, həm-

çinin heç cür ləngidilmədən oradan çıxıb getməyə, Rusiya imperiyasına mənsub olan yerlərdən İran dövlətinə gətirilən və qarşılıqlı olaraq, İrandan ora aparılan malların satılmasına və başqa mallarla dəyişdirilməsinə icazə veriləcək. Hər iki Ali Dövlətin tacirləri arasında baş verə biləcək mübahisələrə, onların vəzifələri və s. ilə əlaqədar şikayətlərinə adi qayda üzrə baxılması konsula, yaxud müvəkkilə, onlar olmadıqda isə yerli rəisə həvalə edilir. Onlar xahişlərə tam ədalətlə baxmalı, özləri haqq təminatı verməli, yaxud bunu başqa lazımi şəxslərin vasitəsilə tələb etməli və onların incidilməsinə və sıxışdırılmasına qətiyyən yol verməməlidirlər.

İrana gəlmiş, Rusiya təbəəliyindən olan tacirlər, istəsələr oradan öz malları ilə birlikdə İranla dostluq edən başqa dövlətlərə də sərbəst gedəcəklər; bundan ötrü İran Hökuməti bu tacirlərin sərbəst keçməsi üçün onları lazımi pasportlarla təmin edəcəkdir; buna ticarət işləri ilə əlaqədar Rusiyadan Rusiya ilə dostluq edən başqa dövlətlərə getmək istəyən İran tacirləri üçün də qarşılıqlı surətdə riayət ediləcəkdir.

İrana gəlmiş Rusiya təbəələrindən kimlərinsə ölüm hadisəsi baş verərsə, onların müxəlləfatları, həmçinin başqa daşla və mülkləri, dost dövlətin təbəələrinə məxsus olduğu üçün, ilk növbədə, saxlanılmadan və xəlvəti mənimsənilmədən, Rusiya imperiyasında və bütün mədəni dövlətlərdə icra edildiyi kimi, kimin hansı dövlətə mənsubiyyətindən asılı olmayaraq, qanuni əsasdan, qəbzlə, onların yoldaşlarına yaxud qohumlarına verilməli, həmin qohumlara öz arzuları ilə və öz xeyirləri üçün bu əmlakları istədikləri adamlara satmağa icazə verilməlidir.

*Doqquzuncu maddə*

Rus tacirlərindən İran şəhərlərinə və ya limanlarına gətirdikləri mallara görə yüzə beş faizdən çox gömrük alınmasın və həmin tacirlər bu mallar ilə hara gedirlərsə getsinlər, onlardan ikinci dəfə gömrük tələb olunmasın, oradan apardıqları İran mallarına görə də eyni gömrük alınsın, bundan başqa heç bir bəhanə və uydurma ilə heç bir rüsum, vergi, gömrük tələb edilməsin. İran təbəələrinin Rusiya şəhərlərinə və limanlarına gətirdikləri və buradan ixrac etdikləri mallara görə və qarşılıqlı surətdə eyni gömrüklər, eyni əsasda bir dəfə alınsın.

*Onuncu maddə*

Malları müqavilə bağlamış hər iki dövlətin sahillərinə və ya limanlarına, yaxud da quru yolla sərhəd şəhərlərinə gətirdikdən sonra, qarşılıqlı surətdə, tacirlərə, nəzarəti altında olduqları gömrük hakimlərindən və ya iltizamçılardan icazə almadan öz mallarını satmaq, başqa malları satın, yaxud dəyişmə yolları ilə almaq azadlığı verilir ki, ticarət maneəsiz dövriyyədə olsun, həmçinin satıcıdan və alıcıdan dövlət xəzinəsi üçün müntəzəm olaraq və könüllülük şərti ilə qanuni rüsumlar yığılsın.

*On birinci maddə*

Bu müqavilə imzalandıqdan sonra hər iki Ali Dövlətin müvəkkilləri qarşılıqlı surətdə və təxirə salınmadan bütün yerlərə onun haqqında lazımi xəbər və hər yerdə hərbi əməliyyatların dərhal dayandırılması barəsində əmrlər göndərsinlər.

İki bərabərhüquqlu nüsxədə (fars dilinə tərcüməsi ilə birlikdə) yazılmış və saziş bağlayan Ali tərəflərin yuxarıda göstərilmiş müvəkkilləri tərəfindən imzalanaraq, onların möhürləri ilə təsdiq edilmiş və qarşılıqlı surətdə dəyişdirilmiş bu əbədi sülh müqaviləsi əlahəzrət bütün Rusiya imperatoru və əlahəzrət İran şahı tərəfindən bərqərar ediləcək və əlahəzrətlərin öz əlləri ilə imzalanmış təntənəli ratifikasiyalarla təsdiq olunacaqdır.

Bu müqavilənin həmin təsdiq olunmuş nüsxələri bu ali saraylardan, qarşılıqlı surətdə göndərilməklə onların yuxarıda adları çəkilmiş Müvəkkillərinə üç ay müddətindən sonra çadırılacaq.

Müqavilə min səkkiz yüz on üçüncü il oktyabr ayının on ikinci günü. İran hesablaması ilə min ikiyüz iyirmi səkkizinci il Şəvval ayının iyirmi doqquzuncu günü Qarabağ mülkündə Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndində Rus ordugahında bağlanmışdır.

İMZALAMIŞLAR:
Müvəkkil və Gürcüstanda Baş Komandan Nikolay Rtişşev
(M:Y:)

Ali şöhrətli İran Dövlətindən Müvəkkil Mirzə Əbül Həsən Xan
(M:Y:)

## TÜRKMƏNÇAY SÜLH MÜQAVİLƏSİ

*Birinci maddə*
Bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri arasında, onların vərəsələri və taxt-tacın varisləri, onların dövlətləri və qarşılıqlı surətdə təbəələri arasında bundan sonra əbədi sülh, dostluq və tam razılıq olacaqdır.

*İkinci maddə*
Bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri hörmətlə qəbul edirlər ki, razılığa gələn yüksək tərəflər arasında baş vermiş və indi xoşbəxtlikdən qurtarmış müharibə ilə Gülüstan traktatının qüvvəsi üzrə qarşılıqlı təəhhüdlər də başa çatmışdır; onlar göstərilən Gülüstan traktatını Rusiya və İran arasında yaxın və uzaq gələcəyə sülh və dostluq münasibətləri qurmalı və təsdiq etməli olan indiki şərtlər və qərarlarla əvəz etməyi zəruri hesab etdilər.

*Üçüncü maddə*
İran şahı həzrətləri öz adından və öz vərəsələri və varisləri adından Arazın o tayı və bu tayı üzrə İrəvan xanlığını və Naxçıvan xanlığını Rusiya imperiyasının tam mülkiyyətinə güzəştə gedir.

*...Beşinci maddə*

İran şahı həzrətləri bütün Rusiya imperatoru həzrətlərinə öz səmimi dostluğuna sübut olaraq, bu maddə ilə həm öz adından, həm də öz vərəsələri və İran taxttacının varisləri adından, yuxarıda göstərilən sərhəd xətti arasında və Qafqaz sıra dağları və Xəzər dənizi arasında yerləşən bütün torpaqların və bütün adaların, bununla bərabər, həmin məmləkətlərdə yaşayan bütün köçəri və başqa xalqların əbədi zamanadək Rusiya imperiyasına məxsus olduğunu təntənə ilə tanıyır.

*Altıncı maddə*

İran şahı həzrətləri hər iki dövlət arasında yaranmış müharibə ilə Rusiya imperiyasına vurulmuş xeyli ziyana, həmçinin Rusiya təbəələrinin düçar olduğu qurbanlara və itkiyə hörmət əlaməti olaraq, onların əvəzini pul təzminatı ilə ödəməyi öhdəsinə götürür.

*...Səkkizinci maddə*

Rusiya tacir gəmiləri əvvəlki qayda üzrə Xəzər dənizində və onun sahilləri boyunca azad üzmək və bununla bərabər, onlara yaxınlaşmaq hüququna malikdir; gəmi qəzası hallarında İranda onlara hər cür kömək edilməlidir. Bu üsulla İran ticarət gəmilərinə də Xəzər dənizində əvvəlki qayda ilə üzmək və Rusiya sahillərinə yan almaq hüququ verilir ki, orada gəmi qəzası hallarında onlara qarşılıqlı surətdə hər cür vəsaitlə kömək göstərilməlidir. Hərbi gəmilərə gəldikdə isə, qədimdə olduğu kimi, yalnız Rusiya hərbi bayrağı altında olan hərbi gəmilər Xəzər dənizində üzə bilər; bu səbəbdən də əvvəlki müstəsna hüquq indi də onlara verilir və təsdiq edilir ki, Rusiyadan başqa heç bir dövlətin Xəzər dənizində hərbi gəmiləri ola bilməz.

*...On beşinci maddə*

Şah həzrətləri öz dövlətinə sakitliyi qaytarmaq və öz təbəələrindən hazırkı müqavilə ilə bu qədər xoşbəxtliklə başa çatmış müharibədə törədilmiş bədbəxtlikləri daha da artıra bilən hər şeyi kənar etmək kimi xeyirli, xilasedici niyyətlə hərəkət edərək, Azərbaycan adlanan vilayətin bütün əhalisinə və məmurlarına büsbütün və tam bağışlanma əta edir. Hansı dərəcəyə məxsus olmasından asılı olmayaraq, onlardan heç kəs öz hərəkətinə və ya müharibə ərzində və ya rus ordusunun adı çəkilən vilayəti müvəqqəti tutduğu zaman davranışına görə təqibə, dini əqidəsinə görə təhqirə məruz qalmamalıdır. Bundan başqa, o məmur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına və əşyalarına hər hansı gömrük və vergi qoyulmadan tərpənən mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir. Tərpənməz mülkə gəldikdə isə, onun satılması və ya onun haqqında öz xoşuna sərəncam üçün beşillik müddət müəyyən edilir. Lakin bu bağışlanma qeyd olunan illik müddət başa çatanadək məhkəmə cəzası düşən günah və ya cinayət işləmiş adamlara şamil edilmir.

# Xəritələr

AZƏRBAYCAN ŞİRVANŞAHLAR DÖVLƏTİ




Səhifə 197-dən 205-dək olan xəritələr Azərbaycan tarixi atlasından götürülmüşdür (Bakı, Kartoqrafiya fabriki, 2007).

AZƏRBAYCAN QARAQOYUNLU DÖVLƏTİ (1410–1468-ci illər)



AZƏRBAYCAN AĞQOYUNLU DÖVLƏTİ (1468–1501-ci illər)



# AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİ
## (ŞAH I İSMAYILIN DÖVRÜ (1501–1524-cü illər)




1499-1504-cü illərdə Şah I İsmayılın mərkəzləşdirilmiş Azərbaycan dövləti yaratmaq uğrunda mübarizəsi

1507-1508-ci illərdə Şah I İsmayılın Ərəb İraqına yürüşləri

1510-cu ildə Şah I İsmayılın Xorasana yürüşü

1514-cü ildə Sultan Səlimin Azərbaycana yürüşü

Səfəvilərin Çaldıran döyüşündən sonra itirilmiş əraziləri

Portuqaliyanın işğal etdiyi ərazi

# AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİ
# (ŞAH I ABBAS VƏ XƏLƏFLƏRİ DÖVRÜ 1587–1736-cı illər)



## AZƏRBAYCAN SƏFƏVİ İMPERİYASININ SÜQUTUNDAN SONRA (AZƏRBAYCAN HÖKMDARI NADİR ŞAH ƏFŞARIN İMPERİYASI 1736–1747-ci illər)



## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ
(1918–1920-ci illər)





Mübahisəli ərazilər

AZƏRBAYCAN SSR
(1920–1922-ci illər)




Gürcüstan SSR və Ermənistan SSR-yə verilmiş Azərbaycan torpaqları

MÜASİR AZƏRBAYCAN RESPUBLİKASI



# İstifadə olunmuş ədəbiyyat

1. **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. I–XIII kitablar. Bakı: 1997–2004.
2. **Heydər Əliyev.** Müstəqillik yolu. Bakı: 1997.
3. Heydər Əliyev və Şərq. Altı cilddə. İkinci kitab. Bakı: 2002.
4. Azərbaycan 1993. Anarxiyadan sabitliyə. Bakı: 2002.
5. Qayıdış. 1990–1993 (Məsləhətçi və buraxılışa məsul V.Talıbov). Bakı: 1996.
6. Qurtuluş. 1990–1993. Bakı: 1998.
7. **Nərimanov N.** Məqalələr, nitqlər. I cild. Bakı: 1971.
8. Azərbaycan tarixi. Yeddi cilddə. I–VII cildlər (Məsul redaktor İ.H.Əliyev). Bakı: 1998–2003.
9. Azerbaycan belgelerinde ermeni sorunu (1918–20). Ankara: 2001.
10. Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar. 1918–1920-ci illər. Bakı: 1998.
11. Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti 1918–1920. Bakı: 1990.
12. Azərbaycanda dövlətçilik və onun rəmzləri. Tərtib edəni və mətnin müəllifi **Nailə Vəlixanlı.** Bakı: 2000.
13. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: 1989.
14. **Bakıxanov A.** Gülüstani-İrəm. Bakı: 1951.
15. **Bünyadov T.** Azərbaycan arxeologiyası oçerkləri. Bakı: 1960.
16. **Bünyadov Z.** Azərbaycan VII–IX əsrlərdə. Bakı: 1989.
17. **Bünyadov Z.** Azərbaycan Atabəylər dövləti. Bakı: 1985.
18. Dünya Azərbaycanlılarının I qurultayı (9–10 noyabr 2001-ci il). Bakı: 2002.
19. **Əfəndiyev O.** Azərbaycan Səfəvilər dövləti. Bakı: 1993.
20. **Əliyev K., Əliyeva F.** Azərbaycan antik dövrdə. Bakı: 1997.
21. **Fazilli A.** Atropatena e.ə. IV – eramızın VII əsri. Bakı: 1992.
22. **İbrahimov C.M.** Azərbaycanın XV əsr tarixinə dair oçerklər. Bakı: 1958.
23. **İsgəndərov A.** 1918-ci il Mart qırğınının tarixşünaslığı. Bakı: 1999.
24. Qarabağnamələr. I cild. Bakı: 1989.
25. Qarabağnamələr. II cild. Bakı: 1992.
26. **Qafarov T.** Azərbaycan Respublikası 1991–2001. Bakı: 2001.
27. **Qaşqay S.** Manna dövləti. Bakı: 1992.
28. **Qeybullayev Q.** Qarabağ: etnik və siyasi tarixinə dair. Bakı: 1990.
29. **Mahmudov Y.M.** Odlar yurduna səyahət. Bakı: 1980.
30. **Mahmudov Y.M.** Səyyahlar, kəşflər, Azərbaycan. Bakı: 1985.
31. **Mahmudlu Yaqub (Mahmudov Y.M.).** Azərbaycan diplomatiyası. Bakı: 1996.
32. **Mahmudov Y.M.** Azərbaycan dövlətçiliyinin xilaskarı. Bakı: 1998.
33. **Mahmudov Y.M.** Azərbaycanın dövlətçilik tarixinə ümumi bir baxış: Ən qədim zamanlardan islam dininin qəbuluna qədərki dövrdə Azərbaycan dövlətçiliyi – Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. №1, 2001 (s. 57–65).
34. **Mahmudov Y.M.** Azərbaycanın dövlətçilik tarixinə ümumi bir baxış: Azərbaycan Xalq Cümhuriyyəti – Şərqdə ilk parlamentli respublika (1918-ci il may – 1920-ci il

aprel). Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. №3, 2001 (s. 108–121).
35. **Mahmudov Y.M.** Azərbaycanın dövlətçilik tarixinə ümumi bir baxış: Heydər Əliyev Yeni Azərbaycanın qurucusudur. Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. №2, 2002 (s.78–93).
36. **Mahmudov Y.M.** Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: 2002.
37. **Məmmədov R.A.** Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: 1977.
38. **Musayev İ.** Böyük dövlətlər və "erməni məsələsi" (XIX əsr). Bakı: 2002.
39. Müstəqil dövlətimiz və Parlamentimiz. Azərbaycan Respublikası Milli Məclisinin nəşri. Bakı: 2001.
40. **Nağıyev Ə.** Heydər Əliyev və Azərbaycan istiqlaliyyəti. Bakı: 1998.
41. **Nəsibzadə N.** Azərbaycan Demokratik Respublikası. Bakı: 1990.
42. **Nəsibzadə N.** Bütöv Azərbaycan. Bakı: 1997.
43. **Orucov N.** İrəvan, Naxçıvan və Zəngəzur soyqırımı. Bakı: 1994.
44. **Osmanov F.L.** Qafqaz Albaniyasının maddi mədəniyyəti. Bakı: 1984.
45. **Paşayev A.** Köçürülmə. Bakı: 1995.
46. **Rəsulzadə M.Ə.** Azərbaycan Cümhuriyyəti. Bakı: 1990.
47. **Şüküroğlu L.** Cümhuriyyət hökuməti repressiya məngənəsində. Bakı: 2000.
48. Tariximizin faciəli səhifələri: SOYQIRIMI. Bakı: 2000.
49. **Vəlixanlı N.M.** Ərəb xilafəti və Azərbaycan. Bakı: 1993.

BURAXILIŞ MƏLUMATI

**AZƏRBAYCAN TARİXİ 5**

*Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün*
*Azərbaycan tarixi fənni üzrə dərsliyin (qrif nömrəsi: 2020 – 021)*
**METODİK VƏSAİTİ**

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər: | **Ofeliya Nəsib qızı Musayeva** |
| | **Leyla Əhliman qızı Hüseynova** |
| | **Hafiz Əkbər oğlu Cabbarov** |

| | |
|---|---|
| Redaktor | **Gülər Mehdiyeva** |
| Bədii və texniki redaktor | **Abdulla Ələkbərov** |
| Dizayner | **Səbinə Məmmədova** |
| Üz qabığı | **Təhmasib Mehdiyev** |
| Səhifələyici | **Məhanət Bayramova** |
| Korrektor | **Mətanət Kərimova** |

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və
yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 10,9. Fiziki çap vərəqi 13,0.
Formatı 70x100 $^{1}/_{16}$. Kəsimdən sonra ölçüsü: 165x240.
Səhifə sayı 208. Şriftin adı və ölçüsü:
məktəb qarnituru 10-11pt. Ofset kağızı. Ofset çapı.
Sifariş ____. Tiraj 8518. Pulsuz. Bakı—2020.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix:______**

Nəşriyyat:
**"Təhsil Nəşriyyat-Poliqrafiya" MMC**
(Bakı, AZ 1052, F.Xoyski küç., 121a (149))

Çap məhsulunu istehsal edən:
**"Radius" MMC mətbəəsi**
(Bakı, Binəqədi şosesi, 53)

**PULSUZ**

